ƏLİ ƏKBƏR

# ARTUŞ VƏ ZAUR

**(böyüklər üçün konfliktologiya dərsliyi)**

**Qanda bir xaç əhli varsa, qamusun seyr eylədim,**
**Bulmadım mən sən təki bir cani-canan, erməni.**

*İmadəddin Nəsimi*

**Kitabın qələmə alınması və işıq üzü görməsi üçün məni öz varlıqları ilə ilhamlandıran Azərbaycan, Ermənistan və Gürcüstan kütlələrinə dərin minnətdarlıq hissi ilə.**

***Müəllif***

# GÖRÜŞ

***Dərdmənd etdin məni, ey dərdə dərman erməni,***
***Olmuşam eşqin yolunda bəndəfərman erməni.***

## 1

Tiflis onu qızıl payızla, xəfif küləklə qarşıladı. Bakı-Tiflis qatarının dördüncü vaqonundan çirkli beton platformaya ayaq basan Zaur, gödəkcəsinin yaxalarını qaldıraraq, yüngülcə titrədi. Çantasını çiynindən asaraq, aşağı mərtəbəyə aparan geniş pilləkənlərə doğru addımladı. Hər dəfə bu şəhərə gələndə, qəribə ədviyyatlı kolbasa qoxusu dəyirdi burnuna. Bu gün də həmin qoxu, yağışlı havanın rayihəsi ilə qarışmışdı. Acar xaçapurisinə oxşayan günəşin zəif şüalarında buxarlanıb-buxarlanmamağa qərar verə bilməyən platformadakı kiçik gölməçələrdə siqaret kötükləri üzürdü. Kötüklər, dənizdə səmtini itirmiş ağ yelkənli gəmiləri xatırladırdı. Perronun damında sırayla düzülmüş qarğalar, həyasızcasına qışqırır, sanki qatardan düşənlərə gürcü dilinin qarğa dialektində "Xoş gəldin!" - deyirdilər. Zaurun yanından sürətlə üç ayaqlı it qaçıb getdi. Görünür arxa sağ ayağı qatar altında qalmışdı.

Perronda dayanan qaraqabaq taksi sürücülərinin çoxu azərbaycanlılar idi. Onlar gürcü, rus, azərbaycan həm də nə üçünsə erməni dilində qatardan düşənlərə çox ucuz və keyfiyyətli taksi səyahəti vəd edirdilər. Konfrans təşkilatçıları onun dalınca maşın göndərməmişdilər. Əslində Zaurun buna ehtiyacı da yox idi. Çantası ağır olmadığına və qatarda yatıb yuxusunu aldığına görə, bir az piyada gəzmək, yarım ildir görmədiyi Tiflisə doyunca tamaşa etmək, şəhərlə mənəvi təmas qurmaq istəyirdi.

Pilləkənlərə təzəcə addımını atmışdı ki, qaraçılar qabağını kəsərək azərbaycan dilində ondan pul istədilər. Zaur əsəbi halda on beş yaşlı qaraçı qızı əli ilə itələyərək deyindi:

- Bakıdan sizin əlinizdən qaçmışam, burada da qabağımı kəsirsiniz. Sizin əlinizdən hara rədd olum gedim?!

Zaur bu sözləri deyib becid-becid pilləkənləri düşməyə başladı. Həmən anda arxadan qaraçı qızın istehzalı və qəzəbli səsi eşidildi:

- Rədd ol get Bayıla!

Zaur ayaq saxladı. Dönüb qıza baxdı. Sözlərinin, xəsis gəncə nə qədər təsir etdiyini görən qız, bərkdən gülür, Zaura acıq verirdi. Özünə oxşayan altı qaraçı qız da ona qoşulub gülüşür, Zaura dil göstərirdilər.

Zaur onları nifrətlə süzdükdən sonra başını bulayaraq, pilləkənlərdən enməyə davam etdi. Qaraçı qızın sözlərində qorxunc, vahiməli nəsə vardı. Bu sözlər nə mənaya gəlirdi görəsən?! Bayıla getmək ona təklifmi olunurdu, yoxsa gedəcəyinə dair xəbərdarlıqmı aldı qızdan? Bəlkə də, qaraçı ona qarğış etmişdi... Başa düşmədi Zaur. Başa düşə də bilməzdi. Qaraçı qızın sözləri, nirvanaya çatmış buddist rahiblərin koanlarından fərqsiz idi. Bu cümlənin üstündə günlərcə gərək baş sındırsın, onun mənasını dərk etsin. Bu sözlər, Zaura ünvanlanan hikmətli tapmacaydı. Zaur birmənalı olaraq qaraçı qızın uzaqgörən və müdrik bir varlıq olduğuna qərar verdi. Son pilləni də düşəndən sonra, bir daha geriyə boylandı. Qaraçı dəstəsi gözə dəymirdi artıq. Qanı qaraldı.

Küçəyə çıxıb, ətrafa göz gəzdirdi. Qızıl payız bütün görkəmi və əzəməti ilə, bu qədim şəhəri ağuşuna almış, göy üzü elə bil yerə yapışmışdı. Artıq piyada getməyə də həvəsi qalmamışdı. Sağa-sola baxdı. 10 metr aralıda, sarı rəngli köhnə 011 Jiqulidə qoca, fağır bir kişi oturub qəzet oxuyurdu. Zaur maşının yarıaçıq pəncərəsinə yaxınlaşıb dedi:

- Salam dayı. Meriyanın yanına neçəyə apararsan?

Kişi canlanaraq qəzeti sürət ötürücünün yanına atdı. Elə bil Zaurun onun maşınına oturacağından əmin imiş kimi, arxayın səslə:

- 4 lariyə, - dedi.
- Mən hələ pul xırdalamalıyam...
- Bax oğlum, qabaqda soldakı yaşıl pəncərəni görürsən?
- Bəli.
- Pulunu orda xırdalaya bilərsən.

Zaur başı ilə yaşlı adama "sağ ol"-deyib, yaşıl pəncərəyə tərəf tələsdi. İllərdir dollara meydan oxuyan və iki prezident dəyişdirən gürcü larisi, ikiyə bir mövqeyini israrla qoruyurdu. Zaur dar və yöndəmsiz köşkün içində, çətinliklə nimdaş kresloya sığışan bığlı və kök gürcü qadınına 100 dollar uzadaraq, "Zəhmət olmasa hamısını xırdalayın"- dedi. Qadın yoğun barmaqları ilə əskinası gün işığına tutdu, sonra baş barmağına tüpürərək lariləri saydı. Yavaş sayırdı. Zaur əsəbiləşirdi. Nəhayət pulu aldı və saymadan cibinə soxdu, maşına tərəf qaçdı. Arxa qapını açaraq çantasını oturacağa atdı və qabaqda əyləşib:

- Gedək - dedi.

Qoca sürücü, gürcü dilində deyinə-deyinə maşını işə salmağa çalışsa da, sürücünün özü kimi qoca maşınının mühərriki şıltaqlıq edir, sahibinin əmrini yerinə yetirməyə tələsmirdi. Qoca iki-üç cəhddən sonra, gözlənilmədən "Allah, Məhəmməd, ya Əli"-deyib, açarı bir daha burdu və mühərrik xarakterik uğultu çıxararaq, işə düşdü. Zaurun gözləri kəlləsinə çıxdı. Jiquli yerindən tərpəndi, şəhər mərkəzinə doğru götürüldü. Zaur dözə bilmədi:

- Dayı, bu duanı haradan bilirsiniz?
- Hansı duanı oğlum?
- "Allah, Məhəmməd, ya Əli"ni deyirəm.

Qoca, siqaret dumanından saralmış dişlərini göstərərək güldü.

- Həə oğlum, görünür sən Bakıdansan.
- Bəli Bakıdanam.
- Bu duanı mənə bir azərbaycanlı öyrədib. "Maşınla yola çıxmazdan əvvəl bu sözləri desən, mütləq işlərin avand olar"-demişdi. İllər keçsə də mən bu öyüdü unutmuram. Hər dəfə çətinə düşəndə, imdadıma çatır. Əvvəllər Kvemo-Kartliyə tez-tez gedib gələrdim. Siz o bölgəyə Borçalı deyirsiniz. Tiflisin Şeytan bazarında azərbaycanlı meyvə satanlar həftədə bir neçə dəfə mənim bu veteran maşınımda evlərinə gedirdilər.

Qoca sürücü bu sözləri deyib, ovucunun içi ilə bir neçə dəfə sükana vurdu.

- İndi isə nə məndə güc qalıb uzaq yola çıxmağa, nə də ki, maşınımda. Hər ikimiz qocalmışıq.

Zaur səki boyu ağır-ağır addımlayan tənbəl gürcülərə baxırdı.

- Başa düşürəm...
- Bəs sən oğlum? Tiflisə gəzməyə gəlmisən, yoxsa?..
- Konfransda iştirak etməyə.
- Nə konfransıdır o elə? Bakı-Tiflis-Ceyhana aiddir?

Zaur gülümsündü.

- Xeyr. Cənubi Qafqaz münaqişələri ilə bağlı tədbirdir.

Qoca başını bulayaraq "nırç-nırç" elədi. Gözucu Zaura baxıb dedi:

- Allah bu siyasətçilərin bəlasını versin. Köpək uşaqları, avara eləyiblər camaatı. Bizim müharibə ilə, münaqişə ilə nə işimiz ola bilər axı? Bütün respublikalar qarışıb bir-birinə. Sovet dövrünü bəyənmirik, amma o dövrdə belə şeylər olmurdu. Xalqların dostluğu, qardaşlığı var idi. İndi də ki... bax belə...

Kişi bunları deyərək, əlini qeyri müəyyən istiqamətdə irəliyə uzatdı. Zaur diqqətlə əlin uzandığı tərəfə - McDonalds-a, inzibati binaların qarşısında dalğalanan Avropa Birliyi bayraqlarına, yolboyu düzülmüş bahalı butiklərə baxdı. Ola bilsin kişi əlini elə-belə uzatmışdı, konkret heç nəyi və heç kimi nəzərdə tutmurdu. Ya da ola bilsin Qərbləşməyə, Amerikalılaşmağa etiraz edirdi. Zaur bunu dəqiqləşdirmək istəmədi. Sadəcə soruşdu:

- Bəs xalqlarda heç bir günah yoxdur dayı? Təqsir ancaq siyasətçilərdədir?

Belə bir suala hazır olmayan kişi, diqqətlə Zaura baxdı. İndiyə qədər bu cavan oğlan kimisinə rast gəlməmişdi. Cənubi Qafqaz münaqişələri haqda söhbət elədiyi hər kəs, hər zaman onunla razılaşır, bütün tanış-tunuşları da bir ağızdan siyasətçiləri söyürdülər. Birinci dəfə idi ki, siyasətçiləri yox, xalqları ittiham edən bir adam, həm də azərbaycanlı, görürdü.

- Sözlərində həqiqət var oğlum. Amma məsələnin başqa tərəfi də var. Məsələn, azərbaycanlıların Qarabağ müharibəsində nə günahı ola bilər? Əminəm "Bizim heç bir günahımız yox idi, günahkar ermənilərdi"-deyəcəksən. Əslində düz deyirsən, günah ermənilərdədir. Amma ermənidən soruşsaq kimdir müqəssir, o da əksini deyəcək. Bəlkə elə deyil?

Zaur kişiylə razılaşmadı:

- Deməzdim biz məsumuq, - çiyinlərini çəkdi. Günahsız, qüsursuz insan, dolaylı olaraq da cəmiyyət olmaz axı. Qarabağ müharibəsinin bu həddə gəlib çatmasına, ola bilsin bizim də yol verdiyimiz müəyyən səhvlər səbəb olub. Amma birinci başlayanlar əlbəttə ermənilər oldu. Əvvəl Ermənistana birləşmək istədilər, sonra müstəqillik tələb elədilər. Nəticəsi də ki, göz qabağındadır. Nə adam kimi birləşə bildilər, nə də müstəqil dövlət qurdular. Qalıblar ortalıqda. Olan qaçqınlara, evlərini, yaxınlarını itirənlərə oldu.

Zaur qulaqlarına inana bilmirdi. Bu sözləri deyən o idimi? Bir taksi sürücüsü ilə uzun-uzadı söhbət etmək onun adəti deyildi. İndi o, bəsit cümlələrlə danışmağa çalışır, profanizmə yuvarlanırdı. Şofer tayfası, alverçilər, fahişələr, polislər nifrət etdiyi sosial qruplar və peşə sahibləri idi. Məcbur qalmadıqca onlarla ünsiyyət qurmaz, bir kəlməsinə belə xəsislik edərdi. İndi isə iyrəndiyi, yuxarıdan aşağı baxdığı bir taksi sürücüsü ilə Qarabağ münaqişəsi barədə ciddi-ciddi danışırdı.

Kişi başı ilə onlardan üç yüz metr aralıdakı Meriya binasını göstərərək, təəssüflə dedi:

- Çatırıq. Maraqlı həmsöhbətsən oğlum. Sənə bir söz deyim... – Kişi elə bil tərəddüd keçirərək, sürət ötürücüsünü üçə atdı. Zaura ötəri nəzər salıb davam elədi. - Mən hər kəsdən yaxşı bilirəm, ermənilərin nə qədər idbar millət olduğunu. Onlar qaraçı kimi bir xalqdır. Gürcülərin bir alimi var, Çavçavadze. Onun ermənilər barədə yazdığı kitabı mütləq oxumalısan. Erməni xislətini, acgözlüyünü çox gözəl açır. Onlar indi də Cavaxetiyaya iddia edirlər. Haradakı bir əsrə yaxın yaşayırlar, oranı mənimsəmək istəyirlər. Bəzən də buna nail olurlar.

Zaur gülümsündü. "Ermənilərin yanında azərbaycanlıları, azərbaycanlıların yanında isə erməniləri söyərək, özlərini yaxşı göstərmək gürcülərin köhnə adətidir"-demək istədi kişiyə. Amma qoca sürücünün növbəti sözləri, Zauru niyyətindən daşındırdı.

- Mən yezidi kürdəm. Yerevanda doğulub boya-başa çatmışam. Elə Qarabağ münaqişəsi başlayandan təxminən üç il sonra Tiflisə köçmüşəm. Deməzdim bura cənnətdir, amma hər halda Ermənistandan min dəfə yaxşıdır. - Kişi bu sözləri deyərək meriyanın qabağında saxladı. - Qarabağ münaqişəsində sizin axı nə günahınız ola bilərdi? Hər şeyi bu alçaqlar elədi! İndi də Gürcüstan torpağına iddia edirlər. Erməniyə əlini versən, qolunu qopardar oğlum. Razıyam səninlə, xalqların da günahı var. Abxazların, osetinlərin, gürcülərin, ermənilərin, elə sizin də. Amma az-çox məsələsi var da. Hamı eyni dərəcədə günahkardır demək olmaz axı.

Zaur bir yandan qapını açır, bir yandan isə deyirdi:

- Dayı, sizi elə bizim konfransa dəvət eləmək lazım idi. Əsl konfliktoloq kimi fikir yürüdürsünüz.

Pulu ödəyib maşından düşdü. Arxa qapını açıb çantasını götürdü. Qabaq qapının açıq şüşəsindən kişiyə "xudahafiz" deyib, üzünü Meriya binasına çevirdi.

Meriyanın qarşısındakı kiçik bağda, səliqə ilə düzülmüş bürünc rəngli skamyalar, zibil qutuları, fəvvarə və palma ağacları göz oxşayırdı. Bu nəfis kompozisiyanı isə sadəcə bir detal korlayırdı – bir cüt süni, işıqlı ağac. Bakıda hər yerə düzülən bu zövqsüz, eybəcər ağacların Tiflisə də girməsi və bu gözəl şəhərin çöhrəsini dəyişdirməsi, Zauru təəssüfləndirdi.

Bir neçə dəqiqə meriya binasına, Azadlıq meydanına tamaşa etdikdən sonra, küçə ilə üzü aşağı addımladı. Hər dəfə Tiflisə gələndə, bütün görüşlərini meriya binasının qarşısında təyin edərdi. Bu gün də Qafqaz Evində işləyən və Zauru qalacağı otelə götürməli olan dostu Şota Karbediyaya zəng vurmalı və meriyanın qabağına dəvət etməli idi. Amma zəng etməyə tələsmirdi. Səhər saat on bir idi və yəqin ki, şair Şota axşamdan bolluca çaxır içmişdi, indi də məsum körpə tək uyuyurdu. Zərrə qədər yorğunluq hiss etməyən Zaur, bircə duş almaq istəyirdi. Vannada, ılıq suda uzanacağı anları xəyal edib, həzzdən titrədi. Vüsal daha şirin olsun deyə, bu zövqü bir az da gecikdirmək arzusundaydı. İndi isə bir kafe tapıb qarnını doydurmaq, sonra da köhnə Tiflisdə bir az gəzişmək istəyirdi.

Meriyanın sağ tərəfindəki küçəyə girərək, rastına çıxan ilk kafenin qarşısında ayaq saxladı və nəhəng vitrinlərdən içəri baxdı. Bu yer, kafedən ziyadə, McDonalds tipli fast-food-a oxşayırdı. Qapını itələyib içəri keçdi və nəzərinə ilk çarpan detal, kassanın yanında üst-üstə yığılmış plastik məcməyilər oldu. Özünəxidmət kafelərindən zəhləsi gedirdi və burda da həmin sistem işləyirdi. Qayıtmaq, çıxıb getmək keçdi ağlından, amma kafenin ortasında sütun kimi dikilmiş iki ofisiant qızın və kassa arxasında dayanmış hündürboy oğlanın, boş kafenin bəlkə də ilk müştərisi olan Zaura diqqətlə gözlərini zilləmələri, onu qərarsız edirdi. Nəhayət ürəyində "lənət şeytana" - deyib, pəncərənin yanında özünə bir masa seçdi; çantasını, noutbukunu və gödəkcəsini oturacağa qoyub kassaya yaxınlaşdı. İki hamburger, bir porsiya qızarmış kartof və kola sifariş verdi. Hesabı ödədi və qızlardan birinin məcməyinin içinə düzdüyü yeməkləri götürüb masasına qayıtdı.

Bu axşam, ekspromt danışmağa, müzakirələrdə aktiv iştirak etməyə hazır idi. Belə konfranslarda birinci dəfə iştirak etmirdi, təcrübəsi vardı. Həm də, çıxışının mövzusu çox sadə idi: "Münaqişələrin həllində QHT-lərin rolu". Mövzu sadə olmasına sadə idi, amma təşkilatçılar daxil, hər kəs bilirdi ki, münaqişələrin həllində QHT-lərin heç bir rolu yoxdur, ola bilməz, olmayıb, olmayacaq.

Hamburgerdən böyük bir dişləm alıb, çantadan noutbukunu çıxartdı. Kafedəki qızlardan biri ona yaxınlaşaraq rusca:

- Siz deyəsən Bakıdansınız? - soruşdu.

Zaur ortaboylu, qara qaş-qara göz qıza maraqla baxdı. Bayaq sifarişlərini məcməyiyə düzən qız idi. Saçlarını səliqə ilə arxada toplamışdı. Mini yubkası yüngülcə diz qapaqlarının üstünə düşürdü. Üzünün və vücudunun gözəlliyini kobud, fəhlə əlləri korlayırdı.

- Bəli Bakıdanam. Haradan bildiniz? – laqeydcə soruşdu və diqqətini monitora cəmlədi. Dialoq qurmaq, kiminləsə söhbət eləmək həvəsində deyildi.

- İntuisiyam güclüdür. Bilirsiniz, mənim xalam da uzun illər Bakıda yaşamışdı. Ora ərə getmişdi.

Qız bunları deyib, əlindəki əski ilə onsuz da təmiz olan masanı bir-iki əl sildi. Zaur gözlərini monitordan ayırıb, qızın həyəcanlı və mənasız hərəkətlərinə baxırdı. Qızın xalası ilə bağlı qiymətli məlumatdan sonra, nəsə demək, bunu necəsə cavablamaq zərurəti yaranmışdı.

- Nə gözəl. Bəs indi yaşamır?

Qız Zaurun düz gözlərinin içinə baxdı. Bu gözlərdə boşluq və kədər vardı.

- Ermənilər Bakıdan qovulanda, güc-bəla ilə canını qurtardı. Azərbaycanlı əri ilə Krasnodara, oradan da Kanadaya köçdülər.

Zaur hamburgeri dişləyib, sərin koladan bir qurtum aldı.

- Deməli siz ermənisiniz.

Bu sual yox, faktın təsdiqi idi.

- Bəli, Tiflis ermənisiyəm. Bəlkə də inanmayacaqsınız amma, Yerevanda cəmi iki dəfə olmuşam. Bu küçənin düz aşağısından köhnə Tiflis, Maydan başlayır. Orada hamamlar var. Erməni, gürcü və azərbaycanlıların məhəllələri var o hamamların çevrəsində. Atam gürcü və azərbaycan dilini səlis bilirdi. İllərlə sülh içində orada

yaşamışıq və yaşayırıq. Bu mənasız müharibəni başlayanlara lənət olsun. Mən həmişə uşaqlıqda Bakıya gəlmək istəmişəm. Amma bu arzum çin olmadı. Qismət deyilmiş...

Zaur kompüterdə ona lazım olan faylı açdı. Yenidən başını qaldırıb qıza baxdı. Susurdu. Qız ona mane olduğunu anlasa da, getməyə tələsmirdi. Zaurun ona qulaq asmaq, xatirələrini bölüşmək həvəsi yox idi. Bu cür söhbətlərdən zara gəlmişdi. Hamı müharibənin baiskarı kimi hansısa amorf siyasi dairələri və xadimləri ünvan göstərir, onları günahlandırır, lənətləyirdi. Klişeləşmiş bəhanələr onu yorurdu və bu gün ikinci dəfə idi ki, belə mənasız həmsöhbətlə qarşılaşırdı.

- Sizdən bir söz soruşmaq olar? – qız ürkəkcə dilləndi.

- Əlbəttə.

- Bu noutbuklar neçəyədir?

Zaur hamburgeri boşqabın içinə qoyaraq gözlərini qızın üzünə mıxladı:

- Düz deyirsiniz. Həmişə sülh, dostluq olub aramızda. İndi nə oldu, bu müharibə haradan çıxdı, mən də başa düşmürəm.

Cümləsini bitirib, üzünü təzədən monitora çevirdi. İştahla hamburgerini çeynəyir, gicgahlarını hərəkət etdirə-etdirə ötən həftə aldığı e-maili oxuyurdu.

Bakıdan baş götürüb qaçan Erməni xalanın bacısı qızı isə, söhbətin alınmadığını görərək, laqeydcə “nuş olsun”- dedi və uzaqlaşdı.

Zaur onun getdiyini heç görmədi. O, artıq ikinci hamburgerini yeyirdi.

## 2

Bakıda, Qafqaz Sülhməramlı Təşəbbüslər Mərkəzi (QSTM)-nin layihə koordinatoru işləyən Zaur Cəlilov, aşağıdakı e-maili dörd gün əvvəl, Noyabr ayının 8-i almışdı.

“Hörmətli dostlar, həmkarlar,

Bildiyiniz kimi, 12 Noyabr saat 18.00-da, Tiflis şəhəri Rustaveli prospekti 13 ünvanında yerləşən “Mariott” otelində, Almaniyanın Henrix Böll Fondunun təşkilatçılığı və Azərbaycan – Ermənistan - Gürcüstan QHT və KİV nümayəndələrinin iştirakı ilə - “Cənubi Qafqazda münaqişələr – həll perspektivləri” və ya “Münaqişələrin həllində QHT-lərin rolu” mövzusunda üç günlük konfrans keçiriləcək.

...

Tədbirdə Cənubi Qafqaz respublikalarından iştirak edəcək olan qonaqlar aşağıdakılardır:

Regional Əməkdaşlıq və Qloballaşma Mərkəzi (RƏQM) – Ermənistan

Qafqaz Sülhməramlı Təşəbbüslər Mərkəzi (QSTM) – Azərbaycan

Qafqaz Evi – Gürcüstan

“Müharibəyə yox” ictimai birliyi – Gürcüstan

“168 saat” qəzeti – Ermənistan

“Müasir Müsavat” qəzeti – Azərbaycan

“Möhtəşəm Azərbaycan” qəzeti - Azərbaycan

“Sakartvelo Respublika” qəzeti – Gürcüstan

“Aykakan Jamanak” qəzeti – Ermənistan

“Asaval-dasavali” qəzeti - Gürcüstan

“Alia” qəzeti - Gürcüstan

İştirakçılardan xahiş olunur, 12 Noyabr tarixində saat 18.00-a qədər artıq Tiflis şəhərində olsunlar və Leselidze küçəsi, 17 ünvanında yerləşən “ATA” otelində onlar üçün bronlaşdırılan nömrələrə yerləşsinlər.

Konfransın keçiriləcəyi Mariott Otelinə də gecikmədən, vaxtında gəlməyiniz xahiş olunur.

Hörmətlə,

Ernst Kopf

Henrix Böll Fondunun Cənubi Qafqaz üzrə direktoru.

QSTM dövlət qeydiyyatından keçməmişdi, amma ölkədən kənarda, xüsusilə də bir sıra Avropa ölkələrində yaxşı tanınır, maraqlı layihələri ilə beynəlxalq donorların diqqətini cəlb edirdi. Zaurun iki ildir sıralarında fəaliyyət göstərdiyi bu QHT-nin sədri Qarabağ müharibəsi veteranı, konfliktologiya üzrə Polşada bir il təhsil almış, Cənubi Qafqazda sülhməramlı fəaliyyəti ilə tanınan Akif Tağı idi. Təşkilat mütəmadi olaraq Fransa, İngiltərə, Almaniya və ABŞ fondlarından maliyyə dəstəyi alır, Ermənistan və Dağlıq Qarabağ istisna olmaqla, Cənubi Qafqazın hər yerində, hətta münaqişə zonaları olan Cənubi Osetiya və Abxaziya kimi separatçı rejimlərin hökm sürdüyü tanınmamış respublikalarda da layihələr həyata keçirir, hesabatlar hazırlayırdı. Zaur da bu layihələr çərçivəsində bir dəfə Cənubi Osetiyaya, bir dəfə də Abxaziyaya səfər etmiş, Azərbaycanın bir sıra rusdilli qəzetlərində silsilə yazılarla çıxış etmişdi. Təşkilatın Dağlıq Qarabağ və Ermənistana səfər etməmək barədə qatı mövqeyi yox idi. Hətta sədr Akif Tağının özü, iki dəfə Ermənistana səfər etmişdi. Lakin təşkilatın digər üzvləri və elə Zaurun özü də ictimai qınaqdan qorxmaqda, vətənə döndükdən sonra üzləşəcəkləri təzyiqlərdən və əks mövqedə dayanan QHT və KİV-lərin hücumundan ehtiyat etməkdə idilər.

Qafqaz Sülhməramlı Təşəbbüslər Mərkəzinin məramı Azərbaycanda hər kəsə məlum idi. Təşkilat Dağlıq Qarabağ münaqişəsinin hərb yolu ilə həllinin mümkünlüyünü inkar edir və «Dağlıq Qarabağ münaqişəsi hərb yolu ilə həll edilə bilməz» şüarını hər fürsətdə səsləndirirdi. Zaur da hərb yolu ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bəlkə də təmin oluna biləcəyini, lakin müharibədən sonra da Dağlıq Qarabağ münaqişəsinin davam edəcəyini düşünürdü.

Akif Tağı tez-tez deyərdi: «Dağlıq Qarabağ münaqişəsi mağara prinsipləri ilə həll oluna bilməz. Ona görə də biz «Dağlıq Qarabağ münaqişəsi» anlayışı ilə, «Azərbaycan Respublikası ərazisinin işğalı» anlayışlarını bir - birindən ayırmağı bacarmalıyıq. Dağlıq Qarabağ münaqişəsi sırf hərbi məsələ deyil, daha dərin bir problemdir. Bu səbəbdən bizlər, Dağlıq Qarabağ ermənilərinin - Azərbaycan Respublikası vətəndaşlarının - üstünə silahla getməyin mənasızlığını ictimaiyyətə çatdırmalıyıq. Bizim mövqeyimiz belədir ki, Dağlıq Qarabağ yox, Ermənistanı və onun arxasında duran mağara dövlətləri ittiham edilməlidir».

Zaur yeməyini bitirmişdi. Saat on iki idi və Şotaya zəng vurmaq olardı. Noutbukunu söndürüb çantasına qoydu, sonra da gödəkcəsini geyindi. Başı ilə kafedəkilərə “xudahafiz”- deyib qapıya yönəldi.

Küçəyə çıxan kimi, yolun o tayında internet klub gördü. Böyük vitrinin üstündə bütün yazılar gürcü dilində yazılmışdı, amma kompüter, mobil və stasionar telefon aparatlarının şəkilləri ilə bəzədilən şüşədən aydın olurdu ki, bura həm internet klub, həm də danışıq məntəqəsidir. Zaur yolu keçib klubun qapısını açdı. Akvariuma oxşayan şüşə budkada oturan qıza yaxınlaşıb zəng vurmaq istədiyini bildirdi.

- Mobil telefona zəng vurursunuz?

- Bəli.

- Nömrəni deyin zəhmət olmasa.

Zaur Şotanın vizit kartını çıxararaq qıza uzatdı:

- Buyurun.

Qız avtomat kimi sürətli barmaqları ilə nömrəni yığıb dəstəyi qulağına qoydu və iki-üç saniyə sonra gözləri ilə salonun axırına işarə edərək, "ikinci telefona keçin"-dedi. Zaur ona göstərilən aparata yaxınlaşıb dəstəyi qaldırdı və Şotanın yuxulu, kal səsini eşitdi.

- Alo.

- Şota bu mənəm, Zaur. Tiflisdəyəm.

- Oooo. Zaur, əzizim necəsən? – Şota bir az canlandı və bir neçə saniyə fikrə getdikdən sonra soruşdu, - nə gec zəng elədin? Neçə saatdır gəlmisən?

- Əşi bunun nə əhəmiyyəti var? Nə vaxt şəhərdə ola bilərsən?

- Yarım saata, 45 beş dəqiqəyə istədiyin yerə gələrəm. İndi hardasan?

- Meriyanın yanından köhnə şəhərə doğru üzü aşağı düşəcəm. Orda bir kafe tapıb səninlə qəhvə içmək istəyirəm. Sonra məni otelə aparарsan.

- Dayan görüm. Olmaya sən Leselidze küçəsindəsən? Soruş oradakılardan.

Zaur qıza dönüb soruşdu:

- Bağışlayın, bu küçə Leselidze adlanır?

- Bəli.

- Təşəkkür edirəm... Eşidirsən Şota? Sən deyən küçədəyəm.

- Sənin otelin ATA deyil?

- Elədir.

- Sən lap otelin yanındasan, xəbərin yoxdur. Bir tin aşağı düşüb sağa baxsan otelini görəcəksən. Get ora, çantalarını qoy, istəsən duş al. Sonra köhnə şəhərə düş. Orada "Məğrur Gürcü" kafesi var, kimdən soruşsan göstərəcək. Qəhvələri əla olur. Düz 45 dəqiqə sonra ordayam.

Zaur çiynindən sürüşən noutbuk çantasını düzəldərək:

– Yaxşı tez gəl, - dedi. - Yoxsa səhərdən iki nəfər mənə sülhün vacibliyindən danışıb, müharibəni lənətləyib. Beynim xarab olub.

Şota kobud səsi ilə gülüb dəstəyi qoydu.

Zaur bir lari 40 tetrilik hesabı qıza ödədi və küçəyə çıxaraq dərindən nəfəs aldı, Tiflis havasını ciyərlərinə doldurdu. Bu şəhərdə həmişə bir məhrəmlik, yaxınlıq duyğusuna qapılırdı. Əziz və doğma görünürdü ona Tiflis. Bunun səbəbini özü də anlamırdı. Bəlkə uzun müddət bu şəhərdə yaşasaydı, ya da gürcü sevgilisi olsaydı bu istiliyin, sevginin səbəbi də anlaşılardı. Amma bunların heç biri yox idi. Yoldan ötən qızlara baxıb gülümsündü: "Gürcü sevgili... Necə də absurd səslənir..."

Tələsmədən küçə ilə üzü aşağı düşməyə başladı. İlk sağ döngəyə girdi və Şotanın dediyi kimi, beş mərtəbəli binanın üstündə iri hərflərlə yazılmış "ATA" sözünü oxudu. Ağır dəmir qapını itələyib içəri keçdi. Pilləkənlərlə ikinci mərtəbəyə qalxaraq "Reception" yazısı olan qapını açdı. Cavan qız internetdə eşələnirdi. Zauru görüb, böyük ağzı ilə ona zəruri təbəssüm bağışladı.

- Eşidirəm sizi.

- Adım Zaur Cəlilovdur. Mən...

- Başa düşdüm. Konfransa gəlmisiniz?

- Elədir.

Qız masanın üstündəki kağızlara baxıb dedi:

- 304-cü nömrədə qalacaqsınız. Buyurun bu da açar.

Qız üstündən "304" rəqəmi yazılmış qara dəri parçası sallanan açarı Zaura uzadaraq:

- Zəhmət olmasa pasportunuzu verin.

Pasportu aldı, məlumatları tələm-tələsik kağıza köçürtdü və Zaura qaytardı. Təbəssümlə:

- Otağınıza qalxa bilərsiniz, - dedi.

- Təşəkkür edirəm. Bizim komandadan başqa kimsə gəlib?

Qız bir daha kağızlara baxdı.

- Bilirsiniz, Azərbaycandan iki qız gəlməli idi. Hələ gəlməyiblər.

- Hə, tanıyıram onları. Jurnalistlərdir.
Qız bu sözləri qulaq ardına vuraraq davam elədi:
- Amma Ermənistandan iki nəfər artıq gəlib. Otaqlarındadırlar. İndi də bir nəfəri gözləyirik.
- O da Ermənistandan?
- Bəli.
- Aydındır. Çox sağ olun.
Qız bir daha iri ağzını açaraq güldü:
- Siz də sağ olun.

Zaur geniş pilləkənlərlə üçüncü mərtəbəyə qalxdı. Koridorun sağında 304-cü nömrəni taparaq qapını açdı. Otaq, otelin zahiri görkəmi və pilləkən meydançaları ilə tam ziddiyyət təşkil edirdi. Zaur bir çox ölkələrdə səfərlərdə olmuş, hətta qaldığı otellərin sayını belə unutmuşdu. Lakin bu otaq, indiyə qədər gördüyü otel otaqları arasında ən yaraşıqlı və komfortlularından biri idi. Geniş otaqda nələr yox idi – enli çarpayı, LCD televizor, mini bar, böyük güzgülü şifoner, yazı masası, rahat ofis kreslosu, masmavi yaraşıqlı pərdəli pəncərənin qarşısında iki yumşaq kreslo və onların arasında kiçik, səthi şüşəli içki masası. Çantaları çarpayının üstünə qoyaraq vanna otağına cumdu. İlahi bu nə gözəllik idi belə! Mavi kafelli divarlarla, sədəf bəyazlığında iri vanna-cakuzi gözoxşayan ahəng yaradırdılar.

Könlündən duşun altına girmək keçdi, amma o andaca fikrindən daşındı – o qədər də vaxtı yox idi. Hələ köhnə Tiflisə gedib, Şotanın dediyi "Məğrur Gürcü" kafesini tapmalı idi. Bir daha otağa göz atıb dəhlizə çıxdı və qapını bağladı. Qaça-qaça pilləkənləri düşdü, dəmir qapını itələyərək özünü Tiflisin sərinliyinə atdı və arxada çırpılan dəmir qapının gurultusundan xəcalət çəkdi. Dayandı, nəfəs dərdi. Qamətini düzəldib tələsmədən üzü aşağı yeridi.

Köhnə Tiflisə istiqamət götürmüşdü. Yol boyu yaşıl ağaclara, rəngarəng qiyafəli adamlara tamaşa edir, ürəyi açılırdı. "Kapremontun" getdiyi tozlu-torpaqlı, tıxaclı, üfunətli Bakıdan canını qurtardığına görə xeyli sevinirdi. Özünü ətrafın sehrinə o qədər qapdırmışdı ki, köhnə Tiflisin dar küçələrinə nə vaxt gəlib çatdığını hiss etmədi.

Köhnə Tiflis Gürcüstanın milli memarlıq xəzinəsi olmaqla bərabər, həm də Tiflisin ən qədim hissəsidir. Burada, memarlıq incisi sayılan çox qədim və nadir tikililər məcmusu yerləşir. Elə Bakıdakı İçəri Şəhər kimi, Köhnə Tiflis də, adamı heyrətə gətirən dar küçələrdən və dolanbac döngələrdən ibarət bir çox məhəllələrə bölünür. Budur, kafedəki erməni qızının dediyi hamamlardan biri. Tiflis əhalisi hamamda, xüsusən də kükürdlü hamamlarda dincəlməyi çox sevir.

Zaur tarixin divarlara hopduğu, zamanın sanki donub qaldığı bu mənzərələrə tamaşa etməkdən yorulmurdu, doymurdu. Kür çayının sahili boyu dağlara söykənərək nazik zolaq kimi 30 km. məsafədə uzanan bu gözəl, qədim şəhəri çox sevirdi. Orta əsr tikililərinin cizgilərini özündə saxlamış, oyma ağaclı eyvanlar təmirdən sonra daha da yaraşıqlı görünürdü. Narikala məbədinin qalıqları, daş Ançisxati kilsəsi, Metexi kilsəsi, Sioni kilsəsi, Şah Rostomun hamamları, Tiflis cümə məscidi... Görülməli, gəzməli o qədər yer vardı ki, bu Köhnə şəhərdə. Kaş vaxtı olaydı buna.

Dar küçələrin birinə dalaraq, rastına çıxan gürcü oğlandan "Məğrur Gürcü" kafesini soruşdu. Məlum oldu ki, Zaur əlli metr küçə ilə düz gedib sağa dönsə, kafeni görəcək. Oğlana təşəkkür edərək, küçə boyu sağdan-soldan düzülmüş hədiyyə mağazalarına və kafelərə baxa-baxa addımladı.

Bir az sonra həqiqətən də sağ tini dönən kimi, Zaur bir kafe gördü. Kafenin sarı günəşliyinin üzərində böyük mavi hərflərlə gürcü dilində deyəsən "Məğrur Gürcü" yazılmışdı. Zınqırovlu qapını açaraq içəri daxil oldu. Bomboş kafenin divarlarını bəzəyən retrospektiv tablolar, adamı 60-cı illərin şən Tiflisinə aparırdı. Zaur təəccübləndi - ənənəvi gürcü kafelərindən fərqli olaraq, bu kafedə nə üçünsə divarlarda şərab içən, sifətləri içkinin təsirindən deformasiyaya uğramış gürcü knyazlarının tabloları asılmamışdı. Hər şeydən təəccüblüsü isə, bu tabloların kafenin adına uyğun gəlməməyi idi. Elə bu məqamda, gürcü qadınlarına xas olmayan yekə döşlərini aşağı-yuxarı oynada-oynada bir qız Zaurun qarşına dikildi.
- Buyurun. Xoş gəlmisiniz, - gürcü dilində dedi.
Zaur utancaq sifət alıb, rusca:
- Üzr istəyirəm, gürcü dilini bilmirəm, - dedi. – Bura "Məğrur Gürcü" kafesidir?
- Bəli.
- Mən bir dostumla burada görüşəcəyəm. Qəhvə içəcəyik.
Qız çiyinlərini çəkərək etinasız:
- Buyurun, əyləşin – dedi. Ürəyiniz harda istəyir.

Zaur kafenin dibində, alaqaranlıq bir yerdə iki nəfərlik yuvarlaq masa seçdi özünə. Günəş şüaları köhnə şəhərin bu küçəsinə deyəsən heç düşmürdü. Melanxolik atmosfer artıq yavaş-yavaş yorulduğunu hiss edən Zauru daha da ətalətə yuvarlayırdı. Gödəkcəsini tənbəlcə çıxarıb divardakı asılqandan asdı və sual dolu gözlərlə ona baxan qızla göz-gözə gəldi.
- Bir dənə qəhvə. Külqabı da verin zəhmət olmasa.

Qız yenə laqeyd ifadə ilə “bu dəqiqə”- deyib ayrıldı. Şotaya zəng vurmasının üstündən yarım saat ötürdü. Harada olsa gəlməli idi. Ayaqqabılarını çıxarmaq istədi, amma corablarının iy verməyəcəyindən əmin deyildi. Bir siqaret yandırdı. Axşam keçiriləcək konfransı yada saldı. Həyəcanlı deyildi, amma yenə də ehtiyatlı olmalı idi. Burada danışılanların “Müasir Müsavat” və “Möhtəşəm Azərbaycan” qəzetlərinin xanım əməkdaşları tərəfindən dərhal Bakıya ötürüləcəyini bilirdi. Onsuz da QSTM-nin əskisi tüstülü idi. Burada da bir az oyan-bu yan danışsa, sülhməramlılığını cilovlamasa, mağara millətçiləri Bakıda hay-küy qoparıb, palaz-palaz yazılarla Akif Tağı və təşkilatına qarşı hücuma keçəcəkdilər. Zaur Tiflisə gələn qızları, “Möhtəşəm Azərbaycan”-dan Diləranı və “Müasir Müsavat”-ın müxbiri Sevdanı xatırladı. Sonuncusu yadına düşəndə qeyri-ixtiyari gülümsündü. “İlahi, bu qədər çirkin, eybəcər bir varlığın, bakirə qalmasından, namusdan danışmasından daha təbii nə ola bilər? Tələbin olmadığı yerdə, hansı təklifdən söhbət gedə bilər? Görəsən özü eybəcərliyinin fərqindədirmi?”- düşündü.

Budur, qəhvə də gəldi. Qız ağzından və burnundan siqaret tüstüsü buraxa-buraxa gülümsəyən qəribə cavana tərs-tərs baxıb, fincanı masanın üstünə qoydu və piştaxtanın arxasına qayıdaraq gürcü dilində jurnal oxumağa başladı.

Qapı açılıb hündürboy, uzunsaç Şota kafeyə daxil olanda, Zaur artıq darıxmağa başlayırdı. Uzun illərin dostunu görüb yerindən sıçradı, iri addımlarla ona yaxınlaşdı. Öpüşüb görüşdülər. Şotanı hər dəfə bir az da uzanmış, boyu artmış görürdü. Şair ruhlu Şota, ağzını genişcə açaraq qışqırdı:

- Bəs niyə qabaqcadan xəbər vermədin, vağzalda qarşılayardım səni!

- Buna nə ehtiyac var? Görüşdük də. Həm də ki, sən mənim bu gün qatarla gələcəyimi onsuz da bilirdin. Odur ki, mənə nömrə gəlmə.

Şota at kimi kişnədi:

- Yaxşı da, bəsdir! Utandırma məni.

Zaur hücumuna davam etdi:

- Özü də siz hamınız bu vaxtlar yatırsınız. Gürcülər çox tənbəldir. Borçalı azərbaycanlıları olmasa, 90-cı illərdə acından ölərdiniz.

Məğrur gürcü qızı, gözünü jurnaldan ayırıb qəzəblə Zaura baxdı. Tanımadığı hündürboy gürcüyə də əsəbiləşmişdi. Çünki o, bu həyasız azərbaycanlının ağzının payını vermək yerinə, onunla razılaşdı:

- Allah onlara can sağlığı versin. Kartofumuz, soğanımız, meyvə-tərəvəzimiz sizinkilərdən çıxır. Biz isə səhər axşam çaxır içirik. Gəl oturaq.

Şota masaya tərəf gedə-gedə dönüb qıza gürcü dilində nəsə dedi. Qız isə sifətinin ifadəsini dəyişmədən, şəstlə üzünü çevirib mətbəxə getdi.

- Ona nə dedin? - Zaur soruşdu.

- Dedim ki, gözəl qızın əlindən bir gözəl qəhvə içmək istərdim. Həə dostum, öyrən artıq dilimizi! İldə əlli dəfə Gürcüstana gəlib gedirsən, - Şota gödəkcəsini stulun arxasına asdı, saçlarını tumarlayıb çiyinlərinin ardına dağıtdı və göz vuraraq davam elədi, - özü də Gürcüstanda girmədiyin dərmə-deşik qalmayıb. Abxaziyaya da gedib çıxdın axır.

Zaur gülə-gülə bir siqaret yandırdı.

- Abxaziya... Vallah dünyanın ən mənasız yeridir ora. Bilmirəm niyə onlara müstəqillik vermirsiniz.

Şota gurultulu gülüşü ilə masanı silkələdi.

- Elə isə, siz də Qarabağ ermənilərinə azadlıq verin də!

Zaur ciddi görkəm alaraq:

- Əzizim, burda artıq səhvin var. Sizin çörəyiniz bir mənada Dağlıq Qarabağ münaqişəsindən çıxır. Sən bunda maraqlı olmamalısan. Bax qəhvələrimiz də gəldi.

Qız gürcü qonaqpərvərliyinə xələl yetirən laqeyd əda ilə, fincanları masaya qoyub, müştərilərin üzünə belə baxmadan geri döndü. Zaur başını bulayaraq:

- Baxan da elə bilər qızı zorlamaq istəmişəm. Elə sifət eləyib ki...

Şota qəhvəsindən bir qurtum içib yarı zarafat, yarı ciddi soruşdu:

- Söhbəti fırlatma. Çörəyimiz Qarabağdan niyə çıxır?

Zaur təəccüblə Şotaya baxdı:

- Yoxsa incidin məndən?

- Nə inciməyi? Sadəcə olaraq maraqlıdır mənə.

- Eşitməmiş olmazsan, məşhur söhbətdir. Qarabağ münaqişəsinin tərəfləri olan ermənilərlə azərbaycanlılar həmişə Tiflisdə görüşürlər. Gürcüstan bir mənada vasitəçi, körpü rolunu oynayır. Beynəlxalq təşkilatlar da ofislərini burada açırlar, ermənilərlə bizi burada görüşdürürlər. Yəni pullar sizdə qalır. Xalq diplomatiyası turizmindən xeyli pul qazanırsınız. İndi mən də, Tiflisdə azı 300-400 dollar pul xərcləyəcəyəm. Hələ mən qaz və neft borularının Gürcüstan üzərindən keçməsini demirəm. Bu müharibə olmasaydı, əlbəttə marşrut 600 kilometr qısaldılar, borular daha sərfəli yoldan - Ermənistan üzərindən keçib gedərdi. İndi də Bakı-Tiflis-Axalkalaki-Qars

dəmir yolu xəttini çəkirlər. Halbuki hazır Gümri-Qars dəmir yolu var. Onu sadəcə açmaq lazımdır. Sözüm odur ki, gürcüləri dolandıran bircə Borçalı camaatı deyil, Azərbaycan-Ermənistan münaqişəsi sayəsində, beynəlxalq QHT-lər də öz layihələrini burada həyata keçirib, pulları sizin ölkəyə axıdırlar. Qəhvəyə də ki, söz ola bilməz, - deyən Zaur, ləzzətlə ağzını marçıldatdı və qıza dönərək, - Əla qəhvədir, minnətdaram sizə, dedi.

Bayaqdan Zaurun sözlərini diqqətlə dinləyən və onun əlindən zəncir çeynəyən qız, Şotadan mədəd umurmuş kimi həmyerlisinə tələbkar nəzərlərlə baxırdı. İmkanı olsaydı Zaurun cavabını özü verərdi, amma burada bir gürcü kişisi olduğu üçün tərbiyəsiz azərbaycanlıya cavabı qız yox, gürcü kişisi verməli idi.

Şotanın isə üzündən təbəssüm yığışmırdı. Zaurun "Camel" siqaretindən bir dənə götürüb yandırdı. Tüstünü həzzlə tavana buraxıb gözünü qıydı və aramla danışmağa başladı:

- Dünən kalan vurmuşuq uşaqlarla. Fransadan qonaqlarımız var idi. Qafqaz Evinin 5 əməkdaşı ilə restoranda gecə üçə qədər oturduq. Elə sizin münaqişədən də danışdıq. Haradasa haqlısan. Razıyam ki, bircə Borçalılar deyil... Bizim qəhvə paxmeli yaman çıxarır, düz demirəm?

- "Bizim qəhvə" deyəndə ki, bu Türk qəhvəsidir. Olmaya sən də erməniləşməyə başlamısan?

Şota ağzını əydi:

- Yaxşı, bəsdi dəə! Türklük damarın tutub?

Zaur siqaretini söndürüb geriyə boylandı. Xırda ağ gülləri olan mavi köynək, xaki şalvar, ağ çəkmələr. Xırda güllü ağ köynəyi cırmağa hər an hazır olan iri məmələr də ki, öz yerində. Qız zövqsüzlüyün rəmzi ola bilərdi. Amma etiraf etmək lazımdır ki, gürcülər qadınlı-kişili, azərbaycanlılardan qat-qat zövqlü geyinirlər. Şota Zaurun hara baxdığını görüb üsulca dedi:

- Allah qadını yaradanda, gözləmirdi ki belə idbar bir şey ortaya çıxa bilər. Olmaya vurulmusan?

Zaur qınayan gözlərlə baxdı Şotaya.

- Asta danış eşidər. Məndən zəhləsi gedir. Artıq səndən də.

- Fikir vermə... Qəhvələrimiz də bitdi. Yenə içirsən?

- Yox, çox sağ ol.

- İndi də planlarından danış mənə.

- Oteldə bir az özümə gəlməli, üst-başımı dəyişməli və axşam "Mariot"-da konfransa getməliyəm. Planlarım bax budur.

- Osetiyadan da qonaqlar var. Tiflisdə yaşayan abxazlardan da iştirak edənlər olacaq. Qarabağdan kimlər gəlir görəsən?

- Dəqiq bilmirəm. Amma Ernstın iştirakçılara göndərdiyi siyahıda Qarabağdan heç kim yox idi. Görünür onlar bizim oteldə qalmayacaqlar. Eybi yox, axşam onsuz da görüşəcəyik onlarla.

- Separatçı məclisi qurulur ki, - deyən Şota bərkdən güldü və ofisiant qızdan rus dilində hesabı istədi.

Qız hesabı çox tez gətirdi, elə bil bayaqdan çeki vurub hazır saxlamışdı. Şota Zaura fürsət vermədən, bir göz qırpımında pulu cibindən çıxarıb masanın üstünə qoydu. Gödəkcələrini geyinib bayıra çıxdılar. Köhnə şəhərin daş döşəməli, burulğan küçələri ilə ATA otelinin yolunu tutdular.

Yol boyu Şota şəhərdə aparılan quruculuq işlərindən, Saakaşvilinin fəaliyyətindən, müxalifətin səriştəsizliyindən danışdı. Prezidentindən razı olduğu hiss olunurdu. Necə də olmasın, axı Qızıl gül inqilabında barrikadalara çıxanlardan biri elə özü idi. Saakaşvili prezident kreslosuna oturanda, Tiflisin "qızılgül" gəncləri üç gün, üç gecə Osetin restoranında çaxır içib, əylənmişdilər. Üçüncü günün sonunda isə Şota və iki yoldaşı zəhərlənmə diaqnozu ilə xəstəxanaya çatdırılmış, mədələri yuyulmuşdu.

Otelə çatdıqlarında saat ikiyə qalırdı. Axşam 17.30-da otelin qabağında görüşməyə razılaşıb ayrıldılar. Zaur qaça-qaça üçüncü mərtəbəyə çıxıb qapısını açdı. Anadan gəlmə soyunub, otaqda lüt var gəl etməyə başladı. Tək, ya da sevdiyi insanla bir məkanda olanda, lüt gəzməkdən böyük zövq alırdı. Paltarlarını səliqə ilə şifonerə asdı. Bütün əşyalarını yerbəyer etdikdən sonra, vanna otağına keçdi. Vannanı doldurub, özünü isti suyun içinə buraxdı.

Gözləri yumulu, bu gün gördüyü insanları ardıcıllıqla, bir-bir xatırladı. Taksi şoferi, Tiflis ermənisi qız, "Məğrur Gürcü" kafesindəki məğrur yekədöş ofisiant...

Zaur əli ilə suyun səthini şappıldatmağa başladı. Havaya yüksələn sabun köpükləri vanna otağının mat şüşəli pəncərəsindən içəri süzülən günəş şüalarında bərq vururdu. Vannada yuxuya getmək istədi. Suda yatıb qalmaq, boğulub ölmək ehtimalı ona gülməli gəldi. Şota ilə görüşməyə hələ iki saatdan artıq vaxt qalırdı.

Duş alıb qurulandıqdan sonra çarpayıya uzandı. Vaxt öldürmək üçün iki saat yata bilsəydi pis olmazdı, amma yuxusu da gəlmirdi. Televizora baxmağı sevmirdi, o ki, qaldı gürcü kanallarına. Yadına çantasındakı kitab düşdü. Bir siqaret yandırdı, kitabı qaldığı 38-ci səhifədən açıb oxumağa başladı.

Maraqla oxuduğu kitab, Andrey Platonovun "Can" adlı romanı idi. Taleyi Çaqatayevin taleyinə oxşamadığına görə, Zaur xeyli xoşbəxt sayırdı özünü.

## 3

Razılaşdıqları kimi, Şota düz saat 17.30-da Zaurun nömrəsinə zəng vurdu. Telefon çaldığı zaman, kitabın artıq 61-ci səhifəsini oxuyurdu. Şotanın şən səsi eşidildi:

- Gəlirsən aşağı?
- Beş dəqiqə gözlə, geyinib düşürəm. Ya da istəyirsən otağa qalx.
- Yox, lazım deyil. Mən küçəyə çıxıb səni gözləyəcəyəm.

Şotanın dəqiqliyinə təəccüblənən Zaur, onun otelin qabağından heç getmədiyini, bəlkə də saat altının yarısına qədər yolun qarşısındakı kafelərin birində üç saat vaxtın keçməsini gözlədiyini düşündü. Ağlına gələn bu ehtimala özü də güldü. Acmışdı, amma konfransdan sonra veriləcək şam yeməyinə qədər dözmək istəyirdi. Güzgüdə düm-düz qarnına baxdı. Formda qalmaq, vücudunu piylənmədən qorumaq üçün aclığa dözməyə razı idi.

Şota yolun kənarında dayanıb siqaret çəkirdi. Başını yuxarı qaldırmışdı, bilmək olmurdu hara baxırdı. Mariott otelinə piyada, söhbət edə-edə gəlib çıxdılar. Otelin nəhəng qapılarından yaraşıqlı holla daxil olduqlarında, altıya on dəqiqə qalırdı.

Otelin sonuncu mərtəbəsində yerləşən konfrans zalında saat 18.00-a nəzərdə tutulan tədbir, Qafqazlılara xas gecikmə ilə başladı. İştirakçılar zalın qabağında var-gəl edir, kimisi siqaret çəkir, kimisi də çay, ya da qəhvə içirdi. Zaur Bakıdan gələn qızları gördü. Siam əkizləri kimi bir yerdə gəzir, əl-ələ tutub tualetə bir yerdə girib-çıxır, bir an olsun bir-birlərindən ayrılmırdılar. İyirmi dörd yaşında, ortaboylu, sısqa, uzunburun və saçlarını 90-cı illərin əvvəllərinin dəbinə uyğun olaraq kare kəsdirmiş, zəhər tuluğu bir qız uşağı olan Dilarə, bu tədbirdə "Möhtəşəm Azərbaycan" qəzetini təmsil edirdi. Rəfiqəsi Sevda isə, "Müasir Müsavat" qəzetinin siması sayılırdı. İyirmi iki yaşlı bu qızcığaz, cavan yaşına baxmayaraq, artıq baş redaktorun müavini vəzifəsinə yüksəlmişdi. Zaur quruca salam verdi onlara. Quruca salam aldı.

Erməni jurnalistlər isə beş dəqiqəlik gecikmə ilə gəlib çıxdılar. "168 saat" qəzetinin əməkdaşı, tanınmış publisist Luiza Vanyan içəri daxil olanda, Ernst Kopf əsəbi halda saatına baxırdı. Zaur yaxınlaşıb Luiza ilə görüşdü. Onlar ötən il Tiflisdə, Helsinki Vətəndaş Assambleyasının bir tədbirində tanış olmuşdular. Qısa boyu, qıvrım saçları, kül rəngi gözləri və fındıq boyda burnu olan Luiza, Ermənidən çox, depressiyaya düşmüş, menopoz dövrünü keçirən Fransalı feministə oxşayırdı. Boğuq səsi ilə güldü, Zaura salam verdi. Hal-əhval tutdular. İki daşın arasında Avropaya emiqrasiya etmək istədiyini, bu mənasız həyatdan bezdiyini bildirdi. Zaur isə bütün Qafqazın cəhənnəm olduğunu, ona qalsa Bakıdan da ağlı olan hər kəsin başını götürüb qaçdığını deyərək, Luizaya tərəf bir reverans elədi.

"Aykakan Jamanak" qəzetini tədbirdə təmsil edən Artuş Saroyan adlı jurnalist isə, üzünü pəncərəyə çevirib siqaret çəkir, ətrafda baş verənlərlə qətiyyən maraqlanmırdı. Tənha və laqeyd görünürdü. Oğlan Zaura xeyli tanış gəlsə də, onu harada gördüyünü yadına sala bilmədi. Luizadan soruşmaq istədi, amma o da artıq gürcü həmkarları ilə söhbət edir, yəqin onlara emiqrasiya planlarından danışırdı. Ermənistanın Regional Əməkdaşlıq və Qloballaşma Mərkəzinin sədri Stepan Melkonyan isə, azərbaycanlı qızlarla ünsiyyət qurmağa çalışırdı. Qızlar Stepanı anlamırdılar. Sifətlərində yalnız bir sual oxunurdu: "Nə cürətlə bu həyasız erməni, alçaq işğalçı bizimlə söhbət edir?" Stepan, nifrətlə ona baxan və bir-birlərinə qısılan qızlardan xoş söz eşidə bilməyəcəyini anlayıb başını buladı və Ernst Kopfa yaxınlaşdı.

Gürcü, osetin və abxazları başına yığan Şota isə, qışqıra-qışqıra onlara nəsə sübut eləməyə çalışırdı. Bir müddət onlar tərəfə baxan Zaur, əslində Gürcü-Abxaz və Gürcü-Osetin münaqişələrindən nə qədər uzaq olduğunu, bu konfliktlərə ancaq formal maraq duyduğunu anladı. Osetin dəstəsindən Alan Sxobrebovu tanıyırdı, Tsxinvalidə görüşmüşdülər. Alan müharibə əlili idi, indi isə sülhməramlı olmuşdu. Zauru görüb dəstədən ayrıldı və ona yaxınlaşdı. Qucaqlaşdılar.

- Necəsən Zaur? İtib batmısan. Məktub yazmırsan.
- Vallah işlərdən başım ayılmır. Tsxinvalidə nə var, nə yox?
- Hər şey yolundadır. Sən hamıyla tanış oldun?
- Bəzilərini tanıyıram. Tanımadıqlarım da var. Sən bilmirsən Qarabağdan gələnlər kimlərdi?
- Əlbəttə bilirəm, - deyən Alan Zaura göz vurdu və üzünü arxaya çevirərək astaca dedi: - Bax, qapı tərəfdə iki nəfər dayanıb. Kök bığlı kişini görürsən? Adı David Arutunyandır. Stepanakertlidir. Əvvəllər müharibədə iştirak edib, indi də öz QHT-sini yaradıb, əsrilərə kömək edir. Bir dəfə də Yerevanda görüşmüşəm onunla. Yanında dayanan cavan oğlan isə Qurgen Ağacanyan adlı fəlsəfə müəllimidir. Stepanakert universitetində dərs deyir.

Zaur başını bulayaraq:

- Nə olub axı sizə? – dedi. Əvvəl əlinizə silah alıb gözünüzü qırpmadan insanları öldürürsünüz, sonra da müharibə aktuallığını itirib atəşkəs imzalanan kimi, sülhməramlılığa qurşanırsınız. Bu Cənubi Qafqazda deyəsən dəb halını alıb.

Alan incik-incik baxdı Zaura. Razılaşmadı:

- Müharibənin mənasızlığını, rəzilliyini və qorxuncluğunu görmək üçün, mütləq o cəhənnəmdən keçməlisən. Sənin ağzın deyəsən isti yerdədir. Bircə güllə səsi eşitsəydin, belə danışmazdın.

Zaur dediklərinə peşman olmuşdu. Alan pis adam deyildi və onun xətrinə dəymək istəməzdi.

- Xahiş edirəm incimə məndən. Sənin səmimiyyətindən şübhə etmirəm...

Alan onun sözünü kəsdi:

- Heç Davidin də səmimiyyətinə şübhə etmə.

- Sənə elə gəlir ki, mən Davidlə sənin aranda fərq qoyuram?

- Qoymursan?

- Xeyr qoymuram. Siz hamınız mənim üçün eynisiniz.

Alan şübhə ilə baxdı Zaura.

- Nə mənada?

- Hər mənada.

Zaur sözünü yeni bitirmişdi ki, Ernst Kopfun səsi eşidildi. Kobud alman ləhcəsi ilə, Ernst rus dilində qonaqlara müraciət etdi.

- Saatlar 18.15-dir. Xahiş edirəm hər kəs konfrans zalında yerini tutsun. Onsuzda 15 dəqiqə gecikmişik.

Bir alman üçün 15 dəqiqəlik gecikmə faciə demək idi. Hətta o alman, uzun müddət Cənubi Qafqaz ölkələrində sülənsə də, genetik yaddaşına naxələf çıxa bilməzdi.

İştirakçılar konfrans zalına keçərək, nəhəng dəyirmi masanın ətrafında yerlərinə oturdular. Hər iştirakçının qabağına qoyulan ikiyə qatlanmış A4 formatlı kağızın üstündə iştirakçının adı, hansı KİV və ya QHT-ni təmsil etdiyi yazılmışdı. Hamıya qələm, bloknot paylandı. Demək olar ki, bütün qonaqlar işgüzar, ciddi sifət almışdılar. Halbuki, necə mənasız işlə məşğul olduqlarını özləri də bilirdilər. Cənubi Qafqaz nümayəndələrindən əlavə, tədbirdə Qafqazlılara ekzotik meyvə gözü ilə baxan; onların cılız, mənasız münaqişələrini özlərinə əyləncə sayan avropalılar - İngiltərə, Fransa və Almanya səfirliklərinin nümayəndələri də iştirak edirdilər.

Zaur diqqətlə Artuş Saroyana baxdı. Bayaqdan heç kimlə dialoq qurmayan, hər kəsdən kənar gəzən, ətrafda baş verənlərə biganə qalan Artuş da, Zauru gözləri ilə yeyirdi. Elə bil yadına nəyisə salmağa, beyninin dərinliklərində ilişib qalmış bir xatirəni canlandırmağa çalışırdı. Əziyyət çəkirdi. Amma Zaur xatırladı onu... Birdən xatırladı... Xatırlamaz olaydı kaş...

Bir anda nəfəsinin kəsildiyini, mühakimə qabiliyyətini itirdiyini hiss etdi. Nabeqlavi suyundan bir qurtum içdi. Həyəcanlı hərəkətləri ilə özünü ifşa etdiyini, hər kəsin ona baxdığını düşündü. Halbuki soyuqqanlılığını qoruyan Artuşdan başqa, heç kim onun tərəfə baxmırdı. Artuşun üzündə, mürəkkəb bir tənliyin həllini axtaran insanın ifadəsi; iri, ala gözlərində isə sululuq vardı. Bu gözləri necə unutmaq olardı axı? Bu gözlər illər boyu Zauru hər yerdə, anbaan təqib etmişdi. İndi də bu gözlər burada, Tiflisdə ona dikilmişdi. Yox! Bu Artuş, həmin Artuş ola bilməz! Bəs... Bəs soyadı... Saroyan... Gözlər də həmin gözlərdir axı...

Artuşun da beynindən buna oxşar fikirlər keçirdi. Düşmən ölkənin bu simpatik nümayəndəsi ona nəinki tanış, hətta doğma gəlirdi. Geniş alnı, qara gözləri, Qafqazlılara xas olmayan balaca burnu, uzun kirpikləri. Artuşun mərmərə dönmüş sifətində nə maraq vardı, nə də həyəcan – ancaq və ancaq sual... Sual, tərəddüd və şübhə...

Henrix Böll fondunun Cənubi Qafqaz üzrə direktoru Ernst Kopf bir-iki dəfə barmağı ilə qarşısındakı mikrofona vuraraq, çıxışına başladı:

- Hörmətli dostlar, əziz qonaqlar. Əslində siz hamınız öz torpağınızda, öz vətəninizdəsiniz. Bura Cənubi Qafqazdır və bütün münaqişələrə, tarixdə yaşanmış qanlı hadisələrə rəğmən, Qafqaz sizin ümumi eviniz olaraq qalmaqda davam edir. Odur ki, qonaq siz yox, əslində mənəm.

Zaldan gurultulu alqışlar qopdu. İştirakçılar Ernstə razılıqlarını bildirdilər. Ernst gülə-gülə zaldakılara təşəkkürünü bildirib, çıxışının davamını gətirdi:

- Bəli, biz avropalılarıq. Və bizim qurduğumuz Avropa ailəsinin, yəni Avropa Şurasının siz hamınız üzvlərisiniz.

Qonaqlar bir daha alqışları ilə Ernstin sözünü kəsdilər. Sadəcə olaraq bu dəfə, separatçı rejimlərin nümayəndələri alqışlara qoşulmadılar - onların Avropa Şurasına dəxli yox idi. Ernst alqışlardan ruhlanaraq, qətiyyətlə bildirdi:

- Avropa Birliyi son illərdə, xüsusilə Azərbaycan, Ermənistan və Gürcüstanın AB-nin Yeni Qonşuluq Siyasətinə qoşulmasından sonra Cənubi Qafqazda daha aktiv fəaliyyət göstərməyə başlayıb! Gələn 2007-ci ildə AB Cənubi Qafqaz ölkələri ilə birlikdə Avropa Qonşuluq və Əməkdaşlıq Aləti adlanan proqramın maliyyə yardımından yararlanmaq üçün layihələr hazırlamağa başlayacaq. Bundan əlavə, bu ildən başlayaraq AB-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi, səfir Piter Semnebi də münaqişəylə bağlı məsələlərin həllində xüsusi fəallıq göstərir. AB həmçinin son illərdə regiondakı münaqişə ocaqlarına dair daha çox siyasi bəyanatlar verməyə başlayıb. Ehtimal olunur ki, AB bölgədəki münaqişələrlə bağlı müxtəlif layihələr üçün Avropa Qonşuluq və Əməkdaşlıq Alətinin fondu tərəfindən maliyyə vəsaiti ayrılması üçün təşəbbüs göstərsin. Bu baxımdan, Cənubi Osetiya və Abxaziya

münaqişələrinin həllinə yardım məqsədilə Avropa Birliyinin güclü siyasi dəstək verməsi üçün Gürcüstan müvəffəqiyyətli lobbiçilik fəaliyyəti nümayiş etdirmişdir.

Ernstın bu sözlərindən sonra, yanaşı oturan Alanla Şota öz aralarında pıçıldaşmağa başladılar. Ernst isə onlara fikir verməyib, çıxışına davam etdi.

- Ümumiyyətlə, AB-nin Cənubi Qafqazdakı münaqişələrin həlli üçün imkanları get-gedə daha da artır. Amma bu, heç də o demək deyil ki, AB siyasi bəyanatlar və layihələrin icrası yoluyla yardım göstərməkdənsə, hərbi gücdən istifadə edəcək. Mən hesab edirəm ki, AB-nin Dağlıq Qarabağ münaqişəsinə ən yaxşı köməyi onun ATƏT-in Minsk Qrupuna üzvlüyü olardı. Düzdür mən bu məsələləri həll etmək səlahiyyətində deyiləm, sadəcə öz arzularımı dilə gətirirəm.

Cənubi Qafqazda münaqişələrin həlli üçün bütün tərəflər danışıqlar masası arxasında oturmalı və çətin kompromislərə hazır olmalıdırlar. Baxın biz bu gün, burada iki saata yaxın bir-birimizlə söhbət edəcək, bir-birimizi yaxından tanıyacağıq. Sabahdan etibarən isə iki gün ərzində konfransımızı keçirəcəyik. Erməni, gürcü, abxaz, osetin, azərbaycanlı – bu gün hamımız bir yerə toplaşmışıq, amma fikir verin, bu xalqlar arasında heç bir problem yaşanmır, onlar bir-birlərinə qarşı necə də mehriban və alicənabdırlar. Deməli, şərait yaradılsa, onlar sülh içində bir-birləri ilə yaşamağa da hazırdırlar. İki gün boyunca biz sivil insanlar kimi, öz problemlərimizi dilə gətirəcək, ürəyimizdə nə varsa açıq müzakirə edəcəyik.

Münaqişə tərəfləri üçün inam yaratmaq və insanlar arasında qarşılıqlı əlaqəyə böyük ehtiyac var. Bütün Cənubi Qafqazda qaçqın və məcburi köçkünlərin könüllü şəkildə müharibədən əvvəlki evlərinə qayıtması üçün imkanlar yaradılmalıdır. Hər iki tərəf inanmalıdır ki, müharibə etməkdənsə, münaqişənin həll olunmasından daha çox yararlanacaqlar, xüsusilə iqtisadi inkişaf və ticarət sahəsində. Əgər Cənubi Qafqaz regionu iqtisadi zona kimi fəaliyyət göstərərsə, o zaman daha çox xarici investor bu regionda işləməyə maraq göstərəcək. Əsas da odur ki, üç respublikanın və tanınmamış respublikaların hökumətləri öz vətəndaşlarına münaqişələri tez bir zamanda hərbi yolla həll edəcəklərinə dair vədlər verməsinlər!

Azərbaycanlı xanım jurnalistlər istehza ilə gülərək, başlarını buladılar. Ernst onlara tərəf baxdı.

- Sizin deməyə sözünüz var deyəsən? Varsa buyurun.

"Möhtəşəm Azərbaycan" qəzetindən Dilarə Manaflı, bərbad rus dilində danışmağa başladı:

- Biz əlbəttə münaqişənin sülh yolu ilə həllinin tərəfdarıyıq. Lakin bu da mümkün olmazsa, hərb yolu ilə torpaqlarımızı azad etməyə qadirik. Yəni, lazım gələrsə vuruşmağa hazırıq. Ermənistan öz işğalçı ordusunu Dağlıq Qarabağdan çəkməyincə, torpaqları azad etməyincə, heç bir iqtisadi əməkdaşlıqdan söhbət gedə bilməz.

David istehza ilə qızlar tərəfə baxıb, yarı ucadan:

- Çox lazım idi sizin iqtisadi əməkdaşlığınız bizə...

Ernst nəzarətin əldən çıxa biləcəyini başa düşüb müdaxilə etdi.

- Xahiş edirəm, yerlərdən replikalar atılmasın. Mən bu tədbirin moderatoru kimi, münaqişələrin həllində KİV və QHT-lərin rolunun müzakirə edilməsini və çərçivədən kənara çıxılmamasını tələb edirəm. İndi isə, istərdim hər biriniz öz münaqişənizin tarixindən, səbəb-nəticə əlaqələrindən danışasınız. Müharibənin ilk günündən bu günə qədər yaşanan prosesləri, ötən zamanı müzakirə edək. Nələr itirib, nələr qazandığınızı bölüşün bizimlə. İstərdim, Qafqaz Sülhməramlı Təşəbbüslər Mərkəzinin nümayəndəsi Zaur Cəlilov birinci başlasın. - Ernst güldü və əlavə etdi, - sadəcə olaraq ona görə ki, Dağlıq Qarabağ münaqişəsi nəinki bölgədə, hətta bütün SSRİ-də itkilərinə və miqyasına görə etnik zəmində başlayan birinci münaqişə idi. Buyurun cənab Cəlilov.

Zaur bir qurtum su içib Ernst Kopfa təşəkkür etdi, qonaqları salamladı və sözlərinə başladı:

- Cənab Kopfun da qeyd etdiyi kimi, SSRİ dağıldıqdan dərhal sonra, müstəqillik qazanmış Ermənistan Respublikası dövlət səviyyəsində terroru dəstəkləyərək, terrorçuluğu təcavüzkar siyasətin əsas vasitələrindən birinə çevirdi. Amma nəzərinizə çatdırmaq istərdim ki, Dağlıq Qarabağ münaqişəsi SSRİ-nin süqutundan sonra yox, ondan üç il əvvəl başladı. O ki, qaldı Ermənistanın dövlət səviyyəsində terroru dəstəkləməsinə, buna dair çoxsaylı faktlar, məhkəmə materialları var. Azərbaycanın dinc əhalisinə qarşı törədilən terror aktları Ermənistan hökuməti tərəfindən maliyyələşdirilir, bu ölkənin xüsusi xidmət orqanları tərəfindən həyata keçirilirdi.

Ermənistan, faktiki olaraq, Azərbaycana qarşı açıq və ədalətsiz müharibəyə başladı. Ermənistanın hərbi birləşmələri Azərbaycanın sərhədlərini pozdu, Qarabağa daxil oldu və Dağlıq Qarabağın erməni separatçıları ilə birləşərək Azərbaycan torpaqlarının işğalına başladı. SSRİ silahlı qüvvələrinin Ermənistan və Dağlıq Qarabağ Muxtar Vilayətində yerləşən hissələri də onlara qoşuldular.

Bayaqdan dodağında xəfif təbəssümlə Zaura qulaq asan Artuş, qəflətən onun sözünü kəsdi:

- Dağlıq Qarabağ erməniləri sadəcə olaraq müstəqil, azad olmaq istədilər. Bu onların haqqı idi, indi də haqlarıdır. Bu gün hətta öz vətəndaşlarının, türklərin hüquqlarını tapdalayan Azərbaycandan bir erməni nə gözləyə bilər? Siz erməniləri onsuz da məhv edəcəkdiniz. Siz Dağlıq Qarabağ ermənilərinə silah qaldırdınız. Deməli siz öz vətəndaşlarınızı qırırdınız.

Ernst əsəbi halda onun sözünü kəsdi:

- Cənab Saroyan, mən replikaların qadağan olduğunu demişdim. Sizi intizama dəvət edirəm.
Zaur söz aldı:
- Cənab Kopf, mən etiraz etmirəm. Artuş danışa bilər. Mənim üçün də maraqlıdır.
Ernst istəmədən də olsa razılıq verdi:
- Amma iştirakçılardan xahiş edirəm, bunu ənənəyə çevirməsinlər. Buyurun cənab Saroyan.
Artuş gülümsəyib dedi:
- Təşəkkür edirəm. Hələlik bu qədər. Zaur davam etsin.
Zaur "sağ olun" deyərək, çıxışına qaldığı yerdən davam etdi:
- Ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qarşı iddiaları onların "Böyük Ermənistan" yaratmağa yönəlmiş strateji planlarının tərkib hissəsi idi. Qərbi Ermənistan adını verdikləri Türkiyənin şərqinə də iddialıdırlar. Bu, artıq patologiyadır. Tarix boyu ermənilər, "ənənələrinə" sadiq qalaraq, həmişə əlverişli şərait yaranan kimi bu planın reallaşdırılması uğrunda mübarizəyə girişiblər. SSRİ-də 1985-ci ildə ermənipərəst Qorbaçovun hakimiyyətə gəlməsi ilə, erməni separatçıları növbəti dəfə fəallaşdılar. Buna görə də, bu münaqişə bizimlə Dağlıq Qarabağ arasında gedən münaqişə deyil. Çünki biz, belə bir subyekt tanımırıq. Bu müharibə Azərbaycanla Ermənistan arasında aparılır.
Dilarə ilə Sevdanın gözlərində Zaura minnətdarlıq oxunurdu. Onlar, Akif Tağının adamından belə sərt çıxış gözləmirdilər. Ernst əlini qaldıraraq dedi:
- Cənab Cəlilov, bu problemin, münaqişənin miqyasını görmək üçün, sizin sözlərinizə qulaq asmaq kifayət edir. Hələ siz, sülhməramlı fəaliyyəti ilə tanınan bir təşkilatın nümayəndəsisiniz. Bu cür sərt sözləri istənilən adam deyə bilərdi. Bəs sülhməramlının sıravi vətəndaşdan fərqi, maarifçilik missiyası olmalı deyilmi?
Zaldakı separatçılar xısın-xısın gülüşdülər. Şotanın və digər gürcülərin üzlərində Zaura dəstək ifadəsi oxunurdu. Artuş isə soyuqqanlılığını və laqeydliyini itirmirdi.
- Cənab Kopf, sizi başa düşürəm, - dedi Zaur. Amma siz özünüz münaqişələrimizin tarixindən, səbəb-nəticə əlaqəsindən danışmağımızı istədiniz. Mən də tarixə ekskurs edirəm. Ermənistanlı və Qarabağlı qonaqlar lazım bilsələr, sözlərimə düzəliş edərlər. Razılaşdıq?
Ernst gözlərini yumub başını tavana qaldırdı:
- Yaxşı, buyurun.
- Sizin diqqətinizi 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş Xocalı faciəsinə yönəltmək istərdim. O gecə müasir tarixin ən faciəli hadisəsi baş verdi. Erməni hərbi birləşmələri Xocalıda Rusiyanın 366-cı motoatıcı alayının əsgərləri ilə birlikdə azərbaycanlılara qarşı dəhşətli soyqırımı törətdilər.
Siz burada Avropa dəyərlərindən, qanunlardan danışırsınız. Azərbaycana qarşı ədalətsiz müharibə aparıldığını, onun ərazi bütövlüyünün pozulduğunu və torpaqlarının ermənilər tərəfindən işğal olunduğunu Birləşmiş Millətlər Təşkilatı da təsdiq edib. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərini tərk etməsi haqqında 4 qətnamə qəbul edib. Lakin erməni işğalçıları bu qətnamələri yerinə yetirmirlər bu günə kimi.
Amma biz, sülh potensiyalının hələ də tükənmədiyini, sülh uğrunda var gücümüzlə işləməli olduğumuzu qəbul edirik. Bilirsinizmi, Azərbaycan Qafqazda xırda, etnik çərçivələrdən xeyli kənara çıxan, əslində vətəndaşlıq anlamını önə sürən unikal milli birlik - azərbaycançılıq – anlayışını yaratmışdır. Azərbaycan heç bir vaxt öz vətəndaşlarının üzərinə silahla getməz. Bizlər hesab edirik ki, Azərbaycan xalqı Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etməlidir. Bizim buna imkanımız da var. Azərbaycan xalqı etnik millətçilərin yaratdığı xalq deyil. Azərbaycan xalqı böyük azərbaycanlıların yaratdığı milli birlik əsasında formalaşmış xalqdır. Orada hər bir etnik qrupa yer var – rusa, yəhudiyə, talışa, erməniyə, ləzgiyə...
David qəhqəhə ataraq onun sözünü kəsdi:
- Amma Qarabağ erməniləri, özlərini bu siyahıda görmək istəmir, Azərbaycan vətəndaşı olmaq istəmirlər. Bunu birdəfəlik başa düşməlisiniz! Qarabağ əhalisinin öz müqəddəratlarını təyin etmə haqqı var...
- İstəmirlərsə, onda istədikləri dövlətə gedə bilərlər. Məsələn Ermənistana. Qarabağ isə Azərbaycanın tərkib hissəsidir. Əlbəttə, hər bir xalqın öz müqəddəratını təyin etmə haqqı var, amma unutmayın ki, ermənilər bu haqdan istifadə ediblər və Ermənistan Respublikası adlı dövlət yaradıblar. Deməli, Azərbaycan vətəndaşlığını bəyənməyən istənilən erməni öz xalqının qurduğu ölkəyə köçə bilər.
Sonuncu cümlələrini dediyi zaman çatılmağa başlayan gürcü qaşlarını görən Zaur, onlara heç də sərf etməyən fikir bildirdiyini anladı – bunu razılıq əlaməti anlamında astaca aşağı-yuxarı gedən abxaz və osetin başları da sübut edirdi. Amma bu konfransların nə qədər mənasız olduğu barədə çoxdan gəldiyi qənaət, onu yürütdüyü bu fikrə görə narahat olmamağa inandırdı.
Ernst suyundan bir qurtum içərək, dedi:
- Hesab edirəm, sizin ölkələrinizin futbol komandaları Azərbaycan və Ermənistanda oyunlar keçirsələr, bu, xalqlarınızın yaxınlaşması üçün bir zəmin yaradar.
Artuş dodaq büzdü:

- Siz əsl Avropalı kimi düşünürsünüz. Sizi anlamaq çətin deyil. Amma nəzərə alın ki, bizim ölkələrdə idman heç vaxt sülhün rəmzi kimi qəbul olunmayıb. Oluna da bilməz.

Zaur da söz aldı:

- Bizim bir milyondan çox qaçqın və köçkünümüz var. Qaçqınlardan kiminsə valideyni, qardaşı, ana-bacısı ermənilər tərəfindən öldürülüb. Onların gözləri qarşısında belə kütləvi tədbir keçirərkən heç bir təminat verə bilmərik ki, kimsə meydançaya girib, erməni futbolçularını vurmayacaq, döyüb-öldürməyəcək. Torpaqlarımızın 20 faizini işğal edən bir ölkənin bayrağını qaldırıb, himnini səsləndirə bilmərik. Bu, bizim qəti fikrimizdir. Yığmalarımız arasında oyunun nə Bakıda, nə də İrəvanda keçirilməsinə razı deyilik. Azərbaycan UEFA-ya mövqeyini bildirib. Oyunlar yalnız və yalnız neytral meydançada keçirilə bilər.

Artuş onun sözünü kəsdi. Təmkinlə danışdı:

- Siz QHT nümayəndəsisiniz cənab Cəlilov. Leksikonunuz siyasətçilərin, sıravi vətəndaşların leksikonundan fərqlənməlidir. Tamamilə razıyam cənab Kopfla. Biz vətəndaş cəmiyyətindən danışırıq, sülhməramlılıqdan danışırıq, sonra da qarşılıqlı ittihamlarla bir-birimizə hücum edirik. Bura cəngavərlik meydanı deyil. Həmkarım Zaurun ittihamedici çıxışlarının arxasında nəyin dayandığını bilirəm – Bakıda başına gələ biləcək hadisələrdən qorxur. Mən də onun problem yaşamasını istəməzdim. Ona görə də, hər kəsdən onu anlamasını rica edirəm.

"Möhtəşəm" Dilarə, Artuşa cavab ötürdü:

- Azərbaycan Ermənistan deyil ki, əks fikirdə olanları orada döyüb-öldürsünlər. Hər halda güllələnən sizin parlamentiniz olub, bizim yox.

- Elmar Hüseynovu da biz, ermənilər öldürmüşük?

Bu an, "Asaval-Dasavali" qəzetinin müxbiri Nino Dumbadze, yerindən qışqırdı:

- Deyəsən bu gün ancaq Ermənistanla Azərbaycanın problemlərini dinləyəcəyik. Nəzərə alın ki, burada müzakirə olunası başqa məsələlər də var.

Qurgen Ağacanyan Ninonun sözünü kəsərək, etirazını bildirdi:

- Zaur və Dilarə təcavüzdən, işğaldan danışırlar. Hansı işğal? Qarabağ xalqı Azərbaycanın tərkibində qalmaq istəmirdi və ayrılmaq qərarına gəldi. Azərbaycan isə buna imkan vermək istəmədi. Onlar məcbur olub silaha silahla cavab verdilər. Bundan daha təbii nə ola bilər? İndi burada birlikdə yaşamaq mədəniyyətindən danışılır. Biz bu xalqla necə birlikdə yaşaya bilərik axı? Onların Qarabağ ermənilərinə münasibətinin necə olacağını başa düşmək üçün, Qazax rayonunda, Naxçıvanda dağıdılan xaçkarlara, qədim kilsələrimizə baxmaq kifayət edər. Azərbaycanda sistematik qaydada ermənilərə aid tarixi memarlıq abidələri dağıdılır. Erməni izini hər yerdən silib atmaq istəyirlər və buna nail olurlar. Mən Qazaxdakı müqəddəs Sarkis kilsəsinin dağıdılmasından danışıram. Ora sərhəddə yaxın bölgədə yerləşir. Nəzərə alsaq ki, vandallar texnikadan istifadə edərək bunu edirlər, onda belə çıxır ki, bu dövlət əli ilə aparılan məqsədli vandalizmdir. Qazax rayonu icra hakimiyyəti guya bundan xəbərsiz olduğunu deyir. Müqəddəs Sarkis kilsəsi çox böyük tarixi, memari əhəmiyyətə malikdir. Bu qədim Ermənistanın Tauş bölgəsinin ən qədim abidələrindəndir. 1163-cü ildə inşa edilmişdir.

"Müasir Müsavatdan" Sevda, yerindən dik atıldı:

- Ağzınızın danışığını bilin! Tauş yox Tovuz! Bu şəhər qədim türk yurdudur və mən özüm də Tovuzdanam. Ora heç vaxt ermənilərə aid olmayıb!

Bu məsələdən xəbərsiz olan Zauri isə, ağlına gələn ilk arqumenti səsləndirdi:

- Mən bu haqda heç nə bilmirəm. Amma o bölgədə kilsə olubsa da, bu çox güman Alban kilsəsidir. Azərbaycan ərazisində erməni abidələri yoxdur.

Artuş gülərək:

- Altmışıncı illərdən başlayaraq, Müqəddəs Sarkis kilsəsini alban abidəsi kimi qələmə verməyə çalışırsınız, - dedi. Məntiqlə danışaq; Ərəb Xilafətinin Qafqaza ayaq açdığı VII-VIII əsrlərdən sonra Albaniya adlı dövlətin, alban adlanan xalqın mövcudiyyətinə son qoyulub. Kütləvi şəkildə islamı qəbul edən bir xalq beş əsr sonra birdən-birə niyə kilsə inşa etmək fikrinə düşsün? Belə fikirlərlə bu torpaqlarda ermənilərin yaşaması faktını guya gizlədə biləcəksiniz? Onda əgər o erməni yox alban kilsəsidirsə, azərbaycanlılar onu nə üçün sökürlər? Naxçıvanda, Cuqada da xaçkarları məhv etdilər. Bunu təsdiq edən foto və video materiallar var. Azərbaycan hakimiyyəti isə beynəlxalq ekspertlərin ora girməsinə icazə vermir.

Stepan düzəliş elədi:

- Azərbaycan hakimiyyəti yox, Azərbaycan nefti. Orda neft olmasaydı, ekspertlər istədikləri dərmə-deşiyə girə bilərdilər.

Dilarə söhbətə qarışdı:

- Əvvəla, varvarlığa qalsa Şuşada və Qarabağın müxtəlif yerlərində, hətta indi Ermənistan dediyiniz qədim Türk-Oğuz yurdu Qərbi Azərbaycanda bizə aid abidələri də siz məhv etmisiniz. Əgər kim birinci başladı, kim daha çox məhv etdi mübahisəsinə girişsək, siz yəqin ki, bundan uduzarsınız.

Qurgen gülümsədi:

- Xanım, “biz”, “siz” deyəndə siz kimləri nəzərdə tutursunuz? Ermənistanda hansı Azərbaycan abidəsi ola bilər? Axı, Azərbaycan adlanan dövlət 1918-ci ildə, azərbaycanlı adlanan xalq isə 20-ci əsrin 30-cu illərində yaranıb...

Zaur isə problemə başqa aspektdən yanaşdı:

- O ki, qaldı Naxçıvana girə bilməyən beynəlxalq ekspertlərə, demək istərdim ki, biz heç özümüz də Naxçıvana girə bilmirik. Siz Vasif Talıbovun kim olduğunu bilirsiniz?[1] O istəsə bizim hamımızı, bax elə burdaca, Tiflisin mərkəzində, otellə birlikdə yerlə yeksan edər.

Salonda böyük bir qəhqəhə qopdu. Gülən, dizlərinə vuraraq qəşş edən insanların fonunda, bir-birinə diqqətlə baxan iki cüt göz, iki ciddi üz heç gülmür, olduqca əsrarəngiz, heyrətamiz görünürdü. Zaurla Artuşun üzlərində ən xırda bir ifadə belə oxunmurdu. Nə fikirləşdikləri də bilinmirdi. Elə hey baxışırdılar... Sanki bir-birlərini daha yaxından tanımağa çalışırdılar...

Zaurla Artuşun bir-birlərinə yaxınlaşmadığı, kəlmə kəsmədiyi 15 dəqiqəlik qəhvə fasiləsindən sonra, söz osetinlərə və abxazlara verildi. Onlar da azadlıqdan, öz müqəddəratlarını təyin etmək hüquqlarının olduğundan bolluca danışıb, Gürcüstanı topa tutdular. Aqresiv Şota onların sözlərini kəsmək istəsə də, bayaqkı qırğından sonra ağıllanan Ernst ona imkan vermədi. Bir ara Qarabağlı ermənilər osetin və abxaz “qardaşlarına” dəstək vermək istədilər. Ernst onlara da mane oldu. Əməlli başlı qızarmış, tərləmişdi. Allah bilir ürəyində, onu “bu meymunlarla işləməyə məcbur edənlərə” lənətlər yağdırırdı.

Aləm qarışmış, məzhəb itmişdi. Bircə Artuşla Zaur qoruyurdular soyuqqanlılıqlarını. Onları heç nə maraqlandırmırdı. Onlar heç nəyi və heç kəsi eşitmirdilər. Ofsunlanmışdılar, donub qalmışdılar sanki. Yaxşıdı onlara fikir verən yox idi. Bircə... Şotadan başqa.

Şota azərbaycanlı dostunun erməni həmkarı ilə baxışmasını bayaqdan maraqla izləyirdi. Nələrin baş verdiyini anlamırdı, amma bu sirr pərdəsini aralamağı çox istərdi.

Tədbir axşam saat 20.10-da bitdi. Ernst qonaqları Mariott otelinin restoranına dəvət edərək, özü tualetə qaçdı. Restoranın kandarından içirə addım atan Zaur, vəhşi kimi acdığını yalnız indi hiss elədi. Səhər yediyi hamburgerin üstündəydi və mədəsində qurdlar ulayırdı. Ev atmosferinin hakim olduğu restoran, Bakıdakı şadlıq saraylarının çoxunda olan kiçik zallara oxşayırdı – xudmani və intim. Burada 4 masanı birləşdirib böyük bir İsveç masası açmışdılar. Sağda və solda, pəncərələrin yanında isə dairəvi masaların üstünə müxtəlif spirtli və spirtsiz içkilər düzülmüşdü.

Zaur çöplərə keçirilmiş ət, toyuq və pendir tikələrindən boşqabına bolluca dolduraraq, pəncərəyə yaxınlaşdı. Burada da arağa portağal şirəsi qatıb, Azadlıq meydanına tamaşa edə-edə yeməyə başladı. Şota bu arada, tualetdən qayıdan Ernstlə söhbət edirdi. Sonra David qoşuldu onlara. Dilarə və Sevda da nəhayət bir erməni ilə dil tapmışdılar. Luiza ilə söhbət edir, hətta arada gülümsəyirdilər. Çıxışlar zamanı əvvəldən axıra qədər susan, mübahisələrə qarışmayan Luiza, ola bilsin qızların simpatiyasını qazanmışdı. Alanla söhbət edən Artuş isə, arada bir Zaura ötəri nəzər salırdı. Tez-tez göz-gözə gəlirdilər. Zaur yeməyini və içkisini bitirib, yenidən İsveç masasına yaxınlaşdı. Bu dəfə qabını yarıyacan doldurdu və özünə portağal-araq qarışığından kokteyl düzəldib pəncərə qırağındakı yerinə qayıtdı. Çöpə ilişdirilmiş ət qovurmasını tələsmədən çeynəyən yerdə, arxadan doğma dilində “Salam” sözünü eşidib diksindi. Şimşək sürəti ilə dönüb arxaya baxdı.

Artuşun gözləri gülürdü. Dodaqları bir-birinə sıxılmışdı. İki əli ilə tutduğu pivə bokalını ovuşduraraq bir daha:

- Salam, - dedi

- Salam, - Zaur qərarsızlıqla dilləndi. Qədəhi pəncərənin kənarına qoydu, əlini Artuşa uzatdı. O da onun əlini sıxdı. Ovucunun içi yumuşaq, ılıq idi. Artuş, üzünə etinasız ifadə qatıb rusca soruşdu:

- Bakıdansan?

Bu sualın mənasızlığını ikisi də başa düşürdü. Zaur gülümsəyib:

- Yox, Naxçıvandanam, - dedi.

Artuş ürəkdən güldü.

- Əla... Onda məni tanımadın deyəsən...

Zaur başını aşağı saldı. Əlbəttə tanımışdı. Kaş Artuş qədər cəsarətli, özündən əmin olaydı. Şübhəyə yer qalmamışdı. Bu o idi. Həmin Artuş. Həmin insan. Markalar, albomlar, ilk siqaret, ilk...

Başını qaldırıb düz gözlərinin içinə baxdı. Uzun müddət susaraq baxışdılar. Bu baxışlar Artuşa verilən cavab idi. Ernst və Daviddən uzaqlaşan Şota, əlində şərab qədəhi, onlara baxırdı. Nə danışdıqları haqda təsəvvürü yox idi. Doğrusu, onlar heç danışmırdılar da. Ancaq baxışırdılar. Şota mat qalmışdı. İki əzəli düşmənin arasında nə səmimiyyət ola bilərdi axı? Yoxsa bu heç səmimiyyət də deyildi? Daha artıq idi?..

Onlara dikilən bir cüt gözdən xəbərsiz, Zarula Artuş sükutu ilk kimin pozacağını düşünürdülər. Nəhayət Artuş dilləndi.

[1] Vasif Talıbov – kosmik qüvvələrlə təmasda olan, ilhamını səmadan alan, fövqəlbəşər, metafizik varlıq. Naxçıvan Muxtar Respublikasına başçılıq edir.

- Hər halda danışılası xeyli mövzu var.
- Var.
- Elə isə?
- Burada?
Artuş ətrafa göz gəzdirdi. Şota onun arxaya döndüyünü görüb, gözlərini qaçırtdı. Yenidən Zaura döndü:
- ATA otelində qalırsan?
- Aha.
- Elə mən də...
- Bilirəm.
- Yanına gəlsəm etiraz etməzsən ki?
- ...
- Əgər istəmirsənsə...
- Yox, yox... Əlbəttə gələ bilərsən... Nə vaxt?
- Mən indi çıxıram. Sən də yarım sat sonra otelə gəl. Olar?
- Olar... Biraz Şota ilə söhbət eləməliyəm... Sonra, bizim qızlarla da... Tez getməyimi onlara necə izah edim?
- Başım ağrıyır, yorğunam deyərsən. Problem olmaz məncə. Neçənci otaqdasan?
- 304.
- Görüşənədək.
- Yaxşı... Artuş.

## 4

Zaur siqaret çəkə-çəkə, otağını arşınlayırdı. Əsəbi və gərgindi.

Saatlar doqquz tamamı göstərəndə "bu saat qapı döyüləcək" dedi özü-özünə. "Qapını açacağam, onu astanada görəcəyəm. Hamar qırxılmış üzünü, iri gözlərini, mirvari dişlərini. Gülümsəyəcək, çiçəklər açacaq çöhrəsində. Boynunu bükəcək bir az, əlini mənə uzadacaq. Qucaqlaşacağıq... Qapıda yox. Qapını möhkəm bağladıqdan sonra..."

Zaur, beyninə vuran şəhvətdən huşunu itirmək qorxusu ilə divardan tutdu. "Harda qaldın sən... Harda..."

Budur, qapı döyülür. Yavaş vursa da qapını, tələbkardı qonaq. Çox tələbkardı.

Qamətini düzəldərək, siqareti tələm-tələsik külqabına basdı. Masanın üstündən "Ultraviolet" ətrini götürüb üstünə səpdi, qapıya qaçdı.

Açdı.

Köks ötürdü.

Əynində vücud xətlərini ən xırda detallarına qədər qabardan Wrangler markalı cins şalvar, "Heavy Metal" yazılmış tünd yaşıl mayka, arxaya daranmış pinti saçlar... Allah, bu nə qorxunc, təhlükəli enerjidir! Bu nə gücdür belə?! Nə görkəm, nə ədadır?!

Artuş astaca içəri keçib, qapını bağladı. Əlindəki butulkanı Zaura uzatdı.
- Beş ulduzlu Ararat. Görüşməyimizin şərəfinə.
- Artuş... Mən...
Zaurun yanağını oxşadı.
- Həyəcanım səninkindən az deyil. Özümü zorla saxlayıram.

***

Nədir məhəbbət? Bu hadisə əllə tutulmur, gözlə görülmürsə, bəs nədir bu gözəllik? Yoxsa həyatın bizə hazırladığı ən gözəl sürprizdir? Qəlbimizin fatehidir? Qəfildən üstümüzə hücum çəkib, bizi hökmranlığı altına alan qüvvədir? Məhəbbəti anlatmaq üçün uzun-uzadı cümlələr qurmağa nə hacət? Onu hamı anlayır. Dili birdir onun - nə sərhəd tanıyır, nə millət, nə irq, nə də düşmən. Nə zaman gələcəyi, nə zaman yaxamızı buraxıb gedəcəyi bilinmir.

Həyat qocaman bir yalansa, bu qədər saxtalığın içində yeganə gerçək, doğru olan odur – məhəbbət. Zahirən nə qədər zərif və gözəldirsə, həqiqətdə o qədər sərt və amansızdır. Parlayan günəşdir, ulduzların yer üzünə ən yaxınıdır. Zəhər kimi acı, bal kimi şirindir. Acılığından da, şirinliyindən də qorxmaq lazımdır. Kordur məhəbbət. Yanıqlı "ah"lardan səmaya yüksələn dumandır.

Elə bu anda ATA otelindən göylərə yüksələn ahlar, axan göz yaşlarıdır məhəbbət. Mənasız müharibənin ayırdığı iki aşiqin lənətidir, üsyanıdır məhəbbət. Bütün maneələrdən, oddan-közdən keçərək "Mən səni sevirdim,

mən səni sevirəm, mən səni sevəcəyəm” deyə bilən aşiqlərin dilindən süzülən nəğmədir məhəbbət. Homoseksual məhəbbətə gəldikdə isə, hələ anqlo-amerikalı yazıçı Kristofer İşervud, seksual təmayülün təməlində seksual hisslərin yox, romantik hisslərin yatdığını demişdi. Əgər bir insan həqiqətən də mavidirsə, bir kişini dərindən sevməyə qadirdir. Və bu sevgi, o kişi ilə sevişməkdən daha ülvi və daha uca bir hissdir.

Ötən illərin, ayların, günlərin üstlərinə hopdurduğu çirkabdan, məruz qaldıqları təbliğatdan, bəd nəzərlərdən, ellərin qınağından qurtulmaq üçün paklanmalıydılar. Sədəf bəyazlığında vannanın içində, ılıq suyun altında sarılmışdılar bir-birlərinə. Artuşun kirpiklərində damcılar titrəyirdi. Qara gözlərinin ofsunundan qopa bilməyən Zaur, möhkəmcə sıxmışdı sevgilisini özünə. Sanki bir daha ayrılmaqdan qorxurdu. Artuş ona soyunmaqda kömək etdi. Zaurun köynəyini çıxararaq yerə atdı, əyilib dili ilə məmələrinin giləl追inə xəfifdən toxundu. Elektrik dalğaları Zaurun vücudunu gizildədirdi. Zalım erməni, Zaurun vücudunu sığallaya-sığallaya, asta-asta diz çöküb, tumanın altında yüksələn qalanı öpməyə başladı. Zaur da onun başından tutub kömək edir, stimullaşdırırdı.

Qala partlamağa hazır idi. Zaur onu qollarından tutaraq ayağa qaldırdı, dodaqlarına yapışdı. Erməninin atletik vücudunda, damlalar yaqut kimi görünürdü. Zaur onu suya da qısqanırdı. Dodaqlarından qoparaq, Artuşun bədəninə ətirli duş geli yaydı. Bir ara qıdığı gəldi Artuşun, cingiliti ilə güldü. Birdən ciddiləşdi. Boynunu büküb Zaura baxdı. Bu gözlərdə “al məni” təklifi oxunurdu. Sonra əlləri ilə ağ kafelə söykənib, illərdir Zaurun yuxularını bəzəyən, qəlbini çulğayan sehirli qapını araladı. Titrəyə-titrəyə daxil oldu bu qapıdan Zaur.

- Ahh.

Bu ah nalələr, indiyə qədər hər ikisinin eşitdiyi ən gözəl layla, ən möhtəşəm himn, iki sevgilinin qovuşması şərəfinə spontan bəstələnmiş simfoniya idi.

Bu simfoniya indi ATA otelində səslənirdi.

...

Məhrəbalara bürünərək, bir-birlərinə sarılmış vəziyyətdə, öpüşə-öpüşə vanna otağından çıxan iki gənc, mumiyalara bənzəyirdilər. Yatağa uzanıb nəfəslərini dərdilər. Bir müddət susdular. Qəfildən Artuş gülməyə başladı. Əvvəl sakit gülürdü, sonra ildırım kimi çaxdı.

Zauru da gülmək tutdu. Heyrətlə:

- Nə olub sənə? – soruşdu.

- Ağlıma bilirsən nə gəldi?

- Nə?

- Fikirləşdim ki, Zaur mənə salanda yəqin Qarabağın intiqamını alırmış.

Zaur gülməyi kəsdi. Diqqətlə baxdı sevgilisinin üzünə. Artuşun iri gözlərində, uzun kirpiklərində, dolğun dodaqlarında onu narahat edən suala cavab axtarırdı sanki.

- Sən doğrudan belə düşünürsən? – incikli idi.

Artuş bir daha güldü, başını buladı.

- Əsla! Sən nə danışırsan? Zarafat edirəm. Azərbaycanda belə bir mahnı vardı, bəlkə yadında olar?

*Sevgilini sınama,*
*Sınadınsa qınama.*
*Dolanaram başına,*
*Gəlin olsan anama.*

Uşaq yaşlarında Bakını tərk edən bir ermənininin bu bayatını indiyə qədər yadda saxlaması, Zauru təsirləndirdi. Gözləri doldu. Fəqət indi sentimentallığın yeri deyildi. Söhbəti zarafata gətirmək üçün dedi:

- Narahat olma Artuş. Sən heç vaxt mənim anama gəlin ola bilməyəcəksən. Ümumiyyətlə analarımızın biz sarıdan bəxti gətirməyib. Biz tərəfdən onlara gəlin qismət olmayacaq. Heç olmasa qardaşlarımız olsaydı, analarımızı nakam qoymazdılar. – Bir az fikirləşib əlavə elədi, - amma onu da bilmək olmaz. Bəlkə qardaşlarımız olsaydı, onlar da bizim kimi götverən olardılar.

Artuş dirsəyi üstə qalxaraq sərt tərzdə etiraz etdi:

- O sözdən nifrət edirəm! Azərbaycanlı uşaqlar məhəllədə həmişə mənə götvərən deyib təhqir edərdilər.

Zaur gözlərini yumub bezgin əda ilə:

- Nifrət etsən də, etməsən də bizim adımız götverəndir, - dedi. – Bunu təhqir kimi başa düşmə.

Artuş bu arqumentin qarşısında acizliyini etiraf edirmiş kimi, başını Zaurun sinəsinə qoydu. Göbəyinin ətrafında bitən nadir, incə tükləri sığallamağa başladı.

- Yaxşı, sən deyən olsun...

Zaur gözləri yumulu, sağ əli ilə Artuşun saçlarını sığallayırdı.

- Zaur...

- Bəli əzizim.

- Qarabağda olmusan?

- Olmuşam. Yadında deyil, 88-də Şuşaya getmişdim? Sinifdə Səməd Faiqoviç məndən Qarabağın bizim üçün əhəmiyyətini soruşanda da, Şuşaya getməyim haqda ona danışmışdım.

- Mən isə birinci dəfə üç il əvvəl getdim ora atamla. Stepanakertli dostu oğluna toy edirdi. Stepanakertdə iki gün qaldıq, sonra Şuşaya getdik. Şuşada hələ də müharibənin izləri var... Gecələr adamı vahimə basır... Zaur.

- Eşidirəm.

- Sizin üçün bu şəhər çoxmu əzizdir?

- Əlbəttə... Şuşa Azərbaycanın mədəniyyət beşiyi sayılır. Muğam sənəti orada zirvəyə çatıb. Bülbül, Cabbar Qaryağdı oğlu, Seyid Şuşinski kimi dahilər; Qacarın öldürülməsi kimi faktlar da bunu təsdiq edir. Əgər Şuşa şəhəri ermənilərin olsaydı, onların arasından da heç olmasa bir nəfər muğam oxuyan çıxardı.

Artuş başını qaldırıb, nazla Zaura etiraz etdi:

- Bizim bütün kilsələrimizi alban kilsəsi adlandıran, Ziya Bünyatov kimi konyuktura tarixçilərindən fərqin nədir? Sənin sözlərindən belə çıxır ki, az qalsın dünya yaranan gündən, indiki Azərbaycan ərazisində azərbaycanlılar, daha dəqiq desək türklər, tatarlar yaşayıb. Bu ağ yalandır. Azərbaycanlılar avtaxton deyil axı! Sizə azərbaycanlı adını Stalin verib. Ona təşəkkür etməlisiniz.

Zaur gülə-gülə onu boynundan tutub özünə sarı çəkdi:

- Əsəbiləşəndə çox gözəl olursan. Ermənisən ki, erməni. Dediyini deyirsən. Sənin avtaxtonuna soxsunlar, - dedi və möhkəmcə Artuşun dodaqlarından öpdü.

- Azərbaycanın böyük dostu, mərhum Tur Xeyerdal demişdi ki, “Bəşəriyyət meymundan əmələ gəlib. Norveçlilər isə azərbaycanlılardan”. Sən isə mənə avtaxtonluqdan danışırsan.

Artuş cəld hərəkətlə Zauru qucaqladı, özü arxası üstə uzanaraq sevgilisini də dartıb üstünə uzandırdı.

- Əsl erməni olsaydım, burda nə itim azmışdı? Sənin kimi bir düşmənin qoynunda nə gəzirdim? Elə sən də əsl azərbaycanlı deyilsən. Əslində bayaq düz deyirdin... Bizim millətimiz yoxdur... Yox, səhv deyirəm. Bizim bir millətimiz var, o da götverəndir.

***

Sübh günəşi otel otağının pəncərəsinə boylananda, iki gəncin yorğun, çılpaq vücudu ilə qarşılaşıb utandı. Əzilmiş yataq örtüyü tərdən nəmlənmişdi. Səhəri sevmirdi Artuş, çünki laqeyd idi səhər. Zaurun yanağından öpdü. Zaur uşaq kimi kirpiklərini döydü. Sanki harada olduğunu başa düşmək istəyirmiş kimi, qəribə nəzərlərlə Artuşu süzdü. Alnını elə şirin, elə gülməli qırışdırmışdı ki, Artuşun içindən dünyanın ən məsum körpəsinə bənzəyən bu gözəl varlığı bir daha öpmək keçdi. Yenidən ona sarı əyilərək, Zauru dodaqlarından öpdü. Bu öpüş onu özünə gətirməyə kifayət etdi. Artuş isə dayanmırdı. Zaurun qulaq məməsini dişlədi, gözlərini, alnını, döş gilələrini öpdü, dilini boğazına toxunduraraq, göbəyinə qədər sürüşdü. Zaur yüngülcə zarıyıb dizlərini qatladı.

- Bu nədir?!

Artuşun gözləri, ağ örtüyün üstündəki xırda qan damcılarına sataşdı. Zaur, onun özünü itirdiyini görüb başını buladı və soyuqdəyməsi olan adamlar kimi, kəsilən səsi ilə:

- Dünən gecə çox ağrıtdın məni, - dedi. - Hələ ömrümdə belə ağrı hiss etməmişdim.

Artuş “Nə danışırsan?!” deyərək onun bədəninə əyildi. Vücudunun hər qarışını tez-tez öpməyə başladı. Öpür, bir yandan da üzr istəyirdi: “Bağışla əzizim. Məni bağışla”... İndi dünyada özündən daha zalım, daha günahkar, daha insafsız adam yox idi. Gecə Zaurun aralanmış şaftalısını görən kimi, özünü saxlaya bilməyib ağlamışdı. Göz yaşları döyüşə hazır xəncərinin ucuna damlamışdı. O da, gözünün yaşı ilə islatdığı xəncərini, Zaurun qınına salmışdı. İndi peşman olmuşdu. “Nə üçün vazelindən, kremdən istifadə etmədim axı? Bu kobudluq nəyə lazım? Göz yaşı ülvidir, qəlbin şirəsidir, amma kremin yerini verə bilməz. Verə bilməz!” Hayqırmaq, özünü yolmaq istəyirdi. “İlahi, bütün mənliyimi əhatə edən bu sevgi haradan yaranıb görəsən!? Bu sonsuz-bucaqsız sevgi, necə sığışır mənim dar kainatımın çərçivələrinə?”

Yenə ağlamağa başladı. Zaur onu sakitləşdirmirdi. Ağlayırsa, deməli ehtiyacı var, ona mane olmaq olmaz. Bircə başını, boynunu sığallayır, dinmirdi. Bilirdi ki, ağlamaq tək qadınları yox, geyləri də rahatladır.

...

İlk dəfə, bu qadağan işi görəndə neçə yaşları vardı görəsən?.. Bu gün uzaq keçmiş kimi görünür o illər. Halbuki üstündən heç iyirmi il də keçməyib. Qızmar Bakı günlərinin birində, Artuşun evində, valideynləri işdə olanda, iki uşaq yasaq eşqi dadmışdılar. Açarları da körpə idi, qıfıllarının deşikləri də. Oyun oynadıqlarına inanırdılar. Hər şey də elə bu qeyri-ənənəvi oyunla başladı. İki düşmən xalqın iki balaca mənsubu, körpə vücudlarını birləşdirib meydan oxumuşdular “Gəlirəm!” deyən nifaqa, nifrətə, düşmənçiliyə, müharibəyə...

Düşmən olmaq istəməyənlərə, düşmənçiliyin nə olduğunu bilməyənlərə də seçim haqqı verilmədi. Hökm ağır oldu – ayrılıq!

Halbuki bu nifaqa onların nə dəxli ola bilərdi? Torpaq iddiaları, silahlar, axan qanlar – çox uzaqdı onlardan. Çox uzaq.

**RETROSPEKTİV**

*Nə pəri, nə adəmi bu şəkl ilə mən görmədim,*
*Cənnəti-hurimisən, yoxsa ki, rizvan erməni?*

## 1

Bakı.

Asiya şəhəri olsa da, qəlbini Avropaya açmış Azərbaycanın paytaxtı. Xəzər dənizinin sahilində yerləşən qədim və gözəl şəhər. Asiya ilə Avropanın dəyərlərini özündə cəmləşdirən insanların odlar yurdu. Bakının sehrli abı-havası, bircə dəfə bu şəhəri görənlərin xatirəsində əbədi yaşayar. Bu torpaqda doğulub böyüyənlər isə, bu şəhərsiz ümumiyyətlə yaşaya bilməzlər... Odur ki, millətindən asılı olmayaraq, Bakı hamının – rusun, erməninin, yəhudinin, azərbaycanlının, gürcünün, Afrikadan gələn zənci tələbələrin, əlqərəz bütün millətlərin - şəhəri idi.

Hələ əsrin əvvəlində, Bakı öz nefti ilə ayrı-ayrı millətləri özünə cəlb etmiş, dünya xəritəsində xüsusi yeri olan şəhərdir. 1847-ci ildə Bakının Bibiheybət sahəsində ilk neft quyusunun qazılmasına mexaniki üsulla təşəbbüs göstərildiyini dünyada çox adam heç bilmir. Məhz bundan sonra Bakı neft sənayesinə xarici kapitalın axını başlandı. 1879-cu ildə Bakıda 9 qazıma buruğu vardısa, 1900-cu ildə onların sayı 1710-a çatdı. Bakı nefti dünya miqyasına çıxdı. Neft sənayesi ilə yanaşı, Bakıda başqa sənaye sahələri də inkişafa başladı; mexaniki zavodlar, emalatxanalar, tütün fabrikləri, buxar mühərrikləri ilə işləyən dəyirmanlar yarandı. Yeni banklar, ticarət və sənaye firmaları açıldı.

Bakıda həm Şirvanşahlar sarayı kimi möhtəşəm tarixi abidələr, İçəri Şəhərdə divarları şərq naxışları ilə bəzədilmiş evlər, tanınmış memarların qotika, barokko və rokoko üslubunda yaratdıqları tikililər; həm flamand, həm də mavritaniya üslublarında inşa edilən binalar var. Bakı, İçəri Şəhərin dar küçələri və eyvanları ilə bir-birinə dirənmiş evləri, həmçinin gecələr gəmilərin və Dənizkənarı bulvarın işıqlandırdığı Bakı buxtasını amfiteatr kimi dairəyə almış geniş prospektlərdən yaranan şəhərdir.

Azərbaycanda "Qırmızı kitaba" salınmış mənəvi bir kateqoriya var – Bakılılar! Bu gün onların bir çoxu dünyanın dörd bir yanına səpələnsələr də, bakılı olaraq qalmaqda davam edirlər. Bakılılar, Şərq və Qərb kimi iki nəhəng və bir-birindən tamamən fərqli coğrafiyaların qarışmasından yaranan unikal mədəniyyətə malik millətdir. Bəli, yanlış oxumadınız – məhz millətdir! Hətta bakılıların belə bir mahnısı da var: «Есть такая нация бакинцы говорят». Bakılıların dilindən düşməyən bir başqa cümlə isə: "Bakılı, elə Afrikada da bakılıdır" deyimidir.

Əlqərəz bakılılıq - milliyyətindən, dinindən, saçının, gözlərinin və dərisinin rəngindən, həmçinin hal-hazırkı yaşayış yerindən asılı olmayaraq, doğma şəhərini ürəkdən sevən bütün insanların birliyidir.

Vaxt vardı, bu şəhərin sakinləri qüssə-kədərsiz, şən və mehriban yaşayar, hər gün bayram etmək üçün min bir bəhanə uydurardılar. Bakılılar milli mətbəxlərini çox sevir, ləzzətli xəmir xörəklər, şirniyyatlar hazırlayır, milli zarafatlar edir və qarışıq ailələr qurardılar. Toylarda şərabla dolu qədəhləri qaldırarkən qürurla "Yaşasın Bakı və bakılılar!.." deyərdilər.

Bu yaxınlarda Bakıda rus dilində çıxan "Exo" qəzetində, Cənubi Afrika Respublikasında yaşayan yəhudi əsilli bir bakılının məktubu dərc olunmuşdu. Ürək ağrısı ilə yazırdı: "Afrikaya necə gəlib düşdüyümü soruşanda, çiyinlərimi çəkirəm. Əgər öz doğma vətənində, Bakıda yaşamırsansa, harada yaşayırsan yaşa – nə fərqi var?! Əslində Afrikada özüm üçün rahat həyat qurmuşam. Gözəl ailəm, uğurlu biznesim, komfortlu məişət şəraitim var. Ahıl çağında qəmsiz yaşamaq üçün insana daha nə lazımdır? Di gəl ki, tez-tez gecələr yanağıma axan göz yaşının hərarətindən oyanıram: Bakı günəşi, Bakı dənizi üçün darıxan tənha ürəyim ağlayır... Biz, bakılılar burada tez-tez görüşürük. Evdə arvadlarımızın üstünə çəmkirəndə də, azərbaycan dilində: "Ay arvad, az danış da!" deyirik. Bakılı millətinin sağlığına içirik. Lakin, ölü yerindəki kimi, qədəhlərimizi toqquşdurmuruq. Çünki bilirik... Bilirik ki, bakılı milləti bir daha yaranmayacaq. O, artıq çoxdan ölüb!"

Bu sözləri, Bakıdan köçüb gedən istənilən irqə mənsub sabiq bakılıdan eşidə bilərsiniz. Həqiqətən də bu adamlar, Bakı ənənələrinin qısqanc mühafizəçiləri, unikal Bakı folklorunun sadiq daşıyıcılarıdır...

Bakılılar, qonaqlarını şəhərdə gəzdirərkən onlara "Amfibiya-adam" və "Brilyant əl" filmlərinin çəkildiyi yerləri fəxrlə göstərir, bu filmlərdən sitatlar gətirirlər. Bakıya gələn qonaqlar isə öz növbələrində bakılıların olduqca qonaqpərvər və duz-çörəkli insanlar olduğunu qeyd edirlər. "Bircə dəfə bakılıların əlinə düşsən, səni elə yedirdib kökəldəcəklər ki, doğma anan da səni tanımayacaq" – bakıdan qayıdan qonaqların bu sözləri öz doğmalarına, dostlarına deməsi adət halını alıb. Həqiqətən bakılı ailəyə qonaq getmisinizsə, bilin ki, burada yeyəcəyiniz yeməklərdən sonra bir neçə gün ac qala bilərsiniz. Bakılıların unikallığının sirri sadədir – onlar dəniz dalğalarının, neftin və ətirli meyvələrin qoxusunu, şəhərin məftunedici rayihəsini ciyərlərinə çəkərək boya-başa çatırlar.

Bakının "Nərgiz" kafesi də ki, ayrı söhbətin mövzusudur. Burada "Amfibiya-adam" filmindən bir səhnə də çəkilmişdi.[2] "Jalüz" tipli damı olan bu kafe, hələ 1961-ci ildə naxışlı metal və ağac konstruksiyalardan tikilmişdi. Kafenin mərkəzində mətbəx, bufet və müştərilər üçün masaların qoyulduğu şüşə pavilyonlu kiçik zal vardı, solda isə – kokteyl, dondurma və müxtəlif meyvə şirələrinin, qazlı suların satıldığı açıq pavilyon. Məhz bu pavilyonun müdiri erməni kişisi, əvəzolunmaz Raçik dayı idi. Şəhərin heç bir restoranı servis baxımından "Nərgiz"lə müqayisə oluna bilməzdi. İstismara verildiyi gündən qısa zaman ərzində "Nərgiz" kafesi bakılıların ən sevimli məkanlarından birinə çevrildi. Bu kafedə yeyib-içməklər səhərə qədər davam edərdi. Adətən səhərə qədər oturan müştərilər, artıq evə getmək istəyən ofisiantları özləri yola salar, ciblərinə də pul basardılar. Səhərə yaxın saatlarda çıxıb getdiklərində isə, masaları qarovulçu Mişa dayı yığışdırardı.

Nərgiz kafesində tez-tez davalar düşürdü. Günlərin bir günü axşam kafedə böyük bir dava baş verdi. Qablar qırıldı, masalar aşdı. Dava eləyənlər uzaqdan yaxınlaşan milisləri görüb, hərəsi bir tərəfə qaçışdılar. Milislər gəldi sorğu-sual başladı, şahidlər dindirildi. O əsnada, Mişa dayı bir kənarda sakitcə oturub siqaret çəkirdi. Narazı milislər, əsəbi halda onun üstünə düşdülər: "Axı siz niyə xuliqanları qapıdan içəri buraxırsınız?" Mişa dayı isə onları bir qədər süzdükdən sonra, istehza ilə cavab verdi: "Ara, burda qapı var ki?!"

Bir bakılı ermənin yazdığı aşağıdakı şeir isə, əməlli-başlı Bakı himninə çevrilib:

Улица, ТОРГОВАЯ, - милая родная.
Помню, как гуляли там, мы забот не зная.
На углу Карганова встретишься с друзьями,
Медленной походкой проплывёшь к Госбанку.
Тысяча улыбок, сотни здрасьте...
К третьему проходу смотришь, - решены проблемы
И исчезли разные напастья.
В ресторан в подвале, что напротив Маслопрома,
Заглянёшь с друзьями - будто ты как дома.
С девушкой любимой с рук купив билеты,
Ты спешишь в пассаж Вэтэна
Музыку послушать, угостить мороженным,
И, побыв немного в роли джентльмена,
В полутемном зале...
И так далее…
...

Bəli, Bakı hər kəs üçün əsrarəngiz bir dünya, arzuların reallaşdığı, xəyalların gerçəkləşdiyi müqəddəs ünvan olub. Günəşi Xəzərdən doğulan şəhərin mavi qoynundan çıxarılan "qara qızıl"ı Bakıdan Ceyhana, oradan da cahana nur saçır. Bakı təkcə respublikanın paytaxtı kimi sevilmir. O, həm də ürəklərin, duyğuların can atdığı çox əziz şəhərdir. Şəninə qoşulan nəğmələrdə bu məhəbbət çiçək kimi ətirlənib, quş kimi qanadlanaraq dünyaya yayılıb:

*Bakı, əziz şəhər, mehriban diyar,*
*Qoynunda boy atıb oldum bəxtiyar.*

Bu səadətin təsirindən qəlblər həmişə riqqətə gəlib. Əlbəttə, bakılıların taleyinə yazılmış bu şəhər onlara doğmadan-doğmadır. Çünki ən təzə arzular da, sevgili övladları da, fərəhləndikləri toy-büsatları da, zirvəyə ucalan yolları da həyatın özü kimi Bakı ilə bağlıdır. Onun isti qoynundan pərvazlanaraq yad məmləkətlər dolaşıb bakılılar. Üç-beş günün ayrılığından sonra onları geriyə gətirən təyyarənin təkərləri yerə toxunan kimi, sevinclərindən nə edəcəklərini bilməyiblər. Bəlkə də buna görə müxtəlif dillərdə Bakının şəninə xeyli mahnılar yazılıb, şeirlər qoşulub.

İndi Bakı ötən əsrdəki şəhərlə müqayisədə çox dəyişib. Bu dəyişmənin də görünən, görünməyən üzləri, yaxşı və pis tərəfləri var. Ötən əsrin sonlarında şəhər özü boyda təlatüm dənizinə çevrildi. Xəzərin göy sularında qopan qasırğalar Bakının küçə və meydanlarında baş verən fırtınaların yanında yalan oldu.



[2] İndi bu kafenin yerində Fəvvarələr Meydanı salınıb. Nərgiz kafesi isə tarixə qarışıb.

Məhz bu beynəlmiləl şəhərin mərkəzində yerləşən 2 saylı riyaziyyat təmayüllü rusdilli məktəbin 9-cu B sinfində oxuyan iyirmi iki şagirddən on səkkizi azərbaycanlı, biri erməni, ikisi rus, biri isə yəhudi idi. Azərbaycanlıların on ikisi oğlan, altısı qız, digər xalqlara mənsub şagirdlərin isə hamısı oğlanlardı.

Təqvimlər 1989-cu ilin soyuq noyabr ayını göstərən günün ikinci yarısında, sinifdə Azərbaycan dili dərsi keçirilirdi. O günədək ermənilərlə başqa xalqlar arasında fərq qoyan olmamışdı. Lakin indi Səməd Faiqoviç zəif səsiylə şagirdlərə Ermənistan-Azərbaycan münaqişəsindən danışır, divardan asılmış SSRİ xəritəsində Ermənistan SSR-in ərazisini əlindəki taxtayla Dağlıq Qarabağ Muxtar Vilayəti torpaqlarına qədər genişləndirir, ədalətsiz tələblərdən, beynəlmimiləlçiliyin, kommunizmin iflasa uğramasından, vətənin təhlükədə olmasından danışırdı. Şagirdlər isə, sakitcə oturub onun dediklərinə diqqətlə qulaq asırdılar.

- Dünənin dostları, qardaşları bu gün düşmənə çevrilə bilər uşaqlar. Ermənilər Stepanakert və Yerevanda qəribə şüarlar səsləndirir, Azərbaycan SSR-inin torpaqlarına iddia edirlər. Xəritəyə fikir verin! Dağlıq Qarabağın ümumiyyətlə Ermənistan Respublikasına dəxli varmı? Yox! Bu torpaqlar Azərbaycanındı! Nə olsun ki, Dağlıq Qarabağda ermənilər də yaşayır? İndi buna görə, gərək bizim torpaqlar Ermənistana birləşdirilsin? İndi sizə bir sualım var. Əgər belə bir şey baş versə, yəni torpaqlarımızı əlimizdən alsalar, sizin ermənilərə münasibətiniz necə olar uşaqlar?

Müəllimin özündən razı halda gülümsəməsi, heç kimin diqqətindən yayınmadı.

Şagirdlər, kürəklərinə birdən-birə ağır sual yükünün qoyulmasından çaşbaş qalmışdılar. Bu suala cavab vermək o qədər də asan deyildi. Demək olar ki, bütün sinif Artuşun oturduğu üçüncü sıradakı partaya baxırdı. Kimisi kinayə ilə, kimisi də ona yazığı gələrək. Bircə Zaur əlini partanın altından uzadaraq, Artuşun soyuq barmaqlarını ovucunun içinə aldı. Bu ona təsəlli vermək istəyən dostun jesti idi.

Ən arxa sırada oturan Kamran əlini qaldırıb dedi:

- Səməd Faiqoviç, Qarabağ bizimdir. Onu ermənilərə vermərik! Biz ümumiyyətlə ermənilər kimi deyilik. Onlar heç sünnət də olmayıblar.

Sinifdə bərk qəhqəhə qopdu. Qızların bəziləri utanıb qızardılar. Kamran iki il dalbadal yeddinci sinifdə oxumuş, Ermənilər Qarabağa iddia etməyə başlayınca, vətənpərvərlik duyğuları coşan azərbaycanlı müəllimlər və müdir tərəfindən layiq olmadığı halda doqquzuncu sinfə keçirilmişdi. Qara iki bortlu kostyumun altından ağ xallı göy qalstuk taxmış Azərbaycan dili müəllimi Səməd Faiqoviç alnını qırışdırıb gülümsündü:

- Deməli Kamran, sən Qarabağ bizimdir deyirsən? Bir çıx qabağa. De görüm fikrini əsaslandıra bilərsənmi? Əslində düz deyirsən, Qarabağ həqiqətən də bizimdir. Amma bunu biz yox, ermənilər başa düşməlidir.

Səməd Faiqoviç gözucu Artuşa nəzər yetirdi. Artuş yanaqları pörtmüş halda, başını aşağı salıb oturmuşdu. Zaur onun barmaqlarını daha möhkəm sıxdı, nifrətlə boşboğaz Kamrana baxdı.

Kamranın ağzı açıq, alnı qırışmış, baxışları isə mənasız idi. Bir az da gücəndikdən sonra bir nəfəsə dedi:

- Bizim Bülbülümüz, Natəvanımız, muğamımız, tarımız, kamançamız var. Bunların hamısı da Qarabağdan çıxıb. Ermənilərin amma heç nəyi yoxdu Qarabağda. Onlar orada qonaqdırlar, qonaq kimi də yaşamalıdırlar. Yaşamaq istəmirlərsə, hara ürəkləri istəyir rədd olub gedə bilərlər.

Səməd Faiqoviçin gözləri parıldadı. Ağarmış saçlarına tumar çəkib arxaya darayaraq fəxrlə dilləndi:

- Afərin sənə Kamran! Bunları haradan öyrənmisən belə?

- Evdə atam danışır. Artıq bir ildir ki, ermənilərin hiyləgərliyindən, idbarlığından danışır bizə. Atam Ağdamlıdır. Bunları yaxşı tanıyır, - deyərək, Kamran Artuşu göstərdi.

Kamranın sözləri Səməd müəllim daxil olmaqla, bütün azərbaycanlı tələbələrə ləzzət elədiyi halda, Zaur əlini qaldırıb dedi:

- Səməd Faiqoviç, mən Kamranla razı deyiləm.

- Zaur!? Sən razı deyiləsən? Yaxşı çıx qabağa görək – Səməd Faiqoviç dodağını qabağa uzadıb, ürəyində Zaura, zaurkimi sintetik rusdillilərə lənətlər yağdırdı. Sonra öskürüb, qürurla dedi: - Heç olmasa sən öz fikrini əsaslandıra bilərsənmi? Kamranın sözlərində səni razı salmayan nədir?

- Bəli, əsaslandıra bilərəm! Biz hamımız qardaşıq. Erməni, rus, azərbaycanlı – nə fərqi var axı? Ermənistanda, Qarabağda bir-iki səfehin etdiyi hərəkətlərə görə buradakı ermənilər, sinfimizin əlaçı tələbələrindən biri olan Artuş cavabdehlik daşımır axı!

- Deməli belə... Sən Qarabağın nə demək olduğunu, Azərbaycanımız üçün nə ifadə etdiyini bilirsənmi? Misal üçün Şuşada olmusanmı?

- Bəli, olmuşam! Keçən yaz oradaydım.

- Yaxşı, elə isə orada özünü əsl Azərbaycan şəhərində hiss etmədinmi, Azərbaycan ruhunu duymadınmı?

- Mən Sovet vətəndaşıyam və bununla fəxr edirəm! Azərbaycan, erməni, rus, yəhudi ruhuna inanmıram. Mən Sovet ruhuna inanıram.

- Görünür sən kommunist ailəndən fərli tərbiyə almamısan. Buna “xəyanət” deyərlər. Otur yerinə, Zaur!

Sinifdəki azərbaycanlı tələbələrin çoxunun Zaura yönəlmiş baxışlarından, haqqında nə düşündükləri bəlliydi. Səməd Faiqoviç əsəbiləşmədi. Müntəzəm olaraq Bozqurdların məxfi yığıncaqlarına gedib gələn bu adam, Zaur kimi manqurtları adam eləmək üçün hələ çox işləməli olduğunu başa düşürdü.

Səməd Faiqoviç birdən soruşdu:

- Yaxşı, bəs sizlərdən Yerevana gedən olubmu? Zaurun haqqında danışdığı "Sovet ruhunu" orada duyan olubmu? Nə üçün yalnız biz, azərbaycanlılar Sovet ruhunu daşımalıyıq, ermənilər isə millətçi olmalı, bizə həqarətlə baxmalıdırlar? Nə üçün bizim millətçi təşkilatlarımız olmamalı, ermənilərin isə Daşnakları olmalıdı?

Rus Vyaçeslav Sapunov əlini qaldırdı və üç il əvvəl Ermənistanda olduğunu bildirdi. Orada Sevan gölü sahilindəki istirahət mərkəzlərindən birində yediyi donuz kababından danışdı. Onun sözləri azərbaycanlı tələbələri yaman qəzəbləndirdi. Donuz adının çəkilməsi, seyid nəslindən olan Mirsaleh adlı şagirdin ürəyini bulandırdı, hətta Səməd müəllim onun tualetə gedib qusması üçün sinifdən çıxmasına icazə verdi. Bununla da erməni-azərbaycanlı qarşıdurması sona yetdi, çünki zəng çalındı.

Səməd müəllim köks ötürdü və tələsmədən sinfidən çıxdı. Bütün şagirdlər də onun arxasınca sinfi tərk etdilər. Bu böyük tənəffüs idi. Böyük tənəffüsdə hər kəs bir işin dalınca qaçırdı. Oğlanların bir qismi məktəbin dalında, əmək dərslərinin keçirildiyi binanın arxasında siqaret çəkirdi. Bəzi oğlanlar isə qızların dalınca sülənir, onları yeməkxanada kakaoya və kolbasa buterbroduna qonaq edir, əlaçı şagirdlər qızlara həsr etdikləri şeirləri oxuyurdular. Zaur isə Artuşu biologiya sinfinə itələyərək, ardından qapını cəftələdi.

Zaur üçün dünyanın ən gözəl insanı, indi qəzəbindən, xəcalətindən qıpqırmızı kəsilmişdi. Ağlamağa hazır idi, dodaqları titrəyirdi.

- Sən güclü olmalısan Artuş, - Zaur dedi. – Onlara fikir vermə. Görərsən, hər şey düzələcək, əvvəlkindən də yaxşı olacaq.

- Zaur mənə təsəlli vermək lazım deyil. Heç nə yaxşı olmayacaq. Atam dünən ətraflıca hər şeyi başa saldı bizə. Ermənilər əməlli başlı hücuma keçiblər. Qarabağda, Ermənistanda artıq qan axıb. Buradakılardan hər şeyi gizlədirlər. Moskva bütün hadisələri ört-basdır eləyir.

Zaur məğlub olduğunu başa düşürdü. Doğru sözə nə demək olar? Gerçəkdən Ermənilərin başlatdığı bu mənasız münaqişə, Zauru dünyanın ən gözəl insanından ayıra, ən gözəl gözlərindən məhrum edə bilərdi. Artuş artıq göz yaşlarını saxlaya bilmədiyindən, hönkür-hönkür ağlamağa başladı. Zaur əyildi, Artuşun duzlu yanaqlarından, iri gözlərindən həsrətlə öpdü. Qucaqlaşdılar. Ehtirasla öpüşməyə başladılar.

## 3

- Ata Qarabağda nə olub? Nə üçün ermənilər bizə düşmən olublar?

Adi Sovet mühəndisi olan ata, oğlunun üzünə şəfqətlə baxdı. Çay stəkanını masanın üstünə qoydu, stulun arxasına yaslandı.

- Ermənilər Qarabağı Ermənistana birləşdirmək istəyirlər. Deyirlər, bu torpaqlar bizimdir. Əslində Qarabağ həm qədim Azərbaycan torpağıdır, həm də, ermənilərin bu hərəkəti beynəlmiləlçiliyə ziddir. Bilirsən oğlum, mən yenə də inanmıram ki, bütün ermənilər pisdir. İyirmi illik dostum Aşot, bütün bu söhbətlərin cəfəngiyat olduğunu deyir.

Zaur bu cavabdan qane olmadı.

- Mən yenə də başa düşə bilmirəm - nə üçün Ermənilər Qarabağı almaq istəyir axı?

Ata gülümsündü. Təmkinlə cavab verdi.

- Çünki Qarabağ gözəl, bərəkətli yerdir oğlum.

- Bəs ora birinci bizimkilərin olub, yoxsa ermənilərin?

- Təkrar edirəm - Qarabağ tarixən bizim olub. Hələ qədim zamanlarda, qüdrətli əcdadlarımız bir gün özlərinə böyük şərəf və ətrafı dəhşətə gətirən ad verəcəkləri bu diyara ilk dəfə ayaq basdıqları zaman: "Qara bax!... orada qar var!" - deyə qışqırmışlar. Dağlara yaxınlaşıb, balta dəyməmiş meşələri gördükdə isə "Qara bağ!" deyə hayqırmışlar. Doğrudan da dağların yamacları qara bir bağa oxşayırdı. Elə o zamandan bəri bu diyara Qarabağ deyilir. Oğlum, bil ki, o diyar çox qədim və şöhrətli bir diyardır.

- Ata... Sənin dostun Aşot kimi, mənim də erməni dostum var.

- Artuşu deyirsən? Yaxşı oğlandır. Dostluğunuzda möhkəm olun. Belə mənasız dava-dalaşlar sizə mane olmamalıdır.

Zaur başını aşağı endirdi:

- Ata... Axı məktəbdə hamı onu təhqir edir. Artuş deyir ki, deyəsən Bakıdan getməli olacaqlar. O getsə... mən neyləyərəm?

Ata oğlunun saçını sığalladı. Övladının çəkdiyi əzab, onun ürəyinə xəncər kimi saplanırdı.

- Oğlum, qulaq as mənə. Heç kim heç yerə çıxıb getməyəcək. Başa düşdün? Artuş Bakıda doğulub, o bu şəhərə aiddir. Sən onunla söhbət elə, başa sal. De ki, heç nədən narahat olmasın. Ona, ailəsinə heç kim toxuna bilməz. Bizim millət qəddar deyil, zalım deyil. Qarabağdakı ermənilərin əməllərinə görə, buradakılar məsuliyyət daşımır... Nə isə, ürəyini sıxma. Düzələcək.

***

Artuş isə, artıq heç nəyin düzəlməyəcəyindən son dərəcə əmin idi.

Valideynləri, qonşuluqda yaşayan xeyirxah, azərbaycanlı ailəyə qonaq getmişdilər. Bu rusdilli, köhnə bakılı ailə, Artuşgilin taleyi üçün narahatlıq keçirirdi. Borisə, Artuşun atasına şəhərdən çıxıb getməyi, mümkünsə uzaq bir məhəllədə bir müddət kirayədə yaşamağı təklif edirdilər. Amma Boris razılaşmırdı. Vidadi küçəsi 136 ünvanında yerləşən evlərinin həndəvərində axşamçağı gəzişən naməlum, qara geyimli adamlar, Borisi narahat etsə də, qərarında qəti idi.

- Mən öz şəhərimdən çıxıb gedən deyiləm. Mənə nə Qarabağ, nə də Ermənistan lazım deyil. Mən bakılı balasıyam, Bakıda doğulmuşam, Bakıda da qalasıyam - deyirdi.

Evdə tək qalan Artuşun ürəyi, qəfəsə qapadılmış quş kimi çırpınır, yeniyetmə özünə yer tapa bilmirdi. Gödəkcəsini əyninə keçirib, bayıra çıxdı. Şəhərin küçələrinə, binalara, insanların üzünə - bütün bunları sanki son dəfə görürmüş kimi - acgözlüklə baxırdı. Azmı gəzmişdi, velosipedlə aşındırmışdı, top oynamışdı, şüşə qırmışdı bu küçələrdə? İndi isə bu şəhərə ən yad adam idi Artuş. Bu özgəliyi qanıyla, canıyla hiss edirdi.

İçəri Şəhərə qədər piyada gəldi. Zaurgilə getmək, onu və ailəsini narahat etmək istəmirdi. Qədim şəhərin dolanbaclı küçələri ilə addımlayıb, Qubernator bağına gəlib çıxdı.

Sevirdi bu bağı. Burada nadir, görünüşləri qəmli ağacların altında, daş döşənmiş cığırlarda gəzməkdən doymurdu. Sağda uzanıb gedən qədim qala divarı boyunca on dəqiqəyə yaxın gəzişdi. Yorulanda ağacların arasında düzülmüş skamyalardan birinə oturdu. Palma ağaclarının arasından batan günəşin qırmızımtıl şüaları süzülürdü. Gümbəzli çayxananın qarşısındakı nəhəng hovuzlu fəvvarə işləmirdi. Anaları ilə bağda oynamağa gələn körpələr, hovuzun içinə xırda daşlar atır, özləri üçün seçdikləri hədəfi vuranda, sevinərək əl çalırdılar.

Solğun günəş, boz qala divarına işıq saçır, Artuşun arxasındakı ağacların kölgələri getdikcə uzanırdı.

Batan günəşin parıltısında Zaurun siması durdu gözlərinin qabağında.

Zaur... bu ad, onun üçün ən gözəl Azərbaycan adıdır. Dünyada ən sevdiyi addır. Zaurun əsmər, xoş sifətindəki uzun qara kirpikləri altında, gülər, qığılcım saçan ala gözləri var. Belə nəşəli, həm də çoxbilmiş gözlər yalnız azərbaycanlı oğlanlarda olur. Nazik, hilal qaşlı Zaurun profili, qədim Yunan tanrılarının profilini xatırladırdı Artuşa. Ancaq onun kimi bir oğlan, əsrarəngiz və anlaşılmaz antik Yunan mədəniyyətinin simvolu olan tanrılara bənzədilə bilərdi.

Əsən xəzrinin ağaclardan qopardığı yarpaqlar havada uçuşaraq, yerdəki xəzana qarışırdı. Artuş sevgi ilə, dərin bir ehtirasla tamaşa edirdi bu mənzərəyə. Gözlərini yumdu. Yuman kimi də, arxasında şən gülüş eşitdi:

- Sevgilisini gözləyən cəngavər, deyəsən yuxuya gedib!

Yerindən sıçradı. Zaur düz arxasında dayanmışdı. Əynində lacivərd rəngli seksual məktəb forması vardı. Boynundakı qırmızı pioner qalstuku, dodaqlarının rəngindəydi. Bu dodaqları öpmək, dişləmək, qanatmaq keçdi içindən. Amma burada, insanların tünlük olduğu bir parkda bunu edə bilməzdi.

- Sən məni necə tapdın?

- Gəzə, gəzə gəlib çıxdım bura.

Zaur onun yanına oturaraq, əlini Artuşun çiyninə qoydu. Artuşun nəmli gözlərində əndişə, həyəcan və şübhə oxunurdu.

- Evdə darıxdım. Atamla xeyli söhbət elədik.

- Nə barədə?

- Qarabağdan, ermənilərdən... Konkret olaraq səndən.

- Məndən?

- Bəli, səndən. Atam sənin haqqında yaxşı fikirdədir. Deyir dostluğumuzda möhkəm olmalıyıq. Heç nəyə fikir verməməliyik.

Zaur son cümləni gülə-gülə dedi. Artuş da gülümsündü.

- Nə deməsini gözləyirdin? Sevginizdə möhkəm olun deməliydi?

Zaur qəşş edib güldü. Artuşun çiynini çimdiklədi.

- Axmaq-axmaq danışma. – Ətrafına baxdı. – Eşidən olar. Yazıq kişi, xəbər tutsa ürəyi partlayar.

Artuş başını buladı:

- Gec-tez onsuz da öyrənməyəcək?

Zaur əlini Artuşun çiynindən çəkərək, əsəbi halda:

- Sən dəli olmusan? Nə öyrənməsi?!
- Sakit ol. Ehtimaldan danışıram.
- Heç ehtimaldan da danışma. Lazım deyil.
- Amma onu da bil ki, insanların çoxu mavilərin xoşbəxtliyinə paxıllıq edir və onları bundan ötrü cəzalandırmağa can atır. Adi paxıllıqdan gedir söhbət. Nə isə... Atan daha nə dedi?
- Dedi hər şey yaxşı olacaq. Bakıdakı ermənilər heç bir yerə çıxıb getməyəcəklər. Onlara heç kəs əl vura bilməz. Onlar Azərbaycan vətəndaşlarıdır. İllərlə duz-çörək kəsmişik.
Artuş Zauru ilk dəfə görürmüş kimi, yabançı gözlərlə baxdı ona. Ayağa qalxdı. Acı-acı gülümsəyərək, ayaqqabı ucları ilə yarpaqları eşələdi. Zaurun qabağında var-gəl edə-edə:
- Sən dəli olmusan Zaur? – dedi.
- Bunları mən yox, atam deyir. Demək istəyirsən atam dəlidir?
- Atana dəli deyən yoxdur. Amma o mənim qədər, bizim qədər faciənin nə qədər yaxın olduğunu bilə bilməz. Ola bilsin onun ermənilərlə həqiqətən problemi yoxdur. Amma bizim küçəmiz, - deyərək Artuş əlini parapet tərəf uzatdı, - səhər-axşam qəribə görünüşlü adamlarla dolub-daşır. Gəlirlər, gedirlər, bilmək olmur nə axtarırlar, kimi soruşurlar. Qara dəri gödəkcələrdə gəzirlər. Üzlərindən nifrət, gözlərindən qəzəb yağır. Anama söz atıblar dünən, eşidirsən? Anama!
Zaur da ayağa qalxdı. Onu qolundan tutub silkələdi.
- Özünə gəl! Nə qışqırırsan? İki-üç avara, tüfeyli məhəllənizdə gəzişir deyə, evinizi-eşiyinizi atıb qaçacaqsınız? Bura sənin şəhərindir. Sən bura aidsən. Bakısız yaşaya bilməzsən. Bu dənizin ətrini unuda bilməzsən.
- Sən çox şeyi bilmirsən hələ. Küçəmizdəki azərbaycanlı uşaqlar arxamca "götverən", "qəhbə oğlu", "erməni iti" qışqırırlar. Addımbaşı təhqir edirlər. Halbuki dünənə qədər mənimlə dost idilər. Bir-birimizin velosipedlərini sürürdük, futbol oynayırdıq bir yerdə. Şixov çimərliyinə gedərdik, qarpız yeyərdik...
- Amma sənin gördüklərin, Ermənistanda azərbaycanlıların başına gətirilən oyunların yanında heç nədir!
Artuş sağ ayağı qabaqda, sol ayağı arxada donub qaldı. Elektrik cərəyanına qapılmış kimi, gözlərini iri açdı. Ağzı aralandı. İnci kimi dişlərinin arxasında zərif, çəhrayı dili hərəkətsizdi. Nəmli gözlərindən yaşlar sel kimi axmağa hazırdı. Handan-hana özünə gəlib, əli ilə alnını tutdu.
Zaur da ən az onun qədər pərt olmuş, özünü itirmişdi. Halsızca skamyaya çaxıldı. Başını aşağı endirib:
- Üzr istəyirəm, - dedi.
Artuşun boğuq səsi çox uzaqdan, quyunun dibindən duyuldu:
- Nə üçün?
- ...
- Bəlkə də sən haqlısan.
- Artuş mən...
- Sus! İkiüzlülük eləmə. Sən bu cür düşünürsən. Həmişə belə düşünmüsən. Deməli sinifdə müdafiəmə qalxanda, qeyri səmimi idin! Bilə-bilə ki, sizinkilərə Ermənistanda zülm edilir, sən aramızdakı münasibətə görə, Səməd Faiqoviçə başqa hava oxuyurdun.
- Mən indi də sözlərimin arxasındayam. Atam deyir ki...
Artuş onun sözünü kəsdi:
- Atanın nə dediyi məni maraqlandırmır. Sənin öz fikrin yoxdu? Sən özün görmürsən nələr baş verir? Stepanakertdə, Ağdamda qan axıb. Sən nə danışırsan!
Zaur ayağa sıçradı:
- Bəli axıb. İndi nə edək? Mən dediyimin üstündəyəm! Ermənistanda, Qarabağda nə olursa olsun, buradakı Ermənilərə heç kəs pislik etməyəcək. Bizim xalqımız buna qadir deyil! Sizin nə günahınız var axı!?
- Sən bu qədər sadəlövh idin? Sən bu qədər gözləri kor adamdın? Nə danışırsan? Nə xalq? Nəyə qadir deyil?
Artuş səsini get-gedə ucaldırdı. Üç skamya sağda oturan qadınlar, əl-qollarını ölçə-ölçə sözləşən iki yeniyetməyə tərəf boylandılar. Parkda oynayan uşaqlardan birinin topu, gillənərək Zaurun düz ayağına tərəf gəldi.
Topun dalınca qaçan yupyumru, əsmər qız uşağının əynində açıq yaşıl rəngdə nazik palto, başında ağappaq toxuma papaq vardı. Papağın qulaqcıqları gülməli tərzdə sağa-sola sallanır, uşağı yeni-yeni gəzməyi öyrənən dovşan balasına oxşadırdı.
Zaur gülümsəyərək əyilib yerdən topu götürdü. Sallağı oturub, ona yaxınlaşan qıza nəvazişlə:
- Adın nədi quzum?
- Gülbahar.
- Sənin anan-atan hanı?
- Baaax orda oturublar.
Qız fəvvarənin obiri tayındakı skamyalardan birində oturan gənc valideynlərini göstərdi.
- Al topunu, çox uzaqlara qaçma yaxşı? Ananın-atanın yanında oyna.

Sonra özü də bilmədən nə üçün, qızın yanağından öpdü.

Bayaqdan Zaurun qəribə davranışlarını maraqla izləyən Artuş, qız topunu bərk-bərk qucaqlayıb qaçandan sonra soruşdu:

- Nə olub sənə? Ata olmaq xəyalına düşmüsən?

- Boş-boş danışma. Uşaqları sevirəm. Lenin də uşaqları çox sevərdi.

Artuşu gic gülmək tutdu. Qırıq-qırıq qaqqıldadı:

- Lenin nədi? Lenin kimdi? Özü də o qalstuku hələ nə qədər boynunda gəzdirəcəksən? Sən evdən gəlmirsən? Niyə çıxarıb atmamısan onu? Başın xarab olub?

Zaur incimiş əda ilə təzədən skamyaya oturdu.

- Sənə qalmayıb. Xoşum gəlir taxıram. Özü də nə dikilmisən başımın üstündə? Keç otur da!

Artuş gülməyinə ara vermədən Zaurun yanına oturdu. Əlinin onun dizi üstə qoydu.

- Məndən incimisən? Buna haqqın yoxdu. Mən sənin nə qədər dərin, ağıllı, ürəyi sevgi ilə dolu insan olduğunu bilirəm. Hətta sənin qədər xeyirxah, təmiz niyyətli ola bilmədiyimə görə, özümdən zəhləm gedir.

- Sən nə danışırsan? Nə sayıqlayırsan? Mənim haram ağıllıdır, sevgi ilə doludur?

Artuş Zaura göz vurub hovuzun o tayına işarə etdi:

- Elə bilirsən o qız uşağı ilə niyə bu qədər çənə döydüyünü anlamadım?

Zauru maraq bürüdü.

- Niyə?

- Aramızdakı söhbət böyüməsin, bir-birimizə ağır sözlər deməyək, xətrinə dəyməyək deyə, sən o qızın topunu qaytarma işini uzadıb, uşağa tərbiyə verməyə, özünü əsl "papaşa" kimi aparmağa başladın.

Zaurun mənalı baxışları aşiqinin sifətində gəzişdi. İndi hər ikisinin könlündən bircə arzu keçirdi – vəhşi kimi öpüşmək, sevişmək, həzzin zirvəsinə çatmaq.

- Çox qəribədir Artuş...

- Nədir qəribə olan?

- İndi bizim düşmən olmağımız tələb olunur, elə deyilmi?

Artuş çiyinlərini çəkdi:

- Yəqin ki, elədir.

- Onda belə çıxır ki, iki kişinin əllərinə silah alıb bir-birilərini müharibədə öldürməsi adi haldır. Lakin onların bir-birilərini sevməsi... anormal haldır.

...

Fəlakət sürətlə yaxınlaşırdı.

***

1989-cu ilin dekabr ayının ortaları idi. Sevgililərin Qubernator bağında görüşməsinin üstündən heç bir ay keçməmişdi.

Məktəblərdə dərslərin qurtarmasına az qalırdı. Cəmi bir həftə sonra şagirdlər qış tətilinə çıxmalıydılar. Məktəbin divarları da küçədəki ayazlı hava tək soyuq, buzlu idi. Sinfin pəncərələri çöl tərəfdən buzlu naxışlarla bəzənmişdi. Havası və nəfəsi buzlu olan şəhərin yeganə bəzəyi idi pəncərə naxışları.

Əslində bu günlər ərzində çox şey baş vermişdi. Məktəbə yeni müdir təyin olunmuş, Azərbaycan dili müəllimi Səməd Faiqoviç 134 saylı məktəbə göndərilmişdi. Ermənilərə çəpəki baxanların sayı isə nəinki azalmış, hətta ikiqat çoxalmışdı. Əvvəllər beynəlmiləlçiliyi, tolerantlığı ilə tanınan müəllimlər belə, indi ermənilərə qarşı dözümsüz olmuşdular. Ermənistandan və Qarabağdan qovulan qaçqın və məcburi köçkünlərin də sayı şəhərdə günbəgün çoxalırdı.

Bakı qanlı hadisələrə hamiləydi.

Sinifdəki divar təqvimi 1989-cu il, dekabr ayının 25-i, bazar ertəsi gününü göstərirdi. Artuş ötən həftənin son iki gününü dərsə gəlməmişdi. Onu hər gün sıxışdıran, gözümçıxdıya salan Kamran və sinifdəki digər vətənpərvərlər qələbələrini qeyd edirdilər. Son ana qədər müqavimət göstərən, dərslərini buraxmaq istəməyən Artuş məğlub olmuş, onu müdafiə etməyə, hər gün təhqir eşitməyə gücü qalmayan Zaur da, arxasından atılan atmacalara reaksiya verməz olmuşdu. Ailəsi Artuşun məktəbə getməmək barədə qərarını dəstəkləyirdi. Nəinki məktəbə getmək, ona küçəyə çıxmaq, Zaurla görüşmək də qadağan edilmişdi. Ermənistanda evləri qəsb olunan, yaxınları diri-diri yandırılan, qətlə yetirilən azərbaycanlılar Bakıya, Sumqayıta axın etmişdilər və intiqam atəşi ilə yanırdılar.

Bakı qanlı hadisələrə hamiləydi.

1990-cı ilin 13 yanvar günü, Zaur İçəri Şəhərdəki evində, hər bir şeydən xəbərsiz, Edqar Berrouzun "Boksçu Billi" əsərini oxuyur, baş qəhrəmanın dəyanətinə, əzminə və cəsarətinə heyran qalırdı. O dəqiqələrdə isə, Artuşgilin Vidadi küçəsi 136 ünvanındakı evlərinin qapıları, özlərini Xalq Cəbhəsi adlandıran qara dəri gödəkcəli qızlar və oğlanlar tərəfindən sındırılırdı. Nəhayət qapı altı vətənpərvərin güclü təzyiqi qarşısında tab gətirməyərək, evin içinə aşdı. Amma vətənpərvərlər evdə axtardıqlarını tapa bilmədilər. Artuş və valideynləri qonşuluqdakı kosmopolit, rusdilli azərbaycanlıların evində gizlənmişdilər. Dəri gödəkcəli vətənpərvərlər evdə erməni tapmayınca qab-qaçağı, pəncərələri sındırmağa başladılar. 10 dəqiqə ərzində haradan gəldikləri məlum olmayan iyirmidən artıq qadın və kişi evin içinə doluşmuşdu və kimin əlinə nə keçirdisə daşıyıb aparırdı – televizor, soyuducu, video, paltaryuyan maşın, yorğan-döşək, mebel bir-bir öz doğma mənzillərini, gerçək sahiblərini tərk edib gedirdilər. Ev bir göz qırpımında boşaldı. Bircə heç kəsə lazım olmayan və ayaqlar altında əzilən yüzlərcə kitabdan başqa. Sınıq pəncərələrdən içəri dolan buzlu külək, cırılan Dostoyevski, Qoqol, Mayn Rid, Cek London səhifələrini qanadlarına alaraq onları rəqsə dəvət edirdi. Bom-boş, iri otaqda ahənglə dövrə vuran səhifələrdən bəziləri pəncərələrdən küçəyə uçaraq divarlara, ağaclara, əllərində qənimət əşyalarla evlərinə tələsənlərin xoşbəxt və həyəcanlı sifətlərinə yapışırdı.

Artuş və valideynlərinin gizləndiyi evin sahibi, əlli yaşlı Rüstəm küçədə dayanıb siqaret çəkir, onlarla evin qapısından qucaq dolusu qənimətlə çıxan müharibə qurbanlarına və münaqişə fürsətçilərinə ürək ağrısı ilə tamaşa edirdi. Siqaretin kötüyünü yolun ortasına ataraq evinə qayıtdı.

Artuşun anası Arşalyus səssizcə ağlayırdı. Boris onu sakitləşdirməyə çalışır:

- Biz təhlükəsiz yerdəyik. Narahat olma. Hadisələr yatışsın, problemsiz çıxıb gedəcəyik - deyirdi.

- Mən bilirdim. Bilirdim ki, Sumqayıt hadisələri burada da təkrarlanacaq. İlahi bu nə müsibətdir!..

Artuş isə olduqca soyuqqanlı, rahat görünürdü. Gözlərini qıyaraq anasına, atasına baxır, Rüstəmin təsəlli sözlərini eşitmirdi. Birdən kişinin sözünü kəsərək soruşdu:

- Evimizdə nə oldu?

- Artuş... Əsas odur ki...

- Rüstəm əmi, evimizdə nə oldu?

- Hər şeyi götürüb apardılar. Yəqin ki, heç nə qalmadı.

Bunları bir nəfəsə dedi.

Rüstəmin cavabını eşidən Arşalyus çığırıb, daha bərkdən ağlamağa başladı. Boris arvadının əllərindən tutdu:

- Sakit ol. Mal dərdinə düşmüsən? Özümüz ki, sağ-salamatıq. Pulları, qızılları götürmüşük onsuzda.

- Bəs mənim markalarım?

Hamı üzünü Artuşa çevirdi. Anası da göz yaşlarını əlinin tərsi ilə silərək, heyrətlə oğluna baxdı. Səkkiz yaşından filatelistliyə başlamışdı Artuş. Zaurla onun ən sevdikləri məşğuliyyət idi marka yığmaq. Bu, hobbidən ziyadə, artıq həyat tərzinə çevrilmişdi onlarda. Zaurun ona hədiyyə etdiyi əlliyə yaxın marka yadına düşdükcə, oğlan daha da sınıxır, özünə yer tapmırdı.

Rüstəmin həyat yoldaşı Mehparə oğlanın yanına oturaraq:

- Sənin hələ çoxlu markaların olacaq Artuş, - dedi.

- Mənə öz markalarım lazımdır.

Rüstəm oğlana yaxınlaşıb əlini onun çiyninə qoydu:

- İstəyirsən gedim baxım, inanmıram onlar kiməsə lazım olsun. Hara qoymuşdun markaları?

Boris ayağa qalxdı:

- Rüstəm dəli olmusan, nədi? Hara gedirsən? Onsuz da gözləri su içmir səndən.

Rüstəm acı-acı gülərək Artuşun başını sığalladı:

- Bizim gənc filatelistimizə markaları lazımdır. Mən getsəm heç nə olmaz. Bəlkə də onlardan biri olduğum, evdən nəsə aparmaq istədiyim üçün, mənə hörmət edərlər.

- Belə zarafat eləmə Rüstəm, - dedi Boris və oğluna yaxınlaşdı, - Sən də yaddan çıxart markaları. Camaatı zibilə salma.

- Mən markalarımı istəyirəm!

Gözləri dolmuşdu, dolğun dodaqları titrəyirdi. Ağlamağa hazır idi. Oğlunun bu halına dözə bilməyən Arşalyus, ərinə yalvardı:

- Qurban olum sənə, birtəhər tapaq onları. Bilirsən markaları onun üçün nə qədər əzizdir.

Rüstəm qərarlı addımlarla qapıya tərəf yeridi:

- Bu saat gəlirəm.

Paltosunu geyinə-geyinə:

- Artuş, marka albomların evin harasındaydı?

Artuş xəcalət çəkərək, üzr istəyirmiş kimi:

- Qonaq otağındakı kitab şkafının üstündə. Üç albomu üst-üstə yığmışdım.

- Əla! İndi gətirərəm, - sonra da otağa boylanıb əlavə elədi, - Qadınlar da mətbəxə keçib, yemək hazırlasalar pis olmaz.

Bir neçə dəqiqə əvvəl evlərini, hər şeylərini itirən insanlara təsəlli verməyə, sanki bir az sonra bayram süfrəsi arxasında toplanacaqlarmış kimi, qadınlara yeyib-içməklə bağlı optimist təlimatlar verməyə çalışan bu geniş qəlbli insanın atmosferi yumşaltmaq cəhdləri, doğrudan da təqdirə layiq idi.

Küçəyə çıxıb dərindən nəfəs aldı. Ciyərlərinə dolan buzlu hava başını fırlatdı. “Siqareti təcili atmalıyam” düşündü və bir siqaret yandırdı.

Yolu keçib sol səki ilə iyirmi metr addımladı, üç mərtəbəli evin hündür qapıları qarşısında dayandı. İçəri qərarsız girdi. İkinci mərtəbəyə qalxıb aralı qapıdan evin içinə boylandı. İçəridən səslər gəlirdi. Siqaretini söndürdü, qapını bir az da aralayıb mənzilə girdi.

Dəfələrlə olmuşdu bu evdə. Dəfələrlə Borislə konyak, şərab içib səhərə qədər nərd oynamışdılar. Arvadları da dəfələrlə onlara dünyanın ən ləzzətli yeməklərini bişirib, erməni, rus və azərbaycan dillərində mahnılar oxumuşdular. İndi bu buzlu ev ruhsuz və tənhaydı. Qonaq otağına yaxınlaşdıqca, qapının arasından süzülən işığı gördü. Səslər daha aydın eşidilirdi artıq.

Kişi pəncərənin kənarında dayanmış, siqaret çəkirdi. Qadın isə diz çöküb, parketin üzərinə səpələnmiş kağız-kuğuzu, kitabları eşələyirdi. Kişi siqaretin külünü yerə çırpa-çırpa, tənbəlcə dilləndi:

- Aaaz orda dokument nə gəzir? Aparıblar yüz faiz.

- Ay Qərib, dokumentsiz necə olacaq?

Kişi cavab vermək üçün ağzını açmışdı ki, Rüstəmi gördü.

- Nə lazımdı qardaş? Heç nə qalmayıb. Evi də biz tutmuşuq.

Rüstəm otağa keçdi. Qadın ayağa qalxaraq üstünü çırpdı. Bir ərinə baxdı, bir Rüstəmə. Sonra sifətini ciddiləşdirdi, ərinin sualını təkrarladı:

- Nə lazımdı ay qardaş?

- Mənə? Eeee, kitablara baxmağa gəlmişəm.

Kişi qəşş edib güldü. Arvadına baxdı. Bir yerdə gülməyə başladılar. Gülməkdən gözləri yaşaran kişi, Rüstəmə yaxınlaşdı.

- Kitabı neynəyirsən? Camaat mebel aparır, televizor aparır. Ara küçələrdə istəmədiyin qədər erməni evi qalıb.

Rüstəm sifət ifadəsini dəyişdirmədən təkrar elədi:

- Mən ancaq kitablarla maraqlanıram.

Arvad ərinə döndü:

- Ay Qərib, aparsın da kitabları, nəyimizə lazımdır? Lap yaxşı.

- Aaz mən nə deyirəm, aparsın da.

Özünü tuta bilməyib yenə güldü.

- Biz də... biz də bura gələndə bu kağız-kuğuzdan başqa heç nə qalmamışdı. Mənim çoxdandan bəxtim gətirmir. İki küçə o yanda Sisian qaçqını dörd otaqlı dolu evə girdi. Top vursan dağılmaz. Bizə isə bomboş ev qismət oldu, - sifətini ciddiləşdirib dedi, - Boş ev də qənimətdi. Orda-burda qalmaqdan ki, yaxşıdı.

Rüstəm otağın hər tərəfinə dağılmış yüzlərlə kitabın ortasına çökərək, onların arasında marka albomlarını axtara-axtara soruşdu:

- Siz hardansınız ki?

- Masisdən.

Rüstəm başını qaldırıb diqqətlə kişinin üzünə baxdı.

- Ermənistandan?

- Başqa harda Masis var? Hə, Ermənistandan.

Rüstəm təzədən kitablar arasında eşələnməyə qoyuldu.

- Bakıda harda qalırdınız?

- Krupskidə bir ev tutmuşduq. Sağ olsun yiyəsi bir qəpik pul almadı məndən. Üç uşağımla bu qışın soyuğunda qalacaqdım küçələrdə.

Arvad ərinin sözlərinə əlavə elədi:

- Erməni binamusları, gör Bakıda hansı evlərdə yaşayıblar. Oğraşlar evimizə od vurdular, qardaşımın ailəsini öldürdülər. Körpə uşağına da yazıqları gəlmədi.

Rüstəm albomlardan birini taparaq sevindi. Onu bir kənara qoydu, axtarışlarını davam etdirdi:

- Bayaq eşitdim nəsə dokument axtarırdınız. Nə dokumentidi o elə?

Kişi təzə siqaret yandırıb, gözlərini qıydı.

- Yaman sual verirsən ha, əmi oğlu.

- İstəmirsən söhbət eləməyək. Elə belə sual verdim də. Bəlkə bir köməyim toxunar sizə.

- Mənə dokument zad lazım deyil. Arvad deyir ki, madam bu evə köçürük, gərək sənədləri də əlimizdə olsun. Sənədi neynirəm!? Erməni məni evimdən didərgin salıb, uşaqlarımın üçü də qorxudan indiyə qədər yata bilmirlər, xəstəlik tapıblar. Masisdə millətimə divan tutub bu dəyyuslar. Hələ mən Sisiandan danışmıram. İndi mən, bu erməni köpək uşaqlarının evinə sənədlə girməliyəm? Bu ev daha mənimdi! Qurtardı getdi. Kimin götü çatır, gəlib alsın əlimdən bu evi. Murdar köpək uşaqları, bunların Bakıda yaşadığı evlərə bax!

Kişi otağa göz gəzdirdi. Başını bulaya-bulaya əlavə elədi:

- Məndən artıqdı ermənilər? İndi Bakının mərkəzindəki bu üç otaqlı mənzildə mən yaşayacağam. Ailəm yaşayacaq!

Kişi son cümləni elə qətiyyətlə dedi ki, sanki yerdə tozlu kitablar arasında qurdalanan adam, onu bu evdən qovmağa gəlmişdi.

Rüstəm albomlardan birini də taparaq, birincisinin üstünə qoydu. Bu anda, qadın kitabların üstünə basa-basa Rüstəmə yaxınlaşdı.

- Nə axtarırsan ay qardaş?

- Dedim axı – kitab.

Qadın əyilib albomlardan birini götürdü. Açıb baxdı. Əri də ona yaxınlaşıb çiyninin üstündən markalara göz atdı.

- Qardaş bunun harası kitabdı? Sən də az aşın duzu deyilsən ha!

Övladı olmayan Rüstəm, köks ötürərək yalandan dedi:

- Oğlum marka yığır. Gördüm burda markalar var, fikirləşdim birinci onları tapım.

Arvad albomu bağlayıb yerinə qoydu. Kişi siqareti sınıq pəncərədən bayıra vıyıldadıb qətiyyətlə soruşdu:

- Kitabları da aparacaqsan?

Rüstəm başını qaldırdı. Göz-gözə gəldilər.

- Narahat olma. Sabah maşın çağırtdırıb, hamısını apararam. Bircə dənə də qalmayacaq.

- Ay sağ ol. Allahköməyin olsun. Allah balalarını saxlasın. Canımızı qurtar bu zir-zibildən. Onda biz silib-süpürməyə obiri otaqlardan başlayarıq. Hələ gərək mebel tapaq. Mətbəxdəki sınıq-salxaq mebellərdən başqa, evdə bir çöp də qoymayıblar.

Rüstəm pəncərənin altındakı kitab yığınının arasından üçüncü albomu da taparaq ayağa qalxdı. Dizlərinin tozunu çırpdı. Albomları qoltuğunun altına vurub:

- Xudahafiz - dedi. – Sabah gəlib bütün kitabları aparacağam. Onları atıb eləməyin.

Kişi Rüstəmin əlini sıxıb, sevincək:

- Ay sənə qurban olum, dedi. - Biz bilmirik məgər kitab nədir? Kitabı atmaq olar? Prosto indi kitab oxumaq vaxtı deyil. Ailəmi, uşaqlarımı yerbəyer eləməliyəm. Gəl apar onları, sən allah.

Rüstəm son dəfə boş otağa göz atıb, mənzili tərk etdi. Küçəyə çıxıb yolu keçdi. Evinin qapısını açanda, içinin fərəhlə dolu olduğunu hiss etdi. Çətin vəzifənin öhdəsindən gəlmiş adamın rahatlığı, arxayınlığı vardı ürəyində.

Artuş onu görüb, fişəng kimi ayağa sıçradı. Qaça-qaça Rüstəmə yaxınlaşdı. Əlindən albomları aldı, bir-bir səhifələrini yoxladı. Markaların biri də itməmişdi. Gənc filatelist minnətdarlıq dolu gözlərlə baxdı qonşusuna. Qucaqlayıb yanağından öpdü onu. Mehparə oğlana yaxınlaşıb başını sığalladı.

- Gördün Artuş, markaların da gəldi.

Sonra ərinə baxdı:

- Nə gec gəldin ay Rüstəm.

- Axtarıb tapmaq xeyli vaxt aldı. Kitabların hamısı yerdədi. Onların arasından tapdım.

Arşalyus boşqabları masanın üstünə düzürdü. Rüstəmin kitablarla bağlı dediklərinə sakit reaksiya verdi:

- Onsuz da onların acığına, hamısını oxumuşuq. Bundan sonra, istəyirlər lap od vursunlar kitablara.

Qadın bunları deyib, öz sözlərinə güldü. Evdəki hər kəs ona qoşuldu. İnanılmaz bir mənzərə yaşanırdı evdə. Bakını ən qısa zamanda tərk etmək barədə düşünən ermənilər və onlara evlərində sığınacaq verən kiminə görə mərhəmətli, kiminə görə isə xain azərbaycanlılar ürəkdən gülür, şəhərdə baş verən ağlasığmaz hadisələrin acığına şənlənirdilər.

Boris albomlarını əzizləyən oğlunun qulağına əyilib sakitcə soruşdu:

- Zaurla danışmaq istəyirsən? Zəng vuraq ona?

- İstəmirəm. Hər halda lazım bilsəydi, burada, yanımda olardı. Şəhərdə nələrin baş verdiyini o bilmir məgər?

Qadınlar yeməkləri, salatları masanın üstünə düzdükdən sonra, Mehparə əl çalaraq ev əhlini yeməyə dəvət etdi.

- Hər şey hazırdır. Buyurun süfrəyə. Köhnə yeni ilimiz mübarək.

***

Zaurun valideynləri şəhərdə baş verən qırğınlardan xəbərdar olsalar da, bunu oğullarından gizlətdilər. İçəri Şəhəri qəribə bir sükut təhdid edirdi.

Gecənin dərin qatında, kitabını bağlayıb otağının işığını söndürən Zaur, çarpayısına uzandı. Buludlar arxasında gah gizlənən, gah çöhrəsini göstərən bədirlənmiş aya tamaşa elədi. Qarşıdakı binaların arxasından təpəsi görsənən əfsanəvi Qız qalasının siluetinə baxdı. Qalanın arxasında baxışları tamamən sönük qurğuşun rəngli, anlaşılmaz Xəzər dənizi uyuyurdu. Onun da arxasında Əhmədlinin, Zığın sayrışan işıqları Zaura göz vururdular. Bu mənzərə dünyanın ən gözəl mənzərəsi idi onun üçün. Zaur bu düz dənizi, İçəri Şəhərin yastı damlarını, bu qədim şəhəri çox sevirdi. Amma bu sevgi, bir erməniyə aşiq olmağa mane olmurdu ona.

Artuşu düşündü. Neçə vaxt idi ki sevişmirdilər. Buna imkan tapmırdılar. Əli qeyri ixtiyari olaraq yorğanın altına sürüşdü. Sərt dəmirağacını sıxdı. Gözlərini yumaraq sevgilisinin qoxusunu hiss etməyə, dodaqlarının nəmini, badam gözlərindən gillənən duzlu damlaların tamını duymağa çalışdı. Körpə budağından fışqıran şirə ovucuna, qarnına, göbəyinə dağılıb, yorğanı islatdı. Ovucuyla şirəsini toplayan Zaur, əlini çarpayının altına bir neçə dəfə sürtdü. İndi artıq şirin yuxuya gedə bilərdi.

Narahat Bakı isə, özünü daha böyük faciələrə hazırlayırdı.

## 4

Sinfin yarısı, əsasən qeyri azərbaycanlılar dərsə gəlməmişdi. Şagirdlərin, hətta müəllimlərin əksəriyyətinin üzündə qorxunun, əndişənin kölgəsi vardı. Artuşun yeri boş qalmışdı. Bu parta arxasına onsuz oturmağa dözə bilməyən Zaura dünya dar gəlir, sinif zindan görünürdü. Daldığı xəyallardan sırtıq-sırtıq gülən Kamran ayırdı onu. Boksçu Billi qədər güclü olsaydı Kamranı əzişdirər, ağzı-burnunu qanadardı. Təəssüf ki, nə boksçuydu, nə də Billi. Lap ona gücü çatsaydı belə, Kamran vətənpərvər idi, o isə kosmopolit. Heç şübhəsiz haqlı da, haqsız da olsa - qınaq obyektinə özü çevriləcəkdi.

- Dostun Artuş, rədd olub getdi şəhərdən. Səhər sübhdən, satqın qonşuları yola salıblar onları.

Zaur başına qaynar su tökülmüşə döndü. Titrəyən səsi ilə dedi:

- Yalan deyirsən! Yalan!

- İnanmırsan 9 A-dan Seymurdan soruş.

Artuşun qonşusu Seymur, Vidadi 142 ünvanında yaşayırdı.

- Səhər dərsə gələndə Seymuru gördüm yolda. Danışdı mənə hər şeyi. Görürsən?! Sənə demişdim ermənidən dost olmaz? Heç sənə zəng də eləmədi. Evlərində də indi qaçqın ailə yaşayır.

Sonra da Zaurun qulağına əyilərək əlavə elədi:

- Axırıncı erməni ölənə, ya da Bakıdan vızqırıb gedənə qədər mübarizəmiz davam edəcək. Gözə-göz, dişə-diş. Masisdə, Sisianda öldürülən, Qarabağdan didərgin salınan azərbaycanlıları yaddan çıxarma Zaur!

- Bunun Artuşa nə dəxli var axı? – soruşdu nəmli gözləri ilə. Ağlamaq istəyirdi, amma Kamrana zəifliyini göstərmək istəmirdi.

- Nə dəxli var? – Kamran çiyinlərini çəkib qamətini düzəltdi. – Ermənilər Qarabağda, Ermənistanda yaxşı pis fərqi qoymadan, bütün azərbaycanlıları qanına qəltan edir. Biz nə vaxta qədər dözəcəyik? Biz nə vaxta qədər erməniləri yaxşılara, pislərə ayıracağıq? – Bir az fikirləşib dedi, - görürəm çox məyus olmusan Zaur... Sən pis oğlan deyilsən. Amma ermənidən adama dost olmaz. Bunu nə qədər tez başa düşsən, özün üçün o qədər yaxşı olar.

Zaur oturduğu yerdə daş kəsilmişdi. Kamranı eşitmirdi artıq. Bu şəhəri həmişəlik tərk edən sevgilisinin yanındaydı düşüncələri.

Böyük tənəffüsə qədər birtəhər sinifdə oturdu. Müəllimlərin danışdıqlarını duymur, gözləri heç kimi görmürdü. Zəng çalınan kimi çantasını qaparaq, bayıra cumdu. Bünyad Sərdarov küçəsi ilə üzü aşağı, Baksovet metrosu tərəfə tələsdi. Şəhərlərində nələrin baş verdiyini anlamaqda çətinlik çəkən Bakı sakinlərinin bozarmış sifətlərinə baxdı yolboyu. Göz yaşlarını içinə axıda-axıda, İçəri Şəhərin qapısına çatdı. Ayaq saxladı. Evə getmək fikrindən daşınıb Qubernator bağına üz tutdu. Parkdakı çılpaq ağaclar yalqız görünürdülər. Ağaclar qədər tənha pişiklər parkda vecsiz gəzişir, yanlarından sürətlə ötüb keçən şəhər sakinlərinin, hara və nə üçün tələsdiklərini başa düşmürdülər. Bircə içinə ülgüc qədər iti kədər çökən Zaur pişiklər kimi heç bir yerə tələsmirdi.

Yavaş-yavaş sahilə, bulvara gəlib çıxdı. Burada da tənhalıq axtaran çılğın sevgililərdən savayı heç kəsi görmədi. Soyuq skamyalardan birinə oturaraq, üfüqdə çətinliklə sezilən Nargin adasına baxdı. Göz yaşlarının boşalmasına necə, nə vaxt icazə verdiyini özü də bilmədi. İlıq damlalar çənəsini qıdıqlamağa başlayanda əlləri ilə gözlərini, yanaqlarını sildi. Artuşla birgə aldıqları, amma çəkməyə fürsət tapmadıqları Rodopi qutusunu çantasından çıxartdı. Həyəcandan və soyuqdan titrəyən barmaqları ilə qutunun ağzını açaraq bir siqaret götürdü, dodaqları arasına qoydu, kibrit çöpünü çaxıb siqaretin ucuna yaxınlaşdırdı. İlk qullab öskürtdü onu. Bir az fasilə verdikdən sonra ikinci dəfə dumanı içinə çəkdi. Bu səfər ehtiyatlı davrandı. Siqareti çəkib bitirdikdən sonra, bu zəhrimarın böyüklər tərəfindən nə üçün rəğbət gördüyünü düşündü. Cavab tapa bilmədi. O, sadəcə kədərli və əsəbi olanda siqaret çəkməyin insanı yüngülləşdirdiyini eşitmişdi. Atası çəkmirdi, amma gündə iki qutu çəkən əmisi siqaret çəkməsə əsəbdən ölə biləcəyini tez-tez təkrarlayırdı.

Doğrudan da azacıq özünə gəldiyini hiss etdi. Hələ hər şeyin bitmədiyini, müharibənin bir gün mütləq qurtaracağını, Artuşun bəlkə də yenə Bakıya qayıdacağını düşündü.

"Niyə olmasın ki? Bu düşmənçilik əbədi ola bilməz axı. O qayıtmasa, mən gedərəm yanına. Böyüyəndə gedərəm..."

Soyuğun sümüklərinə işlədiyini, donduğunu hiss etməyə başlayanda, ayağa qalxıb evin yolunu tutdu.

...

Əlbəttə, güman etdiyi kimi olmadı. Nə münaqişə bitmədi, nə də Artuş geri dönmədi. Lakin ümidlə yaşamalıydı. Tək sığınacaq yeri idi ümid. Heç kim ona təsəlli verə, dərdinə şərik çıxa bilməzdi. Bu elə bir məhəbbət idi ki, onun haqqında danışmaq, onu kiminləsə bölüşmək Zaurun bir şəxsiyyət, insan kimi bitməsinə, tükənib getməsinə səbəb ola bilərdi. Bu regionda, hətta bütün SSRİ-də onu anlayacaq adamı istəsəydi belə, tapa bilməzdi.

Evə gəlib, təmiz bir dəftərə ürək sözlərini yazdı Zaur. Bu bir and, bir fəryad idi. Yazdı və illər boyu saxladı. Onun göndərmədiyi, əsla göndərməyəcəyi məktubdan sətirlərdir bunlar:

“...Ürəyimdəki sevgi alovu heç vaxt sönməyəcək. Ola bilsin nə vaxtsa közə dönəcək, amma sönməyəcək! Səni bir ömür qədər sevəcəyimə, əbədi sevginlə yaşayacağıma, o gözlərini hər zaman gözlərimdə canlı tutacağıma, ən yaxın dostun, ən əziz sevgilin olacağıma, əsla soyuqdan və yalnızlıqdan üşüməyəcəyimə, yanında olmadığım və varlığına ehtiyac duyduğum hər anda, bir dəli külək olub səni saracağıma, həyatım boyu hər sabah sənə aşiq olaraq oyanacağıma, əlini asta-asta, qorxa-qorxa tutduğum, dodaqlarını ürkək-ürkək öpdüyüm o ilk gündə vücudumu saran həyəcanı daima yaşayacağıma, bütün dənizlərdə səni görəcəyimə, göy qurşağına yelləncək qurub 7 rəngə sənin rəngini qarışdıracağıma, hər sətirdə səni yazacağıma, hər bir anın unudulmazlıq zəncirinə bir yeni halqa əlavə edəcəyimə, səni ”SƏN” olduğun üçün sevəcəyimə söz verirəm Artuş!”

***

1990-cı ilin 20 Yanvar gecəsi havadan qan qoxusu gəlirdi. Ağaclarda tək bir yarpaq tərpənmir, küçələrdəki it və pişiklər gözə dəymirdi. Hətta ay da qəribə, qırmızımtıl çalarlara boyanmışdı. Lenin və XI-ci Qızıl Ordu meydanları insan selinə təslim olmuşdu. Saat 22.00 radələrində mikrorayonlardan şəhərin mərkəzinə gedən yollar-da tonqallar qalanmış, avtobus və trolleybuslar çəpəki olaraq magistrallara düzülmüş, barrikadalar qurulmuşdu.

Zaur məktəbdən qayıtdıqdan sonra qapandığı otağından beş saat çıxmamış, yemək yeməmişdi. Anası, güllü dəsmalın ucuyla gözlərini silərək, ərinə:

- Bu uşağın halı heç xoşuma gəlmir. Neynəyək ay Heybət? – dedi.

Heybət gözünü ekrandan ayıraraq, qınaq dolu gözlərlə arvadına baxdı.

- Sənə dedim narahat olma, hər şey düzələcək. Dostundan ayrılıb, bundan təbii nə ola bilər? Adamın pişiyi öləndə, neçə gün özünə gəlmir. Bir də harda, nə vaxt görəcək o gedəni?

Arvad ağlamsınıb kədərli-kədərli kreslonun ucuna oturdu.

- Bəs bu işlərin axırı necə olacaq ay Heybət?

Respublikada nələrin baş verdiyini öyrənməkdən ötrü xəbərlər proqramını dörd gözlə gözləyən Heybət, nəzərlərini bir daha televizordan sürüşdürüb, əsəbi səs tonuyla bir nəfəsə dedi:

- Elə bu axırıdır da ay Qəndab! Bundan sonra nə əvvəl, nə axır? Bayaq Sərxanla danışdım. Deyir, bütün yollara barrikadalar qoyublar, rusların qabağını kəsəcəkmişlər. Axı bu axmaqlıqdır! Adi maşınlarla tankların qarşısını necə almaq olar? Əgər tanklar doğrudan da şəhərə girmək istəsələr, bu sipərləri ikicə saniyəyə əzib keçə bilərlər.

- Uşaq da çörək yemir...

Əri onun sözünü kəsdi:

- Hələ heç kim acından ölməyib. Vaxtı çatanda özü gəlib yeyəcək.

- Xəstəlik tapa bilər ey!

- Tapmaz, narahat olma... Aləmi qatdılar bir-birinə oğraşlar. Gül kimi yaşayırdıq. Bu boyda dövləti gör nə günə qoydular.

Qəndab, ərinin kimə söydüyünü, kimi ittiham etdiyini dəqiqləşdirmədən ayağa qalxıb, mətbəxə keçdi. Dolma qazanını qazın üstünə qoydu, Zaurun otağının qapısına yaxınlaşdı.

- Zaur, oğlum, öldün ki, acından! Bəsdir özünü də girinc elədin, bizi də. Gəl bir tikə çörək ye.

Qapı qəfil açıldı. Yeniyetmənin üzü ağappaq kəsilmiş, bənizində damcı qan qalmamışdı. Qadın övladının zəiflədiyini, saman çöpünə döndüyünü yalnız indi fərq etdi. Əlləri ilə başını tutdu:

- Ay bala, sən məni öldürmək istəyirsən?!

Oğlan birdən-birə anasına sarıldı, onu möhkəmcə qucaqladı, başını sinəsinə sıxaraq:

- Qorxuram, çox qorxuram, - deyə fısıldadı.

Ana özünü itirdi. Əyilib oğlunun başından öpdü. Son dəfə lap körpə olanda, kabus görüb yuxudan sıçrayanda anasına beləcə sarılmışdı.

- Nədən qorxursan bala? Danış görüm mənə.

- Bilmirəm... Hamı çıxıb gedir... Gedirlər... Onların yerinə başqaları gəlir. Qəribə adamlar gəlir. Heç kimi tanımaq olmur. Hər şey çox dəyişib ana.

Oğlunun sözlərini anlamırdı Qəndab. Nə demək istədiyini başa düşmürdü. Çaşıb qalmışdı.

- Qurban olum, ürəyinə salma. Düzələcək...

Zaur anasını buraxıb geriyə bir addım atdı. Gözləri bomboşdu, ifadəsizdi.

- Heç nə düzəlməyəcək ana... Heç nə... – Fikrə daldı və gözlənilmədən, - Yaxşı... çörək hazırla yeyək, - dedi və qonaq otağına keçdi.

Qəndab sevindiyindən nə edəcəyini bilmədi, quş kimi qanad açdı. Mətbəxə qaçıb soyuducudan göy-göyərtiləri, qatığı çıxartdı. Çörək doğradı. Dolabdan 3 litrlik çiyələk kompotu balonunu çıxardı.

Heybət gözlərini ekrandan çəkmədən oğlundan soruşdu.

- Məktəbdə nə var, nə yox?
- Heç nə. Sinfin yarısından çoxu dərslərə gəlmir neçə gündü.
Ata oğluna baxdı:
- Niyə?
Zaur çiyinlərini çəkdi:
- Mən hardan bilim? Gəlmirlər də. Deyilənə görə qırğın olacaq... Axır-əvvəl rus şəhərə gəlib hamını güllələyəcək.
Heybətin üzündəki ifadədən qorxduğu, amma qorxusunu biruzə verməməyə çalışdığı aydın görünürdü. Yenə də dedi:
- Boş-boş danışırlar, sən də inanırsan. Elə şey olar?! Gəlsələr də, uzaqbaşı küçədəki adamları evlərinə qovacaqlar.
Qəndabın şən səsi eşidildi:
- Heybət, süfrə hazırdı. Zaur, oğlum gör anan sənin üçün nə dadlı dolma bişirib.

***

O dəqiqələrdə şəhərin müxtəlif nöqtələrində maşınlar şütüyür, səsgücləndiricilərlə camaatı küçələrə çıxmağa, meydanlara toplanmış xalqa kömək etməyə çağırırdılar. Belə maşınlardan biri İçəri Şəhəri səs küylə ayağa qaldıranda, saatlar 22.30-u göstərirdi.
“Ay adamlar, çıxın, siz çıxmalısınız, meydana köməyə getməlisiniz! Orda tanklar var, adamları öldürürlər... Rus imperiyası azad Azərbaycanı boğmaq istəyir, onlar bizə azadlıq vermək istəmirlər!”.
Heybət pencəyini çiyinlərinə ataraq, arvadının deyinməyini, yalvarışlarını qulaq ardına vurub küçəyə çıxdı. Kiçik qala küçəsində onlarla kişi və qadın dayanmışdı. Kişilər siqaret çəkir, alçaq səslə öz aralarında nə barədəsə danışır, qadınlar isə bir əlləri sağ böyürlərində, obiri əlləri ilə ağızlarını tutub, başlarını bulayırdılar. Vecsiz uşaqlar valideynlərinin ətrafında qaçışaraq, “Azadlıq, Azadlıq” qışqırırdılar.
Heybət qonşusu Ağakərimə yaxınlaşıb soruşdu:
- Şəhərdən nə xəbər?
- Nə xəbər olacaq? Yığışıb gedirik meydana. Gəlirsən gəl.
- Bunun nə mənası var axı?
- Qorxursan?
- O nə sözdü?!
- Elə çıxır də! Bütün xalq küçələrə tökülüb, biz evdə oturaq? Kişilikdəndi? Tanklar gəlir. Qoy görsünlər ki, heç nədən qorxmuruq.
- Onlar üçün adamları əzib keçmək çətin deyil ki!
- Buna cəsarətləri çatmaz. Əzə bilməzlər, güllə ata bilməzlər. Kimə atacaqlar? Öz vətəndaşlarına? Erməni qala-qala, bizi niyə vurmalıdılar?
İlk mərmi səsi çox uzaqlardan eşidildi. Səs zəif olsa da, Kiçik qala küçəsində dayanan hər kəs bir anda başını qaldırıb göy üzünə baxdı.
- Deyəsən gecikdik, - dedi Ağakərim, xırıltılı səslə. Heybət onu çətinliklə eşitdi.
- Deyəsən...
...
Sovet Ordusunun böyük kontingentinin xüsusi təyinatlı bölmələri və daxili qoşunları artıq Bakı küçələrində qırğına başlamışdılar.
Salyan kazarmasından bir göz qırpımında, qeyri-adi sürətlə yollara tökülən tanklar, yoldan keçən maşınları tırtılları ilə əzərək, meydanlara toplaşanları, trolleybus və avtobuslardakı sərnişinləri qana boyayan “atəşfəşanlığa” başladılar. Bakıya yeridilmiş kontingent, bəzi məlumatlara görə, “döyüş tapşırığını” yerinə yetirmək üçün möhkəm psixoloji hazırlıqdan keçmiş 60 min əsgərdən ibarət böyük qoşun idi. Sayları nə qədər olursa olsun, hansı millətə mənsub olurlar olsunlar, Bakı sakinlərinin “saqqallılar” dediyi əsgərlər, şəhərin küçələrini insan qanı ilə naxışlayırdılar. Zülmət qaranlıq küçələrdə artıq fənərlər də yanmırdı. Bir anda yaylım atəşi ilə diksinən əhali, evlərinin eyvanlarına doluşdular. Sovet şəhəri Bakı, Sovet ordusunun döyüş mərmiləri ilə sarsılırdı. Bu ağlasığmaz idi.
Tanklar artıq Bakıxanov küçəsi ilə gedirdilər. Yollar cadar-cadar olmuşdu, güllələr vıyıltı ilə dörd bir yana uçurdu. Pəncərələri çilikləyən bu güllələr evlərində oturan insanların xalqlar dostluğuna olan inamlarını öldürdü o gecə (əslində xalqlar dostluğuna inam çoxdan ölmüşdü). Tanklar ildırım sürəti ilə Bakı yollarından keçib arxada kəsilmiş qollar, parçalanmış əzalar, sahibsiz palto-papaqlar buraxıb yollarına davam edirdilər. Kalaşnikovun ağırlıq mərkəzi dəyişən 5,45 çaplı güllələrindən istifadə olunaraq, tərpənən hər şeyə və hər kəsə güllə atılırdı.

Tank gurultusundan, mərmilərin səsindən qulaqlar batırdı. Əliyalın insanlara divan tutulur, tankların altına salınıb xıncım-xıncım edilirdilər. Baş verən hadisənin miqyasını dərk etməyən bir çox adam, tankların qarşısında yerə oturur, uzanırdılar. Bununla onlar hərbi texnikanın hərəkətinin dayandırılacağını ümid edirdilər. Texnika isə nəinki hərəkətini dayandırır, əksinə daha da sürətlənərək, onları yerlə bir edirdi. Mətbəxdə qazan asıb ailəsi üçün xörək bişirən ananı, körpə uşaqları, səsə-küyə küçəyə çıxan xəstə, ahıl qocaları belə qanlarına qəltan edir, qətlə yetirirdilər.

İnamlar, əqidələr, ümidlər güllələndi, doğrandı, qırıldı, parçalandı o gecə... Orta məktəb şagirdləri, tələbələr, fəhlələr, oğlan, qız, gəlin və cavanlar, yaşlılar, azərbaycanlılarla yanaşı, ruslar, yəhudilər də öldürüldülər. Lenin meydanı isə hərbi texnika ilə mühasirəyə alınmışdı.

Qırmızı xəttlərlə, havada uçan "işıqlı güllələrlə" işıqlanan gecənin qaranlığında dəhşətdən ağlını itirmiş adamlar ora-bura vurnuxurdular. Gözü qaralmış "ölüm maşını" şəhəri al qana bulamağa davam edirdi. Adamlar qaçır, arxalarınca güllələr uçurdu. Dövrələmə açılan atəşdən sağ çıxmaq möcüzə idi. İnsanlar küçədə, maşınlarında, evlərində həlak olurdular. Faciənin hər dəqiqəsində ölənlərin siyahısı durmadan artırdı.

XI-ci Qızıl Ordu metrosunun yanında qurulan barrikadalarda, bir nəfər benzinlə dolu butulkanı tanklara atmaq istəyəndə, butulka dostuna tuş gəldi. Şalvarı, ayağı yanmağa başladı. Ağrıdan naləsi ərşə yüksələn kişinin arvadı, onun qoltuğunun altına girərək ərini sürütləməyə başladı. Metronun düz yanında, ağaclarla əhatələnmiş xiyabana çata-çatda, qadın Şamaxinka tərəfdən, Sumqayıt yolu ilə bir neçə tankın onlara yaxınlaşdığını gördü. Yolu qaçaraq keçdi. Səkinin üstündə üç yaralı uzanmışdı. Onlara sarı atıldı. Ərini və iki yaralını yolun o biri tərəfinə, tonqalların yanına keçirtdi. Üçüncü yaralının yanına qaçanda isə, tank zarıyan adamın üstünə çıxdı. Qadın yaralıya o qədər yaxınlaşmışdı ki, kişinin qanı birbaşa üzünə sıçradı. Qadın dəhşət içində geri qaçdı, iki yaralını və ərini Jiquliyə oturtmağa kömək elədi. Əri danışa bilmirdi. Ancaq arvadının qanlı üzünə gözləri ilə işarə edə bildi.

- Mənim qanım deyil Xəlil, narahat olma. Yaralının qanıdır...

Bir yandan isə gənc aşiqlər (bəlkə də ər-arvad) yolu keçib, beşmərtəbəli evlərin olduğu mikrorayona girmək istəyirdilər. Oğlan özünü itirərək dayandı. Şokdan quruyub qalmışdı. Ətrafda baş verənləri ağlı almırdı, başa düşmürdü. Bənizi ağarmış, dili tutulmuşdu. Qız onu qolundan tutaraq silkələdi: "Qabaqdan tanklar gəlir, bu tərəfə qaçaq!" Sonra göyə baxdı nə üçünsə. Göy üzü bayramlarda atılan salyuta oxşar fişənglərlə aydınlanmışdı. Bu səfər oğlan qızı dartmağa başladı. Ayaqları sözünə qulaq asmır, qaça bilmirdi qız. Başlarını və səmtlərini itirmiş adamlar bilmək olmurdu hara qaçışırdılar. Oğlan möhkəmcə onun əlindən tutub, mikrorayona tərəf götürüldü. Hündür topuqları ilə ona çatmağa çalışan qız, indi ən çox yıxılmaqdan qorxurdu. Yolu keçib bir binanın tininə çatmışdılar ki, oğlan qəfildən qızın əlini buraxdı. "Nə oldu, niyə dayandıq?". Dönüb baxdı arxaya. Oğlan əvvəlcə büdrədi, böyrü üstə yıxıldı. Qızın sinəsindən fəryad yüksəldi. Çiyinlərindən silkələyən qıza qəribə, boş gözlərlə baxırdı. Oğlanın yanına yıxıldı, qucaqladı onu. Yıxıldı və xilas oldu, çünki o anda güllələr vıyıltı ilə başının üstündən keçirdilər. Çağırdı, çağırdı, çağırdı oğlanı... Səs çıxmadı ondan, cavab vermədi. Ağırlaşmış bədənini həyətə sarı sürükləməyə başladı. Öldüyünə inanmırdı. "Onu mənzillərin birinə salıb, yarasına baxarıq. Təcili yardım çağıra-rıq..." düşünürdü. Hələ də ümidli idi.

O əsnada metroya sarı qaçan qırx yaşlarında bir qadın, Avakyan küçəsində, Onkoloji xəstəxananın yanında tankın fırlanmağa başladığını, qarşısına çıxan hər şeyi və hər kəsi əzdiyini görüb ayaq saxladı. Tank adamların toplandığı tonqala tərəf hərəkət edirdi. Qadının beyni qızdı. Hərəkətlərinə nəzarəti itirərək yerdən iki daş götürüb tanka atdı. Hər halda tankdakılar qadının əlində partlayıcı maddə olduğunu düşünüb lüləni ona döndərdilər, projektoru da üzünə tutdular. O anda qadın elə bil ayıldı, özünə gəldi. Qaçmağa başladı. Arxasınca güllələr uçurdu. Bir avtobusun yanında özünü yerə atdı. Avtobusun çilik-çilik olan şüşələri qadının başına töküldü. Elə ordaca huşunu itirdi.

Velotrekə doğru təntiyə-təntiyə qaçan yaşlı kişi isə, arxasından vıyıldayan güllələrdən qorunmaqdan ötrü, səkinin ortasında açıq qalan telefon lyukuna girmək istədi. Bir anda nəyə görəsə fikrini dəyişdirib, güc-bəla ilə özünü velotrekin hündür divarındakı beton çıxıntılara çatdırıb gizləndi. Ona doğru qaçan əsgərlər yerdə yatan yaralıları güllələyib öldürürdülər. Əsgərlərdən biri lyuka yaxınlaşdı, içini güllə ilə doldurdu. Gizləndiyi qaranlıq küncdən bu səhnəni izləyən yaşlı kişi, lyuka girəcəyi təqdirdə aqibətinin necə olacağını anlayıb, için-için ağladı. Bu göz yaşları həm sağ qalmanın sevinci, həm də gərginliyin partlaması idi. Sol ovcu ilə ağzını tutub ağlayırdı. Əsgər on metr aralıdan bir qaraltı gördü. Bəlkə də zəif hıçqırıqlarını eşitdi yaşlı kişinin. Avtomatı qaranlığa tuşlayıb, bütün darağı boşaltdı. Yaşlı kişinin cəsədi üzüqoylu, tappıltı ilə asfalta sərələndi. Əsgər gördüyü işdən məmnun olub, cəsədə tərəf tüpürdü və fit çala-çala uzaqlaşdı.

Bu hadisələrdən bir az əvvəl isə, cüzi də olsa bir xəbər eşitmək arzusu ilə televizorlarının qarşısında heykələ çevrilən yüz minlərlə insan, bir anda ekranın qaralması ilə şoka düşdülər. Radiolar da susdurulmuşdu. Azərbaycan televiziyası və radiosunun enerji blokunun partladıldığı ertəsi gün məlum olacaqdı. İndi isə heç kimin, heç nədən xəbəri yox idi.

O dəqiqələrdə, yaralıları xəstəxanalara çatdırmağa tələsən təcili yardım maşınları da atəşə tutulur, xəstəxanaların işıqları söndürülürdü.
Hər saniyə bir işıq, hər dəqiqə bir insan ömrü sönürdü.

***

20 yanvar gününün səhərisi, küçələrə çıxan bakılılar dəhşətli mənzərənin şahidi oldular - qandan və hisdən qaralmış küçələr, eybəcər hala salınmış cəsədlər, güllələrlə dəlik-deşik edilmiş evlər, maşınlar... Adamlar öz doğmalarını, yaxınlarını axtarırdılar. Xəstəxanalara, məscidlərdəki ölüxanalara yeni-yeni meyitlər gətirilirdi.
O gecə öldürülən 131 nəfərin çiyinlərdə gedən tabutları, ucsuz-bucaqsız insan dənizinin qaralı-qırmızılı ləpələrini andırırdı. Cənazələrin Bakının ən yüksək nöqtələrindən birində basdırılmasına qərar verilmişdi. Sonradan Şəhidlər xiyabanı adlanacaq olan Dağüstü parkda...
O gün minlərlə insan yandırılan partiya biletlərindən böyük bir tonqal qaladılar. Kommunist Heybət də, Zaurla birlikdə Lenin meydanına gələrək, orada partiya biletini atəşə atdı.
- Hər şey bitdi ata?
- Hər şey bitdi oğlum.
Zaur dərin bir nəfəs aldı. Bəlkə də "hər şeyin" bitməsi, onun üçün yeni başlanğıclara yol açacaqdı. Onu Artuşuna qovuşduracaqdı.
Hər şey isə nəinki bitmişdi, hətta yeni başlayırdı.

...Coşub partbiletlərini yandıranların çoxu isə, daha sonra reallığı dərk edərək təzədən Partiya biletləri almaq üçün müvafiq idarələrin qapılarında növbələrə dayanırdılar.

**YAĞIŞ VƏ ŞƏRAB**

*Anca kim səy eylədim nazik cəmalın görməyə,*
*Zərrəcə yumşalmadın, ey könlü zindan erməni.*

## 1

Şimal küləyi, ayaqqabılarının burunlarına baxaraq Rustaveli prospekti ilə ATA otelinə tərəf addımlayan Artuşun sifətinə şiddətlə çırpılırdı. Hava qaralır, Tiflis alatorana hazırlaşırdı. Sinoptiklər leysan vəd etmişdilər. Artuşun əlindəki sellofan kulyoklarda altı butulka Kazbeki pivəsi, Lays çipsləri, ağ tum və üç kilo portağal vardı. O indi yağışa düşmədən, otelə çatmağın dərdində idi.

Səmtini itirib-itirmədiyindən əmin olmaq istəyirmiş kimi, arada bir başını qaldırıb irəliyə baxır, dümdüz prospektdə səmti itirməyin mümkünsüzlüyünü yadına saldıqda isə, dodaqaltı gülürdü. Paltosunun yaxalarını qaldıraraq, canındakı üşütməni qovdu. Üzünü ülgücləyən, gözlərini deşən külək ona uşaqlığını, Bakı illərini xatırladırdı. Zaurun onu isti otel otağında gözlədiyini düşünüb, addımlarını sürətləndirdi.

İki gündür bu şəhərdə olmasından, ailəsindən uzaq qalmasından zərrə qədər narahat olmurdu. Bircə dəfə anasına zəng vurmuşdu, o da Tiflisə gəldiyi ilk gün. Yəni dünən səhər. Adətən Ermənistandan ayrı qalan ermənilər, qədim vətənlərinin nostalgiyasından qızdırmaya düşür, azarlayırlar. Artuş isə vətən həsrəti çəkmirdi. Ümumiyyətlə, əgər söhbət vətəndən gedirsə o, vətəninin Yerevan yox, Bakı olduğunu düşündü. Bu fikir ona çox gülməli göründü. Əlini cibinə salıb siqaret çıxartmağa üşənirdi. Yanından kölgə kimi ötüb keçən adamların, çox yaxınından keçdikləri təqdirdə ayaqqabılarının uclarını görür, növbəti ayaqqabılar görünənə qədər, bu şəhərdə tək-tənha olduğu hissinə qapılırdı.

Zaurla görüşdüyü gündən bəri, Bakı heç çıxmırdı ağlından. Bu şəhərə onu Zaurdan başqa nə bağlayırdı görəsən? Bu sual çox narahat edirdi onu. Bulvara, Torqovı küçəsinə, Kirov parkına vurğunluğunu hər dəfə etiraf etsə də, Bakı sevgisinin təməlində Zaura duyduğu məhəbbətin dayandığını özü də bilirdi. Uşaqlığının ən gözəl günlərinin keçdiyi Kirov parkı, məşhur nəhəng heykəli və sıx ağacları ilə gözünün qabağında dayandı. Möhtəşəm park, ermənilərin ucbatından bu gün şəhidlərin məzarlığına çevrilib. Xəcalətindən daha da üşüdü. Qarabağ münaqişəsi bu sevginin, məhəbbətin ülviliyinə kölgə salmamalıydı əslində. Lakin təcavüzkar millətə mənsub olmaq, Artuşu yenə də utandırır, Zaurun qarşısında başıaşağı edirdi.

O illərdə yeniyetmə olan və münaqişəyə aidiyyətləri olmayan Zaurla Artuş, qeyri ixtiyari bu münaqişənin qurbanına çevrilmişdilər. Odur ki, onlar itkinin, ayrılığın nə olduğunu, bəlkə yaşlı nəsildən də yaxşı bilirdilər.

Onların məhəbbəti adi, heteroseksual sevgi olsaydı dərd yarıydı. Bunu yenə də kimlərəsə, birtəhər başa salmaq mümkün olar, iki aşiqin qovuşması reallaşa bilərdi. Lakin onların sevgisi həm Ermənistan, həm də Azərbaycan cəmiyyətlərində rüsvayçılıq sayılırdı. Bu cür seksual pozğunluğu bu cəmiyyətlərin heç biri nə başa düşməyə, nə də ki, bağışlamağa hazır deyildi. Olmayacaqdı da! Hətta Artuş, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını elan etsəydi belə, Azərbaycan cəmiyyəti onların məhəbbəti ilə barışmayacaqdı.

Artuş bunları anlayırdı. Onların məhəbbəti xirtdəyə qədər siyasiləşmiş bir məhəbbət idi. Bəlkə də yeganə maneə aradan qaldırılsa, yəni Azərbaycanın ərazi bütövlüyü təmin edilsə, işğal altındakı torpaqlar azad edilsə, qaçqın və məcburi köçkünlər doğma yurd-yuvalarına qayıtsa, Azərbaycan müğənniləri və xanəndələri Şuşada, Cıdır Düzündə konsertlər versəydilər onların xoşbəxtliyinə yaşıl işıq yandırıla bilərdi. Hətta bu müğənnilərin bəziləri, Artuşla Zaur mavi toyu keçirəcəkləri təqdirdə, bu toyda oxuyardılar da.

Artuş bütün bunlara dünəndən razı olsa da, maneələri ortadan qaldırmaq onun əlində olmadığından, çarəsizliyi ilə barışmağa məcbur idi.

Otelə çatdığında, yağış çiskinləməyə başlayırdı. Otağın qapısını açıb, Zauru yatan gördü. Yataq örtüyü göbəyindən bir qarış aşağı sürüşmüş, küçə fənərinin zəif işığı qasığındakı xırda tükləri gümüşü rəngə boyamışdı. Artuş paketləri masanın üstünə qoyub əynini soyundu. Alt paltarda qalıb tualetə keçdi. Aynada özünə baxdı. Uzun kirpiklərini barmaqları ilə ovuşdurdu, saçlarına sığal çəkdi, işədi və əl-üzünü yuyaraq otağa qayıtdı.

Zaur hələ də yatırdı. İşığı yandırmadan kulyokdan bir portağal götürdü və kreslonun üstündəki pledi çiyinlərinə ataraq, portağalı soya-soya pəncərəyə yaxınlaşdı. Alnını soyuq şüşəyə yasladı, gözlərini yumdu. Bir yandan da portağalın qabığını soyurdu.

Payızın bu son günlərində, son şimşəklər çaxıb, son yağmurlar yağanda, hətta leysana çevriləndə, gəzməyəsən bu şəhərin küçələrində, qapılmayasan bu yağmura, islanmayasan? Sanki payız ayrılmaq istəmir bu dünyadan, yerlə göylə dava eləyir; insanlara, qarın intizarında olanlara barmaq silkələyir. "Yox" düşündü Artuş, "təpədən dırnağa qədər hər kəsin knyaz, zadəgan olduğu bu qədim şəhərdə, yağmur zamanı küçədə yox, elə bax buradaca, sevgilinin yanında olmalı, pəncərədən küçəyə tamaşa etməlisən. Həyatımın ən gözəl anlarını yaşayıram ilahi! Nə olar Allahım, ayırma bizi!"

Leysan, bülövlənmiş qəmbər daşlarla döşənmiş küçənin çör-çöpünü, zir-zibilini qabağına qataraq, yol kənarlarında, hər iki metrdən bir səliqəylə düzülmüş kanalizasiya dəliklərinə axıdırdı. Əvvəllər, Sovet dövründə bu

kanalizasiya yarıqları on metrdən bir qoyulardı. Amma qərbin vaz keçilməz, sarsılmaz prioritetləri olan demokratiya, liberalizm, plüralizm, insan haqları kimi dəyərləri öncə özünə yeridən, sonra isə xalqına aşılayan demokrat prezident Saakaşvili, rüşvətə və korrupsiyaya son qoyduqdan, bu neqativ halların kökünü qazıdıqdan sonra, kanalizasiya sistemini də təkmilləşdirmiş, şəhərin infrastrukturunu bərpa etmişdi. Tiflis artıq üfunətli nəcis qoxusundan təmizlənmiş, qardaş Azərbaycan xalqının paytaxtı Bakıdan fərqli olaraq, abıra həyaya minmişdi. Gürcülərin nəcisi də bir qayda olaraq, Kür çayı vasitəsilə qardaş Azərbaycan xalqına ərməğan göndərilirdi.

Canına əməlli başlı titrəmə düşmüşdü. Alnını yasladığı şüşədən ayıraraq, yağmurdan islanmış qəmbər daşlı yolda ATA Otelinin neon lampalarının əksinə tamaşa etdi. Arada bir bu əksin üstündən keçən maşınların təkərləri altında itən qırmızı işıq dərhal maşınların kapotunda, sonra damında, sonra isə baqaj hissəsində peyda olaraq, yenidən qəmbər daşların üstünə düşür, öz doğma yerində bərqərar olurdu.

- Gəlmisən? Niyə oyatmamısan məni?

Artuş çiyinlərinə atdığı pledə daha sıx bürünərək, üzünü yatağa çevirdi. Qaranlıqda görmədiyi, amma səsini duyduğu sevgilisinə:

- Sevirəm bu şəhəri, - dedi. - Deməzdim mənə Yerevanı xatırladır, sadəcə olaraq öz koloriti var... Hətta inciməsən...

Susdu. Canından üşütmənin keçdiyini hiss etdi. Bəlkə də oyanan sevgilisinin səsi isitmişdi içini. Pledi yerə ataraq, yatağa doğru gəldi.

Yarı uzanmış vəziyyətdə oturan Zaur:

- Niyə inciməliyəm axı? De gəlsin. Mənə də portağal ver.

Artuş masadan bir portağal götürdü və yatağın kənarına oturdu. Tərəddüd keçirərək:

- Bu şəhərin Bakıdan da gözəl olduğunu düşünürəm, - dedi birnəfəsə.

Zaurun təəccüblə ona baxdığını görən Artuş, həyəcanlanaraq "səhvini" düzəltdi:

- Amma Bakı Yerevandan qat-qat gözəldir. Bunu da bilirəm.

- Əzizim, Tiflisin Bakıdan gözəl olduğunu mən də bilirəm. Ən azından bizi qovuşdurduğu üçün, Bakıdan da, Yerevandan da daha xeyirxahdır. Sən deyəsən məni pis tanıyırsan. Məgər mən, Bakının təəssübünü çəkən adama oxşayıram? Hərçənd ki, Yerevanı görməmişəm, amma istəyirsən onun da Bakıdan gözəl olduğunu deyə bilərəm. Mənimlə şəhərləri yarışdırdığına görə utanmırsan?

Zaur son cümləni nazla deyərək, Artuşu boynundan tutub özünə sarı çəkdi, dodaqlarından öpdü.

- Mənə portağal ver – dedi gözlərini süzərək.

Artuş portağal dilimlərini Zaura uzadır, o da ehtirasla onları dişlərinin arasında sıxaraq ətirli, sarı damcıları Artuşun üzünə, sinəsinə, yatağa sıçradırdı. Otağı portağal qoxusu sarımışdı. İki dəqiqə dodaqlarını bir-birindən ayırmadan, portağal dadında öpüşdülər. Şəhvətləri artıq dözülməz həddə çatmışdı.

Portağal dadında sevişdilər.

Təzyiqlə fışqıran spermaları, portağal rənginə boyandı. Ağır-ağır nəfəs alaraq, arxaları üstə yatağa sərildilər.

Portağal dadında ürəkdən güldülər.

- Deyəsən Şotanın hər şeydən xəbəri var.

Artuş diksindi:

- Necə yəni?

Zaur əlini tumboçkaya uzadıb bir siqaret götürdü. Yandırıb dərin bir qullab aldı.

- Konfrans boyu, yemək vaxtı bizə necə baxdığını görmürsən? Gözlərindən şübhə, dərin maraq oxunur. Məncə başa düşür hər şeyi. Ən azından hiss edir.

Artuş dərindən nəfəs aldı:

- Başa düşmək hiss eləmək, bilmək demək deyil... Ürəyim az qala ağzıma gəlmişdi. Belə zarafatlar eləmə. Hə, yadımdan çıxmamış.

Artuş ayağa qalxıb kreslonun üstünə atdığı gödəkcəsinin cibindən nəsə götürüb çarpayıya qayıtdı.

- Sən mobil telefonunu gətirmisən Tiflisə?

- Aha, çantamdadır.

- Əla! Mən də hər ikimizə sim-kart almışam. Bu sənindir – dedi və paketin birini Zaura uzatdı.

- Çox sağ ol, amma buna nə ehtiyac vardı? Mənə burada mobil telefon lazım deyil axı.

- Necə yəni lazım deyil? Şota, sən, mən, başqa tanış-bilişlər... Bir-birimizlə tez-tez əlaqə saxlamalı oluruq. Orda xeyli balans var, tax telefonuna işlət də. Səndən nə gedir?

Zaur məzəmmət dolu gözlərini Artuşun sifətindən ayırmadan qətiyyətlə soruşdu:

- Buna nə qədər pul vermisən?

- Axmaq-axmaq danışma! Qəpik-quruş vermişəm. Yaxşısı budur, planlarımızdan danışaq. Sabah konfransın son günüdür. Nə fikirləşirsən?

Zaur siqaret tüstüsündən gözlərini qamaşdıraraq, sim-kart paketini tumboçkanın üstünə qoydu:

- Mənim planım sənsən. Bir neçə gün Tiflisdə qalmağa razı olsan, mən də qalaram. Səni Yerevanda gözləyən var?

- Ailəmdən başqa kim gözləyə bilər məni? Düzdür, işlərim yığılıb qalıb, hələ xeyli yazı yazmalıyam. Amma işlər səndən vacib deyil.

Zaur minnətdarlıqla baxdı Artuşa. Gözlənilmədən soruşdu:

- Heç sevgilin olub indiyə qədər?

- Ermənistanda?

- Bəli.

- Əlbəttə olub. Amma onlara sevgi də demək olmaz. Müvəqqəti sevişmələr... Bədənin tələbatını ödəməyə hesablanmış münasibətlərim olub. Ermənistanda özümüzə partnyor tapmaq o qədər də asan məsələ deyil Zaur. Çox patriarxal cəmiyyətimiz var. Sizin müsəlman ölkəniz, bu barədə bizdən daha irəlidədir.

- Bəs sekssiz yaşamaq çətin deyil ki?

- Əlbəttə çətindir... Bir yaxınının olmaması çox çətindir Zaur. Söhbət cismani həzzdən də getmir. Adicə söhbət eləməyə, ürəyini açmağa adam tapmırsan. Bu gün geriyə dönüb baxdığım zaman, başa düşürəm ki, əslində bütün dostlarım Bakıda qalıb. Yerevanda hələ də özümə fərli-başlı bir mühit yarada bilməmişəm. Niyə belə oldu axı Zaur?! Bizim günahımız nəydi?.. Nə yaxşı ki, sən gəldin Zaur!

Zauru qucaqlayaraq, başını sinəsinə qoydu.

- Bakıda yaşanan o faciə, erməni evlərinə edilən basqınlar, talanan evimiz... Bircə markalarımı xilas edə bildim.

- Doğrudan?

- Düz sözümdür. Qonşumuz Rüstəm dayı gedib gətirdi. Bəs sənin markaların?

- O günkü kimi, sağ-salamatdırlar. Özümü onlarsız təsəvvür edə bilmirəm. Sənin hədiyyən olan Olimpiada kolleksiyası isə, birinci səhifədədir.

- Sənin də mənə verdiyin markalar mənim üçün çox əzizdir... Elə gün olmaz ki, yazıq anam o gün yaşananları xatırlamasın, müharibəni lənətləməsin. Mənsə hər şeyi bağışlamağa, unutmağa hazıram... Təki ötən günlərimi qaytaraydılar.

Zaur Artuşun başını sığallayaraq qulağına fısıldadı:

- Bu barədə danışmayaq əzizim... Gəl bunları yada salmayaq. Müharibə bizdən uzaq olsun. Bizi zombiləşdirmələrinə icazə verməyək. Biz fərqli olaq, başqa olaq...

***

Toplantının son günü hərarətli mübahisələrlə yadda qaldı. Sevda və Dilarə növbə ilə - əvvəl David Arutunyanla, sonra Stepanla, sonra da nə üçünsə Nino Dumbadze ilə mübahisə etdilər. Luizanın sülhməramlı təşəbbüsləri nəticə vermədiyi kimi, Zaurun da söz dalaşına girişənləri sakitləşdirmək cəhdləri uğursuz alındı. Mübahisə edənləri hər dəqiqə başı nizam-intizama dəvət etməkdən yorulan Ernst, kreslosuna yaslanıb su içirdi.

Artuşdakı mövqe dəyişikliyi də qızları qəzəbləndirirdi. Ermənin birdən-birə dəyişməsini Zaurla olan xoş münasibəti ilə əlaqələndirdiklərindən, dostlaşdığı adamın xətrinə dəymək istəməyən Artuşun öz sülhməramlı mövqeyində qeyri-səmimi olduğunu, Erməni xislətinin də məhz bu olduğunu düşünürdülər. Odur ki, tez-tez ona söz atırdılar: “İlk gün heç belə danışmırdınız. Nə oldu sizə?”.

Axırda, mübahisənin nəzarətdən çıxa biləcəyini düşünən Ernst, müdaxilə etməyə məcbur oldu:

- Azərbaycanlı xanımlara bir sualım var.

Hamı susub, üzünü Ernstə tərəf çevirdi. Qızlar daha böyük maraqla baxırdılar ona.

- Sualım belədir. Siz ermənilərlə ilk dəfə ünsiyyət qurursunuz? Yəni indiyə qədər bir erməni görmüşdünüz, söhbət eləmişdiniz?

Qızlar bir ağızdan və nə üçünsə şəstlə “yox” cavabı verdilər.

- Çox gözəl. Daha doğrusu, çox pis. Bəs bu konfransda iştirak etmək barədə qərarı necə verdiniz?

Bu sualın cavabını Dilarə verdi:

- Sizin təklifiniz redaksiyalarımıza çatdı. Baş redaktorlar da Tiflisə bizi göndərdilər. Niyə soruşdunuz ki?

- Heç, elə belə... Yaxşı, bəs ermənilərlə canlı görüşməmisinizsə, onda deməli internet vasitəsilə bir əlaqəniz olub, elə deyilmi?

Qızlar əvvəl bir-birlərinə baxdılar, sonra görünür bu baxışma nəticəsində ortaq bir qərara varıb, yenə bir ağızdan “yox” dedilər.

Zalda oturanların çoxunun heyrətdən ağızları açıq qalmışdı. Zaur başını əllərinin arasına almış, gözaltı, bloknotuna nəsə yazan Artuşa baxırdı.

Belə bir cavaba görünür hazır olan Ernst, özünü itirmədən növbəti sualı verdi:
- Bəs niyə yazışmırsınız ermənilərlə? İnternet bir ünsiyyət vasitəsi kimi bütün dünyada geniş yayılıb. İnternet sərhədləri yox edən bir alətdir.
Dilarə sinəsini qabağa verib, fəxrlə:
- Ermənilərlə yazışmırıq, çünki kompüterimizə virus düşə bilər - dedi.
Həyatın hər bir üzünü görmüş bu alman, zaldakılardan fərqli olaraq Dilarənin cavabına qəşş edib gülmədi. Əksinə, eynəyinin üstündən olduqca ciddi gözlərlə baxdı qızlara. Əslən Sudets bölgəsindən olan 65 yaşlı Ernst, atasını İkinci Dünya müharibəsində itirmiş, havalanan anası isə, illər uzunu qadın üzü görməyən və vəhşiləşən Sovet əsgərlərinin əlinə keçməməkdən ötrü, özünü çaya atıb intihar etmişdi. İnternatda tərbiyə alan Ernst müharibənin, özü də bəşəriyyət tarixində ən qəddar müharibələrdən birinin bilavasitə şahidi kimi, azərbaycanlı qızların düşmən bildikləri ermənilərə bu acıqlı münasibətini, hardasa anlaya bilirdi. Amma bununla belə, virus məsələsindən dəhşətə gəlmişdi.
- Yaxşı, bu söhbəti bitirək, - dedi. Görəcəyimiz hələ çox iş, keçəcəyimiz böyük məsafələr var. Tanrı bizə kömək olsun. İndi isə gündəlikdəki əsas məsələyə keçək. David Arutunyan regionda demokratiya və insan hüquqlarından danışırdı, amma xanımlar imkan vermədi. Buyurun, davam edin.
David başını əyərək Ernstə təşəkkür etdi və sözlərinə başladı:
- Bayaq da qeyd etdiyim kimi, biz Qarabağda demokratik cəmiyyət qurmaqda Azərbaycanı qabaqlamışıq, daha azad və şəffaf seçkilər keçirdirik, bunu beynəlxalq müşahidəçilər də təsdiq edirlər. Ona görə də insan haqlarının tapdalandığı, demokratiyanın beşikdəcə boğulduğu, korrupsiyanın ayaq açıb gəzdiyi Azərbaycanın tərkib hissəsinə çevrilmək barədə danışmağın özü absurddur. Bu illər ərzində əldə olunan nailiyyətlərin bir anda yox olub getməsinə icazə verə bilmərik. Bizdən Azərbaycana bağlanmağımız tələb olunur. Yetmiş il kommunistlər bizi zorla barışdırmağa çalışdılar, bizi bir yerdə yaşamağa məcbur etdilər. Axırı nə oldu? Xalq öz qan yaddaşını itirmədi, erməniliyini unutmadı. Əlbəttə mən sülhün tərəfdarıyam, amma sülh o demək deyil ki, Azərbaycanın bizi əzməsinə, məhv etməsinə göz yumaq.
Bayaqdan soyuqqanlılığını qoruyan, mübahisələrə qoşulmayan Zaur, dözə bilmədi:
- Siz hər fürsətdə Qarabağda dırnaqarası dövlət qurduğunuzu bəyan edirsiniz. O nə dövlətdir ki, onu indiyə qədər heç kim, hətta Ermənistanın özü belə tanımayıb? Belə bir qondarma dövlət, necə seçki keçirə bilər axı? Hansı "beynəlxalq müşahidəçilərdən" danışırsınız? Sizə Azərbaycanın tərkibində ən yüksək muxtariyyət statusu təklif olunur. Unutmayın ki, lazım gələrsə Azərbaycan ordusu işğal altındakı torpaqlarını azad etməyə qadirdir. Azərbaycan xalqı heç vaxt öz torpaqlarının itkisi ilə barışmayacaq. Bizim səbrimiz tükənməz deyil!
Qızlar gurultulu alqışlarla, çıxışı özünə də ləzzət eləyən Zaura dəstəklərini ifadə etdilər. Artuşu isə gülmək tutmuşdu. Zaurla göz-gözə gəldiklərində, bərkdən gülməmək üçün əlləri ilə ağzını tutdu.
Luiza da bic-bic qımışırdı.

***

Nəhayət axşam saat səkkizə on dəqiqə qalmış konfransa yekun vuruldu. Zaurun da daxil olduğu 6 nümayəndədən ibarət komissiyanın hazırladığı protokol mətni, konfrans iştirakçıları arasında səs verməyə qoyuldu və tədbirin sonuna dəvət olunan jurnalistlərin hüzurunda yekdilliklə qəbul edilərək imzalandı.
Ümumi ifadələrin yer aldığı protokolda, əsasən sülhün qorunmasının vacibliyi, müharibənin iqtisadi və sosial fəsadları, vətəndaş cəmiyyətinin qurulmasında QHT-lərin əhəmiyyəti və sülh potensialından axıra qədər faydalanmağın zərurəti qeyd olunurdu. Nümayəndələr konkretlikdən uzaq, söz yığınında ibarət protokolun qəbul edilməsi əsnasında ixtilafa düşmədən, mətnin lehinə səs verdilər və Ernst konfransın öz işini tamamladığını elan edərək hamını restoranda verilən furşetə dəvət etdi.
Furşetə Tiflisdə fəaliyyət göstərən iyirmiyə yaxın QHT-dən; Almanya, Fransa, İngiltərə və ABŞ səfirliklərindən də qonaqlar dəvət edilmişdi. Restoranda gah ermənilərə, gah osetinlərə, gah da azərbaycanlılara diktofon uzadan on-on beş jurnalist sözün həqiqi mənasında hər kəsin canını boğazını yığmışdı. Sonda Ernst yüksək səslə mətbuat əhlindən qonaqların yaxasını buraxmağı və yeməklərin ağırlığından sınmağa meyl göstərən masalara diqqət yönəltməyi xahiş etdi.
Ernstin xahişinə rəğmən, Zaura yaxınlaşıb müsahibə almaq istəyən Qafqaz İnfo agentliyinin jurnalisti, xırda-mırda gürcü qızı, göz-qaşını oynada-oynada ondan soruşdu:
- Konfransdan razı qaldınız?
- Xeyli. Müharibələrdən bezən, siyasətçilərin mənfəət oyunlarının qurbanına çevrilən xalqlarımız artıq sülh tələb edirlər. Özləri, ailələri, millətləri üçün sülh istəyirlər. Hesab edirəm belə tədbirlər illər uzunu bir-birlərindən ayrı qalan, öz qonşularına yadlaşan xalqlar arasında dialoqun qurulmasına, tolerantlıq mədəniyyətinin yerləşməsinə

xidmət edir. Mənim üçün üç gün ərzində ermənilərlə söhbətləşmək, fikir mübadiləsi aparmaq çox faydalı oldu. Mən onlara bizim dəyişməz mövqeyimizi çatdırdım – Azərbaycanın tərkibində ən geniş muxtariyyət statusu.

- Onlar buna necə reaksiya verdilər?

- Əlbəttə, mənimlə razılaşmalarını gözləmirdim. Amma hələ ki, ermənilərin düşünməyə vaxtı var. Mən bir daha təkrarladım ki, lazım gələrsə ordumuz...

Qız onun sözünü kəsdi:

- Siz Ermənistanda olmusunuz?

Zaur əlində pivə bokalı ilə zalda tək başına gəzişən Artuşa göz atıb dedi:

- Xeyr olmamışam. Amma olmaq istərdim. Bunun üçün heç bir maneə görmürəm. Dəvət alsam, mütləq gedərəm.

Qız diktofonunu söndürüb Zaura təşəkkür elədikdən sonra, iştahla göbələk salatı yeyən Alanın yanına qaçdı.

Hər kəs kiçik qruplara bölünərək söhbətləşir, gülüşürdü. Azərbaycanlı qızlar isə, deyəsən özlərinə münasib həmsöhbət tapa bilmədiklərindən darıxırdılar. Luiza ilə danışmaq istəyərdilər, amma o da Qarabağlı dəstənin yanında dayandığına görə, ona yaxınlaşmırdılar. Zaurla söhbət eləmək də mümkün görünmürdü. Həmişəki kimi pəncərənin qabağında dayanan Artuşla nə haqdasa pıçıldaşırdılar.

İçki artıq öz təsirini göstərməyə başlamışdı. Səfirliklərin nümayəndələri yüksək səslə danışır, arada bir qəşş edib gülürdülər. Abxaziyalı qadınlar Fransa səfirliyinin mətbuat katibi, Mişel adlı kök qızla hərarətli mübahisəyə girişmişdilər.

Şərabın təsirindən bir az xumarlanan Şota, Zaurla Artuşun yanına gəlib sevinc dolu səslə dedi:

- Gedənlər gedir, qalanlar qalır. Sabah Tiflisdə bayram var. Əmim oğlunun toyudur. Sizin ikinizi də orda görmək istəyirəm. Nəhayət canım qurtarır bu avropalılardan. Onsuz da belə yığıncaqlarla heç bir problemin həllini tapmayacağıq. Boş-boş işlərlə məşğuluq. Ən salamatı öz aramızda görüşüb yeyib-içmək, əylənməkdir. Ən səmimi dialoq da elə budur. Rəsmi toplantılarda yol verilən mübahisələrə, rəsmiyyətə bizim məclislərdə yer yoxdur. Gürcü məclislərində ancaq şərabdan və poeziyadan danışmaq olar.

Şota yarıya qədər dolu olan şərab qədəhini yuxarı qaldıraraq bərkdən güldü. Zaurla Artuş isə susurdular. Yüngülcə təbəssüm eləməklə kifayətləndilər. Şota ona laqeyd gözlərlə baxan gənclərin baxışlarından bir az narahat oldu. Qədəhini pəncərənin kənarına qoydu, ikisinin də çiyinlərinə yüngülcə vurub:

- Bir erməni ilə azərbaycanlını belə mehriban görmək, məni çox sevindirir, - dedi.

- Niyə? – Zaur soruşdu.

- Bilmirəm... Hər halda müharibəyə nifrət etdiyim üçün...

Şota cümləsini yeni tamamlamışdı ki, Luiza Vanyan Ernst Kopfla birgə onlara yaxınlaşdılar. Ernst:

- Dostlar, niyə belə kənara çəkilmisiniz? Heç yemək də yemirsiniz! Luiza saytınızdakı bir məqalənizi verdi mənə oxumağa Zaur. Çox bəyəndim. Ermənilərin bir əsrdə iki dəfə Bakını itirdiyini yazırsınız. Çox maraqlı gəldi mənə.

Zaur pivədən bir udum alıb soruşdu:

- Siz bizim münaqişənin tarixinə nə qədər yaxından bələdsiniz?

Şota, Artuş və Luiza çaşıb qaldılar. Zaurdan belə kəskin sual verməsini gözləmirdilər. Ernst isə istifini pozmadı, rahat cavab verdi:

- Mənə elə gəlir, kifayət qədər bilirəm. Amma bu məlumatları sistemləşdirib, ermənilərin iki dəfə Bakını itirmələrini nəsə heç düşünməmişdim. Yazırsınız ki, ermənilər olmadan Bakı qeyri təbii görünür. Onun kosmopolitliyinə xələl yetirilib. Kifayət qədər cəsur yazı idi.

Zaur etiraz etdi:

- Razı deyiləm bununla. Məndən əvvəl bu səpgidə yazını məşhur rejissor-ssenaristimiz Rüstəm İbrahimbəyov yazmışdı. Əgər o mənim sələfim olmasaydı, çətin ki, mən o yazını yazaydım. Belə çıxır ki, onun kölgəsinə sığınmışam.

Ernst şampanını yanğı ilə içirdi. Qədəhini boşaldıb yanındakı dairəvi masanın üstünə qoydu.

- Hər nə olursa olsun, yenə də cəsur yazı idi. Sülhməramlılıq resurslarından cəsarətlə, əminliklə istifadə edirsiniz. Sizcə üç günlük toplantılarımızın sizə bir faydası oldumu? Luiza siz nə düşünürsünüz?

Luiza, üzünə tökülən saç tellərini sağ əli ilə qulaqlarının arxasına yığaraq gülümsündü:

- Xalq diplomatiyası nəticəyə hesablanmayıb. Xalq diplomatiyası bir prosesdir. Nəticəni düşünəsi olsaq, onda gərək əlimizi qolumuzu yanımıza salıb oturaq.

- Luiza ilə razıyam, - dedi Şota. - Üç gün ərzində Osetinlərlə çox gözəl dil tapdıq. Deməli istəyəndə bu mümkün olur. Siyasətin kölgəsindən çıxa bilsək, xalqlar arasında heç bir problem qalmaz.

Şotanın bayaqkı sözləri ilə, indi dedikləri arasında ziddiyyət vardı. Zaurla Artuş baxışıb gülümsədilər.

Furşet gecə saat on birə kimi davam elədi. Hamıdan əvvəl osetinlər çıxıb getdilər. Sonra da Ermənistan nümayəndələri ilə qarabağlılar. Azərbaycanlı qızlar isə Zauru gözləyirdilər. Zaurun onlara diqqət göstərməməsi, söhbət eləməməsi qızları çox əsəbiləşdirirdi. Sonda dözə bilməyib ona yaxınlaşdılar.

"İlahi, gərək bunlar tez-bazar ərə getsinlər. Bunlar hara, sülhməramlılıq hara? Valideynləri bu aqrar təfəkkürlü balalarını görəsən niyə buraxıblar Tiflisə?" Zaur düşündü və ona tərəf gələn Dilarə ilə Sevdaya gülümsədi. Qrupundan ayrılaraq, onlara tərəf üç addım atdı.

- Bu günkü çıxışın əlaydı. Sən əsl el oğlusan, - dedi Dilarə.

Zaur utanaraq:

- Təşəkkür edirəm, - dedi və mövzunu dəyişmək üçün soruşdu, - Darıxmırsınız?

Sevda bayaqdan bu sualı gözləyirmiş kimi:

- Əlbəttə darıxırıq. Ona görə də gedirik, - dedi. Sən hələ qalırsan?

- Hə, qalıram...

Dilarə başı ilə Artuşu işarə etdi:

- Onunla gedəcəksən?

- Tutaq ki...

Qızlar baxışdılar. İki düşmən arasındakı qəribə dostluğun mənasını anlamayan ürkək, kölgələrindən qorxan ev qızları, əlbəttə məsələnin nə yerdə olduğunu heç vaxt bilə bilməzdilər.

- Onda siz gedin. Sonra gec olar. İstəyirsiniz ötürüm sizi...

Zaur qızları daldıqları düşüncələrindən ayırıb, reallığa qaytardı.

Sevda Dilarənin qoluna girib incik səslə, amma qətiyyətlə bildirdi:

- Lazım deyil. Əylənməyə davam edin. Biz piyada gedərik.

Zaur atmosferi bir az yumşaltmaqdan ötrü, zorla da olsa gülümsünüb dedi:

- Baxın haa, gecələr Tiflis küçələrində avara-mavara çox olur. Bir söz atıb eləsələr, ağızlarının payını verin. Qorxmayın.

Sevda Dilarənin qolundan dartaraq:

- Sən narahat olma, - dedi. Onsuz da narahat olana oxşamırsan. Bilmirəm nə tapmısan bu erməndə?

Qızlar cəld addımlarla boş zalın ortasından keçib qapıya yaxınlaşdılar və gözdən itdilər.

Zaur qapı qapanana qədər onların ardından baxdı. Ürəyi sıxıldı. Bəlkə də onun kimi yaraşıqlı, ağıllı, savadlı oğlanı əldə etmək, sevgisini qazanmaqdan ötrü öz aralarında yarışan qızlara şans vermədiyinə, verə bilmədiyinə görə özünü suçlu sayırdı? "Axı bu mümkün deyil! Bu mənim imkanlarım daxilində deyil! Hətta qadın sevmək iqtidarında olsaydım belə, bu geri zəkalılara rəğbət bəsləyəsi deyildim ki..."

Arxaya döndü. Artuş, Şota, Luiza və Ernst əl qollarını ölçə-ölçə mübahisə edirdilər. Restoranda demək olar ki, onlardan başqa heç kim qalmamışdı. Dördlüyün söhbətindən, Zaurun qulağına fraqmentlərlə rusca sözlər çatırdı: "sülh", "dondurulmuş münaqişə", "sərhəd", "qaçqın"... Gözlərini qapadı. Artıq bu sözlərdən, mövzulardan ürəyi bulanırdı. Bircə tələbatı vardı – vəhşicəsinə sevişmək, sevmək və sevilmək... Gözlərini açdığında, Artuşun qayğı ilə ona baxdığını gördü. Yanındakılar görməsinlər deyə oğrun-oğrun baxırdı erməni.

"Baxmaqdan da qorxuruq bir-birimizə..." Zaur düşündü. "Bu nə oğraş regiondur, nə əxlaqsız mentalitetdir! Nə vaxta qədər qorxu içində yaşamalıyıq!? Bizim də sevməyə, sevilməyə haqqımız yoxdurmu?"

Zaur dəstəyə yaxınlaşaraq dedi:

- Hamı getdi. Bəlkə biz də çıxıb şəhərdə gəzişək?

Luizadan başqa, hər kəs bu təkliflə razılaşdı.

- Bağışlayın dostlar, mən səhər tezdən Yerevana hərəkət etməliyəm. Artuş sən qalırsan?

Artuş əzilə-əzilə, həvəssizcə cavab verdi:

- Həəə. Hələ bir iki gün Tiflisdə işlərim var.

Onun bu sualdan necə sıxıldığı Şotanın diqqətindən yayınmadı.

- Küçəyə çıxaq, Luizanı otelə ötürək. Sonra özümüz gəzişərik.

...

Tiflisin səması milyonlarla ulduzla bəzənmişdi. Şəhər sıx bir meşəni xatırladırdı. Bu meşədə hər bir ağacın, daşın, pişik və itin öz adı vardı. Hər bir ağac o birisinin ya əmisi, ya əmioğlusu, ya dayıoğlusu, ya xalası, ya da xalası qızı idi. Zaur Tiflisdəki küçə adlarının, qədim palıda vurulan balta səsi kimi adamın qulağında cingildədiyini düşündü. Artuşun qulağına əyilərək ağlına gələn fikri onunla bölüşdü. Artuş astaca güldü və bir az kədər, bir az sevgi, bir az da həsrətlə yoğurulmuş baxışlarını Zaurun profilində gəzişdirdi.

Luizaya otelə qədər yol yoldaşlığı etdikdən sonra, gecə saat ikinin yarısına qədər Kür sahili boyunca süləndilər. Yorğun düşmüşdülər, amma heç kəs evinə, otelinə qayıtmaq, yatmaq istəmirdi. Sabahkı gün, bütövlüklə onların ixtiyarında olduğuna görə, tirtap düşənə qədər gəzmək istəyirdilər.

Şota gözlərini Kürün çirkli suyundan ayırmadan addımlayan Ernstdən soruşdu:

- Sabaha planlarınız nədir cənab Kopf?
Ernst diksinən kimi oldu. Onu daldığı xəyallardan ayıran Şotaya mülayim nəzər yetirdi.
- Sabah hesabat üzərində işləməyə başlayacağıq. Nədir ki?
- Əmim oğlunun toyuna dəvət etmək istərdim sizi.
- Ah təşəkkür edirəm, - Ernst ayaq saxladı. – İnanın mənim üçün şərəf olardı. Amma həqiqətən vaxtım yoxdur. Sizin toylarınıza, mətbəxinizə heyranam. Gərək məni bağışlayasınız.
Şota, dəvəti qəbul edilmədiyinə görə pərt olmuşa oxşamırdı. Gülümsəyərək dedi:
- Sizi başa düşürəm. Amma inanın mənə üç gün, üç gecə davam edəcək toya gəlmək istəsəniz, zəng vurmağınız kifayətdir. VIP qonaq səviyyəsində qarşılanacaqsınız.
Zaur Artuşun qulağına pıçıldadı:
- Sabah biz də toya getməliyik. Yadından çıxmayıb ki?
- Yox, çıxmayıb. Amma düzünü desəm, çox da marağında deyiləm.
- Elə mən də... Getməyə məcburuq sadəcə...
Dördünün də ayaqları artıq sızıldamaya başlayanda dağılışmağa qərar verdilər. Şota yoldan keçən bir taksini saxlatdırıb, Ernstə müraciət etdi:
- Buyurun, sizi evinizə aparım.
- Zəhmət olmasa.
- O nə sözdür, buyurun. Bəs siz uşaqlar, minmirsiniz?
Artuş Zaurun cavabını gözləmədən, tələsik dedi:
- Sağ ol Şota, biz piyada gedərik. Yolumuz çox uzun deyil. Hava da mülayimdir.
- Onda sabaha qədər.
Şota onlarla qucaqlaşdı və qabaq oturacağa əyləşdi. İndi də növbə Ernstlə vidalaşmağa gəlmişdi.
Ernst rus dilində sanki daha səlis danışaraq, ata qayğıkeşliyi ilə bir-bir onların əlini sıxdı.
- Sizinlə tanış olmağıma çox şad oldum. Artuş, Zaur ümidvaram bu bizim son görüşümüz olmayacaq. Xahiş edirəm, ölkələrinizə qayıtdıqdan sonra tədbir barədə yazacağınız materialları mənim e-mail ünvanıma yollayasınız. Salamat qalın.
- Salamat qalın cənab Kopf.
- Yolunuz açıq olsun cənab Kopf.
Maşın gözdən itən kimi, Artuş əlini Zaurun çiyninə qoydu. Aram-aram, tələsmədən otelin yolunu tutdular. Uzun müddət susaraq getdilər. Dəqiqələr dəqiqələri əvəzləyirdi. İkisinin də arasında günlərdir yaşanan qəribə hadisələrin hördüyü hündür, aşılmaz bir divar sanki indi onları susmağa, bu barədə düşünməyə vadar edirdi. Bu gün birinci dəfədir tək qalırdılar və heç biri sükutu pozmağa cəsarət etmirdi. Arada bir yoldan ötən maşınlar və yuxarı məhəllələrdə hürən məğrur gürcü itləri olmasaydı, bu şəhərdə tənha olduqları hissinə qapılacaqdılar.
Otelə çata-çatda Artuş marketin qabağında ayaq saxlayaraq, alçaq səslə Zaurdan soruşdu:
- Nəsə almaq lazımdır? Pivədən, sudan?
- Yox, mənə lazım deyil, - dedi Zaur. – Tez gedib yatmaq istəyirəm. İt kimi yorulmuşam. Amma özünə nəsə almaq istəyirsənsə, al.
Artuş əlini yelləyərək üzünü turşutdu:
- Düz deyirsən. Mən də almayım. Sonra səhərə qədər yata bilmirəm.
Otelin qapısından içəri girdiklərində, saat ikiyə qalırdı. Üçüncü mərtəbəyə qalxdılar və Zaur, iki qapı sağ tərəfdə qalan Artuşa “Gecən xeyrə” dedi.
- Gecən xeyrə... Artuş qərarsız cavab verdi. - Deyirsən yataq?
- Hə Artuş, yatmaq istəyirəm. Halım yoxdur.
Aralarında iki gün dalbadal yaşananları təhlil etmək üçün zamana ehtiyaclarının olduğunu Artuş da bilirdi əslində, amma duyğularına, şiddətli şəhvət və ehtirasına qalib gələ bilmirdi. Bu gecə ayrı yatmaqlarının daha məqbul olduğunu anlasa da, özü ilə bacarmırdı.
Öz xəyalları ilə baş-başa qalacaqları, yalqızlığın əsiri olacaqları otaqlarına keçdilər.
Zaur qapını bağlayıb soyundu. Tualetə getdikdən sonra çarpayıya sərildi və gözlərini tavana dikib, sızıldayan ayaqlarının fəryadını dinlədi. Bir yandan düşüncələr, bir yandan da ayaqlarının ağrısı, zehnini məşğul edir, onu yatmağa qoymurdu. Telefonunun saatını səhər 11.00-a qurdu. Bilirdi ki, on birdən o tərəfə yatıb qalsa, başı yaman ağrıyacaq, bütün gün süst düşüb qalacaqdı.
Artuşun da gözünə yuxu girmirdi. Zaurla münasibətlərini düşünür, düşündükcə də havalanan kimi olurdu. “Bu nə qəribə hadisələrdir mən yaşayıram?! Nə dəhşətli işlər görürəm?! Bu nə sevdadır düşmüşəm?! İlahi, sən özün mənə kömək ol!.. Sən özün mənə yol göstər”.
İkisi də yuxuya gedəndə, dünyanın bütün saatları ayrılığın, intizarın, faciənin, müsibətin yarısını göstərirdi.

## 2

Zaur telefonunu saat 11.00-a qursa da, Artuşun həsrəti saat 09.30-da oyatdı onu. Duş aldıqdan və yarım saat otaqda vurnuxduqdan sonra, Artuşa zəng vurmağa qərar verdi.

Üçüncü siqnaldan sonra, Artuşun şən səsi duyuldu:

- Alo.

- Oyanmısan?

- Özü də çoxdan. Bilmirəm niyə, amma özümü çox gümrah və yuxumu almış hiss edirəm. Kefim də kökdü.

- Yaxşı elədik çox içmədik dünən gecə. Yoxsa indi başımız qazan kimi olardı.

Artuş gülə-gülə dedi:

- Xeyri nədi? Bu gün ki, gürcü toyunda əməlli başlı vuracağıq.

- Vay bizim halımıza... Zaur dedi və beş saniyə fikrə gedib əlavə elədi, - Yeməyə getməyək?

- Hara?

- Nə bilim... İstəyirsən Osetin restoranına gedək, gözəl xaçapurilər olur orda.

- Tanıyırsan oranı?

- Yüz dəfə olmuşam.

- Yaxşı. On dəqiqə sonra çıx dəhlizə.

***

Saat on birə qalmış, onlar artıq Meydandakı "Alan" adlı Osetin pivəxanasında oturmuşdular. Qərar verə bilmirdilər - səhər yeməyi yesinlər, yoxsa bir dəfəlik nahar eləsinlər. Ofisiant artıq bir dəfə onlara yaxınlaşsa da, müştərilərin qərarsızlığını görüb geri qayıtmışdı. Sonda, çox götür-qoydan sonra, böyük osetin xaçapurisi və osetin pivəsi sifariş verdilər.

- Qəribə yemək olacaq, – dedi Artuş qabağına gələn nəhəng fətirə baxaraq.

Zaur pivədən böyük bir qurtum alıb nəfəsini dərdi və soruşdu:

- Niyə? Xoşuna gəlməyən nəsə varsa...

- Yox, yox. Hər şey əladır... Sənin sağlığına – bokalını qaldırdı. Hərçənd ki, sən artıq içməyə başlamısan. Heç adamı gözləməklə aran yoxdur.

Zaur üzünü turşutdu:

- Çox vacibdir toqquşdurmaq? Zəhləm gedir bu adətdən. Qafqazlılar qədəh toqquşdurub gic-gic danışmağa başlayanda dözülməz olurlar. Bu onların ən mənasız olduğu anlardır. Özü də ki, gürcülər pivəni toqquşdurmurlar mən bilən...

Zaur deyinə-deyinə də olsa, gözlərinin içi gülə-gülə sevgilisinə baxan Artuşla bokalını toqquşdurub, masaya qoydu. Xaçapurisindən bir tikə qoparıb, iştahla çeynədi.

- Təklifim var yeməyimizi yeyib, Tiflisdə gəzişək. Hava da gözəldir bu gün.

Artuş razılıqla başını buladı.

- Mütləq. Səninlə konfrans zalından və otel otağından başqa heç yerdə olmuruq. Hər birimiz üçün bu şəhər əzizdir. Və hər birimizin bu şəhərdə sevdiyimiz məkanlar, bu şəhərlə bağlı xatirələrimiz var. Onları birlikdə gəzmək, görmək çox həyəcanlı və unudulmaz olacaq.

Bir müddət sükunət içində xaçapurilərini yedilər. Arada bir restoranın seyrək müştərilərinə, onların sifarişlərini çatdırmaq üçün ora-bura qaçan zirəng ofisiantlara baxırdılar. Zaur bir ara gözlərini qonşu masada oturan gənc sevgililərdən ayırıb Artuşa baxdı. Artuş bıçaqla xaçapurinin axırıncı dilimini doğrayırdı. Ürəyindən sevişmək keçdi, vəhşicəsinə sevişmək istəyirdi. Şaha qalxan qır atını sakitləşdirmək üçün baldırlarını sıxdı. Diqqətini başqa bir nöqtəyə cəmləmək, şəhvət selinin qarşısına sədd çəkmək, zehnini nə iləsə məşğul etmək lazım idi. Birdən soruşdu:

- Artuş, sənə bir sualım var.

Zaurun müraciətində qəribə bir rəsmiyyət, quruluq sezən Artuş təəccübləndi. Heyrətlə sevgilisinin üzünə baxdı.

- Əlbəttə. Buyur soruş.

- Nə üçün siz ermənilərdə, paranoya dərəcəsində məhvolma qorxusu var? Siz həqiqətən bütün ətrafınızın düşmən olduğunu, sizi hər an əzmək, yox etmək barədə planlar qurduğuna inanırsınız, yoxsa bu bizim şişirtmələrimizdir?

Artuş gülümsədi. Çətin ki, Zaurdan belə bir sual gözləyirdi, amma bir yandan da bu suala hazır adama oxşayırdı.

- Əslində sözlərində həqiqət payı var. Siz azərbaycanlılar həm müsəlmanların genişmiqyaslı ittifaqına, həm də türk birliyinə arxalandığınıza görə, özünüzü böyük xalq hesab edirsiniz. Praktik olaraq bir etnos kimi sağ qalacağınıza tam əminsiniz və məhvolma ehtimalından qətiyyən narahat olmursunuz.

Pivədən bir udum alıb, davam etdi:

- Amma biz... Böyük xristian birliyinə daxil olsaq da, konfessional spesifikamıza görə onların sırasında ayrı bir yer tuturuq, özümüzü nadir etnos hesab edirik. Uzun müddət, əsasən, qeyri-xristian mühitində və tarixi kolliziyalar şəraitində yaşadığımız üçün, bizdə belə bir sabit fikir formalaşıb ki, biz - düşmən əhatəsində olan kiçik etnosuq və bizi daim məhvolma təhlükəsi gözləyir. Hətta deyərdim erməni mentalitetində bu elementin olması, Qarabağ münaqişəsinin yaranmasında və xüsusən indiki mərhələyə çatmasında mühüm rol oynayıb. Ona görə də, Azərbaycan tərəfinin Dağlıq Qarabağ ermənilərinin təhlükəsizliyinə təminat verməsi, bizə inandırıcı gəlmir.

- Sənə də?

- Bəli, mənə də. Söhbət erməni təəssübkeşliyindən getmir. Azərbaycanda sizin özünüzün hüquqlarınız addım başı tapdalanır, ermənilərin hüquqlarını necə təmin edəcəksiniz?

- Eyni qanunsuzluqlar Ermənistana da aid deyilmi?

- Əsl azərbaycanlı kimi danışdın. Əlbəttə aiddir. Bunu inkar edən var? Amma biz hal-hazırda sizdən danışırıq – Qarabağı tərkibində görmək istəyən və Qarabağ ermənilərini vətəndaşı sayan Azərbaycandan. Onlara təhlükəsizlik təminatı vermək mümkün deyil. Bəlkə əlli, yüz il sonra sizə inanarlar. O da çətin... İndi isə mən sənə bir sual verim.

Zaur nəşələndi.

- Əla! Üç günlük konfrans deməli bizə azlıq eləyib. Yoxsa bu mövzuya bir daha qayıtmazdıq. Soruş görüm nə soruşursan.

- Müharibə ehtimalına necə baxırsan? Amma xahiş edirəm klişe cümlələrlə danışma. “Lazım gələrsə, ordumuz...” kimi, gic-gic ritorikalara qarnım toxdur.

- Bilirsənmi Artuş, müharibə son nəticədə sülh əldə etmək üçün aparılır, yaxud da bu zərurətlə ona bəraət qazandırılır. Lakin bu sülh necə olmalıdır? Yəqin ədalətli olmalıdır ki, ədalətsizliyə məruz qalmışların, yaxud özünü belə sananların müəyyən vaxtdan sonra yeni müharibə törətmələrinə səbəb olmasın. Müharibə, gələcəyin altına yeni minalar qoyursa, deməli, biz məsuliyyəti gələcək nəsillərə ötürmüş oluruq. Mən bunu istəmirəm. Amma müharibə ehtimalına da inanmıram.

- Niyəsini soruşmaq olar?

- Olar, amma sən yenə də soruşma. Məntiqli cavabım yoxdur. Daha doğrusu hisslərim məntiqimi üstələyir.

- Bəs haqlı kimdi, haqsız kimdi?

Artuş tələbkar gözlərlə baxırdı Zaura. Cavab verməliydi, səmimi olmalıydı, stereotiplərlə danışmamalıydı.

- İnan ki, bilmirəm Artuş... Əlbəttə, “biz haqlıyıq” deməliyəm. Bunu deməyə borcluyam. Amma bu cavabımın da səni qane etməyəcəyini bilirəm.

- Hardan bilirsən?

Zaurun cavabı gecikmədi:

- Qane edəcəksə, onda “haqlı bizik” deyirəm.

- Mənim də vəziyyətim səninkindən fərqli deyil Zaur.

- Bilirəm əzizim... Bilirəm və sənin vəziyyətini başa düşürəm. Ürəyini sıxma.

Artuş razılıq əlaməti olaraq başını aşağı saldı, sonra da ofisiantı səslədi:

- Zəhmət olmasa hesabı gətirin.

Zaur təəccüblə:

- Gedirik? - soruşdu.

- Məgər sən deməmişdin Tiflisi gəzək bu gün? Tez çıxaq ki, Şotanın lənətə gəlmiş əmioğlusunun toyuna qədər doyunca gəzə bilək.

Zaur gözlərini yumub alnına bir şapalaq vurdu:

- Vay vay vay. Toy necə də yadımdan çıxmışdı... Gərək heç yadıma salmayaydın. Nəsə içimdə bir hiss var ki, bu toyun axırı yaxşı olmayacaq.

***

Meydandan keçib, köhnə şəhərin dar küçələrinə tərəf getdilər. Sion kilsəsinə çatanda, Artuş dayandı. Kilsəyə girdilər. Kilsənin içi qaranlıq və rütubətli idi. İçəridə, üzüm tənəyindən düzəldilmiş bir xaç asılmışdı. Gürcüstana nur gətirən müqəddəs Nino, bu üzüm tənəyini ilk dəfə ziyarət etdiyi qərbdən gətirmişdi. Artuş kürsünün önünə yaxınlaşdı, başını qaldırdı və yuxarıda asılmış müqəddəs himayəçinin rəsminə baxdı. Zaur da başını qaldırıb ora baxdı. Baxışları solğun ikonada birləşdi.

Kilsə pəncərələrindən içəri süzülən işıqda, Zaur Artuşun yaşlı gözlərini gördü.
- Gəl buradan gedək, – dedi.
Artuş itaətkarcasına kilsədən çıxdı. Dinməz-söyləməz yeriyirdilər. Nəhayət Zaur dilləndi:
- Allaha inanırsan Artuş?
- Çətin sualdır. Deyəsən inanmıram. Amma kilsəyə gedirəm... Rahatlıq tapıram orada. Hərdən də dua edirəm.
- Bəs dua edəndə, hansı günahlarının bağışlanmasını diləyirsən tanrıdan?
- Səni, Zaur.
Onun səsi qəmgin və yorğun idi.
- Nə üçün? – maraqla soruşdu Zaur.
- Çünki sən mənim həyatımın ən böyük günahısan... Bəs sən?
- Allaha inanıram, yoxsa yox?
- Aha.
- Cənubi Qafqazın və onda məskunlaşan xalqların mövcudluğu, Allahın yoxluğuna dəlalətdir. Bizə təbliğ olunan mərhəmətli, qüdrətli, hər şeyi bilən və hər şeyi görən Allah, belə mənasız, şərəfsiz, binamus məxluqları yarada bilməzdi. Mən də bundan belə nəticə çıxardıram ki, Allah yoxdur. Əgər varsa, onda elə yaratdıqlarına oxşayır. Belə Allaha inanmaqdansa, inanmamaq yaxşıdır.
Zaur danışdıqca, Artuş başını bulaya-bulaya gülürdü.
- Səndən də sözlər çıxır haa!
Kafeləri ağzınacan doldurub qəhvə, şərab içən gürcülər üçün içməyin vaxtı yoxdur. Haradansa xor səsləri gəlirdi. Lap aşağılarda isə Kür çayı köpüklənə-köpüklənə axırdı. Artuş çox uzaqlara baxırdı. Elə bil ki, o, uzaqlarda öz keçmişini axtarır, xəyalən Tiflisin sərhədlərini aşıb Bakıya səyahət edirdi.
- Nə düşünürsən, – soruşdu Zaur.
- Səni və bütün olub keçənləri.
Nə demək istədiyini başa düşsə də, yenə də soruşdu:
- Aramızda olub keçənlər o qədər dəhşətlidir?
Artuş dayanıb sözə başladı:
- İstəyirsən bütün Qafqazı gəz, insanlarla söhbət elə. Bu coğrafiyada bizim münasibətlərimizi başa düşəcək, dəstəkləyəcək adam tapa bilərsənmi? Yox. Bu region tamam başqa bir dünyadır. Biz isə özümüzü unudub, Avropalılar kimi hərəkət edirik. Bu nə cəsarətdir, başa düşə bilmirəm. Əslində biz Qərbə mənsubuq, burada olmamalıyıq.
Zaur oğrun-oğrun çevrəsinə göz gəzdirib, ehtiyatla onun əlini əlinə aldı:
- Artuş, sənin üçün nə istəyirsən, edərəm. Avropaya da gedə bilərik. Hara istəsən, ora getməyə hazıram.
- Eh, Zaur...
Artuş nəmli, soyuq daş divarın yanında ayaq saxlayıb, əlini daşa yasladı. Gözlərini yumub, dərindən nəfəs aldı. Elə bil Kürün yaydığı rütubətdən sərxoş olmuşdu.
- Bilirsənmi səni nə üçün sevirəm, Zaur?
- Bilmirəm. Bunu bilməyim o qədər də vacib deyil.
- Mən sənin gözlərini, sənin səsini, sənin ətrini və sənin yerişini sevirəm. Daha bundan artıq nə ola bilər? Sevdiyim ancaq sənsən. Məhəbbət deyilən şey Azərbaycanda necədirsə, elə Ermənistanda da o cürdür.
- Gürcülərin böyük şairi Rustaveli min il bundan qabaq bizim durduğumuz yerdə kraliça Tamaraya məhəbbət şerləri oxuyurdu. Bilirsənmi, onun şerləri İran rübailərinə nə qədər bənzəyir?
Artuş düşünərək dedi:
- Təbii, Rustaveli əslində böyük şərq poeziyasının, daha dəqiq desək üslub baxımından İran poeziyasının tərkib hissəsidir. Bəlkə də elə böyük məhəbbət şairi Sayat Nova da bu yerdə dayanmışdı... Amma gürcülərin məhəbbətini şeirlərində tərənnüm etdiyi üçün, şah onun başını vurdurtmuşdu.
Bütün bu söhbətlər Artuşun qanını qaraltdı.
- Zaur, bəs sən... Sən məni niyə sevirsən?
Artuş sualını tamamlayar-tamamlamaz, elə küçənin ortasında ağlamağa başladı. Yanaqlarından süzülən iri yaş damlaları onu balaca bir uşağa döndərmişdi. Zaur onu çiyinlərindən tutub yüngülcə silkələdi.
- Artuş mən sənin ruhunu sevirəm eşidirsən, ruhunu! Sadəcə səni, sən olduğun üçün sevirəm. Bəli, mən dəliyəm. Biz ikimiz də dəliyik. Amma bundan kimə nə var? Biz küçənin ortasında dayanıb, ağlaya bilən, bütün ədavətləri, müharibələri unudub sevə bilən çılğın aşiqlərik.
Artuş iri, yaşlı gözlərini həsrətlə Zaurun üzünə dikib soruşdu:
- Axı mən, sənin nifrət etdiyin Ermənistanın kiçicik bir parçasıyam və ora aidəm.
Zaur çaşıb qalmışdı, onun sözlərini başa düşmürdü:
- Sən nə danışırsan? Sən mənim uşaqlığıma aidsən, Bakıya aidsən. Ermənistan sənə yaddır. Bunu özün də bilirsən.

Söhbətləşərək dar küçədən keçən iki şən gürcü qızı, divar dibində pıçıltı ilə danışan iki gənc oğlana təəccüblə baxıb, yanlarından ötdülər. Artuş gözlərinin yaşını silib, gülümsədi və başını yana əyib dedi:

- Kaş dediklərin təsəlli xətrinə deyilmiş gözəl sözlər yox, həqiqət olaydı.
- Mən sənə quru təsəlli vermirəm, həqiqəti deyirəm.

Artuş sağ tərəfdə, sarmaşıqlarla bəzədilmiş binanın tinində oynayan uşaqlara baxıb həvəssiz dilləndi:

- Yaxşı, dediyin kimi olsun...
- Gedək Artuş... Burda dayanmağın mənası yoxdur. Mən artıq üşüyürəm.

Köhnə Tiflisin turistlərin bol olduğu balaca meydançasında, qara-mara bir kürd qızı fala baxırdı. Onlar qızın yanından sürətlə keçdilər. İndi onların həyatda ən az bilmək istədikləri şey – öz gələcəkləri idi. Şüuraltıları ilə gələcəklərinin qaranlıq olduğunu, sonda bir ümid işartısının görünmədiyini bilirdilər. On dəqiqəyə yaxın kəlmə kəsmədən yollarına davam etdilər. Birdən Artuş ayaq saxlayıb, şən səslə soruşdu:

- Mtatsmindaya, Müqəddəs Davud dağına qalxaq?
- Nə var axı orda? Yüz dəfə olmuşam.
- Sən nə danışırsan!? Yüz birinci dəfə də qalxa bilərsən. Oradan şəhərə möhtəşəm mənzərə açılır, özünü göyün yeddinci qatında hiss edirsən. Məgər bu azdır?

Zaur üçün Davud dağına qalxıb-qalxmamaq prinsipial məsələ olmadığına görə, başı ilə razılıq verdi və onlar yan küçəyə dönüb funikulyora tərəf getdilər. Bir azdan sonra mindikləri kiçik vaqon tələsmədən, ağır-ağır Davud dağına qalxmağa başladı. Vaqonda onlardan başqa xarici turistlər də vardı. Onların gidi, saçları hörüklü cavan gürcü qızı, dağın təpəsindəki dillər əzbəri olmuş məşhur monastırın yaranma tarixçəsini danışmağa başladı:

"Uzun illər bundan öncə bu dağda müqəddəs Davud yaşayırmış. Şəhərdə isə bir kral qızı varmış. O qız bir knyaz ilə eşqbazlıq edib, onunla günah iş tutur. Bir gün knyaz qızdan bezib onu atır. Qız isə hamilədir. Bu hadisədən xəbər tutan kral çox qəzəblənir və qızını başdan çıxaran adamın kimliyini xəbər alır. Qız sevgilisinin adını deməyə qorxduğu üçün, onun yerinə müqəddəs Davudun adını çəkir. Qəzəblənən kral əmr edir ki, Davudu onun sarayına gətirsinlər. Davudu saraya gətirəndən sonra kral öz qızını da oraya çağırtdırır. Kralın qızı atasının hüzurunda da dediklərini təkrar edir. Müqəddəs Davud isə əlindəki əsasını qızın qarnına toxundurur və birdən möcüzə baş verir. Qızın qarnındakı uşaq dil açıb, əsl günahkarın adını çəkir. O zaman müqəddəs Davud əllərini göyə qaldıraraq dua edir və qız övlad yerinə daş doğur. İndi həmin daşın dibindən müqəddəs Davud bulağının suyu fışqırır. Uşağı olmayan qadınlar isə bu bulağın suyunda çimirlər ki, uşaqları olsun".

Sevgililər monastırın ətrafını dörd bir yandan əhatə edən divarın yanında dayanıb, şəhərə baxırdılar. Kür çayının sahili mavi dumana bürünmüşdü. Evlərin damlarından görünən kilsələrin günbəzləri tənha adaları xatırladırdı. Şəhərin şərqində və qərbində tiflislilərin dincəldikləri bağlar, parklar uzanırdı. Uzaqlarda qapqara görünən Metex qalası ucalırdı.

- Eşidirsən Zaur? Bizim kimi günahkarları yüz il əvvəl yaxalasaydılar, Metex qalasına həbs edərdilər.
- Mən indi də səninlə birlikdə ölənə qədər o qalada yaşamağa hazıram.
- ?
- Çox ciddiyəm.
- Heyf səni burada öpə bilmirəm.
- Sən də səbirli olmağı öyrən.

## 3

Axşam saat 18-də, Şota Dodiko adlı şişman qohumunun sürdüyü Nissan Sunny markalı avtomobildə, ATA Otelinin qabağında Zaurla Artuşu gözləyirdi. Cüssəli, pəzəvəng Dodiko havanın soyuq olmasına baxmayaraq bolluca tərləyir, Şotaya giley eləyirdi.

- Harda qaldı bunlar? On beş dəqiqədi gözləyirik. Məclis başlayır axı.
- İndi gələrlər də, doğursan bəyəm? Toya gedirlər axı, gərək bəzənsinlər.

Siqaretin filtrini çeynəyə-çeynəyə sümürən Dodiko, gözlərini qıyıb:

- Qız zaddılar bəzənirlər? – soruşdu.
- Elə qız kimi şeydilər.

Dodiko gözlənilməyən cavabın təsirindən öskürüb, gözlərinin yaşını sildi.

- Necə yəni? Petuxdular?

Şota güldü.

- Özün görüb qərar verərsən. Əslində oxşamırlar, amma qəribə nəsə var aralarında. Şübhələnirəm.

Dodikoya bic-bic baxıb əlavə etdi:

- Erməni ilə azərbaycanlını başqa nə birləşdirə bilər? Onların bu mehribanlığına, səmimiyyətinə başqa məna vermək olmur.

Heç üç dəqiqə keçməmiş qapıda göründülər. Əvvəl Zaur çıxdı. Başını qaldırıb göy üzünə baxdı, havanın açıq olduğunu görüb məmnunluqla gülümsədi. Ardından Artuş çıxdı küçəyə. Nə barədəsə astadan danışa-danışa, maşına tərəf addımladılar. Şota maşından düşüb onları qarşıladı. Qucaqlaşıb öpüşdülər.

- Gürcü toyuna hazırsınız dostlar?

Zaur gərnəşib sinəsinə bir yumruq vurdu:

- Nədir ki? Gürcü toyuna xüsusi hazırlıq tələb olunur?

Şota gülə-gülə arxa qapını açıb dedi:

- İndi gedərik görərsiniz. Görürəm çox özünüzdən arxayın danışırsınız. Gürcü toyu nə erməni, nə də azərbaycanlı toylarına oxşamır.

Qapını bağladıqdan sonra Şota qabaqdakı yerini aldı və maşın hərəkətə keçən kimi, Artuşla Zaura qohumunu təqdim etdi.

- Tanış olun dostlar - qohumum Dodiko. Özü də keçən il ailə qurub. Çox unikal adamdır – otuz yaşı var, amma indiyə qədər nə Ermənistanda olub, nə də Azərbaycanda. Amma Rusiyanı demək olar ki, başdan sona gəzib, görüb.

Zaur:

- Çox şad oldum. Mənim də adım Zaurdur. Bakıdanam, - dedi.

- Mən də Artuşam. Tanış olmağıma şad oldum.

Dodiko sümürdüyü siqareti pəncərədən bayıra vıyıldadıb dedi:

- Şota haqqınızda çox bəhs edib mənə. Hələ siz Tiflisə gəlməzdən əvvəl, Bakıdan və Yerevandan dostlarının gələcəyini deyirdi.

- Sağ olsun Şota, gürcü qonaqpərvərliyini nümayiş etdirmək üçün həmişə səbirsizlənir, - Zaur bunu deyib Artuşa baxdı. Artuş isə maşında gedən söhbətlərə laqeydcə qulaq asa-asa, pəncərədən bayıra baxırdı.

Dodiko:

- Şota sizin maraqlı hekayənizi də danışıb mənə. İkiniz də əslində Bakılı imişsiniz. Artuş müharibə başlayanda Yerevana köçüb, sonra siz uzun illərdən sonra, üç gün əvvəl burada, Tiflisdə görüşübsünüz.

Artuş gözlərini pəncərədən ayırıb qabaqda oturan Şotanın profilinə baxdı və çətinliklə sezilən istehza ilə əlavə elədi:

- Tiflis ayrılanları qovuşduran, münaqişə xalqları arasında sülh körpüləri salan bir şəhərdir.

Tipik gürcü olan Dodiko, Artuşun bu sözlərindən qürrələnərək sevincək dedi:

- Düz buyurursunuz. Münaqişəyə qədər Azərbaycanda, ya da Ermənistanda qonşu olan, dostluq edən azərbaycanlılarla ermənilər burada, Tiflisdə vaxtaşırı görüşüb, ötən günləri yad edirlər.

- Və bu müharibənin baiskarı olan siyasətçilərə lənətlər edib, söyürlər.

Bu sözləri Zaur dedi. Bu dəfə istehzası açıq-aşkar hiss olunurdu. Bayaqdan susan Şota, dönüb arxaya baxdı.

- Sənin sözlərindən belə çıxır ki, siyasətçilərin bizim münaqişələrdə heç bir rolu olmayıb. Mən sənin mövqeyini bilirəm - bütün məsuliyyəti xalqların üzərinə yükləyirsən. Amma xalq özü nədir, ya da kimdir axı? Qoyun sürüsü deyilmi? Sürüyə haranı istiqamət göstərsən, itaətkarlıqla ora da üz tutacaq. Kütlə hər yerdə kütlədir əzizim.

Zaur mübahisənin yersiz olduğunu düşünərək susur, cavab vermirdi. Onsuzda hər kəs öz mövqeyində qalacaqdı. Amma Artuş söhbətə qatıldı.

- Hər ikinizlə də qismən razıyam. Bu o deməkdir ki, hər ikisində də günah var – kütlədə də, siyasətçilərdə də. İnsana çox şey demək, onu qızışdırmaq olar. Səni öz qardaşına, atana qarşı qızışdırsalar, bunun bir xeyri olar? Məncə yox. Çünki sən qardaşını, atanı hər kəsdən daha yaxşı tanıyırsan. Amma siyasətçilər iki xalqı bir-birlərinin üstünə elə fısqırtdılar ki, indiyə qədər bizə aşılanan nifrətdən qurtula bilmirik. Doğulan andan hər bir erməni türkə düşmən olmalıdır. Hər bir azərbaycanlı körpəyə də ermənінin düşmən olduğu öyrədilir. Biri deyir hələ mən Bakını, Naxçıvanı da almalıyam, obiri isə Sevan gölünün, İrəvan xanlığının həsrətini çəkir. Və bu məsələlərdə xalq da, siyasətçilər də çiyin-çiyinə hərəkət edirlər, həmrəylik nümayiş etdirirlər.

Dodiko:

- Çox gözəl danışırsan, - dedi. Müharibəyə qədər mənim də xeyli abxaz dostum vardı. Qardaş kimi yaşayırdıq. İndi isə görüşmək üçün ən yaxşı halda gərək sərhəddə gedim. Ona da çox vaxt icazə vermirlər.

Orbeliani küçəsində, Şota qohumunun sözünü kəsib dedi:

- Restorana çatmışıq. Bura Tiflisin ən sanballı restoranlarından biri sayılır. Adı Tamadadır. Toy çox xudmani olacaq, cəmi 60 adam dəvət olunub. Bəy istəyib ki, həyatının ən unudulmaz anlarını ən yaxın dostları ilə qeyd etsin. Bu restoranın əla xüsusiyyətlərindən biri də odur ki, burada çaçanın necə hazırlandığını görmək, hətta bu prosesdə iştirak etmək mümkündür. Milli mətbəxə də ki, söz ola bilməz!

Dodiko, maşını iyirmiyə yaxın avtomobilin park edildiyi meydançada saxlayıb:

- Gürcü toyuna xoş gəlmisiniz - dedi. Getdik.

Dördü də maşından düşüb, yaraşıqlı restoranın yamyaşıl bağçasına ayaq basanda, restorandan gürcü zurnasının səsi gəlirdi.

- Kaxetiyalıların döyüş havası “Mravalyaver”i çalırlar, dedi Şota. Bəy çox milli oğlandı, adət-ənənələrimizə bağlıdır.

Restoranın qapısından təzəcə ayaq basmışdılar ki, xevsurların “Lilo” rəqs havası çalınmağa başladı. Bir anda özlərini oynayanların arasında görən Zaur və Artuş çaşıb qalmışdılar. Sərxoş gürcülər onların ətrafında çılğın rəqslər edir, toz buludu qaldıraraq atlanıb-düşürdülər. Bir ara kimsə Zaurun ayağını tapdaladı, at kimi kişnəyən uzun, bəmbəyaz paltarlı gəlin isə, əlindəki şərab qədəhini Artuşun gödəkcəsinə boşaltdı və dili topuq vura-vura üzr istəyərək qaçıb getdi.

Şotanı və yanındakı qonaqları görən sərxoş bəy Artuşla Zauru sinəsinə möhkəmcə sıxıb yanaqlarından öpdü.

- Xoş gəlmisiniz qardaşlar! Şotanın mənə ən böyük hədiyyəsi sizlərsiniz bu gün!

Sonra dönüb şərab içən hündürboy, otuz beş yaşlarında müğənniyə qışqıraraq mahnı sifariş verdi:

- Az iç, köpək uşağı! Mqali Deliya! Ermənistanlı və azərbaycanlı qonaqlarımız üçün xüsusi olaraq!

Zaur sonra öyrəndi ki, Mqali Deliya İveriya dağının mahnısıdır. Mahnı başlayan kimi, hamı transa düşüb, feyzyab oldu. Gürcülərin müvəqqəti sakitləşməsini fürsət bilən Artuşla Zaur, Şotanın köməyi ilə özlərinə masaların birində yer tapıb oturdular. Onların masa qonşuları olan gənc qızlar və oğlanlar, dərhal qonaqlara şərab süzdülər, boşqablarına iri ət tikələri və xinkalilər doldurmağa başladılar. Qıyıqgözlü, hündürboy bir oğlan nə üçünsə xüsusi canfəşanlıq göstərir, fasiləsiz gülür və yeri gəldi gəlmədi, nəsə istəyib-istəmədiklərini onlardan soruşurdu. Artuş onun kimliyi ilə maraqlananda məlum oldu ki, qıyıqgöz oğlan, bəyin Qazaxıstanlı dostudur, Moskvada tanış olublar və bu tanışlığın nəticəsində şərikinə üç obyekt açıb işlədirlər.

- Adım Talqatdır. Karaqanda şəhərindənəm.

- Çox məmnun oldum. Mən də Zaur. Bakıdanam.

- Mənim də adım Artuşdur. Yerevanlıyam. Şad oldum.

- Nə gözəl! Biz də Qazaxıstanda elə bilirik ermənilərlə azərbaycanlılar düşməndir. Sən demə onlar kef eləyir, can deyib, can eşidirlər.

Zaurun sifəti əyildi. Artuş iki ağız öskürüb zorla gülümsədi. Talqat özü də sərf etdiyi axmaq şərhinə görə peşman olmuşdu. Mövzunu dəyişmək üçün dedi:

- Bir həftədir Tiflisdəyəm və deyəsən on beş kilo kökəlmişəm.

Zaur ağzında xəncərlə rəqs edən bəyi göstərib soruşdu:

- Bəy deyəsən çox qonaqpərvərdir?

Talqat şərab qədəhini başına çəkib dedi:

- Qonaqpərvərlik də sözdür!? Siz nə danışırsınız! İlk dəfədir Qafqazdayam və bura gələndən sonra başa düşdüm ki, sən demə mən otuz ildir boş yerə yaşamışam. Mən buradakı mərdliyi, qeyrəti, şərəf və ləyaqəti, səxavəti heç bir yerdə görməmişəm. Əminəm ki, Ermənistan və Azərbaycanda da vəziyyət eynidir.

Artuş bir anlığa Zaura baxıb təzədən üzünü Talqatın yumru sifətinə çevirdi:

- Elədir. Bütün Qafqaz belə mərd, qonaqpərvər və qeyrətlidir.

Talqat hamıya şərab süzüb ayağa qalxdı və qədəhini qaldırdı:

- Onda içək mərd Qafqazın əbədiliyinə! Yaşasın Qafqaz!

Masadakı hər kəs sağlığa qoşulub ayağa qalxdığına görə, Artuşla Zaur da məcbur olub durdular. Qədəhlər toqquşdu, Qafqazın abədiliyinə içildi.

Şota yarım saat idi ki, gözdən itmişdi və Zaurla Artuş, sözün əsl mənasında gürcü və qazax qonaqpərvərliyinin əsirinə çevrilmişdilər. Alazan və Kaxetiya şərabları bir-birini əvəzləyir, kabablar və motal pendirləri mədələrə ötürülür, bəy və gəlinin gürcü qonaqpərvərliyinin keşiyini çəkən qohumları, dostları erməni, azərbaycanlı və qazaxa “xoş gəldin” demək üçün yarışırdılar. Hamı bir-bir onların yanına yaxınlaşıb tanış olur, onlar da məcburiyyət qarşısında hər kəslə qədəh toqquşdururdular.

Birdən çevik gürcülərdən biri, meydançanın ortasına düşərək “Davlur” rəqsini oynamağa başladı. Zaurgilin masasında oturan gürcülər, hamı bir nəfər kimi ayağa sıçrayaraq meydançaya cumdular. Hardansa arxa tərəfdən peyda olan Şota, əlini sevgililərin çiyinlərinə qoyaraq onları silkələdi:

- Rəqs etməyəcəksiniz?

Zaur “bircə bu çatışmırdı” fikirləşib, qətiyyətlə dedi:

- Xeyr. Mən rəqs etməyi bacarmıram.

Artuş da etiraz etdi:

- Sən nə danışırsan? Gürcülərin rəqsinə tamaşa etmək, oynamaqdan daha yaxşıdır.

Şota məyus olsa da, bunu biruzə vermədi.

- Talqat, sən də oynamaq istəmirsən?

- Yox qardaş, çox sağ ol. Onsuz da bacarmıram. Özümü niyə biabır eləyim?

- Yaxşı. Özünüz bilərsiniz. Mən də gedim yüz ildir görmədiyim qohumlarla vurum. Darıxmazsınız?
Artuş dərhal cavab verdi:
- Yox, yox sən narahat olma. Darıxan deyilik. Hər şey əladır.
Şota razılıqla gülümsədi və yenidən gözdən itdi.
Zaur şərab qədəhini qaldırdı:
- Bizim sağlığımıza! Orta Asiya və Cənubi Qafqaz xalqlarının dostluğu şərəfinə!
Artuş da qədəhini götürüb Zaurunki ilə toqquşdurdu:
- Sağlığımıza!
Talqat da qədəhini qaldırdı və minnətlə dedi:
- Hərçənd ki, Qazaxıstan Orta Asiya sayılmır və biz artıq UEFA-da oynayırıq, mən yenə də deyilən sağlığa qoşuluram.
...
Dəqiqələr dəqiqələri, saatlar saatları əvəzləyir, toy uzandıqca uzanır, şərab dolçaları ard-arda boşalır, başlar xumarlanırdı. Masada oturan gürcülərin danışdıqları lətifələri gülməli oldu olmadı uğuna-uğuna dinləyən Zaur, Artuş və Talqat, əməlli başlı sərxoş olmuşdular. Musiqinin səsi haradansa uzaqlardan gəlirdi. Himnə bənzəyən mahnı çalınmağa və sərxoş qonaqlar xorla nəsə oxumağa başlayanda, Zaur yanında oturan İrakli adlı gürcüdən soruşdu:
- Nə oxuyurlar onlar?
- Bu bizim qədim himnimizdir. "Dur, ey kraliça Tamara, Gürcüstan sənin üçün ağlayır!" adlanır.
Zaur, İraklinin cavabına maraqla qulaq asan Artuşa baxıb göz vurdu və qulağına əyilib pıçıldadı:
- Hər gün bir daha əmin oluram ki, bütün qafqazlılar başdan xarabdır.
- Özü də xəstəliymizin müalicəsi yoxdu. Faciə də elə bundadı... Amma sən allah bunu Talqata demə. Gör bizim haqqımızda necə heyranlıqla danışır.
Gecə saat on ikini keçmişdi. Artuş hallanmışdı, dodaqları da allanmışdı. İçdikcə sanki daha da gözəlləşir, bahar şehi kimi gümrah olurdu. Gözləri gülür, dodaqları söhbət etməkdən yorulmurdu. Zaur da onun yanında olmaqdan, ətrini duymaqdan, şən səsini eşitməkdən usanmırdı. Çox xoşbəxt olduğunu, amma xoşbəxtliyinin bir neçə gün sonra sona yetəcəyini düşündü.
Zaur, beynini bədbin düşüncələr işğal edəndə dərhal Artuşa baxır və bütün əndişələri rahatçılıqla, kədəri isə sevinclə əvəz olunurdu.

***

Ertəsi gün saat 13.20-də Artuşun qapısı döyüləndə, qazan kimi olmuş başını iki əlli tutub çarpayısından düşdü. Dama-dama yun köynəyi və cins şalvarı əynində idi. Otelə necə, nə vaxt qayıtdığını, otağına və yatağına necə girdiyini xatırlamırdı. Qapını açıb Şotanı görəndə başını buladı.
- Haradaydın sən?
Şota bu sual qarşısında çaşıb:
- ...Elə burda – dedi. Gecə oteldə qalmışam.
- Necə yəni, - Artuş yuxulu gözlərini sağ əlinin barmaqları ilə ovub, diqqətlə Şotanın üzünə baxdı. Keç içəri, qapıda niyə dayanmısan?
Şota otağa girib kresloya sərildi.
- Deyirsən oteldə gecələmisən?
- Aha. Zaurun otağında, divanda yatıb qalmışam.
Artuş diksinən kimi oldu. Gözucu Şotaya nəzər yetirdi və pəncərəyə yaxınlaşıb pərdələri araladı. İşığa xəsis payız günəşi bayaqdan bu anı gözləyirmiş kimi, içəri dolub Artuşun gözlərini qamaşdırdı.
- Birinci sənin otağına gəldik. Uca səslə erməni dilində nəsə oxuya-oxuya çarpayıya uzanıb dərhal yuxuya getdin. Sonra Zaurun nömrəsinə keçdik... Təsəvvür eləyirsən, orda da axmaq kimi, hərəmiz iki butulka pivə içdik. Yazıq Zaur, mənə sübut etməyə çalışırdı ki, sənin oxuduğun mahnı, əslində qədim Azərbaycan xalq mahnısı "Sarı gəlin" imiş. Sonra da qaçdı unitazını qusub-batırdı. Dediyinə görə, hamamdan çıxanda mən artıq yeddinci yuxuda idim. Heç nə yadımda deyil.
Şota başını kreslonun arxasına yaslayıb, gözlərini yumdu.
- Başım hərlənir, inanırsan? O nə gecəydi elə...
- Toy neçədə qurtardı?
Şota gözlərini çətinliklə araladı:
- Üçə yaxınlaşırdı deyəsən. Dəqiq bilmirəm.
- Zaur indi neynəyir? Yatıb?

- Yox oyanıb, - Şota qəfildən ayağa qalxdı, mini-bardan portağal şirəsi götürdü və acgözlüklə butulkanı başına çəkdi. - Çimir. Darıxdım, yanına gəldim.
Artuş başını bulayaraq sakitcə:
- Düz eləmisən..., bu qədər də yatmaq olmaz axı, dedi və tualetə getdi. Başı qurğuşun kimi ağırlaşmışdı. Əl-ayağı keyimişdi, onları elə bil heç hiss etmirdi. Güzgüyə baxarkən orada parlaqlığını itirmiş gözlərlə, rəngi qaçmış bir sifət gördü.
Şota butulka əlində təzədən kresloya oturan kimi, telefonu çaldı. Cihazı ağır-ağır cibindən çıxardıb displeyinə baxdı. Zəng eləyən Dodiko idi. Qohumunun vəziyyəti ilə maraqlanırdı.
- Salam. Neynirsən, hardasan?
- Harda olacağam, oteldə. Bəs sən?
- Evdən çıxırıq.
- Kiminlə çıxırsan? Arvadınla?
- Yox əşi, nə arvad. Talqat gecə bizdə qalıb, istəyirəm onu da bir az gəzdirim. Sabah çıxır gedir Moskvaya. Gələk dalınca?
Şota bədənini azca qabağa verib, təəccüblə soruşdu:
- Talqat kimdi?
- Toydakı Qazaxıstanlı qonaq.
- Həəə. Yadıma düşdü. Yaxşı gəl, gedək nahar eləyək. Paxmeldən ölürəm.
- Bəs məni demirsən - Dodiko zarıyaraq dedi. Nə isə, gəlirəm.
Yarım saat sonra, Dodikonun maşınında Kürün sol sahili boyunca şütüyürdülər. Günlərdən şənbə olduğuna görə, Tiflisin nəmli küçələri bomboş idi. Dodiko güzgüdən arxada oturan qonaqlara baxıb, tərəddüd keçirərək dedi:
- Siz kükürdlü hamamlarda olmusunuz?
Dodikonun belə bir sual verəcəyini gözləməyən Şotanın, təəccübdən gözləri bərəldi.
- Hamam?
Dodiko şənləndi:
- Nə üçün olmasın? – Bir daha güzgüdən arxaya baxdı, - Kükürdlü hamamlarda olmusunuz?
Artuşla Zaur baxışdılar, ikisinin də gözlərindən kükürdlü hamam təcrübələrinin olmadığı oxunurdu. Talqat isə ümumiyyətlə bu hamamlar barədə heç nə eşitmədiyi üçün, dedi:
- Yox, nəinki olmamışam, heç bu barədə eşitməmişəm də. Amma getmək istəyərdim. Başımın içində elə bil fırtına əsir. Sümüklərim də ağrıyır.
- Elə mən də o gündəyəm, - Artuş əli ilə çənəsini sağa və sola sıxaraq boynunu şaqqıldatdı. - Həqiqətən Kaxetiya şərabı mayeli atəş imiş.
Şota dərin bir ah çəkdi:
- Mən razı... Bəs məndən başqa heç kimin aclığı yoxdu? Hamama ac qarnına gedəcəyik?
Dodiko təklifinin qəbul edildiyini görüb sevindi. Maşınını sağa burub, kükürdlü hamamlara istiqamət götürdü.
- Narahat olma Şota. Hamamda əlqaf eləyərsən.
18-ci əsrin yadigarı olan hamamın giriş salonunda, onlar üçün doğrudan da gözəl süfrə açıldı. Hamı qurşağa qədər soyunmuş, göbəkdən aşağı fitələrə bürünmüşdü. Zaurla Artuş hələ suya girməmiş, özlərini buxara verməmiş bütün yorğunluqlarının, zəifliklərinin yavaş-yavaş keçib getdiyini hiss edir və Dodikoya təşəkkür etməkdən yorulmurdular.
- Görürsən də! - deyə Şota sözə başladı, amma sözünü bitirmədi. Çünki bu bircə “görürsən də” sözü, hər şeyi ifadə edirdi. Ölkələrinin kükürdlü hamamlarından duyulan qürur, gürcü qonaqpərvərliyindən “ziyan görmüş” qonaqlara qayğı və məsuliyyət hissi, bu kəlmə ilə ifadə olunurdu.
Ziyafət süfrəsinə on beş dəqiqə sonra üç adam da qoşuldu. Biri Şotanın, ikisi də Dodikonun tanışları idi. Bu çılpaq gürcülər, şərab şüşələrini əllərində silah kimi onlara tuşlayıb, süfrələrinə gəlmişdilər. Bu artıq hamam yox, daha çox klub, qəhvəxana və yaxud da çılpaq, gülməli adamların, qayğısız, gülər gözləri olan insanların yığıncağı idi. Hamı tanış olandan sonra, Dodiko əsnəyərək dedi:
- Doğrudan da bizim ölkəmiz qeyri-adi, gözəl bir ölkədir. Tiflis və onun kükürdlü hamamları, Kaxetiya şərabları! Hələ şəhərin ortasından şırıltı ilə axan Kürə baxın. Gürcü olmaq həqiqətən də xarüqulada bir şeydir. Rusiya bizi blokadaya almaq, bizi sındırmaq istəyir. Amma buna baxmayaraq yenə də çaylarımız şırıltı ilə axır, bağlarımız çiçəklənir, xalqımız da çalıb-oynayır.
Yemək-içmək fəsli bitəndə, hamı hamamın iri salonuna keçdi. Salon çox böyük və isti idi. Daş döşəmələrinin üzərində çılpaq adamlar uzanmışdılar. Döşəmədəki kvadrat biçimli böyük dəliklər, buxarlanan isti kükürdlü sularla dolu idi. Talqat hamıdan artıq sevinir, uşaq kimi özünü sulara atır, qıyıq gözləri işıq saçırdı.
- Bu nə əla yerdir belə! Mən günü-gündən bu gözəl ölkəyə daha çox vuruluram!
Şota qonaqların heyranlığını görüb, kükürdlü hamamların tarixini danışdı:

- Çox qədim zamanlarda bir kral ova çıxmışdı. O, ov quşunu bir meşə xoruzunun üstünə şığıdır. Kral ov quşunun ovu ilə birlikdə geri dönməsini xeyli gözləyir. Lakin nə ov quşu, nə də meşə xoruzu geri qayıdır. Nəhayət, kral başlayır onları axtarmağa. Axtara-axtara gəlib çıxır balaca bir meşəliyə. Bu meşəlikdə kükürdlü su axırdı. Kral ov quşunun da, meşə xoruzunun da kükürdlü çayda boğulub öldüyünü görür. Kral kükürdlü suları gördükdən sonra elə həmin yerin yanında Tiflis şəhərinin təməl daşını qoyur. İndi, meşə xoruzu hamamı buradadır. O balaca meşəlik də şəhərin Meydan məhəlləsində yerləşirmiş.

Gümbəzli binanın içi kükürd buxarı ilə dolmuş, isti hamamı kükürd iyi bürümüşdü. Elə bil lax yumurtanın iyi gəlirdi. Hamının bədəni tərdən parıldayırdı. Artuş əlini köksünə sürtərək ovuşdurdu, kükürdü bədəninə yeritdi.

- Bəsdirin, çıxın oradan. Talqat gedib masaj olunmağa. Siz də keçin ikinci salona.

Şotanın səsi onları xəyaldan ayıltdı. Artuş və Zaur yavaş-yavaş kükürdlü sudan çıxdılar, yandakı otağa keçib taqətsiz halda daş döşəmənin üstünə sərildilər. Artıq beş dəqiqədir burada uzanmış Talqat, özünü yekəpər bir gürcüyə masaj elətdirirdi. Artuş zarıyaraq ondan soruşdu:

- Necəsən?

Pəhlivan gürcünün nəhəng yumruqları altında əzilən Talqat, ağır-ağır nəfəs alaraq:

- Necə olacam..., - dedi. Elə bil Teymurləngin ordusu keçib üstümdən.

- Elə mən də o gündəyəm - deyən Zaur, taqətsiz halda isti mərmər döşəmənin üstünə sərildi.

Onların söhbətini eşidən Dodiko, var gücüylə qışqırdı:

- Mekisse, Sandro!

İçəri iki pəzəvəng daxil oldu. Dodikonun çağırdığı Mekisse və Sandro, sən demə kisəçi və masajçılar imiş. Onlar çevik hərəkətlərlə Artuşla Zauru üzü üstə uzandırıb, kürəklərinə sıçradılar. Yumşaq xalı üstündə rəqs edən rəqqaslar kimi kürəklərini məharətlə tapdaladılar. Sonra da bellərindən düşüb, barmaqlarını biz kimi ətlərinə batırdılar. Qollarını, ayaqlarını elə bururdular ki, sümüklərinin xırçıltısı eşidilirdi. Yanlarında oturan Şota, utanmaz-utanmaz onlara məsləhətlər də verirdi.

- Mekisse, bir də onun kürəyinə atıl. Hə, bax belə yaxşıdır. Sandro sən də onun qulunclarını əməlli başlı ovxala.

Masaj qurtarandan sonra üçü də çətinliklə ayağa qalxdılar. Masajçıların əməyi hədər getməmişdi. Hiss edirdilər ki, bədənlərinin bütün əzələlərinə güc qayıdır. Yandakı otağa keçib hovuzun soyuq kükürdlü suyuna girdilər. Birdən-birə soyuq suyun içinə girdikləri üçün, bir an nəfəsləri tutulsa da, bir azdan sonra əzələlərinin yumşalmağa başladığını hiss etdilər. Şota ilə Dodiko da onlarla birgə suyun içində şellənir, bir yandan da bir-birlərinə göz vura-vura gülüşürdülər.

Beşi də fitəyə bürünüb böyük salona qayıdanda, onlar üçün yenidən süfrə açılmışdı. Talqat ciddi tərzdə "yaman acmışam" deyib bardaş qurdu və oturdu. Əslində hamı acmış və susamışdı. Orqanizmləri, dünən gecə baş verənləri unudub yenə şərab qəbul etməyə hazır vəziyyətə gəlmişdi.

Siyasətdən, münaqişələrdən, Qafqazın problemlərindən, Orta Asiya çöllərindən danışa-danışa, şahidi olduqları maraqlı, məzəli əhvalatları yada sala-sala gülür, kədərlənir və ümidlənirdilər. Gecə saat on olmuşdu, amma onlara elə gəlirdi ki, bir saat əvvəl gəliblər hamama və istirahətləri hələ xeyli qabaqdadır.

Onlardan başqa hamamda heç bir müştəri qalmamışdı artıq. Bütün işçilər də çıxıb getmişdilər. Bircə Vameş adlı qarovulçu qalmışdı, o da Şotadan bəxşiş alıb, qapını bağladıqdan sonra, hamamın yanındakı balaca komasında yatmağa çəkilmişdi. Yatmazdan da əvvəl xahiş etmişdi ki, gedəndə onu səsləsinlər, qapını açsın.

Onların isə onsuzda tez çıxıb getmək fikirləri yox idi. Fitələrini də əyinlərindən çıxarıb, anadangəlmə lüt oturmuşdular alçaq masanın ətrafında. Şərab şüşələri boşaldıqca boşalır, başlar dünənki gecədən betər xumarlanırdı. İndi onlar, bir-birlərinə başqa gözlərlə baxırdılar. Bu baxışlarda bir arayış, gözlənti, sual, tərəddüd və hətta... ehtiras vardı.

Sanki hər biri, bu günə qədər yaşamadıqları duyğular, keçirmədikləri hisslər burulğanında çapalayır və o qorxunc qığılcımı, həqiqət anını gözləyirdilər.

Həqiqət anı gecikmədi...

***

Mavi səma və mavi dəniz qədər intəhasız, sonsuz, ülvi bir məhəbbət mərasiminin, sevgi bayramının bu gecə, burada, Tiflisdə yaşanması və Orta Asiya adlanan coğrafi məkanı Qafqazla qovuşdurması təsadüfi deyildi.

Bu gecə bütün sərhədlər silinməli idi və silinirdi də.

Bütün düşmənçiliklər, ədavətlər, münaqişələr buxarlanıb laciverd asimana yüksəlirdi. Şərti düşmənlərin birləşən vücudları müharibələrə, ərazi iddialarına meydan oxuyurdu. Silah yerinə onlar daha insani, nəcib və müqəddəs alətlər - bir-birlərinin sülh açarlarını alırdılar əllərinə. Bu sülh açarları ağızları, arxaları ilə yanaşı onların könüllərinə, qəlblərinə də yol tapırdı. Ürəklərdən kini, nifrəti, qanı, qorxunu, göz yaşını bu açarlar vurub çıxarırdı.

Birləşən dodaqlar, birləşən vücudlar, birləşən açarlar və qıfıllar. Sel kimi axırdı sevda, vulkan kimi partlayırdı. Hamamın günbəzində dolaşırdı əks-səda. Divarlara çilənib üstlərinə qayıdırdı həzz nalələri. Bədənlərdə muncuqlanan tər damlaları hamamın yox, qəlblərin hərarətindən idi. Doxsan dərəcə əyiləndə bədənlər, bütün gözəlliyi, cazibədarlığı ilə açılırdı lalələr. Lalələrin üzərinə qonurdu sevgiyə susamış şişman arılar.

Dəhşətli idimi bu mənzərə? Əsla! Onlar Cənubi Qafqazda illərdən bəri yaşanan dəhşətlərə meydan oxuyurdular əslində. Qərbdə 69 adlanan, lakin Azərbaycanda iki butanın vəhdəti-vücudundan yaranan poza onlara necə də yaraşırdı! Amurun göylərdən ağlaya-ağlaya tamaşa etdiyi bu çılğınlar bir-birlərini dəyişə-dəyişə, müxtəlif pozalara keçə-keçə, hara mümkünsə, necə mümkünsə girə-girə, dala-dala meydan oxuyurdular.

Siyasətə meydan oxunurdu, qədimli-yenili tarixə meydan oxunurdu. Türk, gürcü, erməni, hətta qazax anuslarının əsl məhəbbət və dostluq sınağına çəkildiyi; turşməzə spermaların sifətlərə, gözlərə, dodaqlara fışqırdığı bu mübarək gecədə adətlərə, xəncərlərə, xımıslara, qeyrətlərə, namuslara, milli-mənəvi dəyərlərə, yurtalara, ağbirçəklərə, ağsaqqallara, qartallara, köhlən atlara, nekromədəniyyətə, makroambisiyalara, mikroiqtisadi göstəricilərə, milyon tonlarla borularla axan neftə, qaza, aşıqların əlindən düşməyən saza, dombraya, kamançaya, tara, balabana, xaçapuriyə, dolmaya, qədim knyazlara, xor musiqisinə, ilk xristian ölkəsinə, soyqırımlara, kütləvi məzarlıqlara, andraniklərə, Xəzərin statusuna, kilsələrə, məscidlərə, şiələrə, sünnilərə, bütün batil məzhəblərə, ənənəvi təriqətlərə, butaya, paxlavaya, şəkərburaya, şəraba, muğama, konyaka, şərbətə, kababa, ümummilli sərvətlərə, heykəllərə, sərhədlərə, otaylı-bu taylı həsrətlərə, Araza, Kürə, Göyçəyə-Sevana, qurumuş Aral gölünə, Əmir Teymura, Türküstan çöllərinə, Türkmənbaşıya, Nazarbayevə, Hacə Əhməd Yəsəviyə, İrəvana, Təbrizə meydan oxunurdu bu gecə.

Gecə qaranlıq gecəydi. Gur işıq isə gözlərdəydi. Hər birinin boğazından qopan zarıltılar, bəşəriyyət tarixində bəstələnən ən gözəl musiqi əsəri, Cənubi Qafqaz və Orta Asiya xalqlarına, ümumiyyətlə dünyaya təklif olunan humanizm və pasifizm oratoriyası idi.

## 4

- Hara gedək, Zaur?
- Hara deyirsən gedək. Fərqi yoxdur mənim üçün.

Hava kifayət qədər soyuq idi. Sevgililər nahar etdikləri Alan restoranından çıxıb meydanın ortasında dayanmışdılar. Sağa-sola baxır, hara istiqamət götürəcəklərinə qərar verə bilmirdilər.

- Onda Qriboyedovun məzarına gedək.

Zaur qaşlarını çatıb, kurtkasının yaxasını boğazına qədər düymələdi.

- Nə var onun məzarında?
- Heç nə... O boyda dahinin məzarını görmək istəməzdin? Onsuzda iki addımlıqdadır, funikulyor tərəfdə. Gedək.

Sağa dönüb, monastır divarının yanından keçən kimi, baxımsızlıq ucbatından köhnəlib pis vəziyyətə düşmüş məzar daşına yaxınlaşdılar. Onun üzərində, Qriboyedovun arvadı Ninanın “Sənin ağlın və əməllərin Rus xalqı üçün unudulmazdır, amma nə üçün Ninanın məhəbbəti sənin ömründən uzun oldu?” sözləri həkk edilmişdi.

Artuş əyilib yerdən bir çınqıl götürdü. O, çınqılı qəbir daşına vurub əlini çəkdi. Çınqıl yerə düşdü və ayaqlarının altına yuvarlandı. Artuş dərindən ah çəkdi.

- Bu, Tiflisin köhnə xürafatlarındandır. Əgər kimsə çınqılı nəm məzar daşına vurursa və çınqıl bir anlığa daşa yapışıb qalırsa, deməli həmin adam o il evlənəcək. Amma məndə alınmadı...

Artuş məyus görünürdü. Zaur onun pərt olmuş sifətinə baxıb güldü:

- Görürsən də, biz heç vaxt evlənə bilməyəcəyik.

Artuş “yenə də bilmək olmaz” deyib susdu.

Tələsmədən, fikirli-fikirli funikulyora tərəf getdilər.

- Dünən hamamda olanlar barədə nə deyə bilərsən? O qazax kimiydi elə, hardan gəlmişdi, nə istəyirdi?

Artuş əlini Zaurun çiyninə qoyaraq soruşdu. Zaur dodaqlarını büzdü, başını qaldırıb Mtasmind dağına baxaraq dedi:

- Bu haqda heç fikirləşmək də istəmirəm. Hələ özümə gəlməli, baş verənləri analiz etməliyəm.

Artuş əlini onun çiynindən çəkib cibinə saldı. Bir siqaret çıxarıb yandırdı. Soyuq havada ağzından və burnundan buraxdığı duman, daha qatı görünürdü.

- Sən haqlıydın Zaur...
- Nə barədə?
- Şotanın hər şeyi bildiyini deyəndə haqlıydın...

- O nəinki hər şeyi bilirdi, hətta özü də istəyirdi. - Zaur özünü saxlaya bilməyib gülməyə başladı. Dodikonun, Talqatın utancaq, qərarsız hərəkətlərinə fikir verdin dünən?

Artuş gülən gözlərini köhnə Tiflisin solğun divarlarında gəzişdirib dedi:

- Görünür həyatlarında birinci, ya da uzaqbaşı ikinci dəfə idi ki, kişilərlə sevişirdilər. Səncə Şota peyda olar bu gün?

Zaur heç fikirləşmədən cavab verdi:

- Xeyr! Bu mümkün deyil. Onun da bir neçə gün özünə gəlməyə, götür-qoy eləməyə vaxta ehtiyacı var. O nəinki bizimlə, heç Dodiko ilə də uzun müddət görüşməz yəqin.

Artuş siqaretini yerə atıb, ayaqqabısının ucu ilə əzdi.

- Özü bilər. Burada xəcalət çəkiləsi nə var axı?

- Elədir... Xüsusən də belə ustalıqla sevişirsənsə əyər.

İkisi də ürəkdən gülə-gülə, funikulyorun qapısına yaxınlaşdılar və xudmani vaqona minərək onun hərəkətə keçməsini gözlədilər.

- Münaqişə gec-tez bitəcək. Sonra neyləcəyik? – deyə Zaur soruşdu.

Pəncərədən bayıra baxan Artuş, bu gözlənilməz sual qarşısında kədərlənib dilləndi:

- Deyirsən nə vaxtsa qurtaracaq?

- Əbədi ola bilməz axı. Əbədi heç nə yoxdur.

- Bəzən mənə elə gəlir ki, var - əbədi bir Allahdır, bir də bizim münaqişəmiz.

- Səfeh-səfeh danışma. Əvvəla Allah yoxdur, ikincisi də ki, tarixdə daha amansız münaqişələr olub və hamısı da sülhlə bitib.

Zaur köks ötürüb əlavə elədi: - Amma bizim bu sülhü görməyəcəyimizi ehtimal edirsənsə, onda deməyə sözüm yoxdur.

Vaqon hərəkət edib, aram-aram dağa dırmanmağa başladı. Artuş əlini Zaurun əlinə qoydu və dedi:

- Biz nə üçünsə bu məsələyə tez-tez qayıdırıq.

- Hansı məsələyə?

- Sülh ehtimalına, müharibənin nə zaman bitəcəyinə... Bizim xalqlar istəyirlərsə bu mənasız münaqişəni qiyamətə qədər davam etdirə bilərlər, lakin bunun bizə heç bir dəxili olmamalıdır. Necə ki, yoxdur...

- Haqlısan Artuş. Amma mən bizim münasibətlərin müstəvisindən yanaşmıram bu münaqişəyə.

Artuş dərhal onun sözünü kəsdi.

- Nahaq yerə! Məhz elə bizim münasibətlərimizin müstəvisindən yanaşmalısan. Bizi başqa heç kəs və heç nə maraqlandırmamalıdır. Qoy lap hamısı qırılsın, gəbərib getsinlər.

Zaur susdu, cavab vermədi. Doğru söz qarşısında nə demək olardı axı? Həqiqətən də müharibəni, Qarabağı tez-tez yada salmaq, münaqişəni və onun qurbanlarını xatırlamaq yersiz idi. Bütün bunlar, iki gəncin saf məhəbbətinə kölgə, aralarına məsafə salır və qəlblərini incidirdi.

Təzədən pəncərədən baxan Artuşun dizinə qoydu əlini. Cins şalvarının altından, ayağının hərarətini hiss etdi. Vaqon yuxarı qalxarkən, başını onun çiyninə qoyub Tiflis mənzərəsini seyr etmək istəyirdi. Vaqonda üç-beş yad adam olmasaydı, bəlkə də öpərdi onu yanıqlı-yanıqlı.

- Bilirsənmi Artuş, illər əvvəl ayrıldığımızda sənin məni xatırlayacağını heç gözləmirdim, inanmırdım buna. İllər boyu bizim məsum, körpə məhəbbətimizin təmizliyini və saflığını yaşatdım qəlbimin ən tənha, məhrəm yerində. İkimiz də gənc idik, coşqunluğumuzun ilk səhifəsində, qanımızın qaynadığı bir anda gördük bir-birimizi, sevdik. Gecələr boyu yuxusuz qaldım səni düşünməkdən, ən gözəl həyəcanları, ən gözəl baxışları səndə yaşadım. Bizi müharibə ayırdı, bunu ikimiz də bilirik. Bir daha ayrılmaqdan, səni itirməkdən qorxuram. Bəlkə də ona görə tez-tez yada salıram Qarabağ münaqişəsini.

Artuş gözlərini pəncərədən ayırmadan dedi:

- Mən fikrimdə qalmaqda davam edirəm. O illərdə uşaq idik, iradəsiz idik, aramızdakı məsafələrə məğlub olmağa məcbur idik. İndi isə vəziyyət dəyişib. Eşqimizə heç kəs mane ola bilməz artıq. Zamanı dayandırıb həyatımızı istədiyimiz kimi yaşayacağıq. Nə yan baxan gözlərə, nə bizə düşmən nadanlara aldanmadan, uymadan öz atəşimizdə qovrularaq, sevgimizin sərhədlərini daha da genişləndirərək yaşayacağıq. Mən həqiqi sevgini səndə daddım, bundan sonra heç ayrılarammı səndən?

Son cümləni Zaurun düz gözlərinin içinə baxaraq demişdi. Zaur gülümsünüb:

- Müharibə sona yetəndən sonra Bakını doyunca gəzəcəyik səninlə – dedi. Dostlarımıza qonaq gedəcəyik, hətta Qarabağa birlikdə səyahət edib, Cıdır Düzündə kabab çəkəcəyik. Gələcək bizimdir Artuş, mən buna inanıram... Amma... sona yetməsə müharibə və xalqlarımız sənin dediyin kimi, əbədi düşmənçilik yolunu seçsələr, səninlə bu regiondan çıxıb gedərik. Buna ki, imkanımız çatar?

- Məsələn hara?

- Parisə, Berlinə, haraya istəsən, oraya da gedərik. İstəsən Tiflisdə də yaşaya bilərik, amma bu perspektiv məni nəsə açmır.

Vaqon dağın təpəsinə çatmışdı. Düşüb bir az gəzişdilər, Tiflisə quş baxışından tamaşa etdilər, soyuq rüzgarı doya-doya ciyərlərinə çəkdilər.

Yarım saat sonra aşağı düşdüklərində, Şota Rustaveli prospektinə piyada getməyə qərar verdilər. Prospekti başdan-sona gəzdilər. Yorulanda və acanda, bir restoranda göbələkli pizza yeyib, Azadlıq meydanına qayıtdılar.

- Otelə gedək? – Zaur soruşdu.

- Səncə Şota zəng vura bilər bu gün?

- Bayaq da dedim ki, inanmıram – Zaur dedi. Zəng eləsə də görüşərik. Burda nə var ki? Nə deyirsən, otelə gedək?

- Yaxşı, gedək. Hava da pisləşəcək deyəsən – dedi Artuş, göyə baxaraq.

Oteldə öz mərtəbələrinə qalxıb Artuşun nömrəsinə girdilər. Gödəkcələrini çıxarıb divana sərildilər. Artuşun ayaqları sızıldadığı üçün sifətini turşutmuşdu. Üzündə bu ifadə olanda, körpə ayı balasına oxşayırdı. Zaur ona corablarını çıxartmaqda kömək etdi, dabanlarını dizləri üstə qoyub ovxaladı. Arada ayaqlarının altını da qıdıqlayır, bu zaman isə Artuşun şən gülüşü otağa yayılırdı. Masajı bitirdikdən sonra, Zaur onun üzünü əllərinin arasına aldı. Öpdü dodaqlarından. Yanaqları yumşaq və ılıq idi. Bir-birlərinin gözlərinin içinə baxa-baxa öpüşürdülər. Zaurun sifəti artıq nazilmiş və ciddiləşmişdi. Əyinlərini soyundular. Pərdələrin çəkildiyi otaqda ikisinin də bədəni sarımtıl əqiq daşı kimi parıldayırdı. Bir-birlərinin ürək döyüntülərini eşidir, hətta damarlarından axan qanın şırıltısını duyurdular. Masmavi sularda oynaşan iki delfin kimiydilər onlar. Artuşdan meşə, qəhvə, tütün və tər qoxusu gəlirdi. Bu tər qoxusu qətiyyən narahat etmirdi Zauru – çünki bu zaman, onunla sevişmək daha maraqlı, daha kəskin, daha ekstremal olurdu.

Gözlənildiyi kimi, hava küskünləşdi qəfildən. Buludlar Tiflisin üstünü aldığı zaman, otel otağı bir az da qaranlığa qərq oldu. Onsuz da işığa ehtiyacları yox idi onların. Bu alaqaranlıq otel otağında, birləşən bədənləri kifayət qədər işıq saçırdı.

Nəhayət öpüşməkdən yorğun düşən gənclərin, vücudları birləşdi.

Əllər, ayaqlar birləşdi. Ulduzlar birləşdi. Fırtınalar qopdu, raketlər havalandı, fontanlar vurdu, fişənglər atıldı ATA otelinin 306 nömrəli otağında.

Yer, göy lərzəyə gəldi, küçələr, yollar sulara təslim oldu.

Sellər Kürə qarışıb, qoca çayı coşdurdu.

Qədim Tiflis hönkürə-hönkürə ağlayırdı.

# İZDİVAC VƏ AYRILIQ

*Örtgil ol ay üzünü kim, çeşmi-naməhrəm görər,*
*Yoxsa ki, dindən dönər çox-çox müsəlman erməni.*

## 1

Görəsən mənim qəhrəmanlarım, Platonun homoseksual məhəbbəti heteroseksual sevgidən üstün tutduğunu bilirdilərmi? Hər halda, onların seksual təmayülünün belə bir dahi tərəfindən dəstəklənməsi, qəhrəmanlarıma kiçik də olsa bir təsəlli olardı. Platon həqiqətən də homoseksual sevgini ümumi eyniliyə, ilkinliyə qayıdışa cəhd kimi yozur, buna bütün səmimiyyətlə inanırdı. Platonun fikrincə, qadına sevgi – "ehtiras", kişiyə qarşı duyulan homoseksual hisslər isə ilahiyə can atma idi. Yəni o, inanırdı ki, homoseksual məhəbbət – "mənəvi"dir, "ülvi"dir. Əlbəttə, mübahisə etmək olar, amma bunlar bəşəriyyət tarixində təfəkkürün ulu babalarından sayılan Platonun fikirləridir - mənim yox!

Homoseksualların arqumentləri Platonla da məhdudlaşmır. Məsələn, Sokrat kimi bir nəhəngin də gey olması və qədim Yunanıstanda bu əlaqələrə normal yanaşılması, maviləri xeyli ruhlandırır. Doğrudan da Yunan mədəniyyətində homoseksual meyllər üçün kifayət qədər səbəb var idi. O dövrdə, qadınlar tabe olan, alçaq məxluqlar sayılırdı. Demokratiyaya rəğmən cəmiyyətdə cinsi və sinfi ayrıseçkilik hökm sürürdü. Əmək fəaliyyəti ilə məşğul olmaq, qadınlara və kölələrə xas, alçaq bir iş hesab olunurdu. Odur ki, bu cür ictimai həyat tərzinin, homoseksualizmin geniş vüsət almasına, çiçəklənməsinə yol açması labüd idi.

Doğrusu, hekayətimin bu məqamında lirik və fəlsəfi ricətlərə varmaq, oxucunun zehnini subyektiv mülahizələrimlə yormaq istəməzdim. Bilirəm, hamınızı Tiflisdə, otel otağında yarımçıq qalan eşq macərasının davamı maraqlandırır. Lakin əziz oxucu bir az hövsələli olub mənə icazə versə, qəhrəmanlarımın psixoloji portretlərini cızmağa iddialı olmasam belə, heç olmasa buna cəhd etmək istərdim. Çünki, aparacağımız istənilən təhlil və edəcəyimiz beyin gimnastikaları hərlənib-fırlanıb şüurumuzun yaratdığı qeyri-dəqiq obrazlarda ilişib qalacaq və xəyalımızda onların gerçəklikdən uzaq psixoloji portretləri yaranacaq.

Artıq kitabın təxminən üçdə birini oxuyan Sizlər, yəqin ki, üçüncü ölkələr üçün yasaq olan bu mövzunu işləməyimin səbəblərini də bilmək istəyirsiniz? Bundan əminəm. Sanki "nə üçün?" sualını eşidən kimi oluram. Təkcə onu deyə bilərəm ki, insani münasibətlər, xüsusən də bu qədər ekstremal olarsa, praktiki yaradıcılığın ən maraqlı obyektinə çevrilir və bu münasibətlər mənim kimi marginalın diqqətindən kənarda qala bilməz.

Bilmirəm, on minlərlə insanın qurban getdiyi amansız müharibəyə rəğmən, iki düşmən xalqa mənsub qəhrəmanlarımı bu yasaq sevgiyə sövq edən, bir-birlərinin qoynuna atan səbəblər hansılardır? Mənim bu qorxunc sevdanın səbəblər silsiləsindən xəbərim yoxdur, ola da bilməz. Mən sadəcə olaraq ehtimallar üzərində baş sındıra, onları anlamağa və bəlkə də izninizlə - bu iki gənci bağışlamağa çalışa bilərəm.

Artuş və Zaur kimi insanlar barədə istənilən ağızdan, istənilən avaz çıxa bilər. Hər kəsin onlar haqda deməyə sözü, verməyə hökmü və asmağa dar ağacı var. Onları hansı şərtlər və şəraitin doğurduğu isə - heç kəsi maraqlandırmır.

Hərdən mənə elə gəlir ki, mənim ümumi kütlədən fərqlənən, mental məngənələr arasında sıxışıb qalmış qəhrəmanlarım heteroseksual sevgini özləri üçün «hissi günah» sayıb, ondan qaçırlar. Elə başa düşülməsin ki, mənim qəhrəmanlarımı Qafqaz mentallığının zorakı absolyut xarakteri mavi sevdaya meylli qılıb. Çünki onlar hər şeyin və hər kəsin, bütün dəyərlərin və cəmiyyətlərinin narrativlərinin fövqündə dayanırlar.

Onların mənsub olduğu coğrafiya, region homoseksuallığı rəsmən tanımayıb və hələ uzun illər tanımayacaq. Fəqət qoca Qafqaz onları tanısa da, tanımasa da; qəbul etsə də, etməsə də, homoseksualların hər dövrdə və hər cəmiyyətdə mövcud olması və bundan sonra da olacağı danılmaz həqiqətdir. Zaur və Artuş kimi insanlar həm Ermənistan, həm də Azərbaycanda minlərlədir və əksəriyyəti gizlənərək, cinsi orientasiyalarını gizlədərək yaşamağa məcburdurlar.

Bu gənclərdə homoseksual təmayüllər hələ uşaq yaşlarından təzahür edib. Elə bir yaş dövründə ki, buna banal sevgi demək mümkün deyil. Ən yaxşı halda onların münasibətlərini instinktiv vurulma adlandırmaq olar. Həm də mən əminəm ki, nə Zaur, nə də Artuş çılpaq abstraksiya olaraq taktik idealın, aktiv unifikator rolunu oynadığını; buna görə də unifikasiya edilən zorakılığın və unifikasiya olunan asılılığın cəmiyyətə, o cümlədən də erosa şamil edildiyini bilmirdilər. Yəni onların heç biri, həyatlarının ən qorxunc seçimi(?) olan homoseksuallığın sosio-fəlsəfi əsasları barədə məlumatlı deyildilər. Onlar öz cismani və mental tərəflərini üzbəüz qoymuş, bu cəhətlər arasında qarşıdurma yaratmış və nəticədə homoseksuallığa sürüklənmişdilər.

Əslində bizim şərq ənənəmizdə seksuallığın nə dərəcədə böyük günah olduğu, ilk masturbasiya təcrübəsində üzə çıxır. Uşaq özünü ilk dəfə "aşkar" etdiyi, öz əlinin yardımı ilə cinsi həzzə çatdığı zaman, valideynlərinin məzəmməti ilə üzləşir. İnanıram ki, istənilən homoseksualın qəlbinin dərinliklərinə enə bilsək, onun uşaqlıq illərindəki masturbasiya təcrübəsinə görə çox xəcalət çəkdiyini, anasına qarşı gizli, latent bir nifrətin fidan kimi ürəyində boy atdığını görərik. Həmən o ana ki, ilk masturbasiyalarında onun üçün fantaziya obyekti olub...

Uşaq seksuallığının böyüklərin seksuallığından fərqi, uşağın özünü təsdiqetmə, tamamlama cəhdləri ilə səciyyələnir. Buna onanizm formasında təzahür edən özünə heyranlıq, özünə aşiqlik də demək olar. Əllərin cinsi orqanla təması nəticəsində dairə qapanır və məlum olur ki, homoseksualın sevgi obyekti, onun təhtəlşüuruna möhkəmcə yerləşmiş öz obrazıdır. Təsadüfi deyil ki, gey cütlüklərin bir-birlərinə oxşadığına tez-tez şahid oluruq. Uşaq yaşlarında homoseksual təmayüllər göstərən oğlanların, lüt vəziyyətdə böyük aynanın qarşısına keçib, aynadakı əkslərini öpmələri də adi haldır. Hətta yaşlı bir kişi ilə gənc oğlanın seksual əlaqəsində, yaşlı kişi cavan oğlanda öz bitməz-tükənməz gəncliyini, enerjisini görür. Məhz bu kontekstdə, homoseksuallığın masturbasiya aktı ilə böyük oxşarlıq təşkil etməsi üzə çıxır. Yəni özünə vurğunluq anlamında, hər bir homoseksual başqasında özünü görməkdə, özünü sevməkdədir əslində.

Anaların uşaq əmizdirən zaman, bundan seksual həzz duyduqları faktı da təsdiqlənib. Burada ayıb heç nə olmadığı kimi, həzz almağın da uşağa heç bir ziyanı yoxdur. Lakin analar seksual həzzə çatmaq üçün, bəzən uşaqlarından seksual obyekt kimi istifadə də edirlər. Leonardo da Vinçinin kişisiz qalan anası da yəqin ki, körpə Leonardonun əmmə refleksindən orqazma çatırdı. Əsrlərdir insanları, sənətsevərləri heyran qoyan Mona Lizanın incə təbəssümünün arxa planında, ola bilsin məhz bu həzz, seksual zövq dayanır. Günahın və həzzin təbəssümüdür Mona Lizanın dodaqlarında donub qalan ifadə. Ola bilərmi ki, Leonardo anasının qucağında döş əmərkən, bu ifadəni yadda saxlayıb və illər sonra Mona Lizanı, yəni doğmaca anasını təsvir edib? Nə bilmək olar axı?

Əgər bu ehtimalda həqiqət payı varsa, onda Leonardonun bir qadınla yatması, onun aləmində insestə, yəni öz anası ilə cinsi əlaqəyə girməsinə bərabər idi və məhz buna görə də, onun homoseksual olmaqdan savayı əlacı qalmırdı. Uşaqlıq illərində oynadığı rolu, o indi yetkin çağında, özü anaya çevrilərək, yəni penisini bir başqa kişinin ağzına dürtərək orqazma çatırdı. Leonardo ana olurdu, qarşısında diz çöküb onun alətini soran kişi isə - övlad!

Etiraf edək ki, Freud bizi özümüzlə üz-üzə qoyduğuna, həqiqəti bütün çılpaqlığı ilə üzümüzə çırpdığına görə ondan nifrət edirik. Freuda qədər biz yuxularımızın naqisliklərimizi üzə çıxaran bir fenomen olduğunu bilmirdik, bu barədə düşünmürdük. Sən demə, seksual doyumsuzluq keçirən kişilər, son çarə olaraq yuxularında öz penislərini ağızlarına alırlarmış. Bu onların şüuraltılarından süzülüb, röyalarında onları təqib edən arzularıdır. Kişinin öz penisini ağzına alması özünü tamamlaması, özünü təsdiq və təmin etmə vasitəsidir. Özü özünü seksual doyuma, həzzə çatdırma, qadına ehtiyac duymadan boşalma cəhdləri, qadınlara şüuraltı qorxu duyan nevrotik kişilərə xasdır.

Bəs anal dəliyin fiksasiyası ilə bağlı reflekslər hansı şəraitdə yaranır görəsən? Ana öz övladına imalə edəndə - uşaqla simvolik cinsi əlaqəyə girmiş olmurmu? Əlbəttə, ananın niyyəti təmiz, imalə isə uşağın səhhəti üçün zəruri ola bilər. Lakin bu prosedura seksual rəmziliyi qalmaqda davam edir. Qaydalara riayət olunaraq qoyulan imalə hələ heç kəsə ziyan gətirməyib. Amma hər dəfə uşaq bayıra getməkdə çətinlik çəkəndə, ona imalə qoyulsa, bu mütləq olaraq fəsadlara yol açacaq. Uşaqlarının üzərində hakimiyyətlərini hiss edən analar, öz qadın həyəcanlarını bu prosedura vasitəsilə uşaq üzərində sublimasiya edirlər. Onlar uşağın anal dəliyinə imalənin ucunu soxmaqla, daxilən, gizlincə özlərini seksual baxımdan təmin edirlər.

Çox vaxt ananın öz oğlu ilə insestual məhəbbəti, qadının öz əri ilə yetərsiz seksual həyatı zəminində meydana gəlir. Belə vəziyyətdə, emosional pozğunluqlar keçirən ana, öz seksual hisslərini oğlunun üzərinə köçürür. Bu qəsdən edilməsə də, fakt faktlığında qalır. Oğlan vaxtının böyük hissəsini anası ilə keçirir, onun hisslərinə, məişətinə ortaq olur, aralarında fiziki yaxınlıq baş verir. Bütün bunlar oğlan uşağını bir mənada “ram” edir. Ana düşünür ki, “oğlu onun arzu və istəklərini yerinə yetirməyə məcbur olan varlıq”dır. Ana istəyir ki, oğlu böyük, çox böyük adam olsun. Yəni anasının sayəsində zirvələri fəth etsin. Bu ümidlər, gözləntilər, ifrat yaxınlıq və sevgi - oğlu ananın aşnasına çevirir.

Belə olan halda oğlan uşağı anaya bağlandıqca, atasının yerinə keçir. Çox vaxt ana öz oğlunu yatağına dəvət edir, onunla yatır. Nəticədə oğlan bacara bilmədiyi seksual təhriklə üz-üzə qalır. O nə anasından imtina, nə də öz seksual reflekslərini təmin edə bilmir. Artıq onun öz vücudunu qətlə yetirməkdən, fiziolojisinə üsyan etməkdən və vəhşi hisslərini basdırmaqdan başqa əlacı qalmır.

Bu tip ailələrdə, adətən ata da ananın özü qədər nevrotikdir. Çox vaxt qadının hərəkətlərinə üsyan edən atanın reaksiyası, oğluna nifrətə çevrilir. Ata, öz mövqeyini sarsıtdığını düşündüyü oğluna öz rəqibi kimi baxmağa başlayır. Oğlan uşağı isə çaş-baş qalır. Bu düşmənçiliyi yox etməyin yollarını axtarır, amma tapa bilmir. Atasından tez-tez “mama uşağı” təhqirini eşidir. Lakin qəribə də olsa, bu sözlərdə çox vaxt həqiqət payı olur, çünki ana oğlunu qız xasiyyətli böyüdür, atasından uzaqlaşdırır. Əgər belə bir ailədə ata despot, əyyaş və zalım olarsa, onda vəziyyət daha da ağırlaşır – ana, oğlunun yeganə dayaq nöqtəsinə çevrilir.

***

Di gəl ki, nə Artuşun, nə də ki, Zaurun həyatlarında yuxarıda sadalanan heç bir psixoloji travmaya, insestə, ağır keçən uşaqlığa və s. kimi neqativ hallara təsadüf olunmur. Həmçinin, yeniyetməlik çağlarında mənim qəhrəmanlarıma sataşan olmamış, heç kim onları zorlamağa cəhd göstərməmişdi. Hətta, ilk dəfə pornoqrafik filmə onlar homoseksual cinsi əlaqə təcrübələrindən bir il sonra, daha dəqiq desək, 14 yaşlarında baxmışdılar. Hər ikisinin də valideynləri, homoseksualların ailələrinə şamil edilən stereotip normalardan uzaq, mədəni və ziyalı adamlar idi. Odur ki, bu ailələrdə zorakılıqdan, pis tərbiyədən söhbət belə gedə bilməzdi. Dəqiq deyə bilərik ki, Artuşla Zaurun uşaqlığı bütün normal həmcinslərinin uşaqlığı kimi keçirdi. Əlaçı olmasalar da, çox vaxt yaxşı, bəzən də kafi qiymətlər alırdılar. Öz hobbiləri vardı - kitab oxumağı sevirdilər, tez-tez kinoya, teatra gedirdilər...

Bütün bunların fonunda, Artuşun və Zaurun homoseksualizmə meyl salmaları olduqca qəribə görünür. Axı onların həyatlarında nə baş verdi ki, körpə bədənləri birdən-birə ağır bir seçim qarşısında qaldı? Onların da həyatları milyonlarla yaşıdlarının, həmcinslərinin həyatı kimi qayğısız, əziyyətsiz, oriyentasiyaları isə ənənəvi ola bilməzdimi? Bütöv bir cəmiyyətin dəyərlərinə, normalarına üsyan etmək, sonu görünməyən bir mübarizəyə girişmək, bu mübarizədə qan itirmək, onurğaya qədər işləyən sancılara tab gətirmək, həzzdən və ağrıdan göz yaşı axıtmaq onların alın yazısı olmalıydımı?

Bəlkə də...

## 2

Filatelizmdə ilk addımlarını atan Artuşun qıfılının biri daima açıq qəhvə rəngi çantasından, içinə həvəslə markalarını doldurduğu qırmızı albomunun ucu görünür. Təbəssüm heç düşmür üzündən. Keçib yerində oturur, Zaurun əlini sıxır. Lap yekə kişilər kimi görüşürlər. Çantasından qırmızı albomu çıxarıb açır, sondakı səhifələrdən birini Zaura göstərir:

- Atam dünən üç manat verdi, heyvan kolleksiyası aldım.

Zaur markalardakı yırtıcı heyvan təsvirlərinə maraqla baxır.

- Təbrik edirəm. Əladır.

Tənəffüsdə, dəhlizin sonunda toplaşan uşaqlarla marka oyunu başlayır. Müdir görsə, markaların hamısını alacaq əllərindən, sonra da qaytarmayacaq. Ehtiyatlı olmalıdırlar. Artuş ovucunun içi ilə markalara şapalaq vuraraq, hamısını üzü üstə çevirib qalib gəlir. Udduğu markaları əvvəl cibinə doldurur, sonra da sinfə qayıdıb səliqə ilə albomuna yığır. Zaurun baxdığını görüb bir topa markanın arasından beş dənəsini seçir və dostuna uzadır.

- Bu da sənin payın.

Zaur bu jest qarşısında sərsəmləyir.

- Axı onları sən uddun! Niyə mənə verirsən?

- Onsuzda mən hamıdan yaxşı oynayıram. Yenə udaram...

Zaur “çox sağ ol” deyib markaları götürür və riyaziyyat dərsliyini aralayaraq, onları kitabın arasına qoyur.

...- Zaur, eşidirsən! Yenə nə fikrə getmisən?..

Riyaziyyat müəlliminin gur səsi Zauru reallığa, boz divarları ümidsizlik, məyusluq saçan sinfə qaytardı:

- Hə... Bəli...

- Deyirəm nə olub yenə? Nə dalmısan xəyallara pəncərəyə baxa-baxa? De, biz də bilək.

- Yox, elə belə... Yağışa baxırdım.

Sinifdəkilər gülüşürlər. Qızlar xüsusi canfəşanlıq göstərir.

Yalan deyirdi Zaur. Gözləri pəncərəyə çəpəki çırpılan damcılara baxsa da, xəyalən Artuşunun yanında idi.

1990-cı ilin Dekabr ayı yağmurlu keçirdi. İndi ay başa çatmaq üzrədir və yağışlar şiddətlənib.

Artuşla son dəfə bu parta arxasında oturanda, 9B sinfinin şagirdiydilər. Ayrılığın üstündən bir ilə yaxın vaxt ötür. Bir-iki həftə sonra tarixin zibilliyinə atılacaq olan, sanki xəcalətindən bir göz qırpımında qeyb olmağa hazırlaşan 90-cı il, ən qanlı-qadalı, əzablı il kimi həkk olunacaq xalqın yaddaşına.

İndi sinif həmən sinif olsa da, Zaurun partasında bir nəfərin yeri boş qalıb... Artıq dəhlizdə marka oynayanlara da rast gəlmək olmur - bu hobbiyə maraq itib. Artuş şagirdlərin sevimli məşğuliyyətini də aparıb özü ilə.

Bakıya yağış yağır. Yağış əslində onun tərəddüdlə şerlər yazdığı dəftərinə yağır. Bakının kələ-kötür küçələrində, gölməçələrin üstündən atlayaraq qaçan xatirələrinə yağır. Dərs sonrası Bünyat Sərdarov küçəsi ilə üzüaşağı tələsən onuncu sinif şagirdlərinin qəribə, anlaşılmaz həyəcanına yağır yağış.

Gözləri dolur. Artuş, Artuş, Artuş... Bu ad çoxdan qəmli musiqiyə çevrilib onun dilində. O indiyə qədər ona göndərə bilməyəcəyi, Artuşun da heç vaxt alıb oxuya bilməyəcəyi iyirmiyə qədər məktub yazıb. Zaur onu həmişəlik itirdiyini başa düşür. Müharibə hər gün yüzlərlə can alırsa, şəhərdə bircə dənə də erməni qalmayıbsa, Er-

mənistanda bircə nəfər azərbaycanlı yaşamırsa, dolma mübahisə predmetinə çevrilibsə - deməli hər şey bitib. Geriyə yol yoxdur.

Yeni il şənliklərinin dəyişməz bir rəmzi var, daha doğrusu qoxusu - mandarin ətri. Artıq əvvəlki illərdəki tək hopmur məktəbin divarlarına bu ətir. Qulliver konfetlərinin kağızları ilə də zibillənmir dəhlizlər. Xadimə Firuzə xala da azarlamır şuluqluq edən, məktəbdə toz buludu qaldıran uşaqları. Ötən illərlə müqayisədə, indi daha da qocalmış görünən Şaxta babanın doğruçu olmadığını artıq bütün aşağı siniflər bilir. İlk dəfə öpüşməyə cəhd edənlərin, qızların uzun hörüklərini dartanların, tərbiyəsiz sözlərlə onları utandıranların da sayı azalıb. Ətalət çöküb məktəbə, şəhərə, bütün ölkəyə. Qıtlıq – siqaret, çörək və kolbasa dərdi, insanlara gülməyi, sevinməyi unutdurub.

Halbuki, cəmi bir il əvvəl, Zaurun yanında oturan dünyanın ən əziz adamı, qələminin ucunu gəmirərək məsələ üzərində baş sındırırdı. Zaur nəfəsini tutub gözucu ona baxır, göz-gözə gəldiklərində isə, gülüşüb təzədən başlarını kitabların üzərinə əyirdilər. Bir il idi ki, ürəklərini açmışdılar bir-birlərinə, amma buna baxmayaraq daxillərindəki həyəcanı yox edə, bir-birlərinin jest və hərəkətlərinə, üzlərinə, qaş-gözlərinə sakit, həyəcansız baxa bilmirdilər.

Tənəffüsdə bir-birlərinə yaxınlaşmağa qorxurlar – elə bil elektrik cərəyanı vurub kül edəcək körpə qəlblərini. O qədər işıqlı, nurlu idi ki, simaları elə bil çevrələrində minlərlə ulduz işıldayırdı. Günəşlər şabalıdı göz bəbəklərində batır, yaz yaşıllığı onların göy qurşağı əlvanlığını qısqanırdı.

İlahi, etiraf edənə, bir-birlərinə açılana qədər hansı əzab-əziyyətləri çəkmiş, neçə gecələr yuxusuz qalmışdılar!..

***

İdman dərsi. Soyunma otağında tək qalan Artuş, Zaurun köynəyini götürüb sifətinə yaxınlaşdırdı. Tər və ucuz odekolonun qarışımından yaranan doğma qoxunu ciyərlərinə doldurub unutdu özünü. Bu onun, vəhşi Zaurunun ətridir. Qəhər boğazını tıxadı, körpə Araratı qalxdı. Dözə bilmirdi daha. Tualetə qaçdı, Zauru müxtəlif forma və pozalarda təsəvvür edərək boşaldı. “Zaur, Zaur... Səni son tikənə qədər özümə aid etmək, içmək, yemək istəyirəm. Mənim ol, yalnız mənim...” Kanniballaşırdı Artuş, ağlını itirirdi.

Hiperseksuallıq atmosferinə bürünmüş idman zalına qayıdanda, oğlanların qızlar barədə söhbətlərinə qoşuldu riyakarcasına. Uydurma əhvalatlar, yalançı seks qəhrəmanlıqları, anal və oral tamında nağıllar. İstisnasız bütün oğlanların sən demə seks təcrübəsi var imiş bu məktəbdə. İdman müəllimi Valeri Mixailoviç Yenin uşaqların üstünə çəmkirir:

- Bəsdirin axmaq-axmaq danışdınız! Kanata dırmaşırıq, haydı! Haydı!

Guya onun üçün olduqca maraqlı söhbəti böldüyünə görə, Zaur astadan söyür müəllimi, üst dişlərinin arasından təzyiqlə tüpürür və kanata tərəf qaçıb, yoğun ipə kərkinə-kərkinə tavana qədər dırmaşır. Artuşun nəfəsi tutulur yenə. Zaurun hər bir hərəkəti, söyüş söyməyi, dişlərinin arasından tüpürməyi, hal-hazırda balaca, yumru götünü qabardaraq kanata dırmaşması ehtizaza gətirir onu, ürəyindən yanıqlı bir “ah” qopur.

Soyunma otağında oğlanlar paltarlarını dəyişən zaman, Zaur birdən-birə arxaya dönüb Artuşla göz-gözə gəlir. Göbəyinə qədər süzülür baxışları, sonra daha da aşağıya enir. Ağ tumanın altında yüksələn təpəciyin ucunda nöqtə boyda islaqlıq var. İşədikdən sonra nə qədər silkələsən də, bir damcı sidik mütləq qalır ucunda. Artuş Zaurun hara baxdığını fərq edib həyəcanlanır. “Yoxsa?..” Ümid işığı dolur içinə, sevincindən çılğına dönür. O qədər xoşbəxtdir ki, alətinin yüksəldiyini, maqmanın hərəkətə keçdiyini hiss eləmir. Birdən özünə gəlib, tez üzünü divara çevirib, şalvarını geyinir. Ehtiras qığılcımları gizildədir bədənini, güzgüdən arxada baş verənlərə baxır. Budur, hələ gözlərini ayırmayıb ondan Zaur. Məsum baxışlarında, qəribə bir maraq oxunur. Soyunma otağında iyirmiyə yaxın şagird olsa da, heç biri hiss eləmir onların arasında keçən səssiz dialoqu, gözlərlə qurulan rabitəni, qəlblərinin pıçıltısını.

Bir-birlərinə aid olduqlarını ikisi də o gün anlamışdılar.

***

Etiraf günü gecikmədi. Bir həftə sonra açıldılar bir-birlərinə. Məktəbin həyətində, əmək dərslərinin keçirildiyi bir mərtəbəli tikilinin divarına söykənmişdi Zaur, başını aşağı salmışdı, baxa bilmirdi Artuşun gözlərinə. Ondan eşitdiyi sözlər ürəyincə olsa da, cəsarət etmirdi ağzını açmağa. Artuş isə hey danışır, danışır baxışları isə Zaurun sifətində gəzişir, ondan bir reaksiya gözləyir, donmuş üzündə cavab axtarırdı.

“Səni sevirəm” – bu sehrli sözlər də Artuşun dilindən süzüləndən sonra, Zaurun çöhrəsi təbəssümlə bəzəndi, yanağında qəmzələr oyandı. Başını qaldırıb hələ də həyəcandan danışmasına ara verməyən Artuşa baxdı. Artıq onun mənasız, rabitəsiz sözlərinə qulaq asmırdı, sadəcə tamaşa edirdi ilk sevgilisinə, ilk göz ağrısına.

Nəhayət susdu Artuş. Yanaqları allanmışdı şaxtadan, dodaqları titrəyirdi. Cavab gözləyirdi, Zaur isə susmağa, onun gözlərinin içinə baxmağa davam edirdi. Zaura bir sillə vurmaq, onu özünə gətirmək, danışdırmaq keçdi fikrindən.

“Niyə susursan axı?” düşündü əzabla. “Danış qurban olum, bir söz de!”

Cavab büllur güldana vurulan çırtıma tək, cingiltili və tər-təmiz idi:

- Mən də səni...

İki gün sonra Artuşgilin evində, bir-birlərini daha da yaxından tanıdılar, məsum sevgilərini vücudlarının dili ilə daha da möhkəmləndirdilər.

Buzovnadakı “Ekran” isə, ikisinin birgə getdiyi ilk və son pioner düşərgəsi olmuşdu. İri dozan qurdlarının torpaq üstündə sağa-sola qaçışdığı, ılıq axşam qoxusunun burunları qıdıqladığı bu yay gecəsi, dəniz incə bir xətlə kəsişirdi torpaqla. Yanan tonqalın ətrafına yığışmış uşaqlar bir yandan qulaqlarının dibində vızıldayan mığmığaları qovur, bir yandan da böyük qrupdan olan Oleqin gitarda ifa etdiyi “Vzveytes kostrami siniye noçi, mı pionerı deti raboçix” adlı populyar pioner mahnısını xorla oxuyurdular. Fəhlələrin övladlarına həsr olunmuş, imperiyanın özü boyda nəhəng bu mahnı bütün Abşeronu başına götürmüşdü. Artuşla Zaur üçün isə bu mahnı da eşqdən bəhs edir, onları sevişməyə səsləyirdi.

Abşeron axşamı eşq doluydu.

Məhəbbətləri günü-gündən böyüyən, çiçək açan oğlanların tez-tez tənhalığa çəkilmələrini ətrafdakılar görmür, görsələr də başa düşmürdülər. Sahillə qəsəbə yolu arasında ucalan alçaq qayalıqların arxasında, xudmani bir yer tapmışdılar. Çox yaxın məsafədən eşidilən mahnı sədaları, iki yeniyetmənin ehtiras nalələrini boğur, onların daha rahat sevişməsinə şərait yaradırdı.

Nağıllar aləminə ulduzlu gecə çökürdü.

***

Sinifdə bütün günü bax beləcə, xəyallar içində, pəncərəyə şiddətlə vuran yağışa boş gözlərlə baxmaqla keçdi. Evə qayıdanda da heç kimlə danışmadı, yemədi, içmədi və bu halına çoxdan vərdiş etmiş valideynlərinin kədərli baxışlarının müşayiəti altında otağına keçib qapısını cəftələdi. İşığı yandırmadan çarpayıya atdı özünü. Elə bil yağan yağışın şiddətindən tədricən aşınan, yavaş-yavaş əriyən Qız Qalasına baxa-baxa ağladı.

Artuşun da Yerevanda gözünə yuxu getmirdi. Ailəsi ilə müvəqqəti məskunlaşdıqları Maşınqayırma Zavodunun yataqxanasındakı bir göz otaqda, hıçqırıqları eşidilməsin deyə, ağzını ovucuyla sıxmışdı. Ağlından çıxmırdı əziz insan. Sevişmələrini, baxışlarını, gülüşünü, əllərinin istisini unuda bilmirdi. Qarşısı alınmayan alov kimi böyüyürdü günü-gündən kədəri. Zaura heç olmasa quruca “əlvida” deyə bilmədiyi üçün özünü bağışlaya bilmirdi. Son dəfə onunla telefonla danışmamağına, səsini eşitməməyinə peşman olmuşdu. Halbuki atası təklif eləmişdi ona Zaura zəng vurmağı. İndi anlayırdı ki, qürurun yeri yox imiş məhəbbətdə.

“Eşqimizi qəlbimə basdırdığımı bilməlisən Zaur. Ömrüm boyu daima səni xəyal edib, daima səni düşünəcəyəm. Səsini eşitmədiyim, üzünü görmədiyim hər gün cəhənnəm əzabı olacaq mənə. Parça-parça, viranə olmuş, dağılmış bir qəlbim var indi. O xarabalıqlar içində də, səndən başqa heç bir şeyə və heç kimə yer yoxdur...”

## 3

...Uzun, çox uzun bir qatar. Pəncərədən güc bəla ilə sezilən işıqlar, evlər, komalar. Tamburun divarlarında sidik izləri var. SV adlanan iki nəfərlik kupedə qabaq-qənşər əyləşib Şotanın hədiyyə etdiyi çaxırı içən Artuşla Zaur, qaranlığı yararaq şütüyən qatarın taqqıltısına qulaq asır, hərdən qısa dialoqlarla sükutu pozurdular.

Yolda, xüsusən də qatarda edilən söhbətlər daha məhrəm olur. Səbəbi də yəqin ki, insanların yol gedərkən zamandan kənarda olmaları, nisbilik nəzəriyyəsinin ayrı bir substansiyasına keçmələridir. A nöqtəsindən B nöqtəsinə hərəkət edən subyektin, yol boyu nə ilə məşğul olması riyaziyyat kitablarında yazılmır. Deməli bunun heç bir əhəmiyyəti yoxdur. Eləcə də Tiflisdən Potiyə hərəkət edən sevgililər üçün hara getməyin bir o qədər də əhəmiyyəti yox idi. Təki bir-birlərinin yanında olsunlar, bu bərabərlik anlarını maksimuma çatdırsınlar.

Onlar səyahət etməyi çox sevirlər. Bu həvəs tənha qalmaq, rahat sevişə bilmək ehtiyacından ziyadə, itirilmiş vaxtı axtarıb tapmaq, özlərindən qaçmaq arzusundan irəli gəlir.

- Artuş səndən bir söz soruşum. Çoxdandır bu sualı vermək istəyirəm, amma nə üçünsə həmişə yadımdan çıxır.

Artuş şərabı başına çəkib boşaltdı. Qaşlarının altından Zaura baxıb:

- Görəsən nədir səni bu qədər maraqlandıran? – soruşdu.

- Ermənistan...

Artuş qaşlarını qaldırıb nırçıldadı:

- Səni başa düşürəm...

- Mırtdaşmaq lazım deyil. Daha doğrusu, Ermənistanda homoseksuallara münasibət.

- Onlara münasibətin pis olduğunu axı sən yaxşı bilirsən? – Artuş təəccübünü gizlədə bilmədi.

- Haqlısan, bilirəm. Amma bu pis münasibət özünü necə, hansı formalarda biruzə verir?

Zaur hər ikisinə də şərab süzdükdən sonra, öz plastik stəkanını götürüb çarpayının baş tərəfinə söykətdiyi yastığa yaslandı. Şərab ikisini də əməllicə tutmuşdu, kefləri açılmışdı.

- Hansı formada?.. Nə deyə bilərəm axı?.. Bunun müxtəlif təzahürləri var.

- Məsələn sizin müzəffər ordunuzda geylər var? – dedi Zaur istehza ilə. Onun səsindəki sarkazmı duyan Artuş gülümsədi.

- Bizim ordumuzla işin olmasın. Hər halda o boyda torpağı işğal edib.

Zaur gözlərini yumub şərabın tamını daha yaxşı duymaq üçün ağzını marçıldatdı.

- Sizin ordunuz yox, Rusiyanın ordusu işğal edib. Amma yenə də işğal faktı ilə razılaşdığın üçün sağ ol.

Artuş qəfildən ayağa sıçrayıb, Zaurun yanına oturdu. Zaur diksinib gözlərini açdı.

- Nə oldu?

Artuş əlini, Zaurun cins şalvarının altından qabaran təpəciyinin üstünə qoyub, xəfifdən ovmağa başladı.

- Sən düzələn deyilsən. Hər bir azərbaycanlı kimi, Ermənistanın sizi məğlub etməsi faktı səni də cinləndirir. Çarəni, qələbəni Rusiyanın ayağına yazmaqda tapırsan – dedi və əyilib Zauru dodaqlarından öpdü.

Zaur şərabını masanın üstünə qoydu, Artuşu boynundan tutub özünə sarı dartdı.

- Elə sən də düzələn deyilsən, daşnak köpək oğlu.

- Söyüş söymə, barbar türk... Ahh...

- Mmmm... İşığı söndürək?

- Dayan... dayan... Hələ tezdir. – Artuş sevgilisinin dodaqlarından qopub masanın üstündən şərabını götürdü və öz yerinə qayıtdı – altı saatlıq yol gedirik, sənsə dözə bilmirsən. Potidə rahat yatağımızı qoyub, bu darısqal kupedə niyə sevişirik?

Zaur şərabını götürüb bir nəfəsə içdi və xumar gözlərini süzüb Artuşa baxdı.

- Şota axır ki, peyda oldu...

- Hə. Xahişimizi də yerə salmadı. Heç gözləməzdim ondan...

- Elə mən də.

Artuş yerini rahlayıb soruşdu:

- Səncə hamamda baş verənlərdən hələ də xəcalət çəkir? Fikir verdinsə, vağzalda başını aşağı salmışdı. Onun komplekslərini başa düşə bilmirəm.

- Xəcalət çəkirsə, deməli axmaqdır. Gürcü knyazlığı damarı tutub yəqin. Özü də söhbəti fırlatma. Bayaq səndən nə soruşdum?

- Nə?

- Ermənistan ordusunda mavilərin vəziyyətini. Yadından çıxıb?

Artuş gözlərini qıyıb pəncərəyə baxdı. Bir az fikirləşib dedi:

- Bu barədə çox şey danışmaq olar. Məsələn, başlayaq elə çağırışdan. Çağırışçı tibbi yoxlanış zamanı boynuna alsa ki, "mən homoseksualam", həkimlər bunu dərhal komissiya sədrinə və hərbi komissara çatdıracaqlar. Ondan sonrası da ki... Allah göstərməsin.

- Nə olur ondan sonra?

- Oğlanı hərbi komissarlığın bütün otaqlarında gəzdirib hamıya göstərirlər. Çağırışçıların qarşısında rüsvay edirlər, təhqir edirlər. Axırda da "homoseksualizm" diaqnozu qoyub ruhi xəstəxanaya göndərirlər. Hərbi komissar da valideynlərinə, iş yerinə ya da oxuduğu universitetə xəbər ötürür.

Zaur gözlərini bərəldib Artuşa qulaq asırdı. Eşitdiklərinə inana bilmirdi. Dəhşətə qapılmışdı.

- Sən nə danışırsan? Axı bu insana qarşı ən böyük təhqirdir!

- Əlbəttə təhqirdir. Bəs mən nə deyirəm? Mənim gey tanışlarım vardı - Mamikon Ovsepyan və Misak Köçəryan. Sənə danışdıqlarım onların da başına gəlib. Hərbi komissar Misakın oxuduğu universitetə car çəkdi ki, "bu tələbə mavidir". Komissarlığın həkimləri isə, ona "homoseksual" diaqnozu qoyub xəstəxanaya göndərdilər. Orada da təhlilsiz, müayinəsiz bu diaqnozu təsdiq edib, onu stasionar yox, ambulator müalicəyə aldılar. Xəstəxanada işinə yazdılar ki, bu adamın "cinsi perverziyası" var. Axırda da hərbi biletinə lazımi qrafanı əlavə elədikdən sonra, əsgərlikdən azad etdilər. İndiyə qədər psixi dispanserdə qeydiyyatdadır.

Zaur alnını ovuşdura-ovuşdura dedi:

- Axı bu mümkün deyil! 1991-ci ildə Dünya səhiyyə təşkilatı birmənalı olaraq homoseksuallığı beynəlxalq xəstəliklər klasifikasiyasından çıxarıb. Bu təşkilatın üzvü olan Ermənistanın bundan xəbəri yoxdur?

- Bəlkə də var, amma erməni səhiyyəsi dünya səhiyyəsindən xeyli fərqlənir.

- Bəs xəstəxanada ona neynirlər? Homoseksuallıqdan müalicə olunur?

Verdiyi sualdan Zaurun özünü gülmək tutdu. Artuş isə sifətindəki ciddi ifadəni qorumağa davam edərək dedi:

- Nə müalicə? Həkimlər belə çağırışçılar barədə müdafiə nazirliyindən şifahi əmr alıblar – nə istəyirsiniz eləyin amma geyləri orduya buraxmayın. Həqiqətən də ordu sıralarına düşən homoseksual, öz komandiri üçün baş ağrısıdır. Onu vurub öldürsələr, kim cavabdeh olacaq?

- Bəs orientasiyanı gizlətsən?

- Tutaq ki, gizlədə bildin. Bəs mülkidə bunu bilənlər varsa?

- Onda nə olur?

- Necə yəni nə olur? Bayırdan hərbi hissəyə xəbər çatdırırlar - bax bu olur! Ondan sonra da təhqirlər, alçaltmalar başlayır. Onu vəhşicəsinə döyürlər, əsgərlər onunla bir yeməkxanada yemək yeməkdən imtina edir. Bir dəfə əsgərlər üsyan qaldırmışdılar ki, hissədə bir nəfər mavi var, gərək yeməkxanadakı bütün qab-qaçaq dəyişdirilsin. Yaxşısı budur özün etiraf edəsən. Onda bəlkə döyməzlər, amma yenə də təhqir edəcəklər. Yeməkxanaya qoymurlar, naryada həmişə onu göndərirlər. Qab yumaqdan başqa, bütün qara işlər ona verilir.

Artuşu dəhşətlə dinləyən Zaur soruşdu:

- Bəs Qarabağda vəziyyət necədir?

- Qarabağda da həmən şeydir. Hətta orada vəziyyət daha ağırdır. Mavi əsgərləri ətraf kəndlərdəki evlərə göndərirlər. Onları tez-tez döyür, təhqir edirlər. Döyüləndən sonra, sançasta getmələrinə də icazə verilmir.

- Niyə?

- Bütün hərbi hissələrdə yazılmamış qanun var - geylə bir palatada qalmaq olmaz!

Zaur boşalmış stəkanlara şərab süzdü. Eşitdiklərindən şoka düşmüşdü. Onun şərab süzməyini diqqətlə izləyən Artuş:

- Bəlkə bələdçiyə deyək çay gətirsin? – soruşdu.

Zaur başını qaldırıb mat-mat Artuşun üzünü yoxladı:

- Dəli olmusan? Çay nədir?

Artuş güldü və dirsəklərini masaya qoyaraq, çənəsini yumruqları ilə tutdu.

- Amma hər şey danışdığım qədər də pis deyil. Hərbi məktəblərin birində, avtoritetlər bir nəfər homoseksual kursantın qarşısına iki şərt qoymuşdular - ya məktəbdən çıxıb getməli, ya da ki, pul verməli idi. Kursant üç min dollar verib, özü məktəbdə avtoritetə çevrildi.

Artuş son cümləsini yenicə tamamlamışdı ki, Zaur qəhqəhə pristupuna tutuldu. Kanistri güc bəla ilə masanın altına qoyub çarpayıya uzandı. Öskürə-öskürə gülür, gözlərindən yaş axırdı. Zaurun bu halını görən Artuş da əvvəl kəsik-kəsik güldü, sonra özü də qəşş elədi.

- Sən... sən nə... danışırsan? Doğrudan... avtoritet oldu?

Zaur sualı güc bəla ilə verib, daha da bərkdən gülməyə başladı.

- İnanmırsan!? Nəyə istəsən and içərəm! Başladı hərbi məktəbdə meydan sulamağa. Bir gün ayıldı ki, özü homoseksualları ifşa edib döyməklə məşğuldur.

Zaurun sifəti qıpqırmızı kəsilmişdi. Bir ovucu ilə dizinə vurur, obiri ovucu ilə də öskürəyinin qarşısını almağa çalışırdı.

Qapı döyüldü. Artuş ayağa qalxdı və səndələyərək qapıya yaxınlaşıb kilidi açdı. Əllərini belində birləşdirmiş yaşlı bələdçi məzəmmətli baxışlarını gah Artuşun, gah da çarpayıda uğunan Zaurun sifətlərində gəzişdirib dedi:

- Sizin səsinizi mən öz kupemdə eşidirəm. Təsəvvür edin sərnişinlər nələr çəkir. Saatdan xəbəriniz var?

Artuş başını bulayıb qolundakı saata baxdı. Birə beş dəqiqə qalırdı. Zaur birtəhər özünə gəlib, sakitləşdi. Durub yerində oturdu.

- Dayı qurban olum bağışla bizi. Bütün günah gürcü şərabındadır.

Bələdçi gülümsünüb masanın altındakı yarımçıq kanistrə baxdı.

- Başa düşürəm, gürcü şərabı dünyanın ən gözəl içkisidir. Amma onu da içməyin yeri və təhəri var.

Zaur əlini sinəsi üstə qoyub dedi:

- Söz veririk dayı, özümüzü yaxşı aparacağıq. Amma mənim sizə bir sualım var.

- Buyur oğlum.

- Tiflisdə Corc Buş küçəsi var.

- Var oğlum, düz deyirsən.

- 2008-ci ildə, Amerikada növbəti prezident seçkilərində Buş artıq seçilə bilməyəcək, çünki iki dəfə prezident olub. Bəs başqası prezident seçiləndə, o küçənin taleyi nə olacaq? Adı yenə də Corc Buş qalacaq, yoxsa o küçəyə ABŞ-ın təzə prezidentinin adı veriləcək?

Yaşlı bələdçi nifrətlə bir Zaura baxdı, bir Artuşa. Ağzından süd iyi gələn iki uşağın onu dolaması, qoca kişini yamanca qəzəbləndirmişdi.

- Xahiş edirəm bir az sakit olun – dedi və qapını çırparaq getdi.

- Sən nə yaman şeysən Zaur. İndi o qoca, məğrur gürcü səhərə qədər yata bilməyəcək – Artuş dedi və yerinə oturub ayaqlarını qabağa uzatdı. – Başım fırlanır. Sən necəsən bəs?

Zaur boynunu xırçıldadaraq bir siqaret yandırdı. Artuş başını bulaya-bulaya:

- Gicləmə! İstəyirsən yenə söz eşidək?

- Pox yeyər söz deyər. Mən altı saatlıq yoldan ötrü SV biletini ona görə almışam ki, siqareti tamburda çəkim? Mən burada çəkmək istəyirəm. Sonra qapını aralayaram, narahat olma. Səndən bir söz də soruşum. Ermənistanda homoseksuallığa görə maddə var?

- Niyə yoxdu? Ermənistanın cinayət məcəlləsinin 116-cı maddəsi bəs nədir. Düzdü, maddənin özü var amma heç kimi həbs etmirlər, necə də olmasa Avropa Şurasının üzvüyük. Əşi, bu maddə oldu olmadı, geylərə münasibət bizdə dəyişməyəcək. Bəlkə iki-üç nəsil sonra.

Zaur siqaretin külünü yerə çırpıb, soruşdu:

- Yandırırsan yandır. Sidik iyi verən tamburda çəkməyəcəksən ki!

Artuş başını bulayaraq razılaşdı:

- Yaxşı, sən deyən olsun. Qaz kamerasına dönəcək indi bura. – siqaretini yandırıb soruşdu, - Bəs Azərbaycanda necədir vəziyyət?

- Bizdə də 113-cü maddə var. Bu maddəyə görə üç il həbs cəzası almaq olar. Amma gərək kişinin cinsi alətini bir başqa kişinin anal dəliyinə soxan yerdə tutsunlar. Bu isə asan məsələ deyil. Düzdür, adamı ekspertizaya göndərə bilərlər, ya da elə şöbədəcə zorla boynuna qoya bilərlər. Azərbaycanda polisə düşən insan, Osventsimdə yəhudiləri diri-diri yandırdığını da etiraf edə bilər. Hər şeyi pul həll eləyir – mavi olma, nə olursan ol - pulunu ver çıx get.

Artuş acı-acı gülümsəyib dedi:

- Nə qədər də oxşarıq sizinlə...

- Amma axır vaxtlar Azərbaycanda geylər çox savadlanıblar. ILGA[3], BMT, UNESCO, Avropa Şurası kimi nüfuzlu təşkilatlara müraciətlər yazırlar, şikayətlər ünvanlayırlar. ILGA Avropa Şurasına təzyiqlərini artırır ki, bu qurum Azərbaycanda homoseksualların hüquqlarını təmin etmək işində aktiv olsun.

Artuş yarı istehzalı, yarı ciddi soruşdu:

- Bir köməyi olur bunun?

- Yox əşi, nə kömək... Amma Ermənistana baxanda, bizdə vəziyyət xeyli yaxşıdı. Heç olmasa orduda əziyyət vermirlər.

Artuş dərin qullab alıb, başını buladı və tüstünü sifətindən qovaraq dedi:

- Nə isə... Başqalarının problemlərindən çox danışdıq deyəsən. Heç bilmirik bizim axırımız nə olacaq, camaatın dərdini çəkirik.

Zaur "düz deyirsən" deyib, siqaretini çarpayının altına, dəmirə basaraq söndürdü və masanın üstünə qoydu:

- Tualetə gedəndə ataram.

- Sən doğrudan da barbarsan – pinti, köçəri türk.

- Köçəri olsam da, qatarı sevirəm.

- Bəs gəmini?

- Ömrümdə bir dəfə gəmiyə minmişəm, Türkmənistana gedəndə. Uşaq idim, indi yadımdan çıxıb. Bircə o yadımdadır ki, anam yol boyu qusurdu.

Artuş da siqaretin kötüyünü ayaqqabısının altında əzərək söndürdü və masanın üstünə, Zaurun kötüyünün yanına qoydu.

- Mən isə balaca olanda böyük bir şar düzəldib, uzaq ölkələrə uçmaq istəyirdim. Jül Vernin, Dümanın romanlarını oxuyub, özümü qorxunc macəraların episentrinə düşmüş cəngavər kimi təsəvvür edirdim.

- Artuş!

- Nədir?

- Mən səni sevirəm.

- ...

- Mən səni dünyada hər şeydən və hər kəsdən çox sevirəm.

Qalxıb Artuşun yanına oturdu və yanağını sığalladı. Sonra qucaqlayıb öpdü onu, aralanan dodaqlarından dilini ağzına saldı. İlıq, şərab qoxuyan ağzının hərarəti onu məst etdi.

Artuşu uzandırdı və köynəyinin düymələrini açaraq hamar, ətirli bədənini, kiçik düymə boyda məmə giləlerini öpdü. Sonra onu elə bərk sıxdı ki, Artuş ağrıdan zarıdı. "Artuş...". Bu adın sanki sehrli qüdrəti vardı. Bu adın sehri ilə real olan hər şey qeyb oldu bir anda. Bu reallıqdan yalnız iki yaşarmış iri erməni gözləri və hər şeyi – qorxunu, ləzzəti, ehtirası və xoşbəxtliyi əks etdirən iniltilər qalmışdı.

Hər ikisinin qıvraq bədən hərəkətləri, yağışa susamış torpağın imdad çağırılarını xatırladırdı.

---

[3] Beynəlxalq Gey və Lesbiyanlar Assosiasiyası.

***

Vadidə, qızılı rəngə boyanmış ağacların əhatəsində yerləşən evin daş eyvanından qəribə bir mənzərə açılır: xəfif küləyin döyəclədiyi sıldırım qayalar və qayaların üzərində pərvaz edən qartal. Qanadlarını bütöv açmış bu qartal, elə bil daşdan düzəlmişdi. Qayalar isə sanki kələ-kötür daşların qaba halda bir-birinin üstünə yığılmasından əmələ gəlmişdi. Dörd bucaq şəklində olan evlər uçurumun düz dibindən şırıltı ilə axan çaya baxırdı. Bura Gürcüstanın ən dilbər guşələrindən, liman şəhərlərindən biri olan Potinin dağ kəndidir. Artuşla Zaurun qaldıqları evin içi alaqaranlıqdır, yerə kilimlər döşənib və mütəkkələr düzülüb.

Onlar rahat mütəkkələrin üzərində uzanıb uzaqlara, iki qayanın arasından görünən uca dağa baxırdılar. Zaur Şotanın onlara hədiyyə etdiyi nəşədən iki qullab alıb, tüstünü ciyərlərinə çəkdi və siqareti Artuşa ötürdü. İkisinin də gicgahı buz kimi soyumuşdu, ürəkləri tez-tez döyünür, sinələrində sərinlik hiss edirdilər. Zəif külək də nəşənin qoxusunu ətrafa yayırdı.

İki yüz metr irəlidə, kənd yolu ilə sifətlərindən gərginlik və yorğunluq yağan qadınlar və uşaqlar keçirdilər. Əllərində torbalar və səbətlər var idi. Onlar çox qiymətli yüklərini bir xəzinə sandığı kimi əllərində bərk-bərk tutub daşıyırdılar.

Zaur burnunu qaşıyıb:

- Maraqlıdır, görəsən hardan gəlirlər? – soruşdu.

Artuş kəndlilərə baxıb xəyala daldı və birdən başını tez-tez bulayıb dedi:

- Bilirəm. Onlar müharibəyə gedir.

- Bəlkə qayıdırlar?

- Nə dəxli var? Mən gedirlər deyirəm, sən isə qayıdırlar deyirsən. Deməli sənin məqsədin mənimlə mübahisə etməkdir. Mənimlə mübahisə etmək üçün seçdiyin vaxt və yer çox mənasızdır. Ümumiyyətlə niyə mübahisə etməlisən axı?

Zaur üşüdüyün hiss edib ədyalı xəfifcə dizlərinə doğru çəkdi. Bir müddət səssiz və xoşbəxt halda uzanıb kəndlilərə baxdı. Sükutu pozan Artuş oldu:

- Biz bura niyə gəldik Zaur?

- Sən çox danışırsan, amma yenə də sualına cavab verəcəyəm. Mənim məqsədim səninlə mübahisə etmək deyil, bura da ona görə gəlməmişik. Sən bura niyə gəlmişik sualını verəndə, məqsədin mənə söz atmaq, məni sancmaq idi. Guya mən səni bura gətirmişəm ki, səninlə mübahisə edim. Halbuki mənim məqsədim bu deyil. Səninlə mübahisə etmək istəsəydim Tiflisdə edərdim, daha Potiyə niyə gəlirdik? Biz bura bax beləcə uzanıb, kəndlilərə baxmağa gəlmişik.

Artuş yerdəki kulyokdan bir banan götürüb soydu və iştahla çeynəməyə başladı. Zaur danışır, danışdıqca da səs tonu aşağı düşürdü. Artuş bananı yeyib qurtaranda, onun səsi artıq eşidilmirdi. Zaurun iri açılmış gözlərində boşluq vardı və bu gözlər uzaqlara, çox uzaqlara dikilmişdi. Artuş banan qabığını pəncərədən həyətə vızıldatdı və ikincisini soydu.

- Zaur hesab edirəm ki, sən banan yesən uzaqda görmək istədiyin hər nədirsə, daha yaxşı görərsən. Banan insanın görmə qabiliyyətini qüvvətləndirir. Ona görə bütün peyğəmbərlər banan yeyərdilər.

Zaur göydə süzən və heykəl kimi donub qalan qartalı gözləri ilə göstərib düz, monoton səsi ilə soruşdu:

- Qartallar da banan yeyir?

- Qartalın işi gücü yoxdur banan yesin?

- Bəs onda nə üçün onlar da çox yaxşı görürlər? Uzaqdan nöqtə boyda siçanı görüb üstünə şığıyırlar.

Artuş bananı Zaurun yarıaçıq ağzına uzatdı. Zaur meyvədən bir dişləm alıb ağır-ağır çeynədi. Bir yandan da mülahizələrinə davam edirdi:

- Sən mənim sualıma cavab vermədin, amma mənim yadımdadır ki, mən sənə bir sual verdim. Qartallar banan yedikləri üçün, belə yaxşı görürlər uzağı?

Artuş da qartala baxıb dedi:

- Ola bilsin ki, yeyirlər. Afrikadakı qartallar yüz faiz yeyir.

- Niyə?

- Afrikada banandan başqa heç nə yoxdur axı.

Zaur vəhşi kimi gülməyə başladı. Ağzı açılmış, çənəsi gərilmiş, rəngi isə qızarmışdı. Bir yandan da sağ əli ilə sinəsini ovuşdururdu. Kənardan baxan onun şok keçirdiyini, ya da iflic olduğunu düşünə bilərdi. Təxminən yarım dəqiqəyə yaxın bir müddət bu vəziyyətdəcə donub qaldı. Handan-hana özünə gəlib qırıq-qırıq "xa-xa-xa"larla güldü. Sonra qəfildən susub dedi:

- Ermənilər də banan yeyir.

Artuş etiraz etmədi:

- Bəli, yeyirlər.
- Ona görə də qartal kimi uzaqgörəndilər.
Bu mülahizə Artuşun xoşuna gəldi:
- Ermənilərə qartal dediyin üçün çox sağ ol əzizim.
- Xeyr, qartal zad demirəm ermənilərə. Uzaqgörən deyirəm. Sizin xalq uzaqgörən deyilmi?
- Bəli, uzaqgörəndir. Hardan bildin?
Zaur bir daha ürəkdən gülüb dedi:
- Ermənilər o qədər uzaqgörən xalqdır ki, Bakıdan da oldular, Qarabağı da adam kimi özlərininki edə bilmədilər. Nə üçün belə oldu? Acgözlükdən. Qarabağ söhbəti olmasaydı, indi Bakının ən gözəl yerlərində yaşayır, neft biznesini idarə edirdilər.
Artuş laqeyd ifadə ilə banandan bir dişlək də alıb dedi:
- Mənə nə var, kim nə itirib? Mənə neft lazım deyil. Mənə Bakı da lazım deyil. Mənə Yerevan da lazım deyil. Bu göydə süzən qartal da lazım deyil.
Zaur qalxıb oturdu və qollarını açaraq onları əsdirə-əsdirə qışqırdı:
- Bəs sənə nə lazımdı?
Artuş da oturdu və yarımçıq bananı silkələyə-silkələyə ucadan dedi:
- Sən! Mənə sən lazımsan!
- Mən cansız əşya zadam sənə lazım olum? Mən soruşmadım ki, "sənə kim lazımdır"? Mən soruşdum "sənə nə lazımdır"! Məgər mən "nə" sualının cavabı ola bilərəm? Sən demək istəyirsən ki, mən insan deyiləm!?
Artuş cavab vermək yerinə, Zaurun isti nəfəsini duyacaq qədər ona yaxınlaşdı, parlayan gözlərinin içinə baxdı. Sonra onu qucaqladı və Artuşa elə gəldi ki, onu ömründə ilk dəfə idi ki, bağrına basırdı. Zaurun əzələli bədəni, yumşaq və ətirli dərisi var idi, dodaqları arasından görünən dişləri isə ağ mirvari dənələri kimi parlayırdı. Zaur tez-tez gözlərini qırpdı. Onun uzun və zərif kirpikləri Artuşun yanağıma dəyirdi, aqressiyası bir anda yox olmuş və gözlərində nəvaziş dolu bir baxış yaranmışdı.
Çənəsini ovucunun içinə alıb başını qaldırdı. Yumşaq sifətinə, nəmli susamış dodaqlarına və yarı bağlı kirpiklərinin ardındakı xülyalı gözlərinə baxdı.
- Sən olmasaydın Zaur, görəsən yaşamağın bir mənası qalardımı?

***

Artuş tavadan qayğanağı götürüb boşqablara qoya-qoya:
- Səhər SMS yazıb ki, gün ortadan sonra ordayam, – dedi və qəfədanın altını söndürüb mətbəxin qapısına yaxınlaşdı, - Eşidirsən?
Yerə səpələnmiş mütəkkələri səliqə ilə divarlara söykəyən Zaur, arxaya baxmadan soruşdu:
- Maşınla gəlirlər?
- Əlbəttə, o boyda adamı avtobusda gətirəsi deyil ha.
Zaur əllərini yana aralayıb dedi:
- Gəlirlər xoş gəlirlər.
- Bəsdir yastıqlarla oynadın, gəl mənə kömək elə.
Zaur axırıncı mütəkkəni də yerinə qoyduqdan və sürüşmüş xalını düzəltdikdən sonra mətbəxə keçdi.
Şota SMS-i səhər saat səkkizə işləmiş yazmış və təxminən saat birdə Potidə olacaqlarını xəbər vermişdi. Hər şey qabaqcadan, hələ Potiyə yola düşməzdən əvvəl Tiflisdə danışılmış və razılaşdırılmışdı. Şota, ondan kömək istəyən gənclərin çılğın planını eşidəndə bir az çaşsa da, özünü o dəqiqə ələ almış və kömək etməyə söz vermişdi.
Tiflis vağzalındakı kafedə Şota, üzünü gənclərə tutaraq "İstər heteroseksual, istərsə də homoseksual məhəbbət - həyata qarşı işlənilən ən gözəl, ən şirin günahdır" demişdi. "Məndən bu günaha şərik olmağımı istəyirsiniz. Sizə "yox" deyə bilmərəm. Həqiqətən də bu günahla barışmağın, onu mənimsəməyin - ondan qorxmaqdan, qaçmaqdan qat-qat şərəfli olduğunu başa düşürəm. Bu günahın üstünə hücumla getmək, onu məğlub etmək və saf sevgini əbədiləşdirmək lazımdır. Məhəbbəti inkar hər şeydən öncə özünə qarşı haqsızlıq, hörmətsizlik və xəyanətdir".
Bu gün Şota, sözünü tutaraq, Gürcüstanın birinci ledisi Sandra Rulovsun yaxın və etibarlı adamı, bir növ mənəvi atası hollandalı keşiş Klaas Xendrikse ilə birlikdə Potiyə gəlirdi. Gəlirdi ki, illər uzunu acı çəkən, ayrılığın dözülməz sancısını qəlblərində duyan və müharibəyə rəğmən görüşmək ümidini bir an olsun itirməyən, ruhdan düşməyən və əslində evli olub olmamağa bir o qədər də əhəmiyyət verməyən, lakin bunu etmək mümkündürsə, fürsəti əldən buraxmaq istəməyən Artuşla Zaurun xahişini yerinə yetirsin.
Latent homoseksualların məskəni olan Cənubi Qafqazda bu nikah, ilk gey nikahı olacaqdı. Bu nikah gənclərə hava, su kimi lazım idi. Bunu Tiflisdə görüşdükdən üç gün sonra başa düşmüşdülər. Bu ağlasığmaz addımı atmaqla, bəlkə də onlar nikahlarının qıyıldığı günü, 18 Noyabrı nəinki Cənubi Qafqazda, hətta bütün dünyada

homoseksualların əlamətdar tarixinə, geylərin Valentin bayramına, daha doğrusu “Klaas Xendrikse gününə” çevirirdilər.

Artuş təndir çörəyini qayğanağa batıraraq soruşdu:

- Azərbaycanda heç evlənməyə cəhd edənlər olub?

Zaur çayındakı şəkəri qarışdıra-qarışdıra:

- Mən bilən ancaq bir dənə cütlük olub – dedi.

Verdiyi suala əslində müsbət cavab gözləməyən Artuş, gözlərini maraqla bərəldib soruşdu:

- Nə danışırsan? Tanıyırdın onları?

- Yox əşi, mən onları hardan tanıya bilərəm? İkisi də neft sektorunda, BP-də işləyirlər. Mətbuat onlar barədə xeyli yazdı. Adları Eldar və Mansurdur. Artıq neçə ildir evli cütlük kimi, bir evdə yaşayırlar. Evlənmək müraciəti ilə köhnə Oktyabr, indiki Yasamal rayonunun VVAQ-ına müraciət etmişdilər.

- VVAQ onlara nə cavab verdi?

- Əlbəttə rədd cavabı. İndi də Azərbaycandakı bütün məhkəmə instansiyalarından keçib, sonda Avropa məhkəməsinə üz tutmaq istəyirlər.

- Çox maraqlıdır... - Artuş pəncərədən küknar budağının üstündə oynayan sərçələrə baxıb, gözləri yol çəkə-çəkə:

- Bunun bir xeyri olacaq görəsən? – soruşdu.

- Avropa məhkəməsi bəlkə də onların lehinə qərar verdi. Bu vaxta qədər Avropa məhkəməsi belə bir işə baxmayıb və baxacağı təqdirdə mənim fikirləşdiyim ola bilər. Belə olan halda da Azərbaycan bu qərarla hesablaşmağa məcbur olacaq.

Artuş köks ötürdü:

- Görürsən? Yenə də Azərbaycan! Ermənistanda homoseksual evlilik söhbətini dilə gətirsən, o dəqiqə səni təpikləyə-təpikləyə gəbərdərlər. Lənətə gəlmiş ölkə! Özü də adını xristian qoyub!

Zaur güldü:

- Yaxşı, əsəbiləşmə. Qafqaz elə Qafqazdır – nə xristian, nə müsəlman? Bu qırılmış xalqların heç biri adam deyil, olmayacaq da.

## 4

Maşını idarə edən Dodiko, sevgililərin qaldığı kənd evini asanlıqla tapdı. Saat ikinin yarısı olardı. Zaurla Artuş həyətdə gəzişir, siqaret çəkirdilər.

- Dodiko da gəlib – dedi Zaur Artuşa göz vuraraq.

Küçəyə çıxıb maşını qarşıladılar. Zaur arxa qapını açaraq, Klaasla bağlı beynində yaratdığı obrazın əksinə saqqalsız, 40-45 yaşlarında, bir az şişman keşişin maşından düşməsinə kömək elədi. Keşişin saçlarının yarısı tökülmüş, geniş alnı bir az da böyümüşdü.

- Möhtərəm Keşiş xoş gəlmisiniz.

Artuş çəkdiyi siqareti yerə atıb tapdaladı və sıra ilə Şota və Dodikonu qucaqladı. Keşiş Klaas ilə də görüşdü.

- Evi tapmaq çətin olmadı ki? – Zaur Şotadan soruşdu.

- Tez-tez bu kənddə dincələn adam üçün, çətin nə ola bilər? – Şota və Dodiko Zaurla da qucaqlaşıb görüşdülər.

Artuş qabağa keçərək həyətə girdi və əli ilə qonaqları evə dəvət etdi:

- Buyurun, buyurun.

Beşi də evə girib gödəkcələrini və ayaqqabılarını çıxartdılar. Qonaqlar kreslo və divanın olmadığı otaqda döşəmədə, mütəkkələr üstündə oturdular. İndiyə qədər ağzını açmayan, yalnız gülümsəməklə kifayətlənən keşiş Klaas, əli ilə xalçanı sığalladı, məmnunluqla başını buladı. Görünür xalçanı bəyənmişdi. Artuş dərhal mətbəxə gedib çaydanın altını yandırdı, fincanları dolabdan çıxardıb nəlbəkilərə düzdü və həyəcanla yanında vurnuxan Zaurun üzünə baxmadan dedi:

- Nədi? Yer tapa bilmirsən özünə?

- Mən hər gün evlənmirəm Artuş. Özü də kişi ilə. Ona görə də həyəcanlı olmağımda qəribə heç nə yoxdu. Keşiş otaqdakı xalçanın keyfiyyətindən razı qaldı.

Artuş Zaurun son cümləsini qulaq ardına vuraraq soruşdu:

- Qonaqlar nə içəcəklər – çay, qəhvə? Bəlkə öyrənəsən?

- Ehtiyac yoxdur, əlbəttə qəhvə içəcəklər. Türk qəhvəsi.

Artuş dodaq ucu gülümsünüb Zaura göz vurdu:

- Türk yox, erməni qəhvəsi. Qədim erməni qəhvəsi.

- Yaxşı, yaxşı. Qədim erməni qəhvəsi olsun. Di tez ol – deyib, otağa qayıtdı. Keşiş Klaas indi də divarlardan asılmış kənd mənzərələrinə maraqla baxır, otağın tavanından tutmuş döşəmədəki döşəkcələrə qədər, hər şeyə göz gəzdirirdi. Zaur Şotanın yanına yaxınlaşıb astaca dedi:

- Nə yaxşı Dodiko da gəlib.

Şota sıxıla-sıxıla gülümsədi:

- İki nəfər şahid olmalıdır axı.

Zaur əli ilə alnına yüngülcə bir şapalaq vurdu:

- Doğrudan ha! Mən bunu heç fikirləşməmişdim.

Dodiko gülən gözləri ilə gah Zaura, gah Şotaya baxıb:

- Sən yaddan çıxarsan da, bizim yadımızdadır. Keşiş Klaas da şahidlərsiz nikahın mümkün olmayacağını demişdi.

Klaas Xendrikse söhbətin onun haqda getdiyi anlayıb gənclərə baxdı. Parıldayan gözlərində sual oxunurdu.

Şota ingilis dilində ona dedi:

- Zaura, şahidlik məsələsinin nə qədər vacib olduğunu deyirdim.

Keşiş tez-tez başını bulayıb dedi:

- Bəli, olduqca vacibdir. Şahidlər olmadan Tanrının dərgahında nikah qəbul olunmaz. Həm də ki, evlənənlərdən biri müsəlmandır. İslamda isə iki şahid fərzdir.

Zaur keşişin onları doladığını fikirləşib, şübhə ilə gözlərinə baxdı, zarafat edib-etmədiyini anlamağa çalışdı. Amma keşişin gözləri ona heç nə demədi. O sadəcə soruşdu:

- Bu evdə kirayədəsiz?

- Bəli möhtərəm keşiş.

Keşiş dəqiqləşdirdi:

- Neçəyə götürmüsünüz?

Zaur Şotaya və Dodikoya qısa nəzər saldıqdan sonra, bir az da sıxıla-sıxıla dedi:

- Günü əlli lariyə.

Keşiş dodaqlarını büzüb başını yellədi:

- Əla. Çox gözəl.

Artuş əlində məcməi ilə otağa girib, qəhvələri qonaqların qabağına düzməyə başlayanda, Zaur sevgilisinə kömək eləməyə başladı. Hamıya qəhvələri çatandan sonra, Artuş mətbəxə qayıtmaq istəyirdi ki, keşiş Klaas onu biləyindən tutdu:

- Otur oğlum. Sən də otur – deyərək, Klaas Zaura müraciət etdi.

İkisi də oturub gözlərini keşişin saqqalsız, ağappaq və nurlu sifətinə zillədilər.

- İnsan səadəti başqa yerdə yox, sevdiyi insanda axtarmalıdır. Bu ən ali həqiqətdir. Evlənməyə qərar verdiyinizi dostum Şotadan eşitdim. Doğrusu bu mənə çox qəribə gəldi – erməni ilə azərbaycanlı homoseksualların evlənə biləcəyi ehtimalı barədə heç vaxt düşünməmişəm. Amma madam ki, belə bir qərar vermisiniz, sizi yalnız təbrik edə bilərəm.

Qəhvəsindən bir udum içib davam elədi:

- Bu günə qədər iyirmiyə yaxın homoseksual nikahı, sayını-hesabını unutduğum qədər də natural nikahı qıymışam. Etiraf edim ki, ilk dəfədir özümü bu qədər rahat, sərbəst və azad hiss edirəm. Sizin nikahınız mənim keşiş həyatımda ən əlamətdar hadisəyə, ən mübarək izdivaca çevriləcək. Sizi bir daha təbrik edir, uzun ömür, can sağlığı arzulayıram.

Lakin nikah qıyılmadan əvvəl, sizə evliliklə bağlı bəzi məsləhətlərim də olacaq oğullarım.

Keşiş yerini rahlayıb, qəhvəsindən bir içim də aldı və düz, monoton səsi ilə danışmağa başladı:

- Kiçik və ya böyük qüsurlarınıza görə bir-birinizi tənqid etməyin. Səhvsiz insan olmaz, bağışlamağı bacarın. Mübahisə edərkən keçmişdə baş verənləri böyütməyin, ikinizi də narahat edən Qarabağ münaqişəsindən danışmayın. Bir-birinizin yol verdiyi xırda-para qüsurlara göz yumun. Unutmayın ki, evliliyinizi sevgi və yoldaşlıq üzərində qurduqda əbədi səadətə nail ola bilərsiniz. Heç bir anlaşılmazlığın uzunmüddətli olmasına yol verməyin. Qısa bir vaxtda məsələni yaxşılıqla bitirin. İdealist olmayın. Güzəştə getməyə çalışın və qarşı tərəfdən möcüzə gözləməyin. Hər vasitə ilə bir-birinizə sevginizi ifadə edin. Çətinliklərə təslim olmayın. Həyata ümidlə baxın. Üzünüz həmişə gülsün. Özünüz üçün arzuladıqlarınızı həyat yoldaşınız üçün də istəyin. Özünüzü düşündüyünüz qədər onu da düşünün. Keçmişdə yaşadığınız problemləri və ya gələcəkdəki qayğılarınızı bu günə daşımayın. Nikahın müqəddəs bir ittifaq və Tanrıya verilmiş söz olduğunu hər iki tərəf bilməlidir. Buna görə də atacağınız addım sizi məyus etməməlidir. Yüz ölçüb, bir biçin. Yaxın qohumlarınızın, qonşularınızın, dostlarınızın və xalqlarınızın evliliyinizə müdaxilə etməsinə imkan verməyin. Öz problemlərinizi mümkün qədər özünüz həll etməyə çalışın. Həyat yoldaşınızda gördüyünüz qüsurları düzəltməyə tələsməyin. Bəzi qüsurların düzəlməsi üçün zamana ehtiyac var. Kiçik qüsurları böyütməyin. Ailə həyatının çətinliklərini və məsuliyyətini dərk etməli və

özünüzə inanaraq bu öhdəliyi öz üzərinizə götürməlisiniz. Anlaşılmazlıqlardan və mübahisələrdən mümkün qədər uzaq olun.

Zaurla Artuş baxışıb gülümsədilər. Bu günə kimi onlar, keşişin məsləhətlərinə artıqlaması ilə əməl etmişdilər. Amma yenə də bu nəsihətləri eşitmək, düzgün yolda olduqlarına dair onlarda əminlik yaradırdı.

Artuş keşişin mülayim sifətinə ehtiramla baxaraq dedi:

- Möhtərəm keşiş, bizim eşqimiz yasaq eşqdir. Cəmiyyətlərimiz düşmən, xalqlarımız qanlı-bıçaqlıdır. Bizdən biri qız da olsa idi, izdivacımıza izn verilməzdi. Demək istədiyim odur ki, homoseksual olmağımız heç nəyi dəyişdirmir, hətta vəziyyəti daha da çətinləşdirir. Biz bəlkə də ömür boyu bu nikahı gizlətməyə məcbur olacağıq. Ona görə də... Sizdən bir şey soruşmaq istəyirəm.

- Buyur soruş oğlum. İstədiyin sualı verə bilərsən.

Artuş Zaura baxdı. Gözlərində tərəddüd oxunurdu. Sanki sevgilisindən məded umurmuş kimi, boynunu bükdü. Zaur onun çətinlik çəkdiyini anlayıb, sualı özü verdi:

- Möhtərəm keşiş, bizi bir sual maraqlandırır. Bizim nikahımız gizli şəkildə qıyılan ilk homoseksual nikahdır ya yox?

Keşiş əvvəlcə fikrə getdi. Çənəsini xeyli ovduqdan sonra, birdən-birə hansısa qərara gəlibmiş kimi ikisinə də qətiyyətlə baxdı və dedi:

- Bəli. Ən azından mənim təcrübəmdə olmayıb, başqalarından da eşitməmişəm. Avropada belə bir problem yoxdur, ona görə də geylər evlənəndə bunu heç kimdən gizlətməyə ehtiyac duymurlar. Mən ilk dəfədir ki, gizli qaydada homoseksual nikahı qıyıram. Sanki cinayət əməli törədirəm. Halbuki sizin də, mənim də gördüyümüz iş, ən müqəddəs əməldir.

Şota keşişin dediklərini Dodikoya tərcümə edir, Dodiko isə başını yelləyə-yelləyə Şotaya qulaq asır, arada-bir təbəssüm və şəfqətlə Zaurla Artuşa baxırdı.

Zaurla Artuş da bu cavabdan sevincək olmuşdular. Zaur özünü saxlaya bilməyib, keşişin sözünü kəsdi və bir nəfəsə dedi:

- Onda demək olarmı ki, bizim nikahımızın qıyıldığı gün bir növ geylərin Valentin gününə çevrilə bilər?

Keşiş əvvəlcə çaşdı. Zaurdan belə bir sual gözləmədiyi üçün, bilmədi nə cavab versin. Əlini sinəsinə götürərək yaxasından xaçı çıxartdı, sığallamağa başladı. Bir yandan da elə hey düşünürdü. Bir dəqiqəyə yaxın otaqda səssizlik oldu. Heç kəs yaranmış sükutu pozmağa cəsarət etmirdi. Nəhayət Klaas çənəsini yuxarı qaldıraraq möizə oxuyurmuş kimi, danışmağa başladı.

- Siz Valentin gününü yada saldınız... Əslində müqayisə aparsaq səhv etmiş olmarıq. Bildiyiniz kimi, heteroseksual sevgililər üçün sevgililər gününün başlanğıc tarixi, qədim Roma imperatorluğuna qədər uzanır. Qədim Romada 14 fevral günü bütün Roma xalqı üçün önəmli bir gün idi. Çünki bu gündə Roma tanrılarının kraliçası olan Junoya duyulan hörmətdən dolayı tətil olardı. Juno həm də Roma xalqı tərəfindən qadınlıq və evlilik tanrısı olaraq da bilinirdi. 15 mart tarixində isə Luperkalia bayramı başlayırdı.

Bu bayram, xalqın gəncləri üçün çox əhəmiyyətli idi. Gənc oğlanın hansı qıza qismət olacağı Luperkalia bayramında bəlli olurdu. Romalı gənc qızlar adlarını kiçik bir kağıza yazıb bir qabın içərisinə atırdılar. Oğlanlar isə oradan adlardan birini götürərdilər. Beləliklə də bu bayramı, adı kağızda yazılan qızla birgə keçirərdilər. Birləşən gənclərdən çoxu, bayramdan sonra ailə qurardılar.

Roma imperatoru 2-ci Kladius zalım bir hökmdar idi. Ordusunda savaşacaq əsgər tapmaq onun üçün ən böyük problemə çevrilmişdi. İmperatora görə, buna səbəb romalı kişilərin sevdiklərini və ailələrini tərk etmək istəməmələri idi.

Buna görə də, o, Romadakı bütün evlilikləri qadağan etdi. Valentin də o zaman Romada yaşayan bir rahib idi. Özü kimi bir rahib olan Marius ilə birlikdə, imperatorun qadağasına baxmayaraq, gəncləri evləndirməyə gizlicə davam edirdilər. Bir müddət sonra imperatora bu xəbər gəlib çatır. Gəncləri evləndirdiyinə görə Valentin həbs edilir və sonra öldürülür. Miladdan sonra 269-cu il 14 fevralında Valentinin dəfni olur.

Bu gün, 18 noyabr da sizin gizli şəkildə nikahınızın qıyıldığı gündür. Onda belə çıxır ki... - Keşişi gülmək tutdu. Otaqdakılar da gülməyə başladılar. Birdən Klaasın sifəti ciddiləşdi, dərindən nəfəs aldı və dedi – Onda belə çıxır ki, 18 noyabr dünya geyləri arasında “müqəddəs Klaas” günü kimi qeyd olunmalıdır? Axı bunun üçün məni gərək edam etsinlər. Siz bunumu demək istəyirsiniz?

Otaqdakılar ürəkdən gülməyə başladılar. Klaas da onlara qoşulub qaqqıltı ilə gülürdü.

Artuş əllərini aralayıb soruşdu:

- Bəs siz belə bir günün təsis edilməsini mümkün hesab edirsinizmi?

Klaas üzünə “ola da bilər” mənasına gələn bir ifadə qatdı və boynunu sağa əydi. Gah Artuşa, gah Zaura baxaraq dedi:

- Amma buna biz yox, tarix və insanlar qərar verəcək. İndi isə vaxt itirmədən, nikahımıza başlayaq.

Hamı əvvəl bir-birinə baxdı. Şota keşişin dediyini Dodikoya tərcümə etdi. Artuş isə əminliklə dedi:

- Biz hazırıq möhtərəm keşiş. Başlaya bilərsiniz.
Artuş, Zaur, Şota və Dodiko ayağa qalxdılar. Zaur əlini keşişə uzadaraq, onun da durmasına kömək elədi.
Keşiş yaxasından asılmış xaçı üç dəfə öpüb gözlərinin üstünə qoydu, cibindən çıxartdığı incili açaraq, ucadan bir neçə ayə oxudu və yanaşı dayanmış Zaurla Artuşun qarşısına keçərək əvvəlcə Artuşdan soruşdu.
- Adınız nədir?
- Artuş Saroyan.
- Dininiz?
- Etnik mənada Qriqoryanam. Amma özümü dindar hesab eləmirəm.
- Başa düşürəm, siz monofizitsiniz. Allah sizə hidayət versin, haqqın yoluna çəksin. Siz bu cənabla evlənmək istədiyinizdən əminsiniz?
- Bəli, son dərəcə əminəm.
Keşiş üzünü Zaura tutdu:
- Bəs sizin adınız nədir?
- Zaur Cəlilov.
- Dininiz?
- Etnik mənada müsəlmanam. Amma özümü ateist hesab edirəm.
- Allah sizi doğru yola istiqamətləndirib, qəlbinizə iman saçsın. Haqqın yoluna gəlməyə tələsin. Artuş Saroyanla evlənmək istədiyinizdən əminsiniz?
- Bəli.
- Şahidlərin hüzurunda hər ikinizə sualım var - ağır gündə, xoşbəxt gündə, xəstəlikdə və sağlamlıqda, ölənə qədər bir-birinizə dayaq olmağa, bir-birinizi sevməyə söz verirsinizmi?
Zaurla Artuş bir ağızdan "Bəli" dedilər.
- Onda sizi... sizi evli elan edirəm. Bir-birinizi öpə bilərsiniz.
Cütlük bir anlığa tərəddüd etsə də, Artuş tez özünü topladı, başını qaldırıb qətiyyətlə Zaurun dodaqlarına yapışdı.

***

Nikah mərasimindən sonra, keşiş Klaas daha yarım saat oturdu, gənclərlə ordan-burdan söhbət elədi. Növbəti qəhvələr də içiləndən sonra, Klaas təcili olaraq Tiflisə qayıtmalı olduğunu, sabah birinci ledi Sandra Rulovsla birlikdə Barjomidə yeni tikilmiş uşaq evinin açılışında iştirak edəcəyini bildirərək üzr istədi və ayağa qalxdı.
- Bu gün Sandra xanımla sabahkı tədbir barədə sonuncu iclası keçirməliyik. Proqrama axırıncı ştrixləri əlavə etmək lazımdır.
Zaur özünü saxlaya bilməyib soruşdu:
- Borjomidə açılan uşaq evi, dini təmayüllü olacaq?
Klaas istehza ilə gülümsünüb dedi:
- Tutaq ki, dini olacaq. Dinimizin uşaqlara təbliğ edilməsində pis nə var ki?
Zaur verdiyi suala peşman olaraq dodaqlarını büzüb, üzünə yazıq ifadə verdi:
- Əlbəttə pis heç nə yoxdur.
Şota əli ilə keşişi qapıya dəvət edərək "buyurun" dedi və qınaq dolu gözlərlə Zauru süzüb başını buladı.
Hamı həyətə çıxandan sonra, Şota qabaqda gedən keşişin yanından ayrılaraq Zaura yaxınlaşdı.
- Mobil telefonunu söndürmüsən?
- Söndürmüşəm, nədir ki?
- Akif Tağı zəng vurmuşdu mənə. Səni soruşurdu. Nigaran qalıb. Sən ona Potidə olduğunu demisən?
Zaur Şotanın dediklərinə laqeydcə qulaq asırdı.
- Xeyr.
- Nahaq yerə. Mən də dedim ki, harada olduğunu bilmirəm. Dünəndən telefonun cavab vermir, ola bilsin başqa şəhərə gedib. Odur ki, onunla zəngləşsən yalanımın üstü açılmasın.
- Narahat olma.
Dodiko arxa qapını açıb keşişi gözləyirdi. Klaas Artuş və Zaurla bir-bir görüşdü, onlarla qucaqlaşdı.
- Tanrının izni ilə bir daha görüşməyi ümid edirəm övladlarım. Mən sizə səadət dolu həyat, xalqlarınıza isə sülh hazırlayıram. Sizin kimi sülh göyərçinlərinə malik Azərbaycan və Ermənistan, bir dəfəlik müharibədən, düşmənçilikdən əl çəkməli və qardaş kimi yaşamağa başlamalıdırlar. Sağ olun!
- Yolunuz açıq olsun möhtərəm keşiş – dedi Artuş və Klaasın əlini sıxdı.
Zaur da əlini ona uzadaraq:
- Sizinlə tanış olmağıma çox şadam. Hər şey üçün təşəkkür edirəm.

Zaurla Artuş gürcülərlə də görüşəndən sonra, maşının qapıları bağlandı və Nissan Sunny yerindən sürətlə götürülərək, Tiflisin yolunu tutdu.

- Bu iş də beləcə bitdi – dedi Artuş, kədərli gözlərlə maşının ardından baxaraq.

Həyat yoldaşının məyus sifətinə profildən baxan Zauru gülmək tutdu:

- Heç nə bitməyib. Hər şey elə yenicə başlayır. Biz artıq evli cütlüyük.

Artuş gözünü yoldan ayırıb Zauru birinci dəfədir görürmüş kimi, qəribə-qəribə ona baxdı.

- Düz deyirsən. Amma bircə onu bilmirik ki, ər kimdir, arvad kim?

- Bu kateqoriyalar bizə aid deyil Artuş, odur ki, beynini bu cür lazımsız fikirlərlə yorma. Keçək içəri – deyərək, Artuşun qolundan tutdu. – Üşüməyə başladım.

***

- Artuş, yadına düşür məktəbin həyətindəki idman meydançası?

Nəşədən üçüncü qullabı alan Artuş, meyxoş gözlərini kənd evlərinin damlarından ayırmadan mırıldandı:

- Həə. Nədi ki?

Zaur nəşəni onun əlindən alaraq, tüstünü yanğı ilə ciyərlərinə sümürdü və yüngülcə öskürüb gözlərini yumdu:

- Ən çətini dolanbac yarımçevrəli nərdivan idi. Onun pillələrindən yapışaraq, asılı vəziyyətdə əvvəlindən sonuna qədər irəliləməkdə hər zaman çətinlik çəkərdim. Bəzən gücüm çatmayanda sən qollarımdan, ayaqlarımdan yapışıb, təkan verərək qarşı tərəfə dartardın məni, sona çata bilim deyə. Mənim isə biləklərimdə gücüm tükənərdi, əllərim boşalardı. Bir dəfə cürət edib yarıyadək, müəyyən hündürlüyə qədər qalxa bilmişdim. Amma aşağı baxdıqda yumşaq torpaq olduğu halda belə yıxılacağımdan qorxaraq daha davam etmədim və sən məni pillələrdən aşağı endirdin.

Artuş nəmli gözləri ilə Zaura ötəri nəzər salıb, təzədən kənd evlərinin damlarına baxaraq soruşdu:

- İndi niyə bunları xatırlayırsan axı? Mənə əzab vermək üçün?

- Sənə niyə əzab verməliyəm axı! Ona görə yada saldım ki, həmən nərdivanlar dəyişməyib, daha çətinləri ilə əvəz olunub. Dolanbac, labirintli həyat nərdivanları ilə... Bu nərdivanlar, idman nərdivanlarından fərqlidir. Amma yenə də pillələrdən yapışarkən biləklərim ağrıdır, yenə gücüm tükənir. Yenə çətin olur, yuxarıdan aşağı baxmağa ehtiyat edirəm. Çünki, artıq həmən aşağını yumşaq torpaq deyil, uçurum və qara dərinlik əvəz edir. Çətin və ağır olsa da pillələri irəliləməyə davam etməli oluram, əks halda qaranlıq uçuruma yuvarlanmaq var. Hərdən yorularkən buraxmaq istəyirəm pillələri, deyirəm - daha bəsdir. Olmur nədənsə...

Bu labirintin sonu bilinmir Artuş... Sonu bilinmir...

Artuş əsəbi halda nəşədən son qullab götürüb külqabında söndürdü:

- Sən yenə başladın? Yenə qorxu, gələcəkdən narahatçılıq, bir-birimizi itirmək təhlükəsi... Hər şey bizim əlimizdə deyilmi? Sən nədən qorxursan?

- Səhərlər sən mənə “sabahın xeyir” deyirsən, axşamsa “gecən xeyrə qalsın”. Bu iki cümlə arasında isə o qədər danışırıq ki... Niyə doymuruq bir-birimizdən? İstəmirəm bütün bunlar bir gün qurtarsın. Mən bundan qorxuram.

- Qorxmaq lazım deyil Zaur. Ötən illərin yadigarı kimi əzab-əziyyətlə, kədərlə dolu əziz, dəyərli xatirələrimiz var. Onlara nəzər yetirdikcə düşünürəm, nə yaxşı ki, vaxtında bunları yaşamışıq. Acını dadmasan şirinin qiymətini belə bilməzsən. Bu belədir. Ayrılıqdan qorxmaq lazım deyil. Sevginin ucuzlaşmaması, dadının damaqda qalması naminə bəzən ayrılıqlar olmalıdır.

Gözləri dolan Zaur Artuşun heykəltəraşın əlindən çıxmış kimi möhtəşəm profilinə baxıb, səsi titrəyərək soruşdu:

- Sən özün dediklərinə inanırsan?

- İnanıram Zaur. Sən də bilirsən ki, bundan sonrakı ayrılığımız çox qısa olacaq. Biz artıq bir-birimizi tapmışıq. Biz artıq bir ailəyik hətta. Sən Bakıda, mən Yerevanda işlərimizi yoluna qoyandan sonra, haradasa üçüncü bir ölkədə yaşaya bilərik. Lap elə burada, Gürcüstanda.

***

Kədərli və nəşəli, sevişmələrlə, göz yaşları və gülüşlərlə dolu üç gün daha geridə qalmışdı.

Həyat gözəl idi və gənclərdə yaşamaq həvəsi yaranmışdı. Kəndin küçələrindən keçəndə, bazar-dükana gedəndə insanlara baxıb gülümsəyirdilər. İnsanlar da onlara baxıb təbəssümlə cavab verirdilər. Hamı xoşbəxt görünürdü. Zaur da, Artuş da özlərini misilsiz dərəcədə yaxşı hiss edirdilər. Hətta bütün ömürlərini burada, bu dilbər guşədə keçirməyə razı idilər.

Zaur telefonunu açmışdı və Bakıdan arabir Akif Tağı zəng vururdu.

- Hələ gəlmirsən?

- Yox, burda çox rahatam. Bəzi işlərim də var.
- Axı sənin Potidə nə işin ola bilər? Yoxsa kiməsə aşiq olmusan ay xatakar?
- Elə də demək olar.
- Vay vay vay. Belə de, biz də bilək də. Gürcü qızıdı?
Zaur erməni xalq mahnısını zümzümə edə-edə mətbəxdə qurdalanan Artuşa ötəri nəzər salıb gülümsündü.
- Xeyr, gürcü qızı deyil.
- Bəs kimdi?
- Akif, bunları Bakıda danışsaq olar?
- Yaxşı, yaxşı. Nə vaxt gəlirsən? Hər şey bir yana, amma işlərimiz tökülüb qalıb axı. Norveç səfirliyindən zəng vurmuşdular, layihəmizi qəbul edirlər.
Zaur ayağa qalxıb otaqda var-gəl etməyə başladı:
- Bax bu çox əla xəbərdi. Yəqin ki, üç gün sonra Bakıda olaram – dedi və bir daha dönüb mətbəxə baxdı. Artuş şkafa söykənib siqaret çəkir, ifadəsiz sifətlə Zaura qulaq asırdı. Zaur gözünü ondan ayırmadan, bir də təkrarladı – bəli, üç gün sonra Bakıdayam.
Telefonu söndürüb pəncərə kənarına qoydu, küçədə oynayan uşaqlara baxdı və köks ötürüb üzünü təzədən Artuşa çevirdi.
- Deməli üç gün sonra Bakıdasan?
Zaur alnını ova-ova:
- Azərbaycan dilini təsəvvür etdiyimdən də yaxşı bilirsənmiş – dedi.
- Söhbəti dəyişdirmə. Doğrudan gedirsən?
- Bir gün onsuz da ikimiz də getməliyik, ya yox? Sən özün deməmişdin, qısa ayrılıq olacaq? Bunu gecikdirməyin nə mənası var? Bakıda işlərim yarımçıq qalıb. İndicə Akif dedi ki, Norveç səfirliyindən bir layihəmiz keçib. Onunla məşğul olmalıyam. Sən də get evinə-eşiyinə, işlərini gör. Nə zaman istəsək görüşə biləcəyik onsuz da.
Artuş başını bulaya-bulaya otağa keçdi.
- Əslində düz deyirsən. Bilmirəm sənin sözlərin məni niyə bu qədər özümdən çıxardı. Adicə elektron poçtumu bir həftədi yoxlamıram. Yüz dənə məktub gəlib yəqin. Bu kənddə adam nə qədər qala bilər?
Zaur ona doğru iki addım atıb yanaqlarını sığalladı.
- Nəşəmiz də qurtarıb.
- Bəli, nəşəmiz də qurtarıb. Gərək Şotadan istəyəydik.
Zaur əlini Artuşun yanağından çəkib mətbəxə girdi və qədəhlərə şərab süzə-süzə dedi:
- Şotanın bizə borcu zadı var? Bir dəfə iki qutu aldıq bəsdir də. Özü də neçə gündür vəhşi kimi çəkirik. Sabah günorta Tiflisə yola düşürük. Etirazın yoxdu?
- Yox... Bu ayrılıq gecəsini unudulumaz etməyə söz verirsənsə, etiraz etmirəm.
Əlində qədəhlərlə otağa qayıdan Zaur:
- Bizim hansı sevişməmiz unudulmaz olmayıb ki, bu da unudulmaz olmasın – dedi və qədəhi Artuşa uzatdı – İçək iki başdan xarab avantüristin sağlığına!

***

Tiflis heç bu qədər boz olmamışdı. Çırtma vursan partlayıb yer üzünü suya qərq etməyə hazır qapqara buludlar şəhərə hücum çəkmək üçün üfüqdə hazır vəziyyətdə gözləyirdilər. Külək xəfif əssə də, hava buzlu olduğundan adamın nəfəsi kəsilirdi. Qış artıq özünü əməlli-başlı hiss etdirirdi.
Düşüklük kimi çıxmasaydı, Zaur təbiətin belə onların ayrılığına hüznləndiyini deyərdi. Ağlına gələn fikrə görə özü-özünə güldü. Artuş onun sürüşən dodaqlarını görüb soruşdu:
- Nə oldu, nə gülürsən?
- İndi biz səninlə sevgili kimi yox, evli insanlar kimi ayrılırıq. Mən Tiflisdə həyat yoldaşımı qoyub gedirəm.
- Biz necə evliyik ki, barmaqlarımızda üzüklər yoxdu?
Zaur onun ciddi olub-olmadığını anlamaqdan ötrü diqqətlə üzünə baxdı. Artuşun da gülümsədiyini görüb, özü də güldü.
- Bu dünyada evli olduğumuzu bizdən başqa üç nəfər bilir.
- Şota ilə Dodikoya güvənirsən?
Zaur çiyinlərini çəkdi:
- Hər halda özləri də kişi cinsinə qarşı laqeyd deyillər. Belə olan halda, bizi ifşa etmələri nə qədər məntiqlidir?
Onlar "Alan" Osetin restoranında oturmuşdular. Zaurun qatarı 20.35-də Bakıya hərəkət etməli idi. Artuş isə ertəsi gün səhər tezdən Yerevana rahat, konfortlu avtobusla getməyə qərar vermişdi. Yəni bir gecə Tiflisdə tək qalacaqdı.

- Şotaya zəng vurmamaqla düz hərəkət etdiyini düşünürsən? – Artuş Zaurun boşqabına xaçapuri tikəsini qoya-qoya soruşdu.

Zaur əli ilə ona əngəl olmağa çalışdı.

- Çox qoyma, o qədər də ac deyiləm. Xeyr, düzgün eləmirəm. Amma onu indi, bu saat görmək istəməzdim. Səndən başqa heç kimi görmək, danışmaq istəmirəm.

- Səni başa düşürəm...

- Mən qatara minəndən sonra zəng vurub mənim adımdan üzrxahlıq edərsən. İstəsəniz bu gün görüşə də bilərsiniz.

Zaur bunu deyib yoxlayıcı nəzərlərlə Artuşa baxdı.

- Nədi, olmaya məni sınayırsan? Onunla görüşmək istəyib-istəmədiyimi məndən açıq soruşa bilərdin.

- Səni qısqandığımı düşünürsən?

- Düşünmürəm, bundan əminəm.

Artuş güldü və Zaura ağzını açmağa fürsət vermədən əlavə elədi:

- Amma məni qısqanmağın xoşuma gəlir. Xeyr, arxayın ola bilərsən – o gürcüylə yatmaq fikrim yoxdu. Ümumiyyətlə səndən başqasına aid olmayacağam. Heç vaxt.

Zaur xaçapuridən balaca bir tikə kəsib çeynəməyə başladı.

- Bundan şübhəm yoxdu Artuş.

- Nə isə... Deyəsən biz adam kimi ayrılmağı da bacarmırıq. Qatarın bir saat sonra yola düşür. Neçədə qalxaq?

- Yarım saat da oturaq, xahiş edirəm.

- Oturaq deyirsən oturaq da. Mən sənə görə narahatam.

Zaur dərindən köks ötürüb siqaret yandırdı. Əsəbi və gərgin görünürdü. Ətrafına bir neçə dəfə göz gəzdirdi, elə bil kimisə axtarırdı.

- Nə olub sənə? – Artuş soruşdu və bir az qabağa əyildi.

- Qatarın hərəkət vaxtı yaxınlaşdıqca, başa düşürəm ki, adam kimi vidalaşmağı da bacarmıram. Duyğularımın qarşısına keçə bilmirəm. Xudahafiz demək, çox ağır gəlir mənə... Səndən bir xahişim olacaq Artuş.

- Eşidirəm səni.

- Mənimlə vağzala gəlmə.

- ...

- Məni başa düşməlisən Artuş. Qatarın dalınca əl yelləyən aşiq obrazlarından zəhləm gedir. Gəl səninlə burada, restoranda ayrılaq...

Artuş çətinliklə də olsa:

- Səni başa düşürəm –dedi. – Necə istəyirsən elə olsun.

**SOMNAMBULA**

*İsayi-Məryəm həqiçün heç qərarım qalmadı,*
*Didəmi giryan edərsən, bağrımı qan erməni.*

## 1

Kupedə Zaurdan başqa Bakıya iki qadın və bir ixtiyar kişi də gedirdi. Üçü də azərbaycanlı idi. Saat on ikiyə qalsa da, heç kim yatmaq barədə fikirləşmirdi. İkinci mərtəbədəki yerində uzanan Zaur Tiflisdə yarımçıq qoyduğu Platonovun "Can" romanını qaldığı yerdən oxumağa başlamış, aşağıda gedən söhbətlərə, çanta və kulyoklardan çıxarılaraq masaya düzülən toyuq qızartmasına, pomidorlara, turşulara və Koka-Kolaya fikir vermirdi. Ona iki dəfə "nuş eləmək" təklif olunsa da, Zaur nəzakətlə sərnişinlərin dəvətini geri çevirmişdi. Kök, yoğun barmaqlarında üzüklər işıldayan qadın Zauru dilə tuta bilmədiyini görüb, yanında oturan obiri arvada göz vurdu. Lakin bu qadın da Zaurdan müsbət cavab almayınca, söhbətə yaşlı kişi qarışdı.

- Oğlum, birincisi uzanan yerdə kitab oxumazlar, gözlərin xarab olar. İkincisi də ki, səhərə qədər yol gedəcəyik, ölərsən axı acından!

- Çox sağ olun dayı, ac deyiləm, qatara minməmişdən əvvəl doyunca yemişəm.

Kök qadın gurultulu səslə Zaura əmr elədi:

- Ay bala düş görüm aşağı, bəsdi naz elədin! Burda əlli adamlıq yemək var.

Zaur bu dəfə daha sərt tərzdə:

- İstəmirəm. Vallah-billah istəmirəm – dedi. - Acan kimi düşüb bütün yeməklərinizi yeyəcəm, söz verirəm.

Qadın məyus halda çiyinlərini çəkdi:

- Özün bilərsən oğlum. Məndən təklif eləməkdi.

Kişi toyuq budundan böyük bir tikəni iştahla qopardıb, dili pəltək vura-vura dedi:

- İndiki cavanlar bizim vaxtımızdakı cavanlara oxşamır. İndikilər qatarda kitab oxuyurlar. Biz kitab oxumağın da, yeməyin də yerini bilirdik. Kitab evdə, kitabxanada oxunar, daha qatarda yox ki!

Kök qadının yanında oturan əlli yaşlarında, əsmər qadının əynində Çin istehsalı ucuz, zövqsüz, tünd yaşıl rəngdə kofta yubka vardı. "Yaşıl" qadın kişiyə etiraz etdi:

- Əşi kitab oxumağın da yeri olar? Kaş elə bütün cavanlar kitab oxuyaydılar. Məsəlçün, elə mənim oğlum. Boyunu yerə soxum onun, necə ki, o mənim boyumu yerə soxdu.

Pomidorun yarısını çeynəmədən mədəsinə ötürən kök qadın, oğlundan gileylənən ananı tərs-tərs süzüb soruşdu:

- Elə niyə deyirsən ay bacı?

"Bacı" dərin bir ah çəkdi:

- Soruşma bacı, dərdim böyükdü.

Dərdi böyük olan qadın, başını aşağı salıb çarpayının dermantin örtüsünü sığallamağa qoyuldu.

Kişi soruşdu:

- Bəlkə tanış olaq? Yol gediriksə, bir-birimizin adını bilməliyik ya yox? Mənim adım Tofiqdir.

Kök qadın da özünü təqdim elədi:

- Rüşviyyə.

Əsmər arvad axır ki, gözlərini və əlini dermantin üzlü çarpayıdan ayırıb bir Rüşviyyəyə, bir Tofiqə baxdı:

- Adım Ceyrandı.

- Bəs sənin adın nədir oğlum – kişi başını qabağa verərək yuxarı boylandı, Zauru görməyə çalışdı. Lakin gördüyü Zaurun dirsəyi olmuşdu. – Nədi yatmısan bala?

- Adım Zaurdu.

- Lap yaxşı Zaur – Tofiq dedi və yenidən divara yaslandı. – Əla çaçam var, bilmirəm indi neynəyim. Xanımlar yəqin ki, içən deyil. Zaur bəy isə kitab oxumaqla məşğuldu.

Ceyran, Tofiqin sual dolu baxışlarının öz üzərində dayandığı görüb, tez-tez başını buladı:

- Yox qardaş, içən deyiləm. Mənlik deyil.

Rüşviyyə isə gözlərini süzərək, cavabı ilə kişini mat qoydu:

- İçirəm o yana da keçirəm. Hələ özüm kimi içən görməmişəm – nə kişi, nə də qadın!

On dəqiqədir bir səhifəni bitirə bilməyən Zaur, aşağıda gedən mənasız söhbətlərin onun diqqətini dağıdacağını, oxuya bilməyəcəyini anlayıb vərəqin ucunu qatladı və kitabı bağlayıb aşağı düşdü.

Tofiq gənc oğlanın yuxarıdan sallanan ayaqlarını görəndə "əhsən!" deyə qışqırdı. Zaur düşüb onun yanında oturdu:

- Mən ancaq içə bilərəm. Yemək yeməyəcəyəm, çünki toxam.

- Zaur, məndən incimədin sən allah?

- Yox, niyə inciməliyəm axı?

- İnandırım səni, adama elə kef qalacaq, kitab yox. Baxmayaraq ki, Ceyran xanım mənimlə razı deyil.
Tofiq üç plastik stəkana çaça, üç stəkana da kola süzüb öz çaçasını qaldırdı:
- İçək tanışlığımızın şərəfinə. Yolçu yolda gərək!
Rüşviyyə bir nəfəsə çaçanı içib dodaqlarını geniş araladı və "fuu" eləyib toyuğun qanadını gəmirməyə qoyuldu.
Tofiq çaçanın üstündən Kola içib boğazını təmizlədi və süzgün baxışlarını Ceyrana dikib soruşdu:
- Ceyran bacı deyəsən oğlundan yanıqlısan. İndiki cavanlar belədi də... Gərək fikir verməyəsən.
Ceyranın dərdi açıldı:
- Necə fikir verməyim ay qardaş, deyirəm soxdu mənim boyumu yerə, biabır elədi məni. Sən isə deyirsən fikir verməyim.
Rüşviyyə çəpəki ona baxdı:
- Nə olub ey oğluna? Neynəyib sənə ay bacı?
Ceyran köks ötürdü, başını buladı:
- Vallah bilmirəm necə deyim... Elə biabırçılıq törədib ki, lap mat qalmışam. Utanıram vallah deməyə.
Tofiq növbəti çaçaları süzə-süzə soruşdu:
- Borçalıdansınız?
- Bəli, Bolnisidənəm.
Tofiq növbəti dəfə plastik stəkanını qaldırıb dedi:
- İçək ulu türk yurdunun, Borçalı mahalının sağlığına! Var olasan Ceyran bacı!
Rüşviyyə də sağlığa qoşularaq çaçanı başına çəkdi. Zaur da içkini iki qurtuma boşaldıb divara yaslanaraq Ceyranın üzünə çökmüş kədərin arxasında gizlənən səbəblər barədə hekayəti dinləməyə hazırlaşdı.
- Hə bacı bağışla – Tofiq dedi. – Söhbət bu zəhrimarsız getmir. Danış görüm neyləyib axı sənin bu oğlun? Neçə yaşı var onun?
Ceyran dəsmalını çıxarıb gözlərinin ucunu sildi:
- 15 yaşı var köpək uşağının, onu görüm 16 yaşına sağ çıxmasın.
Sərxoş olmağa başlayan Rüşviyyə Ceyranın çiyninə yumruqla yüngülcə vurdu:
- Aaz kiri, qarğıma!
Ceyran "ah, ah dərdim böyükdür" deyib, gözlərini bir də dəsmalla sildi.
- Bizim küçədə oğlanlar yığışıb dava-dava, futbol oynayırlar tez-tez. Mənim sağ olmamış oğlum da bizim küçənin dəstəsinə başçılıq eləyirdi. Üç ayın söhbətidi, nə başınızı ağrıdım. Dava-dava oynayanda, qonşu məhlənin oğlanları ilə söz qoyublar ki... Vallah xəcalətimdən yer aralansa, yerə girərəm.
Maraqla qadını dinləyən Tofiq "sənin xəcalət hissinə tüpürüm" demək istəsə də, özünü saxlayıb dişlərinin arasından:
- Ay bacı, özümüzük burada - dedi. - Yol yoldaşı həm də sirdaş deməkdir, danış görüm. Tay niyə uzadırsan.
Ceyran razılıq əlaməti olaraq başını yelləyib "hə, hə qardaş düz deyirsən" dedi və hekayətinin davamını gətirdi:
- Söz qoyublar ki, uduzan dəstənin atamanını udan dəstənin atamanı... o məsələ eləyəcək.
Rüşviyyə gözlərini bərəldib dəqiqləşdirdi:
- "O məsələ" nədir aaz?
Ceyran hövsələsini itirməyə başlayırdı. Rüşviyyəyə yalvarıcı tonla dedi:
- Başa düş də ay qız, o məsələ... Necə deyim ey... daldan...
Tofiq "nırç nırç nırç" eləyərək çaçaları süzdü. Rüşviyyə isə əllərini bir-birinə çırparaq təmizlədi, bir yandan da bir litrlik Fanta butulkasından çaça süzən Tofiqə baxıb, göz-qaşını oynada-oynada:
- Gör ey! Biabırçılığa bax ey! İndiki uşaqlar nədir aaz! Vuuuy.
Ceyran Rüşviyyənin dediklərini başı ilə təsdiq etdi:
- Düz deyirsən bacı, uşağı dünyaya gətir, onunla bir evin içində yaşa, boya-başa çatdır, o da getsin belə bir iş tutsun! Heç adam da öz övladından gözləyər belə pozğunluğu? Mən orta məktəbdə riyaziyyat müəlliməsiyəm. Oğlum birinci sinifdən gözümün qabağında dərs oxuyub, tərbiyə alıb. İndi rüsvay olmuşam bütün rayona, məktəbə də gedə bilmirəm.
Tofiq, Rüşviyyə və Zaur çaçalarını içib stəkanları masanın üstünə qoydular.
- Danış bacı, danış ürəyini boşalt – dedi Tofiq, Koladan qurtumlayaraq.
- Danış deyəndə ki, nə danışım ey? Mənim yetimçəmin dəstəsi oyunda qalib gəldi, rəqib dəstənin atamanını götürüb apardılar fəaliyyət göstərməyən köhnə bir fermaya. Orda mənimki, 14 yaşlı uşağı arxadan zorlayıb. Gedədən qan açılıb, evdə də gizlədə bilməyib, aparıblar xəstəxanaya. Axşam evdə oturmuşdum, bir də gördüm polislər qapını sındırır. Uşağı götürüb qandalladılar, apardılar bölməyə. Bax belə...
Ceyranın gözlərindən yaşlar boşaldı. Zaur ürək ağrısı ilə qadına baxır, iki əli ilə tutduğu kola stəkanını ovuclarının içində o yan-bu yana bururdu.

- Məhkəmə oldu, 6 il iş verdilər, uşaq koloniyasına saldılar. Mən də gedirəm Bakıdakı qohumlarımın yanına. Üzüm var rayonda bayıra çıxmağa? Ara sakitləşənə qədər gərək Bakıda qalım. İşdən də istefa ərizəmi yazmışam.

Rüşviyyə tərs-tərs Ceyrana baxıb soruşdu:

- Bəs ərin yoxdu sənin?

- Yoxdu bacı, yoxdu. Səkkiz il əvvəl traktor sürəndə, birdən traktor yanmağa başladı, içində kül olub öldü. Sağ olsaydı bəlkə də bunlar başımıza gəlməzdi. Gedə tərbiyə zad görərdi.

Rüşviyyə başını arxaya çəkib "nırç" elədi:

- Allah ərinə rəhmət eləsin amma elə şey yoxdur. Uşağın gərək qanında, mayasında olsun. Deməli sənin oğlunun qanında oğraşlıq var imiş. Xətrinə dəyməsin.

Ceyran yalvara-yalvara:

- Sən də mənim yarama duz basma ay bacı, mənim günahım nədir axı?

Rüşviyyə əməlli başlı dəm olmuşdu - yanaqları pörtmüş, dodaqları nəmlənmiş, gözləri qızarmışdı.

- Aaz necə yəni mənim günahım nədir? Tifilinə yiyə dura bilmirsən, tay niyə doğursan aaz? Camaatın oğlan uşağını niyə bədbəxt eləyirsiniz?

Tofiq müdaxilə edərək, fağır qadına təzyiq göstərən Rüşviyyəni susdurmaq istəsə də, Rüşviyyə qızıl bilərzikli yoğun biləyini qabağa verib ona "sənin işin yoxdu" mənasında işarə elədi. Ceyran ağlaya-ağlaya:

- Mən nə edə bilərdim axı ay bacı!? Olan oldu da. Mən hardan biləydim ki, mənim oğlum belə iş tutacaq?

Tofiq ağlayan qadının stəkanına kola süzüb ona uzatdı:

- İç bacı, iç. Rüşviyyəyə fikir vermə - sonra da Rüşviyyəyə üzünü çevirib onu danladı: - Niyə belə deyirsən ay bacı? Adamın Allahı olar. Ananın günahı nədir?

Rüşviyyə partladı:

- Necə yəni günahı nədir? Necə yəni nədir? Oğlan böyüdürsən yiyə durmalısan! On beş yaşına çatıb, qızıb da! Öküz boyda adamdır, şeyi durub dəməy axtarır.

Ceyran çaşqın halda imdad diləyən nəzərlərlə kupedəkilərə bir-bir baxıb gözlərini Rüşviyyənin yumru, makiyajlı sifətində saxladı:

- Əgər qızıbsa, mən neynəyə bilərəm axı?

Rüşviyyə toyuğun döşünü duzlaya-duzlaya rişxəndlə dedi:

- Neynəyə bilərdin? Məsəlçün özün dombalaydın, səni qayrıb rahattaşaydı. Daha camaatın uşağını bədbəxt eləmək nəyə lazımdı?

Zaur diksinib kolanı dizinə dağıtdı. Tofiq əli ilə ağzını tutub gözlərini dəhşətlə bərəltdi. Ceyran isə iki əli ilə sifətinə şillə vurub, üzünü cırmaqlaya-cırmaqlaya ulamağa başladı:

- Boooy, booooy! Aaz sən nə danışırsan aaaz! Bu nə sözdü maa deyirsən kişilərin yanında?

Rüşviyyə gözlərini süzüb duzladığı toyuq döşünü ağzına atdı, çeynəyə-çeynəyə:

- Kişi nədi aaz! Kişi qaldı 41-45-də.

Onun kişi və kişiliklə bağlı dedikləri Zaurun vecinə olmasa da, Tofiqə bu söz möhkəmcə toxundu:

- Rüşviyyə bacı yaxşı başlamışdıq, amma burada qatıqladın. Sənin rastına kişi çıxmayıbsa, o sənin problemindir, bizim yox. Qarşında iki nəfər kişi xeylağı oturub, sənin danışdığın sözə bax! Tutub sikərəm səni, görərsən kişi necə olur!

Rüşviyyə dəm olsa da, həddini aşdığını başa düşüb səhvini düzəltdi:

- Məni gərək bağışlayasınız. Özümü saxlaya bilmədim. Hansı zəmanədə yaşadığımızı görəndə, havalanıram.

- Səni də başa düşürəm bacı – dedi Tofiq, mızıldayaraq ağlayan Ceyrana gözucu baxa-baxa. – Bir sözünlə razıyam ki, zəmanə yaman pisdir. Bizim vaxtımızda oğlana zada tamah salmaq nə idi axı? Bu zəhrimar baş alıb gedir indi. Hər yan petux-metuxdu. Bizim vaxtımızda saf məhəbbət, necə deyərlər romantika var idi. Məsəlçün mənim indi 65 yaşım olsa da, ilk məhəbbətimi bu günə qədər xatırlayıram.

Tofiq stəkanlara növbəti çaçanı süzə-süzə gülümsədi.

- İçək bunu ilk məhəbbətimizin sağlığına.

Rüşviyyə çaçanı bir nəfəsə içərək, üzünü turşutdu və kolanı başına çəkdi. Zaur isə balaca bir qurtum almaqla kifayətləndi. Artıq keflənmiş, başı dumanlanmışdı.

- Həəə. İlk məhəbbət alayı şeydir bacı – dedi Tofiq duzlu xiyarı iyləyərək. – İndiyə qədər bu mahnı dilimin əzbəridir:

*Mən onu sevmişəm bir ilk baharda,*
*O məni tərk etdi boranda qarda.*
*Hər yara sağalır unudulanda,*
*Sağalmaz yarası ilk məhəbbətin.*

1958-ci ilin sentyabr ayında «Bakı Ticarət-Kulinar Şagirdliyi Məktəbi»-ndə birinci kursa gedərkən, qrupdakı qızlar arasında gözlərim uzun saçlı Almaz adlı bir qıza sataşdı. İlk baxışdan ona qarşı məhəbbətimin yarandığını hiss etdim. Onun uzun hörüklərinə baxanda isə ona qarşı olan məhəbbətimin daha da artdığını başa düşürdüm.

Ceyran gözlərini silib sakitləşmişdi. Diqqətlə kişiyə qulaq asırdı. Rüşviyyə isə toyuğun sümüyünü sümürürdü. O, "hüpp" səsi çıxararaq iliyi sovurub qurtarandan sonra, barmaqlarını yaladı.

- Dərslər zamanı onunla bir skamyada oturmağa və istehsalat təcrübəsinə bir briqadada getməyə can atırdım. Biz bir həftə birinci, digər həftə isə ikinci növbə istehsalat təcrübəsi keçdiyimizdən, bəzən evə qayıdarkən onu evə yola salırdım. Ailəsi Qubada yaşadığından, Almaz Lermontov küçəsindəki bir mərtəbəli evlərdə, qohumugildə qalırdı. Sonralar, həmin evlər sökülərək yerində indiki Nazirlər Kabinetinin binası önündəki şəlaləli bağ salındı. Onu evlərinə yola salanda o, çox narahat olurdu. Qorxurdu ki, qohumları görsün.

Bir müddət sonra hiss etdim ki, ona ürəyimi açmasam ilk məhəbbətin alovu məni yandırıb yaxacaq. Beləliklə, mən ona tələbə yeməkxanasında şirniyyatla çay içərkən öz ürəyimi açdım və onu dəlicəsinə sevdiyimi bildirdim. Qızın susduğunu görüb, ürəyimdə bir arxayınlıq hiss etdim və onun susmasını razılıq əlaməti kimi qəbul etdim.

Birinci kursun yanvar ayında biz üç fənndən imtahan verməli idik. Mən, iki imtahandan əla qiymət almışdım. Üçüncü imtahan isə «Sanitariya və gigiyena» fənnindən idi. Biz ikimiz də bilet çəkib oturmuşduq. Almaz biletin suallarını yaxşı bilmədiyindən məndən kömək etməyimi xahiş etdi. Mən, müəllimin bir neçə dəfə mənə xəbərdarlıq etməsinə baxmayaraq ona kömək edirdim. Nəticədə müəllim məni vaxtından əvvəl sorğuya dəvət etdi. Bütün suallara və eyni zamanda əlavə suallara cavab verməyimə baxmayaraq, imtahanda özümü yaxşı aparmadığım üçün müəllim mənə «yaxşı» qiyməti yazdı. Mən əlaçılıqdan düşdüm və bu mənim ilk məhəbbətimin ilk qurbanı oldu. Lakin, sən demə məhəbbətimin daşa dəyməsinə çox az qalıbmış.

Belə ki, ikinci semestrdə dərsə gələrkən mən, Almazı bir daha görmədim. Onu axtardım. Və qrupumuzda oxuyan yaxın rəfiqələrindən biri, "Almazı bibisi oğluna nişanlayıblar, bu yaxınlarda toyu olacaq. Onun oxumağına nişanlısı icazə vermir" dedi. Mən çox məyus oldum, onu unutmağa çalışdım. Lakin ilk məhəbbətimi unuda bilmədim. Bu günə kimi onun uzun hörükləri hələ də yadımdadır...

Tofiq hekayətini bitirib gözlərinin yaşını əlinin tərsi ilə sildi, bir qurtum kola içdi. Zaur acıyaraq kişiyə baxırdı. Rüşviyyə də yanağından süzülən gilələri yağlı əlləri ilə üzünə yaxdı və soruşdu:

- Bəs sonra nə oldu ay Tofiq? Ondan sonra qızı görmədin?

- Mən, 10 ildən sonra ailə qurdum – dedi Tofiq qaşlarının altından Rüşviyyəyə baxaraq. Səsi titrəyirdi. - Qismətimdən Xumar xanım da əslən Qubalı çıxdı. Lakin mən ilk məhəbbətim haqqında ona heç vaxt danışmadım, çünki o mənə qarşı çox qısqanc idi. Xumar xanım dünyasını dəyişəndən bir il sonra bacılarımla söhbət əsnasında ilk məhəbbətim haqqında bir neçə dəfə söhbət açmışdım. O vaxtdan 48 il keçməsinə baxmayaraq ilk məhəbbətim yadıma düşərkən ürəyim titrəyir, özümdən asılı olmayaraq xəyallara dalıram. 40 ildən çoxdur ki, Soyuducu zavodunda işləyirəm, lakin Almaz kimi uzun hörüklü qıza hələ də rast gəlməmişəm. Qız övladım da olmadı ki, ondan hörük uzatmasını xahiş edim. Bəzən fikirləşirəm ki, nə üçün qızlarımız saçlarını uzadıb hörük vurmurlar. Axı uzun hörüklü qızın gözəlliyi daha cəlbedici olur.

Tofiq özünü saxlaya bilməyib ağlamağa başladı. Rüşviyyə də hönkürtüsünün qarşısını ala bilmirdi artıq. Ceyran isə səssiz və xəsis ağlayırdı, çünki göz yaşları öz hekayətini nəql etdiyində tükənmişdi. Zaur bir-bir kupedə oturanlara baxır, ürəyi bulanırdı. Tofiq davam elədi:

- Son günlər, ilk məhəbbətimi tez-tez xatırladığımdan yuxumu qarışdırırdım. Bir gün yuxumda ağ gəlinlik paltarında uzun saçlı bir qadın gördüm. Onun saçları paltarı kimi bəyaz idi, lakin yenə də iki hörük vurulmuşdu. O mənə yaxınlaşanda onun həmin qıza oxşadığını görüb: "Olmaya son vaxtlar ilk məhəbbətimizi tez-tez xatırlamağım səni narahat edib, nə olar, bu da bir taledir"- dedim. O mənə yaxınlaşaraq: "Bilirsən, o vaxt mən sənin məhəbbətinə cavab verməmişdim, lakin sonradan çox peşman oldum. Gec də olsa bildirirəm ki, mən də səni o vaxt dəlicəsinə sevirdim, lakin abır-həyanı gözləyən bir azərbaycanlı qızı kimi onu sözlə ifadə etməyə utanırdım. Mən səni indi də sevirəm, ancaq başqasının evindəyəm" - deyə söylədi.

Mən yuxuda özümü itirmişdim. Bir anlığa özümü ələ alıb: "Olmaya Xumar xanım dünyasını dəyişdiyi üçün mənim könlümü almaq istəyirsən? Mən övladlarım, gəlinlərim və nəvələrimlə ömrümün qalan hissəsini yaşayıram. Mənim heç kimə ehtiyacım yoxdur" - dedim.

"Mən sənin xətrinə dəymək istəmirdim. Mənim də övladlarım və nəvələrim var. Qoy hamımızın övladları və nəvələri xoşbəxt olsunlar. Xüdahafiz, mən indi getməliyəm" - deyib sağ əlini mənə uzatdı. Mən onun əlini sıxdım, əlləri titrəyirdi. Bu zaman qan-tər içində yuxudan ayıldım. O vaxtdan bir rahat yuxu yata bilmirəm.

Rüşviyyə ağlamaqdan daha betər qızaran gözlərini salfetlə qurulayıb dedi:

- Ah Tofiq, ah! Kövrəltdin məni əməllicə. Deyirsən yaşın keçib. Amma yaşın keçsə də sən kişisən. Mən isə qadınam, hər ötən il bir az da cavanlığımdan qoparıb aparır. Qocalmaq, qocaldıqca da vətənimi bu gündə görmək məni çox kədərləndirir.

Ceyran "can bacı" deyərək qadına təsəlli verirdi. Ağlayan Rüşviyyəyə yaxınlaşıb əlini boynuna doladı, yanağından öpdü. Qadınlar öpüşüb-qucaqlaşdılar. Tofiq qadınların barışmasına sevinmişdi:

- Bax belə! İçək qadınların sağlığına! Onlar olmasaydı, biz də olmazdıq!

Zaura da süzmək istədi, ancaq o, stəkanında hələ çaçanın qaldığını, içmək istəmədiyini dedi. Tofiq:

- Oğlum, indidən belə passiv olma. Bu içki deyil, can dərmanıdı!

- Ürəyim istəmir dayı, Tiflisdə çox içmişəm.

- Özün bilərsən – Tofiq Zaura qarşı marağını itirib, Rüşviyyəyə stəkanı uzatdı.

- Bunu da içək Rüşviyyə bacı! İçək, görək başımıza nə gəlir.

Rüşviyyə əlləri və dodaqları titrəyə-titrəyə stəkanı götürdü, başına çəkdi, öskürməyə başladı. Ceyran onun kürəyindən üç dəfə vurandan sonra, Rüşviyyə əli ilə ona "bəsdir, dayan" işarəsi verdi.

- Çox sağ ol bacı, yaxşıdı. Əllərin dərd görməsin. Tofiq qardaşın hekayəti məni kövrəltdi. Ümumiyyətlə ürəyim xüsusən payızda ərköyün uşaq kimi kövrək və ağlağan olur. Onu ovutmaq üçün dəridən qabıqdan çıxsam da nə sızıltısı kəsir, nə göz yaşı quruyur. Keçən il də payız könlüm kimi kövrək gəlmişdi. Bağ-bağat xiffətdən saralmışdı, buludlar bir himə bənd qəmli-qəmli göy üzündə sürünürdü.

Rüşviyyə köks ötürüb nədənsə gözlərini Zaurun üzünə zillədi və baxışlarını ondan ayırmadan boğuq səslə dedi:

- Buludlara qoşulub ağlamaq istədiyim günlərin birində qəfildən yığışıb getdim kəndə. Belə anlarda məni kənddən başqa heç nə tutub saxlaya bilməz. Payızın sazağında küləklərə qarışıb itməmək üçün ayağım torpaqda, əllərim ağac budaqlarında olmalıydı. Kənd məni balası üçün qəribsəmiş ana kimi basdı bağrına. Sanki iki həsrətli qovuşmuşdu. Göyün də qaş-qabağı açılmışdı. Bağlarda hələ nar, heyva ağaclarının budağında saralmış yarpaqlara sığınaraq gizlənib qalmışdı. Ağacın son barının dadı bütün dadlardan şirin və əziz olur. Az qala hər ağacı, hər kolu sevə-sevə, öpə-öpə bağda dolaşmaqdan duyduğum ləzzəti heç nəyə dəyişmərəm. Aran yerinin payızı çox gözəl və ruhoxşayan olur. Qızmar istidən sonra həzin sərinlik təbiəti qızılı-sarı rəngə boyayır, yolların toz-tozanağı yatır, ağır zəhmətdən, istidən yorulmuş insanların dincəldikcə bət-bənizləri açılır, gözləri gülür və bütün bunlar insanda ruh yüksəkliyi, könül xoşluğu yaradır. Hələ toy-büsatları demirəm. Kənddə yay sovuşandan, əl-ayaq yığışandan sonra toylar başlayır. Şəhər toyları zəngin süfrəsi ilə seçilirsə, kənd toyları zəngin şənlikləri, gözəl adətləri ilə seçilir.

Rüşviyyə bunları deyib gözlənilmədən sağ yanını yuxarı qaldırıb gurultuyla qaz buraxdı. Kupe dəydi bir-birinə. Ceyran cəld onun yanından qalxaraq qapının yanına sıçradı, divara sığınıb qorxu dolu gözlərlə Rüşviyyəyə baxdı. Zaur vəziyyəti başa düşüb tez qapını açdı. Tofiq isə kupeni dolduran kəsif, ağır turşu üfunətinə fikir vermədən, ağsaqqal müdrikliyi ilə dedi:

- İçki sadəcə ürəkləri yox, başqa orqanları da, məsələn bağırsaqları rahatladır, genişləndirir. Davam elə bacım, burada utanılası heç zad yoxdur.

Rüşviyyə minnətdarlıq dolu gözlərlə kupedəkilərə bir-bir baxıb gəyirdi və dedi:

- Sağ olun dostlar. Minnətdaram sizə. Mən cavanlığımda Avropanın bütün sosialist ölkələrini gəzmişəm, görmüşəm. Orada qaz buraxmaq ayıb sayılmır. Bizdə də bir söz var – Avropanın pis cəhətlərini atıb, yaxşı cəhətlərini götürmək lazımdı. Mən də ictimai yerdə rahat qaz buraxmağı, Avropanın yaxşı cəhətlərindən sayıram. Nə isə, mən harda qalmışdım?

Tofiq ona kömək elədi:

- Deyirdin ki, kənd toyları zəngin olur.

- Hə, hə. Bəxtimdən kənddə hər gün toy şənliyi qurulurdu. Demək olar ki, hamısına dəvət olunurdum. Cavanlara xeyir-dua verməyi də xahiş edirdilər. Mən də çalışırdım camaatın xətrinə dəyməyim, arzularına əməl eləyim. Bu toylardan həmişə zövq alırdım desəm yalan olar, heç siz də buna inanmazsınız. Bu səs-küydən, qarma-qarışıqlıqdan yorulduğum, bezdiyim anlar daha çox olurdu.

Amma kimsənin qəlbini qırmaq istəmirdim, az da olsa toylarda otururdum, söz də deyirdim, rəqs də eləyirdim. Amma hər halda elimin-obamın içində olmaqdan, onlarla deyib-gülməkdən məmnun idim.

Növbəti toy yaxın qohumumun idi deyə erkən getməli, istədim-istəmədim sonacan iştirak etməliydim. Toy mağarında çox qala bilmirdim, çay qaynadılan, xörək bişirilən yerlərdə fırlanır, qohum-əqrəba ilə söhbətləşirdim. Qadınlar qollarını çırmalayıb böyük həvəslə biş-düş edir, gələn qonaqlara vaxtında və layiqli qulluq edilməsi üçün canfəşanlıq göstərirdilər. Şəhərin quru, rəsmi həyatından isti, məhrəm, doğma kənd həyatına düşməyim qəlbimdə elə şirin, elə kövrək hisslər oyatmışdı ki, özümü cənnətdəki kimi rahat hiss eləyirdim. Birdən toy mağarındakı səs-küy diqqətimi çəkdi. Maraq məni mağara gətirdi. Hündürboy, cavan bir oğlan ortalıqda qızmış pələng kimi vurnuxur, yaxın gələni sinəsindən itələyir, çalğıçılara tərəf dartınıb bağırırdı:

- Mənim havamı çalın, tez olun, yoxsa burda qan eliyəcəm.

Toybəyi yazıq, irəli gəlməkdən qorxsa da, elə kənardan onu sakitləşdirməyə çalışırdı:

- Ə qadan alım, havanın adını de da, bu yazıqlar nə bilsin ki, sənin havan nədi.

Oğlansa ipə-sapa yatmırdı ki, yatmırdı:

- Bilməlidirlər axı, niyə bilmirlər! Tez olun çalın mənim havamı.

Kimsə camaatın içindən dedi ki, ayə onun anasını çağırın, bəlkə o bilər oğlunun havasını. Tez qabağında önlük qab yumaqla məşğul olan məzlum görkəmli bir qadını mağara gətirdilər. Mən bu qadını tanımırdım, deməli bizim kənddən deyildilər. Oğlanı tanımamağım mənə adi görünürdü, çünki kənddəki cavanları tanımaya bilərdim, amma yaşlıların hamısını tanıyırdım. Yanımdakı qohumların birindən soruşdum ki, bu kimdir? Dedi ki, bəs qaçqındılar, Laçın rayonundan gəlib qonşu kəndə sığınıblar. Ana yazıq əllərini önlüyünə silə-silə mağarın ortasında valaylanan oğluna yaxınlaşıb:

- Allah sənin cəzanı versin, bala məni yenə el içində biabır elədin. Üzün qara olsun, məni niyə üzüqara eliyirsən - deyə-deyə onu mağardan çıxarmağa başladı.

Toybəyi:

- Ay Qızbəs bacı, onun havasının adını bilirsənsə de çalsınlar, oynasın çıxsın-deyəndə ana yazıq-yazıq:

- A bala, “Laçınım” mahnısı var ey, onu çalın - dedi çalğıçılara.

Çalğıçılar “Laçınım” mahnısını çalmağa başladılar. Oğlan ortalıqda fırlanmağa başladı. Hər dəfə fırlandıqca turşumuş tər iyi də mağarı fırlanırdı. Əynindəki ağ köynəyin qollarının altı kürəyəcən sap-sarı tər ləkəsi olan bu gəncin yanında burnunu tutmadan dayanmaq olmazdı. Bir azdan oğlan yenidən qışqırdı:

- Ə niyə oxumursan hıy? Dilin qabar olmaz ki, bir Laçınım desən, oxusan.

Yazıq müğənni başladı oxumağa. Müğənni canı dildən oxuyur, sərxoş oğlan da ortalıqda əl-qolunu ata-ata oynayırdı. Qəlbimdə bir sızı, bir ağrı vardı və Laçına yazığım gəlirdi. Bu bəxtsiz torpaq orda erməni tapdağında inləyir, burda da bizim təhqirimizə dözürdü. Anası bir zülmlə oğlanı toyxanadan çıxararaq götürüb getdi.

Oyun növbəsini gözləyən bir dəstə cavan çıxdı ortalığa. İnsafən qəşəng oynadılar. Bir xeyli oynayandan sonra iki nəfərdən başqa ortalıqda cavan qalmadı, camaata, çalğıçılara təzim edərək çıxdılar. İki nəfərdən biri çalğıçılara pul verib mahnı sifariş elədi:

- Ə qağa, bir “Cimi” çal, oxu.

Mən əvvəlcə bunun nə olduğunu anlamasam da, musiqi səslənəndə Mitxun Çakrabortinin oynadığı indeyski filmdən mahnı olduğunu bildim. Oğlanın biri ortalıqda gah meymun kimi atılıb-düşür, gah da əzilib-büzülür, ilan kimi qıvrılırdı. Yazıq müğənni üç-dörd kəlmə sözü təkrar-təkrar oxuyur, oğlansa hərdən:

- Ə, düz-əmməlli oxu da, bu necə oxumaqdır?- deyərək təzədən qışqırırdı.

Bu mənzərə əvvəlki əhval-ruhiyyəmi bircə anda dəyişmişdi. Ürəyimi sanki iki əl bərk-bərk tutub sıxırdı. Nəfəsim təngidi və özümü mağardan bayıra güllə kimi atdım. Evimiz toy evinə yaxın idi. Evimizə gəlib, bağçada nar ağacının dibinə qusdum. Qorxurdum, qorxurdum ki, düşmən əlindən torpaq almalı, vətən qorumalı oğullarımız hamısı beləcə “Cimi” havasına oynaya-oynaya qınından çıxa, yad bir qına, dona girə və Qarabağ adını unuda, torpaq iyini yadırğaya. Əllərimi göyə uzadıb:

- Allah, sən özün kömək ol – dedim.

Rüşviyyə bu sözləri deyib əllərini qaldırdı və ağlaya-ağlaya Allaha dua eləməyə başladı.

Osturaq qoxusu kupeni artıq tərk etsə də, Zaur başının ağrıdığını və ürəyinin bulandığını hiss edib, tambura çıxdı, açıq pəncərədən başını bayıra çıxararaq gözlərini yumdu, təmiz havanı acgözlüklə udmağa başladı.

## 2

Qırışlı sifəti heç dəyişməyən bədbin, ətalətli Bakı iyun günəşinin altında süst düşmüşdü. Qızmar günəş şəhərin başına od yağdırır, ayaq altında əriyən asfaltdan qalxan isti adamın sifətini yandırırdı. Damlarda qaynayan qırın iyinə qarışan turşumuş tər qoxusu, maşınların tüstüsü şəhərin divarlarına, daşa-torpağa hopmuşdu. Qara tumanlı qara-qura oğlan uşaqları şəhərin müxtəlif yerlərində quraşdırılan fontanlarda çimir, polislər onları qovsa da, beş dəqiqə sonra qayıdıb yenə suya dalırdılar. Dənizkənarı parkda səs-küydən ağız deyəni qulaq eşitmir, qara eynəkli, qara şalvarlı, ağ köynəkli əyalət oğlanları üzlərində makiyajları əriyən qızlara sataşır, hərdən bir onlara barmaq da atırdılar. Bu əyalət oğlanlarının bacıları bir qayda olaraq Bakının “Mars”, “Piraniya”, “Koral” kimi barlarında fahişəlik etdiyindən, onların küçədə gördükləri qızlara sataşaraq, talelərindən intiqam almaqdan başqa çarələri qalmayıb. Dönərin ürəkbulandıran qoxusu dönərxanaların yanından keçənlərin paltarlarına, bədənlərinə yapışır, tər iyinə qarışırdı. Şəhərdə aparılan tikinti və bərpa işlərində çalışan qurşağa qədər soyunmuş fəhlələrin qaldırdığı toz buludu yoldan keçənlərin ciyərlərinə hopur, astma xəstəsi olanları öskürək pristupuna tuturdu. Yolların və səkilərin asfalt örtüyü, daş döşəməsi üç-dörd aydan bir dəyişdirildiyindən, piyadalar dizlərinə qədər palçığa, quma batır, maşınlar isə havadakı tozun bir an olsun yerə düşməsinə imkan vermirdilər. İlıq pivə içmək üçün kilkə qoxuyan, kondisionersiz kafelərə daraşan adamlar, bir müddət sonra oradan ucuz pivə və balıq iyi verə-verə çıxıb, şəhərin canına düşürdülər. Tinlərdə əyinlərinə naxışlı qara köynəklər geymiş, boyunlarının ardına yaylıqlar qoymuş əli təsbehli, bığlı şəhər qədeşləri istidən ləhləyir, hər on beş-iyirmi metrdən bir qızmar asfaltın üstündə bağdaş quran

qara çarşablı dilənçilər əsəblərə toxunan cır səslərilə "Həzrət Abbas" və "İmam Hüseyn" adına pul dilənirdilər. Ağzına qədər dolmuş zibil qutularının üstündə vız vuran yaşıl, qara milçəklər, cücülər və eşşək arıları, zibillikdə ruzisini axtaran it-pişik, əsasən də rus millətinə mənsub "bomj"ların üz-gözünə yapışırdılar. Bomjlar onları əlləri ilə üzlərindən qovsalar da, bir-iki saniyə sonra həşəratlar təzədən, bu dəfə daha qətiyyətlə zavallılara hücum çəkirdilər. Musiqiyə yüksək səs verib dar küçələrdə şütüyən avtomobillər, siqnalları ilə şəhəri başlarına götürmüşdülər. Sfetoforların yarısının işləmədiyi paytaxt Bakıda yaranan tıxaclarda ilişib qalan avtobus və mikro avtobusların təpədən dırnağa qədər suyun içində olan, bir-birlərinin tər və müxtəlif ifraz qoxularını nəfəslərinə çəkən bakılılar və şəhərin qonaqları, siqaret çəkən sürücüyə lənətlər yağdırır, başlarını pəncərələrdən çıxardıb sərinləməyə çalışır, qoltuqlarının altı qırxılmamış arvadlar xırda bir bəhanə tapıb davaya, söyüşə başlayırdılar. Sürücülər də boş dayanmır, yanlarından ötüb keçən rəqiblərini ana-bacı söyüşləri ilə söyür, onların qız-gəlinlərini yada salırdılar. İki-üç nəfərlik qruplarla işləyən cibgirlər də basabasdan istifadə edib, camaatın ciblərindən mobil telefon və pulları çırpışdırırdılar. Sovet dövründə əkilən, müstəqillik dövründə isə ildə minlərlə kəsilən ağaclardan yoxsun qalan Bakının əhalisi min bir müsibətlə kölgə tapıb, sərinləməyə çalışır, bəzi adamlar ağcaqanadlı, toz-torpaqlı bağlara üz tutur, əhalinin bir qismi də Şixov çimərliyində üstündə on santimetrlik neft təbəqəsi olan, kanalizasiya sularının axıdıldığı Xəzərə kəllə vururdular. Çimərlikdə xələtlə suya girən abırlı-ismətli xanımlara, sahildə satılan isti qarğıdalıları yeyib sapını, qarpızları gəmirib qabıqlarını qumun üstünə tullayaraq milçəklərə ziyafət verən adamlara da rast gəlmək olurdu.

Tiflisdən qayıdandan sonra günlər həftələrə, həftələr də aylara qarışıb getmişdi. Bu zaman ərzində dünyada, ölkədə, regionda və Zaurun həyatında çox şeylər baş vermişdi. Gündüzlər uzanmış, gecələr qısalmış, hicran bütün ağırlığı ilə çiyinlərinə çökmüşdü. Zaur işlərinə qaldığı yerdən davam edirdi. Norveç səfirliyinə bir ilə yaxındır verilən layihə nəhayət təsdiq olunmuş və Qafqaz Sülhməramlı Təşəbbüslər Mərkəzi, Cənubi Qafqazdakı qaçqın və məcburi köçkünlərin danışdıqları hekayələrdən ibarət "Keşməkeşli qaçqınım mənim" adlı iki cildlik toplunun dörd dildə çap olunması üçün, 50 min avroluq qrant udmuşdu.

Sözsüz ki, bu puldan sonra Zaurun maddi vəziyyəti də xeyli yaxşılaşmış, başı bütövlüklə layihəyə qarışmışdı. Onun Artuşla yeganə əlaqəsi MSN proqramı idi. Saatlarla kompüter vasitəsilə danışır, audio-vizual sevişirdilər. Ayrılığın qısa olacağına, tez bir zamanda üçüncü ölkədə, məsələn Gürcüstanda görüşəcəklərinə dair bir-birlərinə verdikləri vədləri müəyyən səbəblərdən gerçəkləşdirə bilməmələri onları dərindən sarsıtsa da, vüsala olan ümidlərini itirmirdilər.

Yalnız gecələr, dərin yuxuda olarkən ruhu sevgi dolu bədənindən ayrılaraq aşiqinin ruhu ilə qovuşur, səhərə yaxın isə gecənin ehtiraslı səyahətlərindən bədəninə qayıdırdı. Günəşlər divarda asılmış güzgüdə çilik-çilik olub cingilti ilə otağa yayılanda, Zaur bu günün də Artuşsuz keçəcəyini düşünərək, ürək sancısı ilə çarpayıdan qalxırdı. Valideynləri görməsin deyə ereksiyasını əli ilə birtəhər örtüb vanna otağına qaçır, lirik mahnılar züm-zümə edə-edə əl-üzünü yuyur, üzünü qırxır və tərləmiş güzgüdə bulanıq əksinə baxaraq "Daha nə qədər, nə qədər sürəcək bu həsrət?" düşünürdü.

Valideynləri oğullarının evlənməyəcəyi faktı ilə artıq barışmış görünürdülər. Beynəlxalq münasibətlər fakültəsini əla qiymətlərlə bitirən, ingilis dilini mükəmməl bilən Zaur, atasının Xarici İşlər nazirliyində, ya da neft şirkətlərinin birində işləməsinə dair etdiyi təkid və verdiyi məsləhətləri qulaq ardına vuraraq, QHT sektoruna yönəlmişdi. Zaurun nə üçün gürcü, osetin, erməni, abxaz və axıska türklərinin problemləri, bölgənin münaqişələri ilə maraqlandığını, hansı səbəbdən mətbuatda kəskin yazılarla çıxışlar edib, hamıyla üz-göz olduğu və özünü təhlükəyə atdığını Zaurun nə anası, nə atası nə də ki, qohum-əqrəbası başa düşə bilmirdilər.

- Bu münaqişələr Cənubi Qafqazda həmişə olub, bundan sonra da olacaq. Onları həll eləmək sənə düşüb oğlum? – deyirdi atası. - Sənin gördüyün işdə nə pul var, nə də ki, hörmət. Sənin düz-əməlli karyeran da olmayacaq. Yalnız risk və təhlükə! Günü-gündən düşmənlərinin sayı artır. Akif Tağı avantürist adamdır. Onun qrant udmaq və xarici kəşfiyyat orqanlarının tullantılarını yeməkdən başqa dərdi yoxdu. Sənin qabağına isə qəpik-quruş atır.

- Ata mən işimi sevirəm! Bir ay çox qazanaram, bir ay az. Nə fərqi var? Əsas odur ki sərbəstəm, azadam. Ölkələri gəzirəm, yeni-yeni insanlarla tanış oluram.

- Görürəm elə, necə gəzirsən. Tiflisə üç günlük gedib, on günə qayıdırsan. Bircə dəfə də zəng vurub xəbər vermirsən ki, ay ata, ay ana sağ-salamatam. Biz isə burda ürəyimizin içini yeyirik.

Demək olar ki, həftədə azı bir dəfə Zaurun atası ilə buna oxşar dialoqları baş verirdi. Hər ikisi bu dialoqları artıq əzbərləmişdilər. Bu səhər də ənənə təkrarlanmışdı.

Bir stəkan çay içib ryukzakını çiyninə asan Zaur, qapını çırparaq evdən çıxdı və Sahil metrosunun yanında yerləşən Qafqaz Sülhməramlı Təşəbbüslər Mərkəzinin ofisinə piyada gəldi.

Kondisionerlə sərinlənən ofisdə Akif Tağıdan başqa heç kim yox idi - Katibə məzuniyyətə çıxaraq dincəlməyə Antalyaya getmişdi, ikinci koordinator Teyyub isə Kiyevdə konfransdaydı. Zaur özünə Nescafe hazırlayıb masasının arxasına keçdi, kompüterini açdı. Gözlərini monitordan ayırmayan Akif:

- İşlər necə gedir? – soruşdu.
- Necə olacaq. Kişi yenə beynimi xarab elədi səhər-səhər.
- Atadır. Yaxşı yaşamağını, pul qazanmağını istəmək onun da haqqıdır. Sən onu başa düşməlisən. Heç bir ata öz övladının pisliyini istəməz.

Artuşdan elektron məktub gəldiyini görən Zaur, Akifin sonuncu sözlərini eşitmədi. Məktubu açıb, həvəslə oxumağa başladı.

“...Günlər saralmış yarpaqlar kimi bir-bir ayaqlarımın dibinə tökülərkən, mən hər gecə gözlərimi qaranlığa dikib sənin aydınlığını gözlədim. Beləcə payız da, qış da, yaz da bitdi, yayın cırhacırındayıq indi. Ötən həftə iki günlüyünə Tiflisə getməli oldum. Sənə özüm yazmadım ki, narahat olmayasan. Bilirdim ki, işini-gücünü atıb gələcəksən. Minlərcə addım atdım Tiflisin küçələrində. Hər guşəsinə baş çəkdim. Hər parkı, hər ağacı əzbərlədim. Sevdaya boyanmış hər bir yerdə sənin adını aradım. Evlərin divarları bir-bir üzərimə yıxılırdı sanki. Üzərimə çökən sevgi acısının şiddətindən qıvranarkən, məni bu ağrıdan dartıb çıxaracaq əllərini axtardım. Hicran şeirləri yazdım sənə. Qaranlıqlara qışqırdım həsrətimi. Səsimi duyarsan deyə, boş-boş gözlədim. Səndən gələcək bir tək xəbərə həsrət qaldım. Saatlar əsirlər kimi gəldi mənə. Səni axtarmaqdan yorğun düşmüş bədənimi qaranlığın qucağına uzatdım gecələr boyu. Səhərin bir göz qırpımında açılması üçün ATA otelində yuxuya getmək istədim. Bacarmadım. Səhəri gözlərimi bağlamadan açdım. Hər gecə ayaq səslərini dinlədim, bəlkə gələn sən olarsan deyə. Hər səhərlə birgə hüzn yağdı ürəyimə. Günəş yalnızlıq rəmzi idi mənim üçün... Hər şey sənsən”.

Zaur göz yaşlarını gizlətməyə çalışaraq, qəhvədən bir qurtum içdi.
- Nə olub? Yenə nədi girmisən kompüterin içinə?

Zaur başını qaldırıb Akifə baxdı.
- Məktub gəlib, təcili cavab yazmalıyam. Bir dəqiqə icazə ver mənə.
- Buyur, buyur. Səninlə işim yoxdu, elə belə soruşdum.

Nescafedən bir qurtum da alıb yazmağa başladı.

“...Səni çox gözəl başa düşürəm Artuş. Kaş ki, xəbər verəydin mənə, gələydim Tiflisə. Bilmirəm niyə belə elədin axı sən? O ki, qaldı həsrətə... Mən də hər mövsümdə sənin yoxluğunla islandım. Yaz çiçəkləri açılıb bahara xoş gəldin deyəndə, mən onun heç də xoş gəlmədiyini bilirdim. Uzun qış aylarından sonra gəlməz sandığım köçəri quşlarla bərabər, Bakıya dönməni gözlədim. Sən isə yox idin onların arasında. Adı bilinməyən qəsəbələrə getdim səndən bir iz tapmaq üçün. Dənizin sonsuz dalğalarına ümid bağladım. Bulvarda gözləyirdim səni. Limanlara sənin olmadığın gəmilər yanaşırdı. Amma mənim gözümdən bircə damla duzlu yaş axmadı. Göz yaşlarımı sənin üçün saxlayıram çünki. Heç kimə aça bilmirəm ürəyimi. Bunun nə qədər böyük bir zülm olduğunu sən də yaxşı bilirsən. Sığınacaq bir liman, yaslanacaq bir sinə axtarıram. Hər gecə ay param-parça olur. Hər gecə ulduzlar bir-bir düşür soraqlara. Ulduzları ovuclarına doldurub mənə gətirməyini istəyirəm. Günəş kimi doğub bu qara dünyamı aydınlatmanı istəyirəm. Amma sən yoxsan yanımda... Sən yoxsan”.

Zaur məktubu göndərdikdən sonra, rəfdə qovluqlar arasında qurdalanan Akif Tağıdan soruşdu:
- Akif, sən Yerevanda olmusan. Bu şəhər sənə necə təəssürat bağışladı?

Akif Zaura döndü, gözləri gülürdü. Əlində qovluq ona yaxınlaşdı:
- Səninlə bu haqda dəfələrlə danışmışıq axı. Sən mənim hər iki səfərimi əzbərə bilirsən.
- Düzdür, danışmışıq. Amma ən əsas sualı sənə vermək yadımdan çıxıb.
- Nə sualdır o elə?
- Özünü orada necə hiss edirdin? Hansı duyğular keçirdi ürəyindən?

Akif sifətinə düşüncəli ifadə qataraq qovluğu ovucuna vura-vura dedi:
- Nə gizlədim, hər iki səfərimdə də qəribə hisslər keçirmişəm. Həm çox yaxın, həm də dünyanın ən uzaq ölkəsində olduğum hissinə qapılmışam. Bilirsənmi, bu olduqca qeyri-adi, anlaşılmaz duyğudur. İnsan özü ora düşmədikcə, görmədikcə başa düşə bilməz.
- Yəni sən hər an hiss edirdin ki, düşmənlərin əhatəsindəsən?

Akif bir az fikirləşdikdən sonra:
- Əlbəttə, bunu bir an olsun yaddan çıxarmırdım. Ətrafımda Ermənistan xüsusi xidmət orqanlarının cangüdənlər var idi və onlar bir an olsun düşmən dövlətdə olduğumu unutdurmurdular mənə. Bəlkə də onlar yanımda olmasaydı, Yerevan küçələrində, əlbəttə kimliyimi elan etmədən, rahat-rahat gəzə bilsəydim, bu hisslər yaranmazdı məndə. Hətta Yerevanda tədbirin təşkilatçılarına dedim ki, cangüdənlərim, təhlükəsizlik tədbirləri

olmasaydı, bura mənim üçün Tiflisdən fərqsiz olardı. İncidilər məndən, amma bu sözün qarşısına bir söz qoya bilmədilər.

Zaur kompüterin qabağından qalxaraq otaqda gəzişməyə başladı. Bir siqaret yandırdı. Birdən başını qaldırıb ona tamaşa eləyən Akifə:

- Mən, QHT-mizin ən fəal əməkdaşı kimi, heç Ermənistanda olmamışam – dedi. Bu sənə qəribə gəlmir ki?

Akif onun sualından təəccüblənməsə də, çiyinlərini çəkdi:

- Ay qardaş, sən indiyə qədər bu barədə heç vaxt mənə heç nə deməmisənsə, mən haradan bilim ki, sənin Ermənistana getmək kimi bir arzun var?

- İndiyə qədər istəmirdim, amma indi istəyirəm.

- Bunun yəqin ki, bir səbəbi də olmalıdır?

Zaur siqaretin külünü, kağızdan düzəltdiyi kulyoka çırpıb dedi:

- Bəli, səbəbi var. Tiflisdə çox maraqlı, orijinal yanaşmaları olan insanlarla tanış oldum. Onlar da bu münaqişə barədə demək olar ki, bizim kimi düşünürlər.

- Luizanı deyirsən?

- Həm Luiza, həm Artuş. İkisi də kifayət qədər savadlı, qeyri-standart adamlar idi.

Akif diqqətlə Zaurun sifətinə baxdı. Onun üzündə şübhələrinə cavab axtarırmış kimi.

- Ermənistana getmək istədiyindən əminsən? – soruşdu.

Zaur:

- Niyə də olmasın axı – dedi. – Sülhməramlı fəaliyyətə faydam olacaqsa, məncə getməyimdə qəbahət yoxdur. Elə deyil?

Akif pəncərədən bayıra baxdı. Gözləri yol çəkirdi. Dodaqlarını büzüb dedi:

- Haqlısan. Ermənilərlə canlı ünsiyyət, əlbəttə ofisdə oturub onlarla yazışmaqdan, layihələr hazırlayıb xarici donorlara göndərməkdən daha faydalıdır. Sən Tiflisdə, Kiyevdə, Moskvada onlarla canlı ünsiyyətdə olmusan. İndi də o cəmiyyət səni içəridən maraqlandırır. Bundan təbii nə ola bilər?

Zaur başa düşüldüyünü görüb sevindi. Akifə duyduğu hörmət və sevgisi daha da artdı.

- Bəs bizim sülhməramlılığımızın bir xeyri varmı? Yoxsa biz doğrudan da qrant almaqla məşğuluq?

Akifin dodaqları qaçdı, başını buladı:

- Sülhməramlılıq dediyin hadisə, bu günə qədər öz dəqiq tərifini tapmayıb. Amma bir həqiqət var ki, o da sülhməramlılığın indilərdə ağır günlərini yaşamasıdır. Həm də bu fakt təkcə Cənubi Qafqaza yox, dünyanın bütün münaqişə zonalarına aiddir. Keçmiş Yuqoslaviyadan başlayaraq etnik problemləri hərbi yolla həll etməyin səmərəliliyi sülh dialoqunun və xalq diplomatiyasının perspektivsizliyi illüziyasını yaratmaqdadır.

- Səncə bunun səbəbləri nələrdir?

- Sentyabrın 11-dən sonra başlanmış antiterror əməliyyatı Cənubi Qafqaz qarşıdurmasına yeni siyasi ritorika gətirdi. Üç respublikanın iqtidarları terminlər oyunundan dividentlər əldə etməyə, münaqişələrin tənzimlənməsi üzrə danışıqlar prosesində xalq diplomatiyasını hər cür dəstəkdən məhrum edən monopoliyalarını möhkəmlətmək üçün kredit almağa başladılar. Seçkilər öncəsi hər iki respublikada atəşkəs tez-tez pozulur, iqtidarlar əhalini müharibə ilə qorxudur. Bu münaqişə bizlər üçün münaqişədir, faciədir. İqtidarlar üçün isə biznesdir. Mən bu oyunda iştirak etməkdən yorulmuşam artıq. Sülhməramlılıq tostları, qardaşlıq ritorikası məni bezdirib.

- Sən hesab edirsən ki, üç respublikanın da hakimiyyəti eyni xətti izləyir?

- Cənubi Qafqaz respublikalarındakı vəziyyətlə tanış olan istənilən adam, bu bölgədəki dövlətlərin siyasi rejimləri arasında heyrətamiz dərəcədə oxşarlıq olduğunu birmənalı şəkildə anlaya bilər. Düzdür, Gürcüstan regionda demokratik islahatlar üzrə liderdir, amma ümumiyyətlə götürəndə bu rejimlərin hamısı yalnız münaqişələr həll edilmədiyinə, bölgəyə münasibətdə ziddiyyətli xarici maraqlar və bu maraqlar arasında az-çox uğurlu balanslaşdırma olduğuna görə dayanıqlıdır. Belə təsəvvür yaranır ki, münaqişəyə, yaxud onun həllinə cəlb edilmiş tərəflərin hamısı situasiyanın konservasiya olunması, münaqişələrin bundan sonra da dondurulması zərurətini qəbul edir. Bu isə rejimlərin və onların baş qəhrəmanlarının sabitləşməsinin qaçılmazlığı illüziyasını yaradır.

Zaur diqqətlə Akifi dinləyirdi. Bu insanın dərin zəkası, mühakimə qabiliyyəti və analitik istedadı qarşısında həmişə heyranlıq duymuşdu. İndi də Akif, sanki ofisdə, Zaurun qarşısında yox, möhtəşəm konfrans zalında, böyük bir auditoriya qarşısında çıxış edirdi. Zaur özünün də regiondakı siyasi situasiyadan xəbərdar olduğunu, bu təşkilatda boş yerə işləmədiyini göstərmək üçün soruşdu:

- Məni həmişə bilirsən nə maraqlandırıb Akif? Minsk Qrupu kimi bir strukturun bizim münaqişədə vasitəçi olmasına baxmayaraq, ABŞ-ın, Qərbi Avropanın və Rusiyanın konfliktə münasibətləri xeyli dərəcədə bir-biriləri ilə ziddiyyət təşkil edir. Belə bir şəraitdə Cənubi Qafqazdakı problemləri həll etmək mümkündürmü?

Akif heç düşünmədən bu suala:

- Əlbəttə yox – cavabını verdi. – Hamı Minsk Qrupundan ümidlərini üzüb. İstər hakimiyyətlər, istərsə də QHT-lər sülhməramlılığı imitasiya edir. Hər üç respublikada siyasi, iqtisadi və demoqrafik durum praktik olaraq eynidir.

Gürcüstandakı inqilaba baxmayaraq, üç respublikada da avtoritar rejimlər, korrupsiya məngənəsində sıxılan iqtisadiyyat, yaxınlaşmaqda olan demoqrafik fəlakət hökm sürür.

Zaur əllərini yanlara ayırıb yerinə oturdu.

- Bilmirəm bu nə vaxt baş verəcək, amma nə vaxtsa ermənilərlə azərbaycanlılar, gürcülərlə abxazlar və osetinlər keçmişdə birgə məskunlaşdıqları yerlərdə dinc, yanaşı yaşamağı və əməkdaşlıq etməyi mütləq öyrənəcəklər.

Akif onun fikrinin davamını gətirdi:

- Ya da ki, bu ölkələr hələ uzun on illiklər bir-biriləri ilə fasiləsiz ədavət apararaq bölgəni məhvə gətirib çıxaracaqlar. Regionumuzda insanları şüurlu şəkildə bölən, onların əməkdaşlığına əngəl törədən informasiya blokadası hökm sürür. Dondurulmuş münaqişələrlə və nəzarətsiz zonalarla nə etməli? Bax bu suala dəqiq cavab hələ tapılmayıb.

- Bəs sən konkret olaraq erməni xalqı haqda nə fikirləşirsən Akif? Səmimi olmanı istəyirəm, mənə dəqiq cavab ver. Bu mənim üçün çox vacibdir.

Bu sual gözlənilməz olmuşdu. Akif də bir siqaret yandırıb kreslolardan birinə oturdu.

- Baxmayaraq ki, mən sülhməramlı fəaliyyətlə məşğulam və Azərbaycanda məni sevməyən kifayət qədər adam var, mən yenə də ilk növbədə azərbaycanlıyam. Necə ki, Ermənistandakı həmkarlarım da ilk növbədə erməni, hətta əksər hallarda qatı daşnakdırlar.

Bəli, mənim fikrimcə erməni milləti düşməndir. Buna söz yox. Tarixə baxsaq ermənilərlə neçə dəfə barışmışıq. Həmişə də hiylənin qurbanı biz olmuşuq. Müxtəlif dövrlərdə ya öz xoşumuzla, ya da zorla bizi sülhə məcbur ediblər. Amma erməni millətinin genində olan türkə nifrət silinib getməyib. Əksinə güclənib. Axırıncı sülh SSRİ-nin qurulması ilə zorla yaradıldı. Nəticə nə oldu? Yenə uduzan biz olduq. Dağlıq Qarabağ işğal olundu. Təbii ki, rusların oynadığı mənfi rolu da danmaq olmaz. Erməni özbaşına deyil ki, haranısa işğal eləsin.

- Bəs əvvəllər azərbaycanlılarla ermənilər on minlərlə qarışıq ailələr qurub, uşaqlar dünyaya gətirib. Bu gün də onların bir qismi bizim aramızda yaşayır. Ümumiyyətlə, biz bir sülhməramlı təşkilat kimi nəyə nail olmaq istəyirik? Biz qrant yeyirik, yoxsa məqsədimiz xalqlar arasında sülhə nail olmaqdır?

- Mən yenə də müharibənin tərəfdarı olmadığımı təkrarlamaq istəyirəm. Qarabağ erməniləri bizim vətəndaşlarımızdır. Amma biz ilk növbədə güclü iqtisadiyyat və güclü ordu qurmalıyıq ki, ermənilər Azərbaycan ərazisində yaşaya-yaşaya ayrılmaq sevdasına qapılmasınlar, separat təmayüllər göstərməsinlər. Dövlət dövlət olsa, separatçılıq da olmaz. Amma ermənilərlə ehtiyatlı olmaq lazımdır, onlardan nə desən çıxar. Açığı mən onlara güvənmirəm.

- Axı niyə - Zaur ayağa qalxdı və əllərini belində birləşdirib, arxaya doğru gərnişdi: – İki xalqın arasındakı bu uçurum daha nə qədər böyüyəcək? Biz nə vaxta qədər düşmən qalacağıq?

- Bilirsənmi Zaur, hər şey kənardan oxşar görünən, amma çox fərqli olan xalqlarımızın psixologiyasında yatır. Türkün psixologiyasında mərdlik, birsifətlilik var. Ümumən, türkün keyfiyyətlərini sadalasaq, başda halallığı və ədalətsizliklə barışmamağı göstərə bilərik. Mütləqə İnam yaradıcısı Asif Ata, türkün keyfiyyəti ilə bağlı deyirdi ki: “Türk ata minər, Koroğlulaşar, atdan düşər Füzuliləşər”.

Zaur eşitdikləri qarşısında şok olmuşdu. Akifin türklükdən, türkçülükdən danışdığına indiyə qədər şahid olmadığından, bu pafoslu çıxış onu xeyli sarsıtmışdı. Akif isə sağ əlini yuxarı qaldırıb əsdirə-əsdirə aramsız danışırdı:

- Türk həmişə zərifliyi və möhtəşəmliyi bir əldə birləşdirməyi bacarıb. Amma istəyənə aman verib, heç vaxt arxadan vurmayıb. Öz sərkərdəsini satan Səhl Sumbat, igidin atını oğurlayıb satan Keçəl Həmzə kimi adamlar Türkün arasından çıxmayıb. Bu erməni xisləti, erməni keyfiyyətidir. Erməninin ürəyində ilan var. İlan xislətli adam - yıxıldı yalvaran, qalxdı çalandır. Gücsüzün qənimi, güclünün nökəri olan ermənilər, xalqımızın başına min bir müsibətlər gətirib. Bu gün Bakıda yaşayırıqsa, Bakı adlı şəhərimiz varsa, 90 il bundan əvvəl türk qılıncının qından sıyrılması sayəsindədir. Mən bunları unuda, dana bilmərəm.

Zaur lal-dinməz yenidən yerinə oturdu. Çaşqın gözlərlə rəhbərinə baxır, eşitdiklərini həzm etməyə çalışırdı. Onu daldığı xəyallardan ayıran da, elə Akifin özü oldu.

- O ki, qaldı sənin Ermənistana getmək arzuna, bunu dəstəkləyirəm, çünki mən dialoqun tərəfdarıyam. Yerevan Press-klubundan Boris Novosardyan bir layihə təklif edib bizə. İndi onu tapıb verərəm sənə, baxarsan. Türkiyə-Azərbaycan-Ermənistan-Gürcüstan jurnalistlərinin iştirakı ilə Yerevanda keçirilməsi nəzərdə tutulan “Türkiyə-Azərbaycan-Ermənistan-Gürcüstan KİV-ində düşmən obrazı” adlı üç günlük konfransdır. Mən doğrusu getməkdən imtina etdim, çünki həm işlərim çoxdu, həm də mövzu mənə maraqsız gəldi. Amma sən istəsən gedə bilərsən. Mehmanxana, yemək və yol xərclərinin hamısını onlar ödəyirlər.

Zaur gözlərini Akifdən ayırıb monitora dikdi:

- Bəs layihəni kim maliyyələşdirir?

- Caritas France təşkilatı. Borisin e-mailini indi sənə ataram, onunla yazışarsan. Şərtlər səni qane edərsə, gedərsən.

***

Bütün Bakı, İçəri Şəhərdəki evi, iş yeri, hətta vücudu da dar gəlirdi Zaura. İki gün əvvəl Boris Navasardyana yazdığı məktuba hələ cavab almadığından, ağlına müxtəlif fikirlər girən, qəlbinə şübhələr dolan Zaur özünə yer tapa bilmir, Akifi bitib-tükənməyən sualları ilə dəng eləyirdi: "Bəlkə tədbir ləğv olunub?", "Bəlkə Boris mənim namizədliyimlə razı deyil?", "Ermənistana getməyin başqa yolu yoxdurmu?".

Əvvəllər Ermənistana getmək haqda bircə söz danışmayan, ümumiyyətlə bu məsələ ilə maraqlanmayan bir adamın, birdən-birə nə üçün Yerevana getmək həvəsinə düşdüyünü anlamırdı Akif. Bu sualla Zaura müraciət eləməmişdi, oğlanın xətrinə dəyməkdən qorxurdu. Amma bir şeydən dəqiq əmin idi – Zaur Tiflisdən qayıdandan sonra çox dəyişmişdi.

Üzünü hansı səmtə çevirsə Artuşun pıçıltılarını eşidən, isti nəfəsini, ətrini, öpüşlərinin islaqlığını duyan Zaur, 2 saylı məktəbin qapısına necə gəlib çıxdığını özü də anlamadı. Bura gəlməyi heç vaxt planlaşdırmamış, bu barədə heç fikirləşməmişdi də. Bir gün qeyri ixtiyari olaraq məktəbin binası qarşısında dayandığını fərq etdi. Bilirdi ki, bütün təhsil ocaqları yay tətilindədi, məktəblər bağlıdı və içəri girmək onun üçün müşkül olacaq. Yenə də bəxtini sınamaq istədi.

Alnını şüşəyə yaslayaraq alaqaranlıq foyenin axırında, əlində nəsə toxuyan yaşlı qarovulçu qadını gördü. Şüşəni taqqıldatdı. Qadın gözlərini qıyıb gələnin kim olduğuna baxdı və ayağa qalxıb, şap-şaplarını sürütdəyə-sürütdəyə qapını açdı.

- Nədi oğlum, kimi axtarırsan?

- Heç kimi xala, içəri girmək istəyirəm.

Qadın gözlərini bərəldib, ikinci hecanın sonundakı saiti uzadaraq soruşdu:

- Niyə?

- Mən bu məktəbi qurtarmışam xala. Gəlmişəm keçmiş günlərimi yada salam.

- Başa düşürəm, amma səni buraxa bilmərəm oğlum. Məktəbdə heç kəs yoxdur. Yad adamı içəri necə buraxım?

- Bir neçə günə çıxıb gedirəm xaricə. Axırıncı dəfə məktəbimi görmək istəyirəm. Bəlkə bir daha qayıtmadım Bakıya – Zaur elə ordaca uydurdu və xəcalətindən qulaqları qızardı.

- Yenə də deyirəm - buraxa bilmərəm! Siniflərdən bir şey itsə, mən cavabdehəm axı!

Zaur qadının əlindən tutdu:

- Xala mənə inanmırsınızsa koridorları, həyəti bir yerdə gəzək. Amma qurban olum dala qaytarmayın.

İndi burada köhnə qarovulçu Naidə xala olsaydı, Zaur rahatlıqla içəri keçərdi. Amma beş il əvvəl sanitar işlədiyi xəstəxanadan pensiyaya çıxandan sonra, məktəbə qarovulçu düzələn qadın, Zauru əlbəttə tanıya bilməzdi. O, ömründə ilk dəfə idi ki, oxuduğu məktəbi son dəfə görmək üçün qapıda yalvaran adam görürdü. Məktəb, müəllim, təhsil anlayışlarının tənəzzülə uğradığı, dəyərdən düşdüyü bir zamanədə, belə bir adama rast gəlmək qadını mat qoymuşdu. Bir yandan həqiqətən də içəri adam buraxmağa səlahiyyəti çatmırdı, obiri tərəfdən isə doğma şəhəri və məktəbi ilə vidalaşmaq istəyən gəncə mane olmağın insafsızlıq olduğunu başa düşürdü.

- Yaxşı, gəl oğlum. Amma on beş dəqiqə vaxtın var! Hərdən rəhbərlikdən kimsə gəlib sənəd zad götürür. Səni içəridə görən olsa, işimdən olaram.

Zaur sevincək olub qarını yanağından öpdü və cibinə beş manatlıq əskinası dürtüb tələsik dedi:

- Sağ ol ay xala.

Qapıdan addım atan kimi, pilləkənlərlə becid-becid ikinci mərtəbəyə qalxdı. Tətilə girən məktəbin ölü sükuta qərq olmuş uzun koridorunun ortasında dayandı, sağa-sola boylandı. Hardan başlayacağına qərar verə bilmirdi, duruxmuşdu. Nəhayət, son dörd ilini oxuduğu sinfin qapısına yaxınlaşdı və dərindən nəfəs alaraq qapının qolunu burdu.

Həmən partalar, həmən lövhə, həmən müəllim masası. Burada baş vermiş yeganə dəyişiklik, Rus yazıçılarının portretlərinin divarlardan çıxardılaraq yerlərinə Azərbaycanın şair və yazıçılarının şəkillərinin asılması idi. Sovet dövründən qalma pəncərələr isə, indiyə qədər dəyişdirilməmişdi. İki laylı pəncərələrin aralarına yığılmış toz-torpaq da, elə on-iyirmi il əvvəlki toz torpaq idi deyəsən. Budur, dörd il Artuşla bölüşdüyü ortadan üçüncü sıradakı parta. Keçib "yerinə" əyləşdi, lap aşağı sinif şagirdləri kimi əllərini üstü toz bağlamış masanın üzərində birləşdirdi. İndi bu yer ona çox dar gəlirdi, vücudu çətinliklə masa ilə skamyanın arasına sığışmışdı. Zaur böyümüşdü.

"Bax belə" düşündü. "Nəhayət uzun illərdən sonra, həmən sinif, həmən parta..."

Gözündən yaşların nə vaxt boşalmağa, damcı-damcı masanın, dirsəklərinin üstünə düşərək islatmağa başladığını hiss etmədi Zaur. Bir də onda ayıldı ki, vücudunun üsyankar, qışqırtılı cismaniliyini lap yeniyetmə

dövründəki kimi hiss etməyə başlayıb. Qasığından ona tanış, doğma şəhvət sancısı qopdu. Sanki sevdiyi insan indi burada, yanında oturmuşdu. Onun tərini hiss edir, nəfəsinin istisini üzündə duyurdu. Yeganə müstəsna mülkiyyəti olan cismini o sevgiliyə fəda etməyə hazır idi. Çünki hormonlarla və sevgi qığılcımlarıyla dolu olan vücudu təkcə özünə mənsub ola bilməyəcək qədər nəhəng idi.

Qadının ona 15 dəqiqə vaxt verdiyini yada saldı. Çıxmaq istəyirdi sinifdən amma ayaqları getməyə razı olmurdu. Sanki partalar onu çağırır, o illəri bir daha, bir daha ağlında dolaşdırmağı tələb edirdilər. Divarlar da getmə deyirdilər. Lövhə isə "dayan, qal, son dəfə məni təbaşirlə kirlət" hayqırırdı.

Daha dözə bilməyib ayağa qalxdı. Dodaqları titrəyirdi. Boğazında ilişib qalmış qəhər, səssiz-səssiz axan gözyaşlarının hönkürtüyə çevrilməsini əngəlləyirdi. Lövhənin qarşısında ayaq saxladı. Balaca bir təbaşir parçası dəydi gözünə. Təbaşiri götürüb ovucunda oynatdı, bir az fikirləşib onu cibinə atdı. Məktəbin həyətinə çıxmaq üçün arxa tərəfdən aşağı enərək qapını açdı. Əmək dərsi binasının arxasında, Artuşla bir-birlərinə ürəklərini açdıqları, gizlincə öpüşdükləri yerə gəldi. Burada bitən çinar ağacı, ətrafa kölgə salmaqda davam edirdi. Ağacın altındakı iki kubik daşın ortasına qoylan taxta parçasına oturdu. Bu çinar, uşaqlıq illərində olduğu kimi, bu gün də onu qızmar günəşin şüalarından qoruyurdu. Kürəyini ağacın enli gövdəsinə yaslayıb gözlərini yumdu və nədənsə son zəng gününü xatırladı.

O gün məktəbin həyətində iynə atsan yerə düşməzdi. Və o gün Zaurun yanında sevdiyi insan yox idi. Dəstədən ayrılıb bu ağacın altında tək başına oturan Zauru heç kəs fərq etməmiş, sinif yoldaşları onu itirib axtarmamışdılar. İlk dəfə Zaur öz lazımsızlığını məzuniyyət günü dərk etmişdi. Ağlamışdı xeyli və yaxınlaşıb göz yaşlarını görən də olmamışdı. Mikrofonla çıxış edənləri eşitmir, illərin necə də tez ötüb keçdiyini düşünürdü. Müəllimlərdən canları qurtaracaq, hər gün səhər tezdən oyanmağa ehtiyac qalmayacaq deyə hamı sevinirdi. Attestat almaq, yeni həyata atılmaq Zaurun da ürəyincə idi, amma bu andan sonra onu Artuşa bağlayan, ona Artuşu xatırladan son maddi əlaqənin də kəsiləcəyi, unudulmaz anlarını keçirdiyi məktəbin bir az sonra onun həyatından əbədi silinib gedəcəyini bilmək ona əzab verirdi. "Onsuz da Artuşdan sonra bu məktəbin heç bir ləzzəti, dadı qalmayıb" deyə, özünə təsəlli vermiş, hələ 1990-cı ildə bu məktəblə vidalaşdığını düşünmüşdü. Yenə də son dəfə bura ayaq basmaq qəribə gəlirdi ona - elə bil yarımçıq bir işi, kiməsə deyiləsi sözü qalmışdı.

Bir neçə dəqiqə sonra son dəfə rəmzi zəng çalınacaq və 11 ildir hər səhər eşitdiyi bu cır səs, Zaurun vücudunu yarıb keçərək, onun həyatından birdəfəlik gedəcəkdi. O, səbirlə bu anı gözləyirdi.

Birinci sinifə başladığı, Artuşla tanış olduğu günü də çox yaxşı xatırlayırdı. Ürkək və inamsız iki oğlan uşağını – azərbaycanlı və ermənini yan yana oturtmuşdular. Azərbaycanlı və erməninin sinif yoldaşı ola bilmələrinin, bir parta arxasında otura bilmələrinin adi hal olduğu səksəninci ilin əvvəlində, cəmi bir neçə il sonra iki düşmən xalqa çevriləcəklərini bilməyən Artuş və Zaura, möhkəm dost olmaları üçün bir həftədən də az vaxt tələb olunmuşdu. Məktəbin ilk iki ilində maraq dairələri o qədər də geniş olmayan uşaqlar butulka qapaqları yığıb onlarla müxtəlif oyunlar oynayırdılar və ən çox butulka qapağına sahib olana, bütün sinif qibtə edirdi.

Filateliyaya maraq isə, hər ikisində üçüncü sinifdən sonra yaranmışdı.

Siqareti ayaqqabısının altında əzərək söndürdü və ayağa qalxdı. Ürəyinə daş basıb getməliydi buradan. Gəldiyi qapıdan dala qayıdıb pilləkənlərin yanından keçdi və arxadan qarovulçu qadına yaxınlaşdı.

- Çox sağ olun xala. Sizin bu yaxşılığınızı heç vaxt yaddan çıxarmayacam.

Qadın son ilməni milə keçirdib başını qaldırdı.

- Sən ki, vətəndən getməmişdən qabaq gəlib məktəbinə baş çəkirsən, deməli layiqli oğulsan. Kaş bütün cavanlar sənin kimi olaydı.

Zaur sıxıla-sıxıla dedi:

- Xala, mən əslində məktəbi görmək üçün yox, ilk məhəbbətimi yad eləmək üçün gəlmişdim. Yəqin ki, məni başa düşərsiniz.

Qadın gülümsünüb dedi:

- Ay xatakar – sonra başını buladı, - Bəs sən öz ilk məhəbbətinlə ayrılmısan? O qız indi hardadı?

Zaur pəncərəyə, Bünyat Sərdarov küçəsindən keçən maşınlara baxa-baxa dedi:

- Bizi müharibə ayırdı.

Qadın Zaurun cavabını başa düşməmiş olacaqdı ki, dəqiqləşdirdi:

- Necə yəni?

Səhv buraxdığını başa düşən Zaur:

- Atası hərbçi idi. Qarabağda şəhid oldu - tez-tələsik dedi. Qız da anası ilə Qazaxıstana köçüb getdilər, qohumları gilə.

Zaur belə məharətlə, utanıb-qızarmadan yalan danışmağı bacardığını özü üçün yenicə kəşf edirdi. Bu onun xoşuna gəlməyə başlamışdı.

Qadın "vay-vay-vay" deyib, başını buladı.

- Allah rəhmət eləsin bala. Neynək, həyatdı da. Ölüm itim dünyasıdı. Allah qalan balalarımızı, cavanlarımızı salamat eləsin. Qan axmasın, camaat qırılmasın. Yazıqdı bu millət ay bala, yazıqdı.

Arvad bunları deyib ağır-ağır ayağa qalxdı və ayaqlarını sürütləyərək qapıya yönəldi. Zaur da asta-asta onun dalınca gedir, bir yandan da son dəfə məktəbin divarlarına, divarlardan asılmış plakat və şüarlara baxırdı. Əvvəllər Leninə mənsub "Oxumaq, oxumaq, yenə də oxumaq!" şüarı, indi məktəb direktoru İradə Dəstərxanlının "Təhsil bizim üçün prioritet sahədir" aforizmi ilə əvəzlənmişdi.

Qadınla vidalaşıb küçəyə çıxdı. Nə üçünsə içi nifrət, qəzəb doluydu. Məktəbdə rahatlıq tapmaq yerinə, ovqatı daha da təlx olmuşdu. Yeyin addımlarla üzü aşağı düşə-düşə, qarşıdan gələn etinasız, ya da ürkək adamların onun yanına çatmamış qeyb olduqlarını, buxarlandıqlarını görürdü. Sanki hamı hamıdan qaçır, gen gəzirdi. "Hanı mənim uşaqlığımın Bakısı" düşündü. "Hanı "Plombir" dondurması? Nə üçün insanlar gülmür daha? Nə üçün küçələr indi tünlük və çirklidir? Nə üçün dağıdılır, yerlə yeksan edilir hər şey?"

Əbədi uşaq qalmaqdan, heç vaxt böyüməməkdən daha gözəl bir şeyin olmadığını yenidən məktəbə qayıdandan sonra başa düşmüşdü. Başa düşmüşdü ki, Artuşla birlikdə bir-birlərinin uşaqlıqlarını oğurlamış, bunun nəticəsində də vaxtından tez böyümüşdülər.

***

Valideynlərinin evdə olmaması, yalnızlığa ehtiyacı olan Zaurun kefini az da olsa açmış, hirsini soyutmuşdu. Hələ qarşıda onu - əgər Borisdən müsbət cavab gələrsə - Yerevana getmək üçün valideynlərinin razılığını almaq, ala bilməsə yenə də öz bildiyini eləmək kimi əziyyətli bir iş gözləyirdi. Yerevan mövzusu açılanda yəqin ki, anasının bir neçə dəfə ürəyi gedəcək, atasının isə şəkəri qalxacaqdı. Amma nə olursa olsun, Zauru yolundan heç nə saxlaya bilməzdi.

Otağına girib əynini soyundu. Köhnə kamodun üstündəki çərçivəli altı fotoşəkildən biri, onun Artuşla məktəbin həyətində çəkdirdiyi son şəkil idi. Şüşənin altındakı ağ-qara əksi barmaqları ilə sığalladı. "Bu çərçivə necə də dar gəlir mənə də, sənə də... Biz həbs olub qalmamalıyıq çərçivələrdə, yetər artıq dözdük, boyun əydik bu sistemə". Çərçivəni götürüb kamodun birinci gözünə, alt paltarlarının üstünə atdı və gün ərzində ilk dəfə gülümsədi. "Məni heç bir müharibə, münaqişə saxlaya bilməz. Bundan sonra şəkillərdə təsəlli axtarmayacağam. Görüşəcəyik. Mütləq görüşəcəyik".

Gələcəyə inamı artmış; arxayınlıq, toxtaqlıq tapmışdı. Elə bu an oğlan və ya qıza aid olduğu aydın olmayan cır bir səs eşidildi küçədən.

- Nəlbəki, nəlbəki, stəkan, stəkan. Daşa-divara vurursan, sınmayır, üstünə çıxırsan sınmayır.

Maraqlanıb pəncərədən boylandı. Cavan bir oğlan idi. İki dolu zənbilin yanında dayanıb əlindəki stəkanı beton divara vurub təkrar edirdi.

- Daşa-divara vurursan, sınmayır, üstünə çıxırsan sınmayır.

Pəncərələrdən, eyvanlardan baxan olduğunu görüb stəkanı yerə qoyub ayaqlamağa başladı. Doğrudan da sınmırdı. Oğlan nə qədər canfəşanlıq etdisə də alıcı olmadı. Birdən səsini xırp kəsərək zənbilinə doğru əyildi. Başını bulayıb, yükünü götürüb uzaqlaşdı. İndi onun səsi uzaqdan gəlirdi.

- Nəlbəki, stəkan, daşa-divara vurursan, sınmayır, üstünə çıxırsan sınmayır.

Zaur otağın ortasında dayanıb nə edəcəyini fikirləşdi və axırda başını qatmaq üçün internetə girməyə qərar verdi. Səkkiz dənə məktub gəlmişdi poçtuna və... biri Boris Navasardyandan idi. Dəlicəsinə sevindiyindən, özünü itirdi və iki əli ilə başını tutdu.

Boris Zaurun tədbirə dəvət edildiyini, lakin mövzu ilə bağlı iki-üç səhifəlik məruzə hazırlamaq lazım gəldiyini yazırdı.

"Sizin konfransımızda iştirakınız, inanıram ki, çox səmərəli və faydalı olacaq. Cənab Akif Tağının təşkilatı ilə əvvəllər də layihələrimiz olub və onun məsləhət bildiyi bir şəxslə əməkdaşlıq etməkdən məmnunluq duyarıq. Sizdən xahişim, konfransımızın mövzusuna - "Azərbaycan-Ermənistan-Türkiyə-Gürcüstan" dörd tərəfli münasibətlərinə, bu münasibətlərin reallıq və perspektivlərinə dair bir məruzə hazırlayıb mənə göndərəsiniz. Zəhmət olmasa pasport məlumatlarınızı da yazın. Konfrans iyul ayının 7-10 tarixləri arasında keçiriləcəyi üçün, siz 6 iyulda artıq Yerevanda olmalısınız. Tiflisə gəlib, oradan da maşınla Sadaxloya, Gürcüstan-Ermənistan sərhədinə gəlməlisiniz. Sizi orada qarşılayacağıq. Yolda çəkcəyiniz xərclərin hamısı qəpiyinə qədər sizə ödənəcək..."

Zaur dərhal pasport məlumatlarını Borisə yazıb, məruzəni də bir-iki günə hazırlayacağını əlavə etdi və məktubu göndərdikdən sonra, MSN-də Artuşu axtardı. Offline görünən Artuşa əvvəl məktub yazmaq istədi, amma

sevgilisinin bir neçə dəqiqə sonra peyda olması onu sevindirdi. Qulaqlıqları taxıb, mikrofonu dodaqlarına yaxınlaşdırdı.

- Alo.

Artuşun səsi kəsik-kəsik gəlirdi.

- Salam Zaur. Bayaqdan buradaydım. Acdım, yeməyə getdim. Neynirsən?
- Sağ ol. Məktəbə getmişdim. Kameranı aç.

Artuş kamera bağlantısını da qoşaraq ekranda göründü. Üzü gülürdü.

- Deyəsən evdə təksən? – Artuş soruşdu.
- Hə təkəm. Bizimkilər harasa gediblər.
- Bayaq dedin məktəbə getmişdin. Bizim iki saylıya?
- Aha.

Artuş çənəsini yumruqlarına yaslayıb üzünü əməlli-başlı kameraya yaxınlaşdırdı və etinasız soruşdu:

- Necə idi?

Zaur bilmədi nə desin.

- Nə "necə idi"?
- Məktəb? Neynədin orada?
- Heç, elə belə. Keçmişi yada saldım. Çinarımız yadındadır? Bax onun altında oturdum bir az. Sinifimizə də baş çəkdim, bizim partamızda əyləşdim.

Artuşun üzündəki laqeyd ifadə dəyişmədi:

- Çox yaxşı.
- Deyəsən bu səni maraqlandırmadı.
- Niyə maraqlandırmalıdır axı Zaur? O məktəblə bağlı ən işıqlı xatirəm sənsən. Səninlə də ki, artıq demək olar hər gün görüşürük. Məktəbdə münaqişə başlayandan sonra bizə qarşı təzyiqlər dözülməz həddə çatmışdı. O məktəbi nə sevir, nə də nifrət etmirəm. Bağışla ki, bu gün orada keçirdiyin hisslərini səninlə bölüşə bilmirəm.

Zaur başını bulaya-bulaya razılaşdı:

- Haqlısan. Səninlə mübahisə edə bilmərəm. Onda gəl səni başqa bir xəbərlə sevindirim.

Artuşun həyəcandan gözləri parıldadı:

- Bax bu əla olar! De gəlsin!
- Boris Navasardyandan cavab gəldi. Məni Yerevana dəvət edir.

Artuş gözlərini kameraya zilləyib Zaura baxırdı. Deməyə söz tapmırdı.

- Mən Yerevana gəlirəm Artuş! Eşidirsən?

Zaur bərkdən gülməyə başladı.

- Necə gələcəksən? – uzun sürən sükutdan sonra Artuşun verdiyi sual bu olmuşdu.
- Tiflisdən Ermənistan sərhədinə, Sadaxloya. Orada məni qarşılayacaqlar. Ermənistan xüsusi xidmətləri və Boris Navasardyanın özü gələcəklər.
- Nə vaxt çıxırsan yola?
- Bir həftə sonra. İyulun altısı gərək sərhəddə olum. Tədbir yeddisi səhər başlayır.
- Mən də gəlmək istəyirəm.
- Hara?
- Sərhədə.
- Lazım deyil. Çekistləriniz səni görməsinlər. Mən sənə Yerevana çatanda zəng vuraram, qaldığım otelə gələrsən. Sərhədə gəlsən, bunu düz başa düşməzlər. Səbrli ol, bir azca da döz.

***

Axşam valideynləri evə gələndən sonra, Zaur "gecənin xeyrindənsə, səhərin şəri yaxşıdı" düşüncəsi ilə, Yerevana gedəcəyi barədə onlara bir söz demədi. Səssiz keçən şam yeməyi süfrəsindən qalxıb anasına "çox sağ ol" dedikdən sonra, atasının pul qazanmaq, adam olmaq və ailə qurmaq barədə ənənəvi məsləhətlərini eşitməmək üçün otağına çəkilib, iki saata yaxın kompüterdə işlədi. Yerinə uzanıb Sorokinin "Bro yolu" romanını qaldığı yerdən oxumağa başlayanda, saat on ikiyə qalırdı. Yalnız iki saat sonra kitabı bitirib səliqə ilə rəfdəki yerinə qoydu və oxuyacağı növbəti kitabı - Piter Akroydun "Platon haqqında rəvayəti"ni götürüb, adəti üzrə ilk iki səhifəsini tələsik oxudu və yatdı.

Yuxusu narahat idi. Röyasında gecə dənizi çadraya bürünmüş bir qadın kimi yaşmağı altından baxan yaşıl gözlərinin cadugər cazibəsilə onu çəkib haraya isə, sirli-sehrli bir dünyaya aparmışdı və orda, qara bir qapı açılarkən, Zaur qapı arxasında qara gözlü səadətini görmüşdü. Artuşu.

Səssizlik içində gecə dənizinin çox uzaqlarda sinəsindən qopan boğuq bir səslə köksünü ötürdüyünü duyaraq tər içində yuxudan oyandı. Donub yerində qaldı və gözləməyə başladı. Çox çəkmədi və gecə dənizi elə bil ağrısını

canından çıxarmaq istəyən canlı bir varlıq kimi bu dəfə daha dərindən və daha boğuq bir vıyıltı ilə yenidən köksünü ötürdü. İyul ayının girməsinə iki gün qalsa da, küləklər Bakıdan ayrılmaq istəmir, tez-tez fırtınaya çevrilərək kövrək ağacları aşırdır, dalğaları metrələrcə hündürlüyə qaldırırdı.

Zaur yerindən sıçrayıb pəncərəyə yaxınlaşdı. Elə bil gecə dənizi, bütün günü canına hopan bir yorğunluğun ağrısını, kanalizasiyalardan içinə doldurulan poxların, sidiklərin, sperma və bəlğəmlərin üfunətli energetikasını canından çıxarmaq üçün köks ötürürdü və Zaur alnını pəncərəyə söykəyərək dənizin canına hopmuş o azman yorğunluğu təsəvvürünə gətirmək istədi, lakin xəyalında qurduğu bütün qurğuların sarsıldığını hiss elədi.

Uğultusuna sehrlənib qaldığı gecə dənizindən ürəyinə axıb dolan nə isə anlaşılmaz bir təlaş hissilə ayrıldı pəncərədən. Mətbəxə keçib soyuducudan bumbuz Bonaqua suyunu götürüb başına çəkdi. Ürəyi sıxılırdı. Otağına qayıdıb güc-bəla ilə özünü yuxuya verdi.

## 3

Gürcüstanın paytaxtına səyahət 5 iyul günü Bakı-Tiflis qatarında başladı. Xoşbəxtlikdən beynəlxalq reyslərə çıxan qatarların vaqonlarına ötən ilin sonunda quraşdırılan kondisionerlər, az da olsa sərnişinləri yayın bürküsündən xilas edirdi. Kupedə Zaurdan savayı bircə adam var idi – özünü Möhlət kimi təqdim edən bu yaşlı kişi, bahalılıqdan gileylənir və Brejnev dövründəki ucuzluğu xiffətlə anırdı. Nəhayət iki saat sonra danışmaqdan yorulub yatdı.

Zaur səhər tezdən, bələdçinin qapını tələbkarlıqla taqqıldatmasına oyandı. Möhlət artıq çoxdan durub yerində oturmuşdu. Köhnə, xırda dişli Sovet darağı ilə saçlarını darayır, pəncərədən boz düzənlikdə ot axtarışında olan qoyun sürüsünə baxırdı.

Azərbaycanın gömrük xidmətinin əməkdaşları və sərhəd qoşunlarının əsgərləri vaqonlara doluşdular. Zaur çantasından pasportunu çıxarıb masanın üstünə hazır qoydu. İki nəfər kupenin ağzında dayanıb “Sabahınız xeyir. Pasportlarınızı zəhmət olmasa...” deyəndə, Zaur şahidi olduğu nəzakətdən şok keçirdi. Onlar Möhlətin və onun pasportlarını yoxlayıb çıxdıqdan sonra, qatar tərpənənə qədər bir daha kupeyə girib onlara sual verən, narahat edən olmadı.

- Bir neçə ay əvvəl adamı tumanına qədər yoxlayırdılar, axmaq-axmaq suallar verirdilər. Deməli istəyəndə adam ola bilirik. Bizi nahaq yerə Avropa Şurasına qəbul eləməyiblər ki – dedi Möhlət, ılıq Borjomu başına çəkərək.

Zaur ona dodaqlarını qaçırdaraq cavab verdi və gözlərini pəncərəyə zillədi.

- Oğlum, görürəm sən savadlı adama oxşayırsan. Mən özüm şairəm, üç kitabım işıq üzü görüb. Aleksandr Bloku tanımamış olmazsan. Bax o deyib ki, şair üçün başlıca keyfiyyət yolun hiss edilməsidir. Bununla o demək istəyib ki, şair olan kəs yaradıcılığında əsas istiqaməti bilməli və ya tapmalı, kələfin ucunu həmişə əlində tutmalıdır ki, yolunu azmasın, əksinə inkişaf etsin. Orta məktəbdə oxuyanda şeirlər yazmağa başlamışam. İlk şeirim o vaxtlar Tovuzda çıxan “Sosializm kəndi” rayon qəzetində dərc edilib. Atam dəmirçi idi. Bu peşə ilə əlaqədar şeirlər yazmışam.

- Bəs şəhər həyatı haqqında şeirləriniz olub? – Zaur bu sualı nə üçün verdiyini, özü də başa düşmədi.

- Şəhərdə həyat var bəyəm oğlum? Hətta fransızlar da deyirlər ki, kənd haqqında, təbiət haqqında ən gözəl əsərlər şəhərdə yaranır. Yəni şəhərdə yaşasan da, gərək kənddən yazasan. Əvvəla onu deyim ki, uşaqlığım müharibə və müharibədən sonrakı illərə düşüb. İbtidai məktəbi qurtardıqdan sonra hər gün kəndimizdən 7-8 kilometr uzaqlıqda yerləşən Yanıqlı məktəbinə piyada gedib-gəlirdim. Özü də bu yollar dağdan-dərədən, təbiətin qoynundan keçirdi. Atamı güclə xatırlayıram. O, müharibədə həlak olub. Ata əvəzi olan əmim Tapdıq kişinin himayəsində böyümüşəm. Anam belində onatılan, çiynində beşatılan gəzdirərdi. Kolxoz partiya komitəsinin katibi idi. Aclığın, soyuğun, qorxunun nə olduğunu uşaqlıq çağlarından hiss etmişdim.

Bir dəfə yolda don vurmuş turacın dalınca qaçanda kolun dibində bənövşəyə rast gəldiyimi bu gün də xatırlayıram. İlk bahar olsa da hər tərəf qarla örtülmüşdü. Kolun dibində isə bənövşə baş qaldırmışdı. Təsəvvür edirsən?

Zaur “edirəm” desə də, əlbəttə ki, təsəvvür etmir, etmək belə istəmirdi. Möhlət kişi, Zaurun cavabından ruhlanıb ayağa qalxdı və pəncərənin pərdəsini çəkdikdən, kupenin qapısını bağladıqdan sonra qəfildən Zaurun qarşısında diz çökdü.

- Oğlum, mən bu xalq uğrunda, vətən uğrunda saçlarımı ağartmışam. Üç kitabım işıq üzü görüb. Nəvə-nəticə sahibiyəm. Qocalıb əldən düşmüşəm, qarımı da on il əvvəl itirmişəm. Sənə qurban olum oğlum, icazə ver sikini sorum. Bağışla məni, bağışla oğlum...

Elə bil Zaurun ürəyində nəsə cingilti ilə qırılıb sinəsinə səpələndi. Ayaqları, dodaqları titrədi. Əslində dünən gecədən ürəyinə nəsə dammış, bu kişi ilə səyahətinin gözlənilməz bir hadisə ilə nəticələnəcəyini hiss etmişdi. Oral

seksdən ötrü alçalan, qarşısında diz çökən Möhlət, ona Sorokinin “Dörd nəfərin ürəyi” əsərində yeniyetmənin qarşısında yerə qapanaraq, ağzına almaq üçün yalvaran qocanı xatırlatdı. Bu kitabı oxuyan vaxt, belə bir şeyin həyatda ola biləcəyinə inanmamışdı. “Deməli, ədəbiyyatla reallıq arasındakı sərhədin silinməsi belə olur” dedi zəif səslə amma kişi onu eşitmədi. Zaur düşünməyə, qərar verməyə zamanının qalmadığını, artıq hadisələrin onun nəzarətindən çıxdığını yaxşı başa düşürdü. Kişi də Zaurun tərəddüd keçirdiyini, şokdan ayılmadığını görüb əlləri əsə-əsə, onun hərəkətlərini ürək ağrısı ilə izləyən gəncin cins şalvarının düymələrini açırdı. Qocanın qırışmış, damarlarla qaplanmış əllərinin üstündə, yer-yer köz bağlamış xırda yaralar gözə dəyirdi. Möhlət Zaurun şeyini çətinliklə tumanın içindən çıxarıb burnundan çıxan isti nəfəsini qasığına, xayalarına füləyə-füləyə acgözlüklə əmməyə başladı. Çoxdandır seks yaşamayan Zaurun ereksiyası özünü çox gözlətmədi. Fiziologiyasının duyğularına qalib gəlməsi, Zauru heyrətləndirmişdi. Nə üçün müqavimət göstərmədiyini düşündü, amma sualına məntiqli cavab tapa bilmədi. Üç dəqiqəyə yaxın zaman keçmişdi. Zaur boşalmaq üzrə olduğunu hiss etsə də, kişiyə bu barədə bir söz demədi və yüngülcə zarıyaraq Möhlətin protezli ağzına boşaldı. Gözlərinə işıq gələn Möhlət, təzyiqlə ağzına fışqıran spermanı nəfəsi kəsilə-kəsilə, boğula-boğula udurdu.

Zaurun həyatındakı bəlkə də ən qısa “cinsi əlaqə” tamamlanmışdı. Kişi qalxıb yerinə oturdu və ağır-ağır nəfəs alaraq “çox sağ ol oğlum” dedi, ılıq Borjomidən iki qurtum içdi.

Zaur düymələrini bağlaya-bağlaya, Borjomi içən kişinin gah qabaran, gah yoxa çıxan hulqumuna baxırdı. Yuxuya doymamışdı, başı yüngülcə ağrıyırdı və bir böyük fincan qəhvə içib, rahat yataqda iki-üç saat yatmaq, hər şeyi unutmaq istəyirdi. Kişi onun özlüyündən qapanan göz qapaqlarını görüb dedi:

- Bir az uzan mürgülə oğlum. Gürcülər qatarı saxlayanda durarsan.

Zaur kişiyə minnətdarlıq mənasında nəsə mırıldandı və başını yastığa atıb dərhal yuxuya getdi.

Gürcülər qatarı Qardabanidə səs-küylə saxlayanda, Zaur yerindən dik atıldı. Vaqonda canlanma başlamışdı. Gürcü arvadları ora-bura qaçışır, bir-birlərinin kupelərinə əli dolu girib, əli boş çıxır, bəziləri isə tərsinə - əli boş girib, əli dolu qayıdırdılar. Zaur əvvəl bu təlaşın mənasını başa düşmədi. Möhlətin üzünə baxdı.

- Bunlar alverçilərdi. Bakıdan, Aeroport talkuçkasından Tiflisə mal vururlar. Gürcü gömrüyü də mal apardıqlarına görə, onlardan rüsum tutur – qoca başını bulaya-bulaya dilləndi. – Azərbaycanımın ən murdar adamı belə, milyonlarla yaxşı əcnəbidən mənə daha əzizdir. Xalqımın yaxşısına da, pisinə də qurban olum. Sapı özümüzdən olan baltalar xalqa bir də görürsən qara yaxırlar, öz millətini söyürlər. Belə adamlara nifrət edirəm. Vətən vətəndir, xalq xalqdır oğlum. Qurban olum öz xalqıma, millətimə, dövlətimə.

Elə bu məqamda gürcü gömrükçüləri və sərhədçilər onların vaqonuna girib sözün əsl mənasında anqırmağa başlayanda, Zaur “Qızılgül” inqilabı dalğasının Azərbaycan-Gürcüstan sərhədinə hələ gəlib çatmadığını düşündü. Günəşli Gürcüstana səyahət edənlərin üstünə çəmkirən, sənəd göstərməyi, baqajı açmağı kobudcasına tələb edən gürcülər, öz hərəkətləri ilə Qafqaz qonaqpərvərliyi haqda sümükləşmiş mifi darmadağın edirdilər. Qəribəsi o idi ki, onlar azərbaycanlılarla yanaşı, öz vətəndaşlarını, yəni gürcüləri də təhqir edirdilər. Hətta gürcülərin payına düşən söyüş miqdarı azərbaycanlılarınkından qat-qat çox idi. Alverçi qadınların Bakıdan aldıqları malları perronun üstünə tökən, çanta və torbalardan çıxardıqları köynəkləri və alt paltarları tapdalaya-tapdalaya sayan gömrükçülər, qadınları soyundurub, altdan üst-üstə kofta, köynək geyinib geyinmədiklərini də yoxlayırdılar.

Perronda baş verənləri ikrah və dəhşətlə izləyən Zaurun çaşqın nəzərlərini görən bələdçi:

- Saakaşvilidən sonra belə oldu. İndi azı üç saat burda ilişib qalacağıq dedi. - Əvvəl heç olmasa rüşvət verib tez keçirdik. İndi rüşvət almırlar, amma incidirlər adamları. İstəyirsənsə taksiyə min uzağı bir saata Tiflisdəsən. Qiyməti də bahalı deyil – deyən bələdçi, əli ilə perronun sonunda dayanmış, müştəri gözləyən maşınları göstərdi.

Zaur məsləhətinə görə bələdçiyə təşəkkür elədi və kupesinə keçərək, həyatında ilk dəfə rüşvətin də müsbət rolunun ola biləcəyini düşündü. Deməli bu adamlar rüşvət alsaydılar sərnişinlər vaxt itirməz, dövlət qulluqçularının üzü gülər, mədəni səviyyələri artardı. Zaur bələdçinin üç saat Qardabanidə gözləyəcəkləri barədə peyğəmbərcəsinə verdiyi “vədə” inanmaq istəməsə də, bir-birini qovalayan saatlar Zaurun şübhələrinin yersiz və əsassız olduğuna sübut idi. Kondisionerlər artıq işləmirdi və alverçi arvadların mallarından ötrü istidə gözləməli olan, bədənlərindən tər su yerinə axan sərnişinlər tez-tez perrona düşüb, siqaret köşkünün yanındakı bulaqda əl-üzlərini yuyur, alverçiləri nifrətlə süzürdülər.

Nəhayət yoxlama bitəndən, alverçilərlə gömrükçülərin çığırtısı yatışandan sonra qatar tərpəndi. Gömrük rüsumlarını son quruşuna qədər ödəyərək, döyüşdən məğlub çıxan arvadlar, kupelərinə girib ucadan gömrükçüləri gürcü dilində lənətləməyə qoyuldular. Onların qaqqıltısı da kəsiləndən sonra, Zaur Tiflisə çatana qədər bir az mürgüləmək istəsə də, tamburda siqaret çəkəndən, sonra tualetə baş çəkəndən sonra, qatarın Tiflisə çatmağına dəqiqələr qaldığını düşünüb, yatmaqdan vaz keçdi və telefonuna Gürcüstan operatorunun sim-kartını taxaraq zəng gözləməyə başladı.

Zəng gecikmədi. Düz on dəqiqə sonra, Boris Navasardyanın xahişi ilə Zauru Tiflis vağzalında qarşılayacaq olan Yerevan konfransının gürcüstanlı iştirakçısı, “Gürcüstan həqiqətləri” qəzetinin əməkdaşı David Çixladze zəng vurub, Zaurdan vaqonun nömrəsini soruşdu və Sadaxloya maşınla bir yerdə gedəcəklərini müjdələdi.

Qatar vağzala çatmamış, alverçi arvadlar iri torba və çantalarını dallarınca sürütdəyə-sürütdəyə qapıya yönəldilər. Zaur da yorğun-arğın, gözlərindən yuxu tökülə-tökülə onların dalınca yeridi və Möhlətlə sağollaşıb vaqondan düşən kimi, telefonunu qurdalayan Davidi gördü.

Davidlə 2005-ci ildə, Azərbaycanda keçirilən parlament seçkiləri ərəfəsində Bakıda tanış olmuşdu. Seçkiləri işıqlandırmağa gələn David, seçkilərdən sonra inqilabın baş verməsini dörd gözlə gözləmiş, buna görə on gün Bakıda qalmışdı. Lakin inqilab baş vermədiyindən pəjmürdə halda, suyu süzülə-süzülə Tiflisə qayıtmışdı. David telefonu cibinə qoydu, Zaura yaxınlaşdı və çiyninə möhkəmcə vurub dedi:

- Salam qardaş. Xoş gəlmisən.

- Salam David. Səni görməyimə şadam. Əziyyət çəkib gəlmisən, sağ ol.

- Gedək, gedək. Nə əziyyəti! Onsuzda Sadaxloya qədər bu yolu gedirəm də. Amma səndən incimişəm. Keçən il Tiflisə gələndə heç məni axtarmamısan.

Zaur tutuldu. Davidə zəng vurmaması, onunla görüşməməsi doğrudan da yaxşı çıxmamışdı. Amma Tiflisdə keçirdiyi bir neçə günün onun üçün qızıldan dəyərli olduğunu, hər bir saniyəsini Artuşa həsr etməyə məcbur olduğunu Davidə necə izah edə bilərdi?

- Bağışla məni David. İnan ki, vaxtım olmadı.

Pilləkənlərdən düşüb küçəyə çıxdıqlarında:

- Üzr istəməli heç nə yoxdu burada. Olan olub. Amma bir daha belə eləmə - deyib gülümsədi. - Birinci dəfədi Yerevana gedirsən?

- Aha.

- Həyəcanlısan?

- Əlbəttə. Həm də acam.

- Başa düşürəm. Amma dözə bilsəydin, Marneulidə nahar eləyərdik.

Zaur Davidin təklifinin məntiqli olduğunu düşünüb onunla razılaşdı.

- Onda gedək. Mən dözərəm.

David əli ilə yol kənarında dayanan yaşıl BMW 525 markalı avtomobili göstərərək:

- Buyur – dedi.

David qabaqda, Zaur isə arxada əyləşdikdən sonra, David onu sürücü ilə tanış elədi:

– Tanış ol, dostum Mamuka. Polisdir. Bizi sərhədə qədər aparacaq.

Zaur arxadan əlini uzadıb, Mamukanın nəmli və kobud ovucunu sıxdı. Buruqsaç, qarayanız və enlikürək Mamuka polisdən çox, Gürcüstanda fəaliyyət göstərən xarici neft şirkətlərinin ingilisdilli menecerlərinə oxşayırdı. Sonra David ona Zauru təqdim etdi.

- Zaur Cəlilov Azərbaycanda tanınmış QHT-çilərdəndi. Özü də birinci dəfədi Ermənistana gedir.

Zaur arxadan “David böyütmə. Mənim haram tanınmışdı?” deyə mırıldansa da, deyəsən nə Mamuka, nə də David onun zəif səsini eşitmədilər. Mamuka maşını işə salıb vağzalın ərazisindən çıxandan sonra, gülə-gülə:

- Birinci dəfə Ermənistana getmək yəqin ki, sizi həyəcanlandırır? – soruşdu.

Bu bezdirici sualı beş dəqiqə ərzində ikinci dəfə eşidən Zaur, çiyinlərini çəkdi:

- Əlbəttə həyəcanlıyam. Amma bu həyəcan daha çox geri qayıdandan sonra başıma gələcək olan hadisələrdən duyduğum narahatlığa görədir. Yoxsa Ermənistanın özündə bir problemlə üzləşəcəyimə inanmıram. KQB-şniklər başımdan bircə dənə də tükün əksik olmasına imkan verməzlər. Ora gedənlərdən eşitmişəm.

- Bəs Yerevanda mühafizən olmasaydı, sənə kimsə nəsə eləyərdi? – Mamuka maraqlandı.

- Ola da bilər, olmaya da. Dəqiq heç nə deyə bilmərəm.

David sözə qarışdı.

- Demək istəyirsən Bakıya qayıdandan sonra problemlərlə üzləşəcəksən?

- Bu qaçılmazdır. Demək olar ki, Yerevana gedən hər kəsə qayıdandan sonra hücumlar olur.

David üzünü arxaya çevirdi:

- Niyə? Burda nə var ki?

Yol yorğunu Zaur bu barədə danışmaq istəmədiyi üçün qısa cavab verdi:

- Mən hardan bilim?

David onu başa düşüb Mamukaya:

- Zaur acdı. Elə biz də. Yəqin ki, Marneulidə yaxşı bir yer tanıyırsan.

Bədən quruluşundan yeyib-içən oğlana oxşamayan Mamuka, əsl qurman kimi bu sualdan canlandı:

- Əla restoran tanıyıram. Yiyəsi də azərbaycanlıdır.

Başını şüşəyə yaslayan Zaur gözlərini yumdu və çətinliklə:

- Nəzərə alın ki, aclıq atəşkəs müqaviləsi deyil və əbədi davam edə bilməz. Acından ölsəm siz cavabdehsiniz – dedi və yuxuya getdi.

Bir saat sonra maşın azərbaycanlıların yaşadığı kəndin kələ-kötür yollarında titrəməyə başlayanda Zaur gözlərini açıb sağa-sola baxmağa, hara gəlib çıxdıqlarını anlamağa çalışdı. Onun oyandığını görən David əsnəyib dedi:

- Çatmışıq.

Yaşıllıqlarla əhatə olunmuş sərin, gözoxşayan, nəhəng bir bağın ortasında iki mərtəbəli restoran yerləşirdi. Ruhulla adlı bəstəboy, lopa bığlı, xəfifdən şişman restoran sahibi Mamukanı öpüb qucaqladı və onları həyətin düz ortasında, meynənin kölgəsində dairəvi masanın ətrafında oturtdu. Ruhulla sifarişləri alıb restoranın içində gözdən itdikdən sonra, Mamuka alçaq səslə dedi:

- Qəribə adamdır. Aşbazı ermənidi, bir ofisiantı çeçen qızdı, obiri ofisiantı da azərbaycanlı. Özünün əl qabiliyyətinə, kabablarına da ki, söz ola bilməz.

Zaur meynə ağacının altında borudan şırıl-şırıl axıb gedən sərin su ilə əl-üzünü yudu, gimnastik hərəkətlər edib sümüklərini xırçıldatdı. David isə ona baxıb ucadan dedi.

- Onsuzda azərbaycanlılardan başqa heç kim kabab bişirə bilmir.

Zaur bu kompliment qarşısında başını təsdiq mənasında iki dəfə yelləməklə və gülümsəməklə kifayətləndi.

On beş dəqiqə sonra masa içki, salat, turşu, şirə və yeməklərin ağırlığından əyilir, tünd qırmızı şərab su yerinə axırdı. Mamuka Ruhullanı dəfələrlə onlara qoşulmağa çağırsa da, restoran sahibi əlini sinəsinə qoyaraq təklifi geri çevirir, “işlərim tökülüb qalıb” deyib gözdən itirdi. Zaur özlərindən başqa bircə nəfər belə müştərisi olmayan restoranda Ruhullanın hansı “işlərinin tökülüb qaldığını” fikirləşsə də, bu barədə masadakılara bir söz demədi, çünki Ruhullanın onlara qoşulmaması onun ürəyincə idi.

Bir saat sonra üçü də keflənmişdilər. Mamukanın mənasız gürcü lətifələrinə qulaq asıb, zorakı gülümsəməkdən Zaurun üz əzələləri ağrıyırdı. David qalxıb ayaqyoluna getdi və beş dəqiqə sonra qayıdıb yerinə oturanda, əlini Zaurun çiyninə qoyaraq qulağına əyildi.

- Azərbaycanlılar bu ölkədə kef eləyirlər.

Zaur bu etirafın mənasını başa düşməsə də dilləndi:

- Lap yaxşı.

David başa düşülmədiyini, öz sözləri ilə Zaurda maraq oyandıra bilmədiyini görüb:

- Ardımca gəl, öz gözlərinlə gör – dedi və ayağa qalxdı.

Mamukanın başı yeməyə qarışmışdı. Zaur bir ona, bir Davidə baxıb durdu və itaətkarlıqla Davidin arxasınca getdi.

- Mənə bax, sənin polis dostun yaman dəmdi. Maşını sürə biləcək?

David incimiş ifadə ilə Zaura ötəri nəzər salıb dedi:

- Allah eləməsin sənin sözlərini eşitsin. İçkili olanda Mamuka daha da ustalaşır. Sən ondan arxayın ol. Gəl dalımca, gör sənə nə göstərirəm.

Davidlə birlikdə restoranın arxa tərəfindəki xudmani həyətə gəlib çıxdılar. Kərpic hasarın altında on metr uzunluğunda və dörd metr enində, dəmir barmaqlıqlarla çevrələnmiş bostan salınmışdı. Davidin dalınca bostanın qapısından otların üstünə ayaq basan Zaur, gürcü jurnalistin nə demək istədiyini o andaca başa düşdü. Bostanda dizə qədər bitən çətənə kolu, restoran sahibinin alternativ gəlir və əyləncə mənbəyinə malik olduğu barədə məlumat verirdi. Özü də bu “mənbə” sözün əsl mənasında ayaqlar altında tökülüb qalmışdı.

Zaur soruşdu:

- Polis dostun bu barədə nəsə bilir?

- Ona Mamuka da deyə bilərsən.

- Olsun Mamuka. Bundan xəbəri var? – barmağı ilə otları göstərdi.

David çiyinlərini çəkdi:

- Əlbəttə var. Özü də çəkəndi. Bir iki saplaq dərək?

- Dərib neynəyəcəyik?

- Necə yəni neynəyəcəyik? Üç gün Yerevanda darıxmayacağıq?

Zaurun dəhşətdən gözlərini bərəltdi, sərxoşluğu qaçdı:

- Sən nə danışırsan? Otu Ermənistana keçirmək istəyirsən?

- Nədi bəyəm? Sən narahat olma.

Zaur növbəti arqumentini dilə gətirdi:

- Axı ot təzədir, yaşdır. Necə qurudacaqsan?

David:

- Mən onu qurutmağın üsulunu taparam, - dedi və əyilib iki böyük saplaq dərdi. Çətənə yarpaqları elə bil doğma budaqdan ayrıldıqlarına görə kədərlənib boyunlarını bükdülər, göz görə-görə solmağa başladılar.

Gələn-gedənin olub-olmadığını görmək üçün Zaur həyəcanla arxaya boylandı, sonra da Davidin qulağına pıçıldadı.

- Məni bu işdən uzaq tut. Qorxaq deyiləm, amma Ermənistana birinci dəfədi gedirəm. Ermənilər azərbaycanlının üstündə nəşə tutsalar, nə boyda qiyamət qopacağını təsəvvür edirsən?

- Narahat olma dedim sənə. Hər şey yaxşı olacaq. Özü də sənin üstündə tutsaydılar, bu daha maraqlı ola bilərdi.

Zaur öz zarafatı özünə ləzzət eləyən Davidi bostanda tək qoyub masaya qayıtdı. Mamuka əlində qədəh arxaya boylanıb baxır, gözləri ilə həmpiyalələrini axtarırdı. Zauru görüb qışqırdı:

- Əclaflar! Məni niyə tək qoyub getmisiniz? Alkoqolik zadam ki, tək içəm?

Zaur yerinə oturub şərab dolu qədəhi əlinə götürdü və nəfəsini dərərək:

- Sənin sağlığına. Tanışlığımıza şadam – dedi və qədəhi boşaltdı.

Mamuka da içdikdən sonra, düşüncəli baxışlarını meynənin gövdəsini dırnaqları ilə ovxarlayan pişiyə dikib monoton səslə dedi:

- Əvvəllər zamanın nəbzini tutan adamlara müdrik deyərdilər. İndi anı tuta bilənlərə müdrik deyirlər. Buratino taxtadan qayırılmışdı. İki taxta parçası bir-birinə sürətlə sürtüləndə yanmağa başlayır.

Mamuka yaxınlaşan Davidi görüb qəzəblə dedi:

- Neynirsən orda iki saatdır?

Onun nə barədə danışdığını eşidən David isə, söhbəti başqa məcraya çəkmək üçün dedi:

- Mən Buratinoya iyirmi dəfə baxmışam, amma indiyə qədər heç nə başa düşə bilməmişəm. Özü də bu kino uşaqlar üçün çəkilib. Əminəm ki, Buratinonu çəkən rejissor narkoman idi. Bu filmə ayıq başla baxmaq olmaz, gərək yaxşıca çəkəsən.

Mamuka şübhəli gözlərlə dostunu süzüb ona göz vursa da, David istifini pozmadı, gözlərini ondan ayırıb ciyər kababını çeynəməyə qoyuldu.

Yarım saat sonra Ruhullanı çağırıb hesabı istədiklərində, Zaur əlini cibinə salmağa cəhd etsə də, David ona mane oldu.

- Əziyyət çəkmə, yeməyin pulunu Borisdən alacağam, məndən getmir – dedi sonra da Zaurun qulağına əyilərək əlavə elədi – yaxşıca əzib cibimə qoymuşam. - David əli ilə sağ cibinə iki dəfə vurdu. – Tapan deyillər, narahat olma.

- Təki sən deyən olsun – Zaurun səsində inamsızlıq notları duyulurdu.

- Borislə də danışdım bayaq. Sərhəddə bizi gözləyirlər.

Müştərilərini maşına qədər yola salan Ruhulla ilə sağollaşıb, Sadaxlo sərhəd qapısının yolunu tutdular. Məsafə Zaurun təsəvvür etdiyindən də qısa idi - sən demə onların yemək yediyi azərbaycanlı kəndi, Ermənistanla sərhədin iki addımlığında yerləşirmiş. Sərhədə çata-çatda Zaur siqaret almaq üçün Mamukadan maşını saxlamağı xahiş etdi.

Darısqal dükanda peyklə AzTV-də Zəlimxan Yaqubun çıxışına baxan qadın, əlində tutduğu karton parçası ilə özünü yelləyirdi. "Burada da azərbaycanlılar var" Zaur düşündü və qadına doğma dilində müraciət edərək, bir qutu Kent 4 siqareti xahiş etdi.

- Vəziyyət necədir xala? Necə dolanırsınız?

Qadın siqareti Zaura uzatdı, pulu götürüb kassaya atdı.

- Nətəhər olacaq ay bala. Dolanırıq da birtəhər. Allah bu urusun evini yıxsın. Qırdırır camaatı bir-birinə. Sovet dövründə rahat yaşayırdıq da. İndi hamı hamıyla düşmən olub.

- Xala, Sovet hökümətini də ruslar yaradmışdılar da. O vaxt ki, belə deyildi.

- Əşi o vaxt ayrı cürəydi. Hamı onlara tabe idi deyə, qan tökülmürdü. Amma respublikalar müstəqil olan kimi, qırdırdılar bizi bir-birimizə. Mənim erməni, gürcü ilə nə işim var axı!? Bir-birimizə can deyib, can eşitmişik həmişə.

Ermənistanla bir-iki kilometrlik məsafədə yaşayan azərbaycan mənşəli Gürcüstan vətəndaşını görmək, Zaurda melanxolik hisslər oyatmışdı. Qadınla sağollaşıb çıxdı.

Maşına qayıdanda Mamuka və Daviddən onları gözlətdiyinə görə üzr istədi və Ermənistan sərhədinə qədər, heç biri bir daha danışmadı.

***

Dar pəncərədən uzadılan Azərbaycan pasportunu görən gürcü sərhədçisinin sifəti əyildi, qaşları çatıldı. Gözlərini qaldırıb pasportun sahibinə baxdı və yorğun səslə soruşdu:

- Siz hara gedirsiniz?

Zaur alnını şüşəyə yaslayıb həvəslə dedi:

- Ulan-Batora.

Qara-qabaq gürcü Zaurun zarafatını qulaq ardına vuraraq növbəti sualını verdi:

- Ermənistan getmək istədiyinizdən əminsiniz?

Gürcüstan vətəndaşı olan azərbaycanlı kəndçilərin vaxtaşırı Ermənistana meyvə-tərəvəz aparmaları adi hal idi. Lakin yarım ildir burada xidmət edən sərhədçi, ilk dəfə idi ki, Ermənistana keçmək istəyən Azərbaycan vətəndaşına rast gəlirdi. Verdiyi son suala Zaurdan müsbət cavab alan gürcü, kobud şəkildə pasporta möhür vurub etinasızlıqla onu Zaura qaytardı və gözlənilmədən gülümsünüb soruşdu:

- Qorxmursunuz?

- Təsəvvür edin ki, qorxuram amma getməkdən başqa çarəm yoxdu.

Zaur sərhədçiyə təşəkkür edib BMW-nin yanında siqaret çəkərək onu gözləyən Mamuka ilə Davidə yaxınlaşdı.

- Ermənistandan qayıdandan sonra, səninlə görüşüb söhbət eləmək istəyərdim. Təəssüratların mənim üçün çox maraqlı olardı – Mamuka dedi.

- Nə üçün olmasın? Əlbəttə görüşərik. Onsuz da Bakıya Tiflisdən gedəcəyəm.

David siqaretini yerə atıb ciddi ifadə ilə dedi:

- Tiflisdən yox, tranzit məntəqəsindən. Qarabağ münaqişəsindən sonra bu şəhər ermənilər və azərbaycanlılar üçün çoxdan belə adlanır.

Üçü də gülüşdülər. Əlini birinci Mamuka uzatdı.

- Yaxşı, sizi daha çox saxlamayım. Yolçu yolda gərək.

Zaurla David onunla qucaqlaşıb, sağollaşandan sonra, Mamuka maşına minib pəncərədən "muğayat olun" dedi və onlara göz vurub sürətlə uzaqlaşdı.

- Yaxşı adamdı. İnanmaq olmur ki, polisdə işləyir.

David Zaurun bu sözlərindən qürrələnib:

- Bizdə belə polislərin sayı günbəgün artır – dedi. - Saakaşvili polis sistemində gəncləşdirmə siyasəti aparır. Bunu bilmirdin?

Davidin sualını cavabsız qoyan Zaur, altından gur çay axan körpüyə ilk addımını atdı. Dizlərində, Ermənistan torpağına ayaq basmağın verdiyi yüngül bir gizilti duydu, körpünün tən ortasına çatanda isə büdrəməkdən qorxub Davidin qolundan tutdu. Onun həyəcanını başa düşən gürcü jurnalisti, dodaqlarını qaçırdaraq "hər şey əladır, gəl, gəl" dedi. Zaur isə öz növbəsində "təsəllinə ehtiyacım yoxdur" düşündü, amma üzə vurmadı. Zaur Ermənistan bayrağının dalğalandığı dirəyə çatanda, iki nəfər hündürboy, yaraşıqlı adam onunla Davidə tərəf gəlməyə başladılar. Onların ardınca isə tələsmədən ağsaç, eynəkli və bəstəboy bir adam addımlayırdı. Dəhşətli istiyə baxmayaraq onların əynində qara kətan kostyumlar vardı. İkisi də tipik azərbaycanlılara oxşayırdılar. David, onlara tərəf gələn adamlara mərmər kəsilmiş sifəti ilə, gözlərini qırpmadan baxan Zaura tərəf boynunu əyərək:

- Ağsaçlı Boris Navasardyandır – dedi. - Bu iki nəfər isə, yəqin sənin qoruyucu mələklərindi.

Sərhəddəki yoxlama buraxılış məntəqəsinin qarşısında uzun, xaotik bir növbə düzülmüşdü. Bu növbədə kimin birinci, kimin sonuncu olduğu bilinmirdi. Zaur ömründə ilk dəfə idi, bu qədər ermənini bir yerdə görürdü. Bu fikir özünə də gülməli gəldi. Şlaqbauma yaxınlaşdıqlarında əllərini bellərində birləşdirmiş "qoruyucu mələklər" artıq onları gözləyirdilər. Zaura quruca salam verib pasportunu tələb etdilər və sənədi aldıqdan sonra, Zaurla Davidi şlaqbaumun yanından keçirdərək özləri uzaqlaşdılar. David Borislə görüşüb qucaqlaşdı. Məruzə edərcəsinə, gülə-gülə "qonağınızı sağ-salamat çatdırmışam" deyərək pəncərəyə tərəf gedib, oradakı "mübarizəyə" qoşuldu.

Boris Zaurun əlini möhkəmcə sıxdı:

- Necə gəldiniz?

- Təşəkkür edirəm, çox rahat gəldik. Davidin məni qarşılaması yerinə düşdü. Çox sağ olun.

- Buyur gəl, keçək bir az kənarda dayanaq – deyərək, Boris Zauru on metr aralıda bitən söyüd ağaclarının kölgəsinə gətirdi. İnzibati binaların ətrafında alverçi, turist, gömrükçü və sərhədçilərdən ibarət böyük bir ordu öz gündəlik, rutin təlaşında idi – kimi dar pəncərələrdən pasportunu soxuşdurmağa çalışır, kimi qışqıraraq sərhədçilərdən nəsə tələb edir, əsgərlər isə daha beş-betər bağıraraq adamları intizama səsləyirdilər. Xüsusi xidmət əməkdaşları ilə söhbət edən iki-üç sərhədçi istisna olmaqla, Zaura tərəf heç kim baxmırdı. Özünün diqqət mərkəzində olmaması, nə üçünsə Zaura toxtaqlıq verdi. Amma hələ də anlaşılmaz, amorf duyğular keçirirdi. Ölkəsinin iyirmi ildir müharibə vəziyyətində olduğu bir dövlətin ərazisinə keçməyin nə demək olduğunu o indi anlayırdı. Sağa-sola baxdı. Belə stresli anlarda siqaret çəkmək artıq dəbdən düşdüyünə görə, həyəcanını basdırmaq üçün özünə başqa bir məşğuliyyət tapmalı olduğunu düşündü. Quyruğunu bulaya-bulaya bir az aralıda gəzən qara itə sataşdı gözləri. Fit çalaraq küçüyü yanına çağırdı və sallağı oturub onu sığallamağa, pıçıltı ilə qulağına nəsə deməyə başladı.

Qəribədir, əsla insanlardan nəvaziş görməmiş, başına sığal çəkilməmiş küçə itləri, onlara qayğı ilə yaxınlaşan, hətta qulaqlarına nəsə pıçıldayan adamlardan daha tez bezib qaçırlar. Görünür it Zaurdan yemək gözləyirdi. Ya da onun öz sığallarında səmimi olmadığını, sırf həyəcanından qurtulmaq üçün onu yanına çağırdığını başa düşüb incimişdi. Nankor it qaçıb getdikdən sonra, bu səfər Zaurda danışmağa tələbat yaranmışdı. Elə hey danışmaq, danışmaq, dayanmadan çənə döymək istəyirdi.

Davidi, daha doğrusu Davidin daşıdığı dəyərli "yükü" fikirləşdi. Ona görə narahatçılıq keçirirdi. Gürcü jurnalistin növbəsi artıq çatmışdı. Əsgərlər onun əlindəki çantanı açdırıb içinə baxdılar, sərhədçi isə pasportuna möhür vuraraq Davidə qaytardı. Cibini yoxlasaydılar, faciə qaçılmaz olacaqdı. Zaur təhlükənin sovuşduğunu görüb, dərin bir nəfəs aldı.

Nəhayət, mühafizəçilər qayıdıb Zaura pasportunu qaytardıqları zaman, o, səhifələri həyəcanla yoxlamağa başladı. Ermənistana daxil olması barədə pasporta heç bir möhür, ştamp vurulmamışdı. Amma Gürcüstanı Sadaxlodan tərk etdiyinə dair pasportunda möhür olduğuna görə, başı çıxan istənilən adam onun Ermənistana girdiyini anlaya bilərdi. Pasportu çantasının cibinə qoyub, əlini mühafizəçilərin hündürboylusuna uzatdı.

- Zaur.

- Artur.

Zaur tutuldu.

- Artur... Adınız nə qədər də Artuş adına oxşayır.

Mühafizəçi etinasız qalmağa çalışaraq soruşdu:

- Artuş adında tanışınız olub?

- İndi də var.

Onları Yerevana aparacaq olan tünd yaşıl rəngdə Ford mikroavtobusu, artıq ilk sərnişinini qəbul etmişdi - pəncərə kənarında yerini rahlayan David nə barədəsə sürücü ilə söhbət edir, arada-bir Zaurgilə tərəf göz atırdı.

***

Artur Forda doğru gedən Zaurla Borisin yanına yaxınlaşaraq, onlardan ayaq saxlamağı xahiş elədi.

- Zaura bir-iki sözüm olacaq.

Boris çiyinlərini çəkib:

- Buyur – dedi və telefonunu qurdalamağa başladı.

Zaurun düz gözlərinin içinə baxan Artur monoton səsi ilə:

- Heç bir yerə bizdən icazəsiz getmək olmaz – dedi. - Şəkil çəkmək də qadağandır. Həmişə gözümüzün qabağında olmalısan. Bunlar hamısı sənin təhlükəsizliyin üçündü. Bir başdan xarabın sənə xəsarət yetirməyəcəyinə zəmanət verə bilmərik.

Zaur başını iki dəfə yelləyərək bu şərtləri qəbul etdiyini bildirəndən sonra, hamı Forda doluşdu və maşın yola düşdü. Artur sürücünün yanında, Seyran adlı həmkarı isə qapının yanındakı kresloda oturmuşdu. Zaurun sıxıntılı olduğunu görən Boris, onu təsəlli etmək üçün:

- Fikir vermə. Birinci dəfə azərbaycanlılara həmişə belə xəbərdarlıqlar eləyirlər. Amma bir-iki gün sonra, özün də görəcəksən ki, sənə xeyli sərbəstlik veriləcək – dedi.

- Mənim üçün fərqi yoxdur.

Zaur üçün doğrudan da fərqi yox idi. Onlar indi qüruba tamaşa edə-edə əsrarəngiz mənzərəsi olan - dağlar, dərələr, meşələrlə əhatə olunmuş kəndlərdən, qəsəbələrdən keçirdilər. Bu mənzərə ürküdücü olduğu qədər, cazibəsi ilə insanı heyrətə salırdı. Yüzilliklərdir ki, öz təbii gözəlliyini, təmiz havasını, şəffaflığını qoruyub saxlayan bu yerlərdə Artuşla birgə yaşamaq, sübh çağının təravətini, axşamların sakitliyini və gecələrin sükutunu duymaq əsla onlara qismət olmayacaqdı. Bunu bilmək Zaura əzab verirdi.

Uzaqdan iki qayanın arasından axan şəlalə göründü. Köpüklü sular qayanın ətəyinə tökülərək iri çayla birləşirdi. Bütün evlərindən şəlalə mənzərəsi açılan balaca bir kəndin girişində maşını saxlatdıran Boris, kəndlilərin vedrələrdə satdığı qaysılardan iki kilo aldı.

- Bunlar çox ləzzətli qaysılardır. Ermənistanın qaysısı, sizin isə neftiniz məşhurdur.

Zaur ona təklif olunan iri qaysını götürüb ovucları ilə silə-silə dedi:

- Bilirəm. Hətta kinofestivalınız da "Qızıl qaysı" adlanır.

Zaur erməni qaysısını iştahla dişlədi. Həqiqətən də ləzzətli idi. Bir yandan yeyir, bir yandan da ətrafa tamaşa edirdi. Mükəmməl asfalt örtüyü diqqətini cəlb etdi. Yolda bircə dənə olsun çuxur gözə dəymirdi. "Görünür erməni diasporası, Azərbaycanın neft pullarından da qüdrətlidir" dedi ürəyində.

Qaysının tumunu pəncərədən tullayan Boris, mürgüləyən Davidi göstərərək Zaurdan soruşdu:

- Çox içmisiniz?

- Yox. Hərəyə bir litr çaxır içdik.

- Gürcülərin çaxırı, bizim konyakımız var. Bəs Azərbaycanda hansı spirtli içki məşhurdu?

- Biz müsəlman ölkəsiyik, içkiqayırma ənənəmiz yoxdur. Azərbaycan alkoqol mədəniyyəti ilə ikinci dünya müharibəsindən sonra tanış oldu. Amma bizi dünyada Xəzər kürüsü məşhur edib. Siz Sovet dövründə Bakıda olmamısınız Boris?

- Xeyr, təəssüf ki, olmamışam. Amma çox istəyərdim gedim görüm. Deyirlər gözəl şəhərdir. Bu düzdür?

- Baxır sizin gözəllik meyarınıza.
- Aramızda sülh yaranandan sonra, mütləq gələcəyəm Bakıya.
- Sülhə ümidiniz var?
- Olmasaydı bu tədbirləri niyə keçirirdim?

Sərhəddən Spitaka qədər olan yol, bir vaxtlar Ermənistanda azərbaycanlıların kompakt yaşadıqları bir neçə yaşayış məntəqəsindən keçirdi. Maraqlıdır ki, onların adları – Ayrım, Alaverdi və Pəmbək – olduğu kimi saxlanılmış və dəyişdirilməmişdi. Hələ çar Rusiyası zamanında salınmış Ermənistanı Rusiya ilə birləşdirən və hazırda ümumiyyətlə fəaliyyət göstərməyən, paslanmış dəmir yolu əvvəl düz xətlə Fordu müşayiət edirdi, sonra ziqzaqlarla qıvrılıb təpənin arxasında gözdən itdi.

Zaur qəfildən soruşdu:

- Bəs erməni dilində sülh nə deməkdir?

Boris ikinci qaysını da bitirib tumunu pəncərədən vıyıldatdı.

- Xaqaqutyun.
- Necə, necə?
- Xaqaqutyun.

Zaur başını qaşıyıb bir onların söhbətinə laqeyd sifətlə qulaq asan Artura, bir Borisə baxdı və sıxılaraq xahiş elədi:

- Bir dəfə də təkrar edə bilərsiniz? Amma tələsməyin.
- Mənə "sən" deyə müraciət edə bilərsən. Yaxşı qulaq as - xa-qa-qu-tyun.

Zauru gülmək tutdu.

- Bu ki, əsl müharibə deməkdir! Heç "xaqaqutyun" sözü də sülh mənasını daşıyar?

Boris qəşş edib güldü, az qaldı qaysı boğazında qalsın. Artur üzünü pəncərəyə çevirib yol kənarında başlayaraq meşənin dərinliklərinə qədər uzanan sıx şamlığa baxırdı. Boris onun qəzəbləndiyini görüb Zaurun qulağına dedi:

- Fikir vermə. Onlarda yumor hissi yoxdur... Sən əvvəllər Gülay Ərdəmi tanıyırdın?

Türkiyənin "Cumhuriyet" qəzetinin müxbiri Gülay Ərdəm, ötən gecə Vyanadan Yerevana təyyarə ilə gəlmişdi. O, indi oteldə tədbirin azərbaycanlı və gürcüstanlı iştirakçılarını gözləyir, Borisin dediyinə görə çox darıxırdı.

- Yox, tanışlığımız yoxdur. Onun adına ilk dəfə sənin layihəndə rast gəlmişəm.

Boris yol kənarındakı erməni dilində lövhəyə başı ilə işarə elədi:

- Spitaka giririk.

Səksəninci illərin sonunda şiddətli zəlzələdən sonra yerlə bir olan Spitak şəhərinin ilk tikililəri göründü. Yolboyu tufdan tikilmiş bir və iki mərtəbəli evlər, mağaza və parklar gözə dəyirdi. Şəhərin mərkəzinə çatdıqlarında Zaur faciənin nəticələrinin hansı səviyyədə aradan qaldırıldığını görmək üçün, Arturdan maşını saxlatdırmağı xahiş etdi.

- Şəhəri görmək istəyirəm.

Daviddən başqa bütün sərnişinlər Spitakın mərkəzi küçəsində maşından düşüb ətrafa tamaşa etməyə başladılar.

Zaur Borisdən soruşdu:

- Neçə ilə bərpa olundu şəhər?
- Xeyli vaxt və pul getdi. Bilmirəm xəbərin var ya yox, amma Spitak əvvəllər daha böyük şəhər olub, zəlzələdən sonra isə miqyası kiçilib. Bərpa işlərini diasporanın köməyi ilə görə bildik.

Köşkdən siqaret və su alıb yenidən yola düşdülər. Hava artıq qaralır, üfüqdə bir şəhərin işıqları görünürdü. Zaur boynunu qabağa uzadaraq:

- Yerevandı? – soruşdu.
- Yox hələ Yerevana bir az var. Qaysı yeyirsən?
- Çox sağ ol, doydum.

Bir saatdır rus pop musiqisinə qulaq asan sürücü, diski çıxarıb yerinə erməni yığma musiqisini qoydu. Salonu dolduran kamança-balaban sədaları altında maşın Zaurun bayaq Yerevana oxşatdığı şəhərə girmədən sola döndü və Sumqayıt şosesinə oxşayan geniş yolda yüksək sürətlə irəliləməyə başladı. Yarım saat keçmədi ki, Boris elan elədi:

- Ermənistanın paytaxtına xoş gəlmisiniz.

Əvvəl yanacaqdoldurma məntəqələri göründü, sonra isə sıra ilə çoxmərtəbəli yaşayış binaları, market və kafelərin yanından ötüb keçdilər. Üstünü boz buludlar almış şəhərin avtobus dayanacaqlarında gözləyən insanlar, yağışa düşmədən evlərinə çatmağın təşvişində idilər. Mərkəzə beş dəqiqəyə gəlib çıxdılar. Sürücü maşını sola

döndərdi və bir az yoxuş qalxıb Zaurun üç gün qalacağı Anais otelinin qarşısında dayandı. Dərənin üstündə tikilmiş otelin otuz metr aşağısından Razdan çayı axırdı.

Yağış, onlar otelə girər-girməz tökməyə başladı. Xırda-mırda, qaraqaş-qaragöz erməni qızı Davidlə Zaurun qeydiyyat işlərini apardığı sırada, Zaurla Boris iri pəncərənin qabağında dayanıb bayıra, asfaltı deşərcəsinə yağan yağışa tamaşa edirdilər.

- Yay yağışlarından sonra, gündüz vaxtı Yerevanın üstündə göy qurşağı əmələ gəlir. Zirvəsi qarlı Ararat dağı, bu rəngarəng qövsün düz ortasında qalır – dedi Boris şüşəyə vuran damcılara baxaraq. - Qədim erməni əfsanəsinə görə göy qurşağının altından kim keçərsə, cinsiyyəti dəyişər – kişi qadın olar, qadın isə kişi.

Zaur Borisin bu qəfil sözlərindən diksinib şüşədən onun əksinə baxdı. Onların baxışları görüşdü. Boris dişlərini ağardıb gülümsəyirdi.

## 4

Oteldə 205-ci nömrə. Heç nə ifadə etməyən, heç bir anlama gəlməyən rəqəm. Ən azından Zaurun həyatında nə 205 saylı məktəb olub, nə 205 nömrəli nəqliyyat vasitəsi, nə də ki, 205 şərti vahidlə aldığı məvacib. Bakıda Rasim adında numeroloq dostu var, bəlkə o bilər bu rəqəmin mənasını?

Duşun altına girən Zaur ağlına gələn gic-gic fikirlərin günahını Bakı-Tiflis-Yerevan marşrutunun verdiyi yorğunluğun üzərinə yükləyirdi. "Çox qəribədir, heç Artuşa zəng vurmağa da tələsmirəm" dedi pıçıltı ilə və üzünə çırpılan ılıq su ağzına qaçmasın deyə, dodaqlarını düyünlədi. Artuşun mobil telefon nömrəsini bir dua kimi zehnində təkrarladı.

Yerevanda, Ermənistanın paytaxtında olduğu faktına öyrəşə bilmirdi. Sanki havadan asılıb qalmışdı, ayaqları yerə basmırdı. "Bura Yerevandı. Mən Yerevandayam. Ola bilməz axı!? Necə yəni Yerevandayam? Artuş da iki addımlıqdadı?.."

Vanna otağından çıxıb təmiz paltarlarını geyindi, darandı, qırxılmış üzünə və üstünə Ultraviolet ətri səpdi. Boris bir saat sonra restoranda görüşərik demişdi. Bir saat tamam olurdu artıq. Son dəfə güzgüyə baxdı, yaraşıqlı, hətta gözəl olduğunu düşündü. Kişi gözəlliyinə malik Zaur, femin cizgilərdən xali idi. Nədənsə bu fakt onu ruhlandırdı, nəşələndirdi.

Boris dəhlizdə siqaret çəkərək gəzişirdi. Paltarlarını dəyişdirən, qəhvə rəngi şalvar və "Stop AIDS" yazısı olan ağ futbolka geyinən Zauru görüb gülümsədi.

- Səni tanımaq olmur Zaur.

Zaur qapısını bağlaya-bağlaya:

- Nə mənada? – soruşdu.

- Yorğunluğundan əsər əlamət qalmayıb... Simpatik oğlansan, erməni qızları səni görüb vurulacaqlar. Bu nə ətridir?

- Ultraviolet.

- Çox gözəldir. Bu ətir sənə yaraşır.

Pilləkənlərdən düşməyə başladılar. Zaur gülümsəyib dedi:

- Ətrin yaraşması... gözəl səslənir.

***

Restoranda Davidlə ingilis dilində yüksək tonda danışan qadın, hər halda Gülay olmalı idi. Gülayla Daviddən başqa üç nəfərin də əyləşdiyi böyük masaya yaxınlaşdıqlarında, Boris Zauru Türkiyəli jurnalist və üç erməni ilə tanış elədi. Qonşu masada oturan iki gərgin mühafizəçi, sanki azərbaycanlı qonaq hər an gözlənilməz bir hərəkət edəcəkmiş, silah çəkib sağa-sola güllə yağdıracaqmış kimi, diqqətlə Zauru izləyirdilər.

Zaurun tanış olduğu üç ermənidən ikisi Borisin təşkilatı ilə əməkdaşlıq edən siyasi ekspertlər Paruyr Manvelyan və Georgiy Vardanyan, üçüncüsü isə Fransa səfirliyinin əməkdaşı Sergey Strekalin idi. Zaur əvvəl Strekalinin rus olduğunu düşündü. Lakin qaraqaş-qarasaç Sergey rusa oxşamırdı və üzündə tipik erməni cizgiləri vardı. Sonradan məlum oldu ki, Sovet hakimiyyəti dövründə Sergeyin Ukraynada yaşayan babası bu ölkədə "özününkü"yə çevrilmək, Ukrayna cəmiyyətinə inteqrasiya ola bilmək üçün Strekalyan soyadından imtina edərək, pasporta Strekalin soyadını yazdırmışdı. Zaur Gülayın yanındakı boş stula oturdu və azərbaycan dilində onunla hal-əhval tutdu. Qadın gözlərini döyə-döyə Zaurdan soruşdu:

- İlk dəfədi Ermənistandasınız?

- Bəli, ilk dəfədi. Bəs siz?

- Elə mən də. Çox həyəcanlıyam inanırsınız? Yəqin siz də eyni duyğuları keçirirsiniz. Ermənilər bizim millətə necə də oxşayır. Mən burada bu qədər maraqlı insanla tanış olacağımı gözləmirdim.

Qadın doğma dilində danışa bilən, onu başa düşən bir müsahib tapdığı üçün çox sevinirdi.

- Başa düşə bilmirəm, niyə axı biz Ermənistanla soyuq müharibə rejimində yaşamalıyıq? Biz iki qonşu dövlətik. Türkiyədə erməni diasporası var. Bizim çoxəsrlik ortaq tariximiz var. Ötən əsrin əvvəllərində baş vermiş faciəyə görə, bu günə qədər düşmən qalmaq nə qədər düzgündür? Ermənilərin mətbəxi də bizim mətbəxə oxşayır. Musiqilərimiz də demək olar ki, eynidir... Hesab edirəm, Türkiyə ziyalıları birləşib 1915 faciəsinə görə ermənilərdən üzr istəməli və bu söz-söhbət bitməlidir.

Masaya salatlar, isti yeməklər, içkilər gəldi. Gülay isə sözlərinə ara vermirdi. Qadını başından eləmək üçün Zaur:

- Türk dilində çox danışdıq deyəsən, ermənilər inciyə bilərlər – dedi və zorakı gülümsədi.

Məlum oldu ki, Gülay bu gün ömründə ilk dəfə araq içəcək. Ermənilər bunu eşidcək şənləndilər və qadını ruhlandırmağa başladılar. İlk iki qədəhdən sonra Gülayın artıq kefi açılmışdı. Türkiyəli jurnalist regiondan, Qafqazın problemlərindən, İraq müharibəsindən danışır, Türkiyənin hal-hazırkı siyasətini, Ərdoğan hökumətini kəskin tənqid edirdi. Onun Türkiyə hökuməti ilə bağlı dedikləri masadakılar üçün böyük maraq kəsb etməsə də, nəzakət xətrinə hamı ona qulaq asır, ya da qulaq asırmış kimi görünür, iqtidarı söyməyi adi hala çevirən və indi də öz əbədi ampluasında olan Gülaya qarşı empatik olmağa çalışırdılar.

Birdən Boris Zaurun qulağına əyilib pıçıldadı:

- Sabah tədbirimiz səhər 10.00-da başlayır.

- Bilirəm. Nə olsun ki?

- Yəni, araq içərkən bunu nəzərə al.

Zaur Borisə tərs-tərs baxıb qədəhlərə araq süzdü.

- Narahat olma. Ruslardan sonra araq içmək məsələsində heç bir xalq azərbaycanlılara çata bilməz.

Baş nazir Ərdoğana cahil, radikal islamçı və səriştəsiz siyasətçi kimi epitetlər yaraşdıran Gülay, Ərdoğanın Türkiyəni uçuruma apardığını da iddia edincə, Zaur ermənilər də başa düşsünlər deyə, ingilis dilində dedi:

- Səhərdən sizə qulaq asıram və mənə elə gəlir ki, siz baş nazirinizə çox böyük haqsızlıq edirsiniz. Axı siz də Ərdoğan hökumətinin Türkiyəni iqtisadi böhrandan çıxardığını, kəskin inflyasiyanın qarşısını aldığını əla bilirsiniz. Eyni zamanda Ərdoğan ölkədəki böyük korrupsiya qruplarını ifşa edərək məhkəmə qarşısına çıxartmışdır. Siz indi bunları inkar edəcəksiniz?

Gülay bayaqdan ona qulaq asmaqla kifayətlənən, çox danışmayan azərbaycanlı qonağa şübhə ilə baxıb:

- Xeyr, inkar etmirəm – dedi. - Amma hər şeyin göründüyü qədər də sadə olmadığını bilməlisiniz. Ərdoğan özü və öz yaxınları üçün ölkədə korrupsion rejim yaradıb. Bütün tenderləri onun adamları udurlar. Onun hökuməti Ermənistan məsələsi başda olmaqla, xarici siyasət sahəsində də tam fiaskoya uğrayıb. Zaman da göstərdi ki, Atatürk ideyalarından uzaqlaşmaq Türkiyəni uçuruma aparır. Atatürk olmasaydı qadınlarımız ümumiyyətlə universitet üzü görməzdilər. Amma indi bu alçaqlar universitetlərə hicablı qızları soxmaq istəyirlər.

- Bəs Kipr məsələsi? Xarici siyasətdə digər uğurlar? Bunları ki, inkar etmək olmaz.

Zaur Kipr sözünü eşidən ermənilərin gözlərini qıyaraq maraqla ona baxdıqlarını fərq etdi amma sözlərinə ara vermədən dedi:

- Onun atdığı siyasi addımlar, bu məsələnin həllini daha da sürətləndirdi. Eyni zamanda Amerikanın İraqa müdaxiləsi zamanı Türkiyəni bacardıqca bu savaşdan kənarda tutaraq, ölkəsinin İraq bataqlığına saplanmasına imkan vermədi. Fələstinlilərin demokratik yolla hakimiyyətə gətirdiyi hökumətə qarşı tətbiq olunan beynəlxalq embarqodan narazı olduğunu da müxtəlif yollarla dilə gətirdi. Yəni öz mövqeyini ortaya qoydu.

- Mən başa düşmürəm, siz ərdoğançısınız bəyəm?! – Gülay xumar gözlərinə ciddi ifadə qatmağa çalışaraq soruşdu. Amma ciddi görünmək cəhdi onda uğursuz alındığından Gülay yenidən əvvəlki görkəminə qayıdıb, dodaqlarına mənasız təbəssüm qondurdu.

- Xeyr, mən obyektivlik tərəfdarıyam.

Sergey Strekalin Zaurla Gülay arasında gedən mübahisəyə müdaxilə edərək:

- Xahiş edirəm, bu mənasız dartışmanı bitirin – dedi. - Bircə o qalmışdı ki, azərbaycanlı ilə türkiyəli Yerevanda bir-birlərini qırsınlar.

Gülayla Zaur da daxil olmaqla, masadakılar qəşş edib güldü. Doğrudan da azərbaycanlı ilə türkiyəlinin Ermənistanda dava eləməsi ehtimalı, çox absurd səslənirdi.

Araq butulkaları boşaldıqca tanışlıq mərasimi köhnə dostların yeyib-içmək məclisinə çevrilirdi. Hələ Gertsenin cavabını axtardığı "kimdir müqəssir?" sualı üzərində baş sındıran bu insanların daha çox Rusiyanı günahlandırıb, şimal qonşuya lənət oxumaları təbii və ənənəvi olsa da, Borisin Cənubi Qafqaz münaqişələrində daha çox CIA-nın barmağının olduğunu iddia etməsi sərxoş Zaurda təəccüb doğurdu. David isə onunla razılaşmayaraq:

- Regionumuzda günü-gündən metastaz verən bu separatizmi, münaqişələri, qardaş qırğınlarını Rusiya yaradıb - dedi və növbəti badəni Saakaşvilinin sağlığına qaldırmağı təklif etdi. Ermənilər Gürcüstan prezidentinin sağlığına həvəssiz içdilər.

Yarım saatdır qonşu masada oturub qəhvə içən əlli yaşlarında kişi, Saakaşvilinin sağlığına zorakı içənlərin hələ də özlərinə gəlməmiş olmalarını fürsət bilib ayağa qalxdı və masalarına yaxınlaşdı:

- Sizə qoşula bilərəm dostlar? – rusca soruşdu.

Boris və digər ermənilər bir ağızdan:

- Əlbəttə, o nə sözdü. Buyurun əyləşin – dedilər.

Kişi oturub yerini rahlayandan dərhal sonra, masaya yaxınlaşan ofisiant onun qabağına çəngəl-bıçaq, boşqab və araq qədəhi qoydu.

- Üzr istəyirəm hamınızdan, səhərdən qeyri-ixtiyari olaraq söhbətlərinizə qulaq asıram. Mənim adım Aradır. Belə başa düşdüm ki, burada Azərbaycandan və Türkiyədən qonaqlarımız var. Bu çox gözəl haldır. Evim yaxınlıqda olduğundan, hər gün demək olar ki, bu otelin restoranında nahar, şam edirəm. Özüm tək yaşayıram. Mədəm xəstə olduğuna görə, yüngül qidalarla qidalanıram. Qatıq, soyutma kartof filan. Şadam ki, Ermənistanla problemləri olan iki ölkənin vətəndaşı bu gün burada, sülh və dostluq atmosferində erməni dostları ilə içki içib, şənlənirlər.

Zaur qədəhini başının üstünə qaldıraraq etiraz etdi:

- Sözünüzü kəsdiyim üçün üzr istəyirəm, amma bir məqama düzəliş gətirməliyəm – bizim ölkələrimizin Ermənistanla problemi yoxdur. Amma Ermənistanın hər iki ölkə ilə problemi var.

Rusca gedən söhbəti anlamayan Gülay, Zaurun sözlərindən sonra Aranın sifətinin turşuduğunu görüb Zurun qulağına əyildi.

- Mənə də tərcümə eləyin də. Başa düşmürəm axı.

- Bu kişinin adı Aradır. Bizim masada oturmaq üçün icazə istədi, Boris də etiraz etmədi. Deyir ki, bizi görməyinə çox şaddır. Nə isə ürəyi doludu, qoy danışsın mən də yavaş-yavaş tərcümə edərəm.

Ara boşqabına Sevan gölündə üzən İşxan balığından bir tikə qoyub, onun üçün süzülən arağı qaldırdı:

- İcazənizlə tost demək istəyirəm. Baxmayaraq ki, azərbaycanlı qonaq mənimlə razılaşmadı, onun sözlərində müəyyən həqiqətlərin olduğunu mən də qəbul edirəm. Qıraqdan doğrudan da elə görünür ki, Ermənistan bütün qonşuları ilə düşmənçilik edir. Əslində dövlətlərin, siyasətçilərin bir-birləri ilə olan problemləri bizi maraqlandırmamalıdır. Sadə insanlar dostluq istəyir, sülh istəyir. İçək gec-tez regionumuzda bərqərar olacaq sülhün şərəfinə! Yaşasın Qafqaz xalqlarının dostluğu və qardaşlığı.

Zaur bir nəfəsə arağını içib, deyilən tostu kirpiklərini döyəcləyərək Araya baxan Gülaya tərcümə elədi. Qadın gülümsədi və qədəhindən bir qurtum araq içdi. Ara iri balıq tikəsini ağzına atıb çeynədikdən sonra, qalstukunun düyününü bir az boşaltdı və dedi:

- Türkiyəli xanım məndən inciməsə, sizə ailəmin hekayətini danışmaq istərdim.

Aranın xahişini Zaurun tərcüməsində başa düşən Gülay başını yelləyərək və gözlərini ciddiyyətlə qıyaraq Araya "buyurun, danışın inciyən deyiləm" mənasına gələn bir işarə verdi.

Ara gözlərini masanın ortasındakı yaşıl plastik duzqabına zilləyib kal səslə danışmağa başladı.

- Azərbaycanlı dostumuz Ermənistanın hər iki dövlətlə problemlərinin olduğunu dedi. Bayaq da dediyim kimi, bu sözlərdə həqiqət payı var. Amma "nə üçün" sualını gənc dostumuz özünə veribmi? Azərbaycanla problemlərimizin necə, nə vaxt və nə üçün başladığını biz hamımız bilirik. Bu çox yaxın tarixdir. Amma gənc dostumuz Türkiyə ilə problemlərimizin mahiyyətinə nə dərəcədə bələddir görəsən?

Zaur onun dediklərini Gülaya tərcümə etməyə çalışırdı. Aranın ağ saçlarından, iri burnundan, qırışmış alnından gözlərini ayırmayan Türkiyəli jurnalist isə, arada-bir başını bulayaraq, diqqətlə "tərcüməçisinə" qulaq asırdı. David isə diqqətini cəmləyib balığın quyruğunu didir, Aranın hekayəti ilə maraqlanmırdı.

- Başağrısı olmasaydı, sizə öz ailəmin faciəsindən danışmaq istərdim.

Boris əlini Araya doğru uzadıb, göz qapaqlarını endirdi:

- Buyurun əzizim, danışın. Biz sizə qulaq asırıq.

- Təşəkkür edirəm. Mənim atam 1912-ci ildə, Bitlis şəhərində dünyaya göz açıb. Onun bizə danışdığına görə Bitlisdə çox sakit və rahat həyat sürürmüş. Babamın iki mərtəbəli evi varmış. Birinci mərtəbəsindən tövlə kimi istifadə edilirdi – bu tövlədə iri buynuzlu heyvanlar ayrı, keçilər, donuzlar isə ayrı bölmələrdə qalırdılar. Tövlənin qapıları meşəyə baxırdı. Kəndin quzeyində kəmərli bir abidə-bulaq var idi. Dağın ətəyindən axıb gələn çay isə, dəyirmanımızı fırladırdı.

Atam danışırdı ki, Bitlisin qışı çox sərt olardı. Belə soyuq qış fəsillərindən birində, dağlardakı qar sürüşüb kəndimizin yollarını bağlamış, hətta evimiz də qarın altında qalmışdı. Səhər babam tövləyə baş çəkəndə, heyvanların hamısının tələf olduğunu görmüşdü.

Kəndimizdə gözəl, xudmani bir kilsəmiz də var idi. Əhalimiz tanrıya inanan, dindar, təmiz ürəkli insanlar idi. Babam da çox xeyirxah adam olub. Bitlisə gedən yollarda qonaq evləri tikmişdi ki, qışda səyyahlar gəlib orada hazır yemək tapsınlar, qızışsınlar. Odur ki, bu evlərə mütəmadi olaraq ərzaq, odun yığardı.

Van müharibəsində babam övladları ilə birlikdə bir mağaranın içində silah emalatxanası qurub orada fədailər üçün tüfənglər, silahlar düzəldirdi. Fədailərin başçısı, bibimin əri Qnel çox yaraşıqlı adam idi.

Gecələrin birində Qnel öz dəstəsi ilə Türklərin bağladığı dağ keçidinə gəldi. Gecənin zülmət qaranlığında Türk əsgərlərini məhv edib, Vana gedən yolu açdı. Bilirsinizmi, biz bitlislilərə nə qədər zülm edilmişdi? Bizimkiləri diri-diri yandırırdılar. Sağ qalanlar Vana köç etməyə başlamışdılar. Qnel onlarla birlikdə Vana gedib çıxmışdı.

1915-də isə bizimkilər İrana köçdülər. Başqa ölkələrə gedənlər də oldu. 1915-1917 illəri arasında, yəni iki il atam İranda qaldı. Sonra Rusların Bitlisə çatdığını biləndə, təzədən Vana qayıtmışdılar. Bolşevik inqilabından sonra Ruslar dala çəkildilər və bizi özləri ilə Vağarşapata apardılar.

Atam danışırdı ki, onu və bacısı Sirbuxini bir heybənin içində gizlətmişdilər. Nənəmin ayaqları şişdiyi üçün, onu qatıra mindirmişdilər. Xoşəba çayının yanında Zilanlı Kürdlər Türk ordusu ilə birlikdə üstümüzə hücum çəkib soyqırıma başladılar. Biz böyük itkilər verdik.

Kürdlər bizi əsir alıb nənəmdən haralı olduğunu soruşmuşdular, nənəm isə Xizanlı olduğunu demişdi. Kürdlər bunu eşidib:

- Xizanlısınızsa oranın şeyxini də tanımalısınız – demişdilər.

Nənəm isə cavab vermişdi ki, “oranın şeyxi - şeyx Sandaldır”.

O adı eşidən kürdlər, atamgili öldürməkdən vaz keçmişdilər. Amma üstlərində, yanlarında nə varıydısa qarət eləmişdilər.

Bax beləcə zülmlərdən keçib, dünyanın müxtəlif ölkələrinə səpələnib, axırda gəldik çıxdıq Yerevana. Mən də bu şəhərdə dünyaya gəlmişəm. Halbuki soyqırım olmasaydı, Bitlisdə, öz ana vətənimdə doğulacaqdım.

Ara əhvalatını danışıb bitirdi, başını qaldırıb Gülayın düz gözlərinin içinə baxdı. Qadın başını əydi. Bayaqdan diqqətlə Araya gözlərini zilləmiş ermənilər, hətta yeməkdən başını qaldırmayan David belə Gülayın reaksiyasını görmək üçün üzlərini ona tərəf çevirdilər. Paruyr Manvelyan, Georgiy Vardanyan, Sergey Strekalin, Boris və qonşu masada oturan mühafizəçilər sınıxmış, qəhərlənmişdilər. Sağ ovucu ilə gözlərini tutan Gülayın yüngülcə qalxıb-enən çiyinlərindən ağladığı məlum olurdu. Budur, ilk damcılar barmaqlarının arasından süzülməyə, yanağından axmağa başladı. Aranın danışdıqlarını tərcümə etməkdən yorulan Zaur Gülaya tərəf səyirdərək pıçıltı ilə “özünüzü ələ alın” deyib, bir siqaret yandırdı. Ölü səssizlik çökmüşdü masaya. Heç kəs dinmir, heç kim ağzını birinci açmağa cəsarət etmirdi. Zaur bu ürpərdici sükutun uzun çəkə biləcəyindən qorxaraq, ağlına gələn ilk sualı verdi.

- Ermənistanda cinsi azlıqlara münasibət necədir? Qayıdandan sonra bu barədə də yazmaq istərdim.

Boris ildırım vurmuşa döndü. Ağzı aralanmış, qulaqları bir anda qızarmışdı. Dostları ilə baxışıb çiyinlərini çəkdi, qollarını araladı. David də Zaurun verdiyi bu qəfil sualdan baş çıxara bilmirdi. Gözləri Zaurun sifətində gəzişir, sanki sualının cavabını onun üz cizgilərində axtarırdı. Gülay göz yaşlarını silib Araya baxdı:

- Ailənizin dramı mən çox kövrəltdi. Amma siz də bilin ki, sizi qıran türklər yox, kürdlər olub. Qatillik onların xislətindədir. İndi də bizim xalqımızı qətlə yetirirlər. Amma cənablar – deyən Gülay bir-bir masadakılara yoxlayıcı nəzər saldı – Zaurun verdiyi sual məni də maraqlandırdı. Mən də Ermənistanda geylərə münasibətin nə yerdə olduğunu bilmək istərdim.

Hamıya maraqlı idi – görəsən bu barədə kim danışacaq? Hətta kənarda oturan mühafizəçilər də çaşqın və pərt görünürdülər. Zaurdan hövsələsizlik oxunan gözlərini qaçırdan Boris, dostlarından kömək diləyirmiş kimi bir-bir onların üzlərinə baxırdı. Araya çökən səssizliyi Sergey Strekalin pozdu və ingilis dilində:

- Geylər barədə bu masada ən məlumatlı adam hər halda mənəm – dedi.

Hamı diksinib ona baxdı. Gülay motal pendirindən bir tikə ağ-zına atdı, ardınca da lavaşdan dişləyib Sergeyə:

- Yəqin ki, bunun bir səbəbi olmalıdır?

- Nəyin?

- Ən məlumatlı olmağınızın.

- Həə, başa düşdüm. Doğrudan da elədir. Keçən il bir fransız QHT-si üçün monitorinq keçirmişdim. Mən özüm Gümri şəhərindənəm. Gümri ənənələrə çox bağlı, patriarxal şəhərdir. Orada homoseksuallığa böyük nifrət var. Deyə bilərəm ki, Gümri homofoblar şəhəridir.

Zaur:

- Onda belə çıxır ki, Gümridə latent homoseksuallar çoxdur – dedi. Bu sual yox, faktın konstatasiyası kimi səsləndi.

Sergey qərarsızlıqla, tərəddüd keçirərək:

- Mən bu qədər kateqorik olmazdım - dedi. – Amma radikal homofobların əsasən homoseksuallar arasından çıxması da bir faktdır.

Paruyr və Georginin ona etiraz etmək, mübahisəyə girişmək arzusunda olduqları üzlərindən oxunsa da, bu məqamda Sergeyə müdaxilə etməyin yersiz olacağını düşünüb susdular.

- Mən monitorinq keçirəndə, təsadüfən öyrəndim ki, səkkiz gey Yerevan kafelərinin birində toplaşıb, ölkədə ilk dəfə seksual azlıqların hüquqlarını müdafiə komitəsi qurmağın perspektivlərini müzakirə edəcəklər. Getdim yanlarına, söhbət elədim. Mənə dedilər ki, erməni cəmiyyətində hökm sürən dözümsüzlük atmosferində yaşamağın alternativ yollarını araşdırdılar. Maraqlısı o idi ki, onların arasında bircə nəfər də Yerevanlı gey yox idi. Dörd bölgədən gəlmişdilər - Gümri, İcevan, Gorus və Eçmiədzin. Mən paytaxt geylərinin nə üçün onlara qoşulmadıqlarını soruşanda, dedilər ki, yerevanlılar adam arasına çıxmaqdan, tanınmaqdan qorxurlar. Eçmiədzindən gələn 23 yaşlı Qriqor isə gey olduğunu açıq-açıq hayqırmaqdan qorxmadığını, homoseksuallığını elan etməyə hazır olduğunu demişdi mənə. "Cinsi orientasiyamızı gizlətməklə, biz Ermənistan cəmiyyətində tolerantlığa nail ola bilməyəcəyik" deyirdi.

Gözlənilmədən Boris Sergeyin sözünü kəsdi:

- Keçən dəfə ILGA France təşkilatının saytına girmişdim. Orada erməni geylərinə çağırış var idi. Onlara bir-birləri ilə görüşmək, tanış olmaq, problemlərini birlikdə müzakirə edib həll yollarını axtarmaq təklif olunurdu.

- Səndən nə əcəb, ILGA-nın saytına girirsən? – Paruyr istehza ilə soruşdu.

Boris özünü itirmədi:

- Mən QHT rəhbəriyəm və Ermənistandakı sosial problemlərlə bağlı bütün məlumatları, faktları öyrənməliyəm, araşdırmalıyam. Burada nə var ki?

Borisin arqumenti onu qane etmiş olacaq ki, Paruyr gülümsədi və başını aşağı endirməklə kifayətləndi.

Zaur söhbətə qoşuldu:

- Azərbaycanda geylər özlərini daha sərbəst hiss edirlər. Əlbəttə, Azərbaycan cəmiyyəti də patriarxaldır, amma bizdə sizdəki qədər geylərə təzyiq olunmur. Həm də bizim homoseksuallar daha təşkilatlıdırlar.

Sergey Zaurun sözlərini təsdiqlədi:

- Azərbaycanda geylərin nisbətən daha azad mühitdə yaşadıqlarını mən də eşitmişəm. Təəssüf ki, bizim geylərin belə bir şansı yoxdur. Əvvəla faiz nisbətində onların sayı Azərbaycandakı qədər çox deyil. İkincisi isə bizim cəmiyyət azərbaycanlılar kimi geyləri qəbul etməyə hazır deyil.

- Bəs Ermənistanda geylər bir-birləri ilə necə ünsiyyət qurular, harada tanış olurlar? – Gülay soruşdu.

- Əlbəttə internet vasitəsilə. Amma internetlə də tanış olanda, dərhal görüşməyə tələsmirlər – qarşı tərəfdəki adamdan qorxurlar, ehtiyat edirlər ki, birdən duzaq olar. Məsələn Yerevan Dövlət Universitetinin sosiologiya fakültəsindən məzun olan Karenin başına bir dəfə buna oxşar hadisə gəlmişdi – internetdə tanış olduğu bir oğlanın görüşünə getmişdi və onu zorlamışdılar. Şəhər kənarında bir bağ evində, üç nəfər üstünə düşüb növbə ilə onunla cinsi əlaqəyə girmişdi. Karen indiyə qədər psixiatrın nəzarətindədir, müalicəsi davam edir.

Gülay əlləri ilə ağzını örtüb bərkdən zarıdı:

- Aman allah, bu necə ola bilər axı! Biz iyirmi birinci əsrdə yaşayırıq! Bəs Karen polisə müraciət etmədi?

Sergey acı-acı gülümsədi:

- Polisə müraciət etsəydi, polis idarəsində işgəncəyə məruz qalacaqdı, özünü zorlayacaqılar orada. Sonra da valideynlərinə, iş yerinə xəbər çatdıracaqdılar. Son ümid qalır beynəlxalq təşkilatlara. Amma biz monitorinq keçirən zaman, ATƏT-in Yerevan ofisində işləyən Kristina Mardirosyan onlara geylərdən şikayət daxil olmadığını demişdi mənə. Bircə Helsinki Vətəndaş Assambleyasından nəsə umurlar. Bu təşkilat geylərin ən çox etibar etdikləri qurumdur. Helsinki Vətəndaş Assambleyasının Ermənistan ofisinin sədri Mikael Danielyana xeyli müraciətlər daxil olur. Polisə düşən geylər dərhal ona zəng vururlar, o da gedib onları idarədən çıxarır.

- Amma məndə, erməni cəmiyyətində nə vaxtsa geylərə qarşı dözümlü münasibət yaranacağına ümid yoxdur. Bizim xalq, nəsil artımında iştirak etməyən kişiyə, ya da qadına yaxşı münasibət bəsləyə bilməz. Bu əbədiyyən belə olacaq - Bu sözləri deyən mühafizəçi Artur idi. Onun gözlərindən təəssüf və xalqından ötrü duyduğu xəcalət oxunurdu.

***

- Axşamın xeyir.

- Ola bilməz.

- Görürsən ki, istəyəndə olur.

- ...

- Nə oldu? Hara batdın?

- Qulaqlarıma inana bilmirəm. Yox, əlbəttə mən gözləyirdim. Bilirdim gələcəksən. Amma yenə də inana bilmirəm... Nömrə də Yerevan nömrəsidir... Hardasan?

- Anais mehmanxanasında.

- Razdan çayının üstündə?

- Bəli...
- Yerevan barədə ilk təəssüratlarını eşitmək istərdim.
- Şəhəri əvvəl bir gəzib görmək lazımdır axı. İndidən nə deyə bilərəm. Amma əmin ola bilərsən ki, obyektiv qiymət verəcəyəm.
- Sənin obyektivliyinə və temperamentinə şübhə etmirəm.
- Sənin kimi subyektiv səbəbim ola-ola, mən necə obyektiv olmayım?
- Ha ha. Çox sağol. Dəqiq nə vaxt gəlmisən?
- Bir neçə saat olar. Bayaqdan restorandaydıq. Türkiyəli jurnalistlə, Borisin adamları ilə tanış oldum.
- Çox içmisən?
- Bir o qədər də yox. Sadəcə türk jurnalist üçün çoxlu tərcümə etmişəm. Çənəm ağrayır. Elə bil iki saat dayanmadan minet eləmişəm. Sabah müzakirələrə başlayırıq.
- Müzakirə olunası nə qalıb axı?
- Məncə də heç nə qalmayıb. Amma sülhməramlılığı imitasiya etmək lazımdı ya yox?
- Yəqin ki, lazımdır...
- Otelə gəlmək istəyirsən?
- Kim var orda səndən başqa?
- Necə yəni kim var? Təkəm.
- Bəs sənə mühafizəçi verməyiblər?
- Veriblər. Onlar aşağıda oturublar. Gəlsən görəcəksən. İki nəfər pəzəvəng. İkisinin də tapançası var. Addımbaşı məni təqib edirlər.
- Lap prezidentlər kimi.
- Aha. İndi başa düşürəm prezidentlər, nazirlər nələr çəkirlər.
- Düzdür. Onların həyatı çox ağır keçir.
- Hə, nə qərara gəldin? Gəlirsən?
- Sən hesab edirsən ki, mən Anais otelinə gəlməli və o alçaqlara görünməliyəm?
- Deyirsən problem yarana bilər?
- Səncə yaranmaz?
- Mənim yanıma dostumun gəlməsi problemdi?
- Səncə bir azərbaycanlının Yerevanda dostunun olması xüsusi xidmət orqanlarını maraqlandırmaz? Mənim kim olduğumu, ailəmi araşdırmayacaqlar?
- Tutaq ki, araşdıracaqlar. Sənin gizlin nəyin var axı?
- Ailəmin narahat edilməsini istəmirəm. Elə özümün də. Onlarla ünsiyyətdə olmaq mənim üçün əzabdır.
- Onda elə çıxır ki, indi telefon danışığımıza qulaq asırlar?
- İstisna etmirəm.
- Onda istəyirsənsə burada söhbəti bitirək. Sonra sənin üçün problem yaranar.
- Gərgin olduğunu başa düşürəm. Amma sən də məni başa düşməlisən. Səncə ehtiyatlı olmağım təbii deyil?
- Sözlərindən belə başa düşdüm ki, biz ümumiyyətlə görüşməyəcəyik. Telefonla da danışmalı deyilik. Sən bunu təbii adlandırırsan?
- Xeyr. Amma bu reallıqdır. Risk zərurətdən yaranmalıdır. Bizim isə görüşmək kimi bir zərurətimiz yoxdur.
- Deməli belə bir zərurət yoxdur!?
- Əlbəttə yoxdur. Bir az da məni anlamağa çalış. Mən danışanda mənə verəcəyin cavabı düşünmə, mənim dediklərimi düşün. Yüzlərlə nəzərin üzərimizdə olacağını bilə-bilə görüşməyin nə mənası var? Onların bizi alçaltmalarına icazə verməliyik? Lap porno filmdə rol alan aktyorlara oxşayacağıq. Sən gedəndən sonra, bəlkə də elə sən getməmişdən də əvvəl onlara izahat verməli olacağam – səni hardan tanıyıram, neçə vaxtdır münasibətlərimiz var, bu münasibətlərin xarakteri nədir, azərbaycanlılar haqqında nə düşünürəm... Bunlar mənə lazımdır?
- Amma biz belə danışmamışdıq...
- Necə danışmışdıq? Sən Yerevana gəlmə ehtimalının olduğunu mənə yazanda, sonra da dəqiq gələcəyini deyəndə, sənə “mütləq görüşərik” demişdim?
- ...
- Demişdim?
- Yox.
- Onda məni nədə günahlandırırsan?
- Haqlısan... Deməli sən hər şeyi əvvəlcədən bilirdin?.. Bilirdin ki, görüşməyimiz yəqin ki, baş tutmayacaq. Gecə-gündüz mühafizəçilər ətrafımda olacaqlar.
- Bunu sən də bilirdin. Amma nə üçünsə ciddi qəbul eləmirdin.

- Bəs onda mənim Yerevana gəlməkdə məqsədim nədir?
- Bunu məndən soruşursan?
- Mənim bircə məqsədim var idi – səninlə sənin yaşadığın şəhərdə görüşmək. Sən də bunu bilirsən.
- Təəssüf ki, bu mümkün deyil. Bu binamusların bizi alçaltmalarına, təhqir etmələrinə göz yuma bilmərəm. Biz... biz belə ağır şərtlərdə görüşəcək, özümüzü riskə atacaq qədər aciz deyilik. Şükür ki, Tiflis ixtiyarımızdadı.
- Bizə qulaq asa bilərlər. Bəs bundan qorxmursan?
- Qulaq asmaları bir ehtimaldır. Ola bilsin heç qulaq asmırlar da. Amma görüşsək, qanımızı qaraldacaqlar. Sənin otağına gəlsəm, onlardan biri yanımızda oturmaq istəyəcək. Bundan əmin ola bilərsən. Boris isə sənə heç cür kömək edə bilməz. Yaxşı yadıma düşdü, Boris ordadı?
- Yox, gedib... Artuş?
- Bəli.
- Belə olacağını bilsəydim, gəlməzdim... Sənsiz burada olmağın nə mənası var? Sən mənə bu barədə heç nə deməmişdin. Niyə?
- Bəlkə də Yerevana gəlməyini istədiyim üçün.
- Səni başa düşə bilmirəm.
- Başa düşülməyəsi nə var? Bu şəhəri görməyini istəyirdim. Şərt deyil ki, biz görüşək.
- Sən ağlını itirmisən Artuş...
- Mən ağlımı hələ Bakıda, uzun illər əvvəl itirmişəm...
- Sabah axşam şəhərə çıxacağıq. Bəlkə hardasa görüşək?
- Elə dediyini deyirsən. Şəhərdə görüşməklə oteldə görüşməyin arasında nə fərq var?
- Mən səni uzaqdan da olsa görmək istəyirəm.
- Bu qədər zəif olma. Özünü ələ al. Sən evdəkilərə nə dedin?
- Başa düşmədim.
- Dedin Yerevana gedirəm, yoxsa?..
- Birtəhər başa saldım vəziyyəti. Anam çox pis oldu, ağlayıb özünü yoldu. Elə atam da özündən çıxmışdı. Amma indi bunlar məni maraqlandırmır. Nə vaxta qədər onları düşünərək yaşamalıyam? Mənim də öz həyatımı istədiyim kimi yaşamağa haqqım var.
- Sən onsuz da istədiyin kimi yaşamırsan?
- Sən buna yaşamaq deyirsən? Əslində ağlıma bilirsən nə gəlib? Deyirəm bəlkə biz artıq ölmüşük və indi cəhənnəmdə yaşayırıq?
- Nə mənada?
- Əvvəlki həyatımızda işlədiyimiz günahlarımızdan ötrü burada, dünya adlanan məkandayıq. Sən cəbhənin obiri xəttində, mən isə burada. Bizə də elə gəlir ki, yaşayırıq. Dünyada yaşayırıq və nə vaxtsa öləcəyik... Halbuki biz çoxdan ölmüşük.
- Nə olub sənə?
- Heç özüm də bilmirəm... Deyəsən depressiyaya yuvarlanıram yavaş-yavaş. Yerevan depresivdir. Həyat isə... məncə simulyakrdır.
- Bununla razıyam - həyat da, müharibələr də, elə maşınlar, göydələnlər, supermarketlər də. Ən böyük simulyakr isə bizim münasibətlərimizdir. Yerevanın depresivliyi isə öz yerində.
- Münasibətlərimizdə dəyişən nəsə var?
- Bu nə deməkdi axı?
- Soruşuram. Bəlkə bilmədiyim nəsə var? Açıq deyə bilərsən.
- Sən get-gedə paranoikləşirsən. Dəyişən heç nə yoxdur, ola da bilməz.
- Amma sənin səsin həmişəki kimi deyil. Qanının qara olduğu hiss olunur.
- Xalam vəfat edib dünən. Onu çox sevirdim.
- Sənin Yerevanda xalan var idi?
- Hə. Ana tərəfimiz Yexeqnadzorludur.
- Heç bilmirəm nə deyim...
- Bir söz deməsən də olar. Siruşo xalam biz qaçqın düşəndə bizə çox əl tutmuşdu. Onsuzda çox ağır həyat yaşamışdı. Ərə də gedə bilməmişdi. Səkkizinci sinifdən nənəmin yanında, fermada sağıcı işləməyə başlamışdı. Lenin komsomolu mükafatı laureatı idi. “Sovet Ermənistanının 40 ili” sovxozunda çürütmüşdü ömrünü.
- Səni başa düşürəm Artuş.
- Bilirəm, mənə təsəlli verməyə çalışırsan amma çətin ki, sən məni başa düşəsən.
- Düz deyirsən...
- İncidin məndən?
- Yox, yox. Sadəcə olaraq bilmirdim bu qədər ağır olacaq.

- Nə ağır olacaq?
- Bax belə olacaq - görüşə bilməyəcəyik, hətta telefonla danışarkən də sözlərimizə fikir verməli olacağıq. Sənin kədərini başa düşürəm, amma mən Yerevan səfərimi ayrı cür təsəvvür edirdim. Başqa cür planlaşdırmışdım hər şeyi.
- Fikirləşirdin ki, Yerevanda gezəcəyik, Ermənistanın mənzərəli yerlərinə birlikdə baş çəkəcəyik, hətta mən də oteldə, sənin yanında qalacağam. Otel xərcimi də Boris çəkəcək.
- Təxminən belə düşünürdüm. Düz deyirsən.
- Nahaq yerə belə düşünürdün... Tiflisdə görüşə bilərik.
- Nə vaxt?
- Bir ay sonra demək olar ki, işlərimi bitirib lap lazım olsa iki həftəliyinə Tiflisə gələ bilərəm. Bəs sən?
- Ola bilər. Deməli görüşmək üçün bir ay da gözləməli olacağam?
- Özün də bilirsən ki, mənim bundan tez gəlmək imkanım olsaydı gələrdim.
- Yaxşı Artuş. Sən deyən olsun.

Dəstəyi qəzəblə tullayıb pəncərəyə yaxınlaşdı. Yoldan ötən maşınların işıqlarına tamaşa edir, bir yandan da hönkürtü ilə ağlayırdı. Bakıda, 2 saylı məktəbin sinif otağından götürdüyü təbaşiri cibindən çıxardıb ovcunda ovdu, tozu yerə səpələdi.

Yerevan ona düşərli olmamışdı.

***

Səhər saat səkkizdə Zaurun yuxusunu qapının taqqırtısı böldü. Qapını tələbkarlıqla döyən Artur, azərbaycanlı qonağı qəlyanaltıya oyadırdı. Artuşla telefon söhbətindən sonra gecə narahat yatan, kabuslar görən Zaur ürəyində Arturu söysə də, bir yandan əzablı yuxudan oyandırıldığı üçün sevinirdi. Qapını aralayıb qızarmış gözləri ilə Artura baxdı:

- Uzağı yarım saat sonra restorandayam. Özüm düşərəm, əziyyət çəkib gəlməyin. Qaçan deyiləm.

Artur istehza ilə qımışdı:

- Burdan qaçmaq onsuzda mümkün deyil. Küçədə də adamlarımız var.

Bunu deyib şəstlə pilləkənlərə doğru addımladı.

Zaur Yerevana gəldiyinə görə ürəyində əvvəl özünü, sonra da Borisi söyüb qapını çırpdı.

“Doğrudan da, nə işim var axı burda? Hələ ömrümdə belə mənasız səfərim olmamışdı. Artuş da özünü naza qoyub. Xalası, sağıcı Siruşonun ölümü ona bu qədər təsir edibsə, deməli vəziyyət mən düşündüyümdən də qat-qat ağır imiş”.

Duş qəbul edib üstünü geyindi. Tələsmirdi. Hətta balkona çıxıb bir az Yerevan sübhünə tamaşa elədi. Ermənilərə dağ çəkən Ararat dağı - bütün görkəmi ilə üfüqdə ucalırdı. “Ermənilər Araratı görəcəklər, amma ona yaxın düşə bilməyəcəklər” deyən Stalinin sözü aktuallığını hələ də qoruyurdu. Son dəfə güzgüyə baxıb boynunu xırçıldatdı və otaqdan çıxıb, tələsmədən restorana düşdü.

Ondan savayı hər kəs, hətta gecə oteldə qalmayan Paruyr, Sergey, Boris və Georgiy də restoranda on iki nəfərlik nəhəng masanın ətrafında əyləşib, iştahla yeməklərini yeyirdilər. Artur Zauru görüb, məmnunluqla başını endirdi və mühafizəçi ortağı ilə söhbətinə davam etdi. Sergeylə Borisin ortasında oturan Gülay Zauru görüb güldü:

- Tərcüməçim niyə belə gecikir?

Zaur masaya yaxınlaşıb heç Gülay tərəfə baxmadan hamıya “nuş olsun” dedi və Davidin yanındakı boş stula əyləşdi. Gülayın sifəti dəyişsə də, Zaura bir söz demədi. Pərt olmuşdu. Başını aşağı salıb qabındakı qaymağı qurdalamağa başladı.

Ofisiant Zaurun çayını gətirəndən sonra, David ehmalca ona tərəf əyilib pıçıldadı:

- Qoymuşam otu balkona, günəşin altına. Axşama qədər quruyacaq. Uzaqbaşı sabah çəkəcəyik.
- Bəlkə çəkməyək? Çox risklidir – Zaurun gözlərində əndişə oxunurdu.
- Səfeh-səfeh danışma. Yerevanda çəkməyəsən neyləyəsən? Görmürsən nə maraqsızdı bura? Ürəyim partlayır dünəndən. Buyur, soyqırım qurbanı da gəlir. Hazırlaş Gülaya tərcüməçilik eləməyə – David başı ilə qapı tərəfə işarə etdi. Zaur Davidin göstərdiyi istiqamətdə baxanda dünənki kişini, Aranı gördü. Qanı qaraldı.
- İşimiz var da. İndi də səhər yeməyimizi zəhər eləyəcək. Sən bundakı həvəsə bax. Sübh tezdən durub gəlir restorana.

Onların nə barədə belə acıqlı-acıqlı pıçıldaşdıqlarını anlayan Boris, ikisinə də göz vurdu.

- Narahat olmayın. Bu gün çox danışmağa icazə verilməyəcək ona. Lap danışsa da tərcüməni mən eləyərəm.

David “görərik” deyib meyvəli yoğurtunu qaşıqlamağa qoyuldu.

Ara 12 nəfərlik masanın küncünə çatanda hamıya “sabahınız xeyir” deyib, icazə istəmədən oturdu. Kefsiz idi. Bıçaq vursan qan çıxmazdı. Ofisiantı səsləyib südlü çay istədi.

Gülay 1915-ci ildə ulu babalarının ermənilərə tutduğu divanın verdiyi xəcalətdən irəli gələn qayğıkeşliklə soruşdu:

- Ara, nəsə baş verib? Yaman qəmgin görünürsünüz.

Ara köks ötürüb Gülaya baxdı.

- Nə deyə bilərəm vallah... Srağagün mənim üçün çox əziz, doğma olan bir insanı, həyatımın qadınını itirmişəm. Dünən gecə, buradan gedəndən sonra vəfat xəbərini aldım.

David Zaura gözucu baxıb astadan "gördün, yenə faciə baş verib" dedi. Ara isə çayını şəkər atıb qarışdıra-qarışdıra:

- Siruşo çox geniş ürəyə malik qadın idi. Mən onu tanıyan gündən, yetmişinci illərdən sağıcılıqla məşğul olub. Lenin komsomolu mükafatı laureatı idi. İnəklərin dilini başa düşürdü desəm, yalan olmaz.

Hamı diqqətlə Araya qulaq asan yerdə, Zauru öskürək tutdu. Gözləri yaşarmışdı, iki əli ilə ağzını tutub öskürürdü. David üç dəfə möhkəmcə onun kürəyinə yumruqla vurandan sonra, Zaur bir azca özünə gəlib ona təşəkkür elədi və:

- Üzr istəyirəm, bal boğazımda qaldı – dedi. – Buyurun davam edin.

Ara qüssə və kədər dolu gözlərini Zaurun üzündən ayırmadan danışmağa başladı:

- Biz onunla Yexeqnadzorda, sovxozda tanış olmuşduq. Əsl erməni gözəlliyinə malik qız idi. Əvvəl-əvvəl çətinlik çəkirdi, ildə hər inəkdən vur-tut 1600 kiloqram süd sağırdı. Mən də cavan oğlan idim, Yerevandan Yexeqnadzora komsomol təşkilatı göndərmişdi məni. Tanış olduq, ikinci gecə artıq bir-birimizi sevdiyimizi anladıq. Mən ona soyqırım qurbanı olan ailəmdən danışandan sonra o hönkür-hönkür ağlamış və məni sevdiyini demişdi. Sonra o da dərdini açdı mənə - inəklərlə ünsiyyət qurmaqda çətinlik çəkdiyini, 1600 kiloqram südün az olduğunu, daha artıq məhsul əldə etmək üçün nə etməli olduğunu soruşmuşdu. Qulluq etdiyi inəklərin hər birinin fərqli xasiyyətdə olduğunu, onların hər birinə ayrıca yanaşmaq lazım gəldiyini məsləhət görmüşdüm ona. Sonra mən Yerevan getdim. İki ay sonra yenə Yexeqnadzora gələndə artıq Siruşo cədvəldə sağımı göstərən əyri xətti 300 rəqəminə çatdırmışdı. Əl ilə sağan bir sağıcı üçün bu pis göstərici deyildi. Bu işgüzar qıza sovxozda hamı hörmət edirdi. Bir gün ondan məktub aldım: "Əzizim Ara, təsəvvür edirsən, mən sinəsində 3 Lenin ordeni olan Marina Naxşkaryanın yanında işləyirəm. O Ermənistan SSRİ Ali Sovetinin deputatı, respublikanın əməkdar maldarıdır. Ara can, əgər bilsəydin o necə sağıcıdır!" Siruşo iki il Marinanın yanından ayrılmadı, onun işinə baxdı, öyrəndi. Səksəninci ilin əvvəlində axır ki, zəhmətinin bəhrəsini gördü. Əməkdə qazandığı müvəffəqiyyətlərə görə, Siruşoya "Şərəf nişanı" ordeni verdilər. İki il də keçdi və Siruşo 5100 kiloqram süd sağaraq Moskvada, Qələbə bayrağı önündə şəkil çəkdirmək şərəfinə layiq görüldü. Sonra da Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olundu. O hər bir inəyə hətta ad da qoymuşdu – Hasmik, Suli, Svetka, Aykuş.

Srağagün mənim ilk göz ağrım Siruşo uzun sürən xəstəlikdən sonra həyata gözlərini yumdu. Aramızdakı məhəbbət iyirmi ildən artıq davam elədi. Amma biz evlənmədik – nə onun evlənməyə vaxtı, nə də mənim evlənməyə cəsarətim çatmırdı.

Ara əhvalatını danışmağı bitirib ofisiantdan ikinci çayı istədi. Gülay yumşaq salfetlə göz yaşlarını silib burnunu təmizləyirdi. Boris disrəklərini masaya dirəyib, başını iki əli ilə tutmuşdu. Zaur bir siqaret yandırdı və dəhşətlə ona baxan Davidlə göz-gözə gəlib çiyinlərini çəkdi.

***

Onu istəyirdi. Ağlamaq, bağırmaq, çarəsiz başını divarlara vurmaq, quş tək pərvazlanmaq istəyirdi. Ona sahib olmaq, sarılmaq, bərk-bərk sıxmaq, bir daha buraxmamaq, nəfəsini içmək, öpmək - ehtirasla, hirslə, qəzəblə öpmək - sinəsinə qısılmaq, baldırlarından tutub dizlərinə ağlamaq, gözyaşılarının tamını duymaq, unudaraq özünü tərli aləmdə, titrək vücudunun hər qarışına toxunmaq, şirin və zəif səsini duymaq üçün diqqət kəsilmək istəyirdi. Çox sevirdi, vəhşicəsinə sevirdi. Homoseksual sevginin daha qəddar olduğunu oxumuşdu amma buna inanmamışdı. İndi inanırdı.

İki günlük konfransı güc-bəla ilə yola vermişdi. Yerevanı – Opera meydanını, Abovyan küçəsini, Vernisaj yarmarkasını, Matandaranı onsuz gəzmişdi. Gəzdiyi heç bir yerin dadı-duzu yox idi. Boris nəsə danışırdı, David haranınsa şəkilini çəkirdi, mühafizəçilər bir an olsun yanından ayrılmırdılar, Gülay da küçədəki insanları söhbətə tutub Türk-Erməni münasibətlərinin gələcəyi barədə onların fikirini öyrənməyə çalışırdı. Hamı bir işlə məşğul idi – bircə Zaurdan başqa. O, heç nəyi görmür, heç kəsi eşitmirdi. Opera meydanında Borisin ona danışdığı əhvalatı da sonralar beynini zorlayaraq yadına salmışdı. Və yada saldıqdan sonra gülmədiyinə, Borisi pərt etdiyinə görə peşman olmuşdu.

- Sənə bu Opera meydanı haqqında bir rəvayət danışım. Səksəninci illərin sonunda meydan mitinqçilərlə qaynayırdı. Camaat "Qarabağ, Qarabağ" qışqırırdı. Mitinqin qızğın vaxtında, oradan keçən bir taksi sürücüsü maşını saxlayıb mitinq iştirakçılarından soruşur:

- Nə olub burda? Nə qışqırırsınız?

- Qarabağı almaq istəyirik.

Taksi sürücüsü sifətini turşudur:

- Axper can, Qarabağı neynirsiz?! Soçini götürün, Soçi daha yaxşıdır... - deyir və qaza basıb gözdən itir.

Zaur günəşli Yerevanın küçələrində fikirli-fikirli addımlayır, Borisin danışdıqlarını eşitmirdi.

- Necədir? Bəyəndin Yerevanı?

Borisin səsi haradansa uzaqlardan gəlirdi. Bu sual idi və sualı cavabsız qoymaq tərbiyəsizlik olardı.

- Rahat, komfortlu, çəhrayı ən əsası isə kompakt şəhərdir. Hər halda Bakıdan daha urbanistik təsiri bağışlayır - həm şəhərin özü, həm də insanları. Amma bu da müharibənin nəticəsidir... Qarabağ və Ermənistandan Bakıya əsasən aqrar elementlər axın etdilər. Bakının çöhrəsi dəyişdi. İndi Bakı böyük bir Mardakert, Amasya, ya da nə bilim Laçındır.

- Obyektiv qiymətinə görə çox sağ ol – öz paytaxtı ilə fəxr edən Borisin üzü gülürdü.

"Poplavok" adlı parkda, Coca-Cola yazılmış iri qırmızı çətirləri olan kafelərin birində ikisi oturmuşdular. Gülayla David mağazaları gəzməyə getmişdilər. Mühafizəçilər otuz metr aralıda, Arno Babacanyanın qəribə heykəlinin yanında gəzişirdilər.

- Amma əlbəttə ki, Yerevanla müqayisədə yeni tikililər, xarici maşınlar, bahalı butiklər Bakıda daha çoxdur – bu axmaq müqayisəni nə üçün apardığını, Zaur özü də bilmədi. Peşman olmuşdu, amma iş-işdən keçmişdi.

Boris Yerebuni pivəsindən üç qurtum içib "pəh-pəh" elədi və soruşdu:

- Zaur can, sən özün Bakıda harda yaşayırsan?

- İçəri Şəhərdə, Bakının mərkəzində.

- Qız qalasının olduğu yerdə?

- Elədir. Hətta pəncərəmizdən Qız qalasının yarısı görsənir. Amma indilərdə bir neft şirkətinin evimizə gözü düşüb. Yəqin onu satıb Bakının uzaq rayonlarının birində mənzil almalı olacağıq.

Boris siqaret yandırdı. Zaura da təklif etdi.

- Zaur can, mən çox gözəl bilirəm ki, sənin Bakının mərkəzində tikilən möhtəşəm göydələnlərdə mənzilin, Xəzərin sahilində villan, altında bahalı maşının və butiklərdən alış-veriş eləmək imkanın yoxdur. Bəlkə də heç vaxt olmayacaq. Düzmü deyirəm?

- Bəli, yəqin ki, heç vaxt olmayacaq...

- Neft və qazdan əldə olunan dollarların sənə və sənin kimi zəmanə qurbanı adamlara dəxli yoxdursa, sən və sənin kimilər bizim hamımızı idarə edən oliqarxların əlində oyuncağıqsa – belə olan halda Bakıda tikilən göydələnlərlə, villalarla, yollarda şütüyən bahalı maşınlarla və tanınmış kuturyelərin butikləri ilə fəxr etmək axmaqlıq deyilmi? Üzr istəyirəm əlbəttə... Sadəcə olaraq...

- Üzr istəmək lazım deyil Boris. Sözlərindən incimədim...

Boris bir ara duruxdu. Sonra tez özünə gəlib qəddarcasına davam elədi.

- Gənc dostum, bilirəm ki, kitab oxuyan oğlansan. Viktor Pelevinin "Ampire V" romanında ibrətli bir cümlə var. Yaşlı vampir, gənc vampirə həyat dərsi keçir və deyir ki, "Götverənlərin təlxəyi olmağa məcbursan". Tələbə razılaşmır, "təlxək olmaq istəmirəm" deyir. Müəllimin cavabı isə çox maraqlı və mənalıdır: "Götverənlərin təlxəyi olmaq istəmirsənsə, onda təlxəklərin götverəninə çevriləcəksən. Sənin üçüncü seçimin yoxdur".

Zaur ömründə ilk dəfə quluncundan müdhiş ağrı duydu. Sonra da, sanki kürəyinin sol tərəfindən batırılan soyuq xəncər qəlbinə yol tapıb, aortasına saplandı.

Zaur iki variantdan birini seçməli olduğunu çoxdan anlamışdı – hələ bir neçə ay əvvəl sözü gedən kitabı oxuyub qurtarandan sonra...

***

Daxilində qorxunc bir boşluq duyan Zaur, Sevan gölünə qədər prostrasiya vəziyyətindən çıxmadı. Fransuaza Saqanın "Salam hüzn" romanı düşmüşdü yadına. Hüzn yol boyunca hər şeyə - dağlara, zəmilərə, iri və xırda buynuzlu heyvanlara, hətta çəhrayı çoşqalara da çökmüşdü. Meşələrdə gizlənmiş evlərin bacalarından yüksələn duman, çiskinləməyə başlayan yay yağışı melanxoliyanı daha da şiddətləndirir, üç gün ərzində Artuşu görə bilməmiş, səsini isə bircə dəfə duymuş Zauru qəhərləndirirdi. Səhər, yola düşməzdən əvvəl Zauru ütülənərək qurudulmuş nəşəyə qonaq edən və indiyə qədər marixuananın təsiri altında olan David maşını saxlatdırıb yol kənarında başıboş gəzən çoşqaları tutmağa çalışanda hamı gülüşdü. Zaur da gülümsəməyə çalışdı. Ancaq üzündəki ifadə təbəssümdən çox, diş ağrısından əzab çəkən amma bunu gizlətməyə çalışan adamın saxta mimikasına oxşayırdı.

Sevana çatdıqları zaman, Zaur gölün də kefsiz olduğunu fərq etdi. Sevan - Tanrının göy üzündən yer üzünə tulladığı nəhəng, mavi mərmər parçasına oxşayırdı. Gölün sahilində on dəqiqə gəzişib təzədən maşına doluşdular. Boşluq davam edirdi.

***

Sərhəddə çox ləngimədilər. Ermənistanı tərk etmək, bu ölkəyə daxil olmaqdan daha asan imiş. Gəldiyi gün duyduğu həyəcan yox idi artıq, amma gözləri yenə də qara iti axtardı. İt yoxa çıxmışdı. Ola bilsin bu itin funksiyası üç gün əvvəl qaça-qaça Zaurun yanına gəlib onu stresdən qurtarmaq üçün özünü sığallatmağa icazə vermək, sonra da qeyb olmaq idi...

Gürcüstanın sərhəd zastavasında su gəlmədiyinə görə, gürcü əsgərləri çimmək üçün Ermənistan tərəfə keçirdilər.

Cənubi Qafqaz – Bakı rəssamlıq akademiyasının birinci kursunda oxuyan, rəssamlıqda yeni-yeni addımlarını atan naşının fırçasından çıxmış, keyfiyyətsiz karikaturaya oxşayırdı.

**QIZ QALASI**

*Qorxuram mən dərvişə sən deyəsən din tərk et,*
*Necə ki, bağladı zünnar Şeyx Sənan, erməni*

**1**

- Dayan oğraş! Dayan biqeyrət!

Səs arxadan gəlirdi. Müraciətin kimə ünvanlandığını bilməsə də, hər ehtimala qarşı ayaq saxladı. Bunu nə üçün etdiyini özü də bilmirdi. Axı onu belə ağır təhqirlərə layiq görəcək düşməni yox idi bu şəhərdə. Hava qaralmış, İçəri Şəhərin küçələrindən izdiham yığışmışdı. Dönüb arxaya baxmaq istəyirdi ki, düz yanında saxlayan Jiquli 07 model avtomobildən düşən iki bazburtlu oğlan, Zaurun qollarını buraraq onu maşının arxa oturacağına itələdilər. Sürücünün yanında heç kim oturmamışdı. İki pəzəvəngin arasında qalan Zaur, sağında oturan, üzündən ciddilik və kədər yağan oğlandan soruşdu:

- Bağışlayın, siz kimsiniz axı? Məni hara aparırsınız?
- Yum küpüvü götverən! Sənin ağzını sikmək bizə borc olsun!
- Axı mən sizə neyləmişəm? Bəlkə məni kiminləsə səhv salmısınız?
- Səhv salmışıq!? Ay anası qəhbə, səndən başqa Ermənistana gedib, oğraş daşnaklara götünü sikdirən var?

Bığlı, yekəpər gədə iyverən ağzını Zaurun sifətinə yaxınlaşdıraraq, qəhqəhəylə gülməyə başladı. Zaur ürəyinin bulandığını hiss etdi, başını aşağı saldı. Ən azından “mənzil başına” çatana qədər fikirləşməyə vaxtı vardı.

Ermənistana getdiyinə görə, onu kim qaçırda bilərdi? Polis? Yox, bunlar polisə oxşamırlar. MTN? Xeyr, MTN bu dərəcədə də primitiv işləmir. Yoxsa?...

Qarabağa Azadlıq Təşkilatı düşdü yadına. Adətən Ermənistana gedib-gələnləri hədələyən, döyən bu təşkilatın üzvləri olur. QAT-ın sədri Arif Yunusov dəfələrlə bəyanatla çıxış etmişdi ki, “Ermənistana gedənlər hər an bizim gənclərin hücumuna məruz qala bilərlər. Biz bunu açıq şəkildə, heç kəsdən çəkinmədən bəyan edirik. Ermənistana səfər edənlər bağışlanmayacaq!”.

Başını qaldırıb pəncərədən baxdı. Papanin məhəlləsinin qaranlıq küçələrinə oxşayan yerə gəlib çıxmışdılar. Yanındakıların profillərinə baxdı. Bu sifətlərdə zərrə qədər emosiya oxunmurdu. Hərdən bir, qarşıdan gələn maşınların işıqları sağında oturan bığlı oğlanın üzünə düşəndə, yanağındakı nazik çapıq nəzərə çarpırdı.

Qaranlıq və dolaylı yollarla irəliləyən maşın, nəhayət göy darvazanın qabağında saxladı. Zaur gözünü bığlının sifətindən ayıraraq, qabağa baxdı. Darvaza açıldı və maşın həyətə daxil oldu.

- Düş görüm ə, götverən! – bığlı onun üstünə çəmkirdi və Zauru qolundan tutaraq maşından kobudca çıxartdı.

Otuz kvadrat metrlik həyətin sonunda üç-beş nar və əncir ağacı gözə dəyirdi. İki mərtəbəli sadə evin sol divarı meynə yarpaqları ilə örtülmüşdü. Evin qapısı açıldı və...

Özüdür ki, var... Arif Yunusov Zauru şəxsən qarşılamaq üçün düz maşının yanına gəlir və sanki “bu da axırı” demək istəyircəsinə gülürdü.

- Salam cavan oğlan! Eşq olsun gənc QHT-şnikə!

Arif Yunusov yeyin addımlarla Zaura yaxınlaşıb onun başını sığalladı.

- Arif bəy, məni niyə bura gətirmisiniz?

Ona cavab vermək yerinə Arif üzünü bığlı oğlana tutdu:

- Salın bu alçağı lüks nömrəyə. İndi özüm də gəlirəm.

Lüks nömrənin nə olduğunu Zaur çox tez başa düşdü - nəm, yarı qaranlıq, beton divarlı və döşəməli otağın ortasında “lüks nömrənin” sakinləri üçün taburetka da nəzərdə tutulmuşdu. Onu bu taburetə oturtdular və “Arif müəllim gələnə qədər mumla” tapşırdılar. Arif Yunusov 5 dəqiqə sonra gəldi. Gəldi nə gəldi! Otağa girən kimi sualsız-kəlamsız Zaurun çənəsinə vurduğu yumruqla onu soyuq, beton döşəməyə aşırtdı.

- Oğraş!!! Götverən!!!
- Mə... mən... neyləmişəm!?

Arif Yunusov onun sualını cavablandırmaq yerinə, qarnına bir dənə də təpik ilişdirdi.

- Hə, niyə dinmirsən? Danış da!

Zaur əlini dodağına toxundurub barmaqlarındakı qana baxdı və başını qıldırdı.

- Ağzımı açmağa imkan vermirsiniz axı. Bura nə üçün gətirildiyimi başa düşmürəm...
- Ah sən başa düşmürsən!?

Arifin ironik cingiltisi ülgüc kimi kəsiciydi.

- Bəli... başa düşmürəm.
- Qaldırın onu, oturdun!

Oğlanlar Zauru yerdən qaldıraraq taburetə oturtdular.

Arif əllərini belində birləşdirib otaqda gəzişə-gəzişə:

- Deməli səni bura hansı cinayətinə görə gətirdiyimizi bilmirsən? – soruşdu.

- Həqiqətən də bilmirəm. Əgər Ermənistana getdiyimə görədirsə, onda sözüm yoxdur. Ermənistana səfər etmək cinayətdirsə, bununla siz yox, hüquq-mühafizə orqanları məşğul olmadırlar?

- Əslində düz deyirsən - sənin Ermənistana səfərin qanunsuz deyil. Belə səfərləri qadağan edən qanun, maddə yoxdur. Lakin sən hüquqi olmasa da, mənəvi cinayət işləmisən! Bu səbəbdən də polisin yox, bizim – yəni xalqın qarşısında cavab verməli olacaqsan.

Arif diqqətlə Zauru süzərək qəfildən gülməyə başladı. Boğazını təmizləyib dedi:

- Əslində sən pis oğlan deyilsən Zaur. Gəncsən, perspektivlisən, savadlısan. İngilis dilində danışırsan. Ən əsası isə sən mənim azərbaycanlımsan! Sadəcə olaraq böyük səhvə yol vermisən, işğalçının ölkəsinə səfər etmisən. Bunu niyə etmisən bilmirəm, bilmək də istəmirəm. Daha doğrusu Ermənistan və ermənilər barədə heç nə eşitmək istəmirəm. Amma səni cəzalandırmasaq, sabah sən, ya da qeyrisi eyni hərəkəti təkrar edəcək. Yenə də deyirəm, burada şəxsi heç bir məsələ yoxdur – hər şey vətən və millət üçün! Bayaq da dedim ki, hər bir azərbaycanlı mənim üçün əziz və doğmadır. Fəqət bu gün atalar demişkən - əyri oturub düz danışmasaq, sabah gec olar. Hər birimizin fikri, məqsədi, məsləki, əqidəsi - xalq, vətən və bu müqəddəs ideyanın, məfhumun daşıyıcısı olmaq olmalıdır. Amma reallıqlarla hesablaşmağı bacarmalı, problemlərin həllində hisslərin tüğyanına, zorakılığa, yox, ağlın qüdrətinə güvənməli və yol tapmalıyıq. Elə yol ki, onun sonunda xalqın, vətənin əldə etdiklərini itirməyək, uğurun üstünə uğur qoyaq. Millətin özünə düşmən kəsildiyi, birinin digərinə nifrətinin düşmən olan erməniyə nifrətdən qat-qat çox olduğunu gördükcə, kövrələn qəlbimin odu, gözümün yaşı ilə də sönmür. Vahid Azərbaycan xalqı, onun dəyərli, dəyərsiz, vətənə, millətə yararlı, yararsız, qəlbi, vicdanı vətən, millət eşqi ilə döyünən, şəxsi maraqları üçün yox, ümumi maraq üçün fədakarlıq edən insanlardan ibarətdir. Bəsdir parçalandıq, yox, bəsdir, bizi parçalayanların oyuncağı olduq. Bəsdir, düşməni dost, arxa bildik! Bəsdir, kürsü, pul əsiri olduq! Bəsdir, bir-birimizi inkar etdik! Bəsdir, başımıza öz əlimizlə kül ələdilər! Böyük və qüdrətli xalqım! Özünə qənim kəsilən elim-obam, nə qədər ki, gec deyil, gəlin düşünək. Nə etdiyimizi, hara getdiyimizi müəyyənləşdirək. Özümüzə tərəqqi yolu, bütövləşmək, bu günümüzü, gələcəyimizi təmin edən yol seçək. Əsrlərin səsini dinləyək, dərsindən dərs alaq. Tariximizə fikir ver: Azərbaycan dediyimiz bir ərazidə nə qədər dövlət yaratmışıq. Hər gün hazırki vəziyyəti düşündükcə dalğa-dalğa sahilinə çırpılıb tökülən və məyus halda dənizinə qayıdan dalğalar kimi oluram. Qohum uzaq, yad uzaq, dərd gəlir üstümə qucaq-qucaq. Bu dərd, bəla qurtarar nə zaman?! Ax mənim bəlalı başım!

Arif uşaq kimi ağlayır, gözlərindən gilə-gilə yaşlar süzülürdü. Zaur çaşıb qalmışdı. Sədrlərinin ruh halı onlara da sirayət etdiyindən, QAT-ın gəncləri də ağlamağa başladılar. Bığlı və üzü çapıqlı oğlan göz yaşlarının arasından, səsi titrəyə-titrəyə Arifə tərəf uzatdı əllərini.

- Arif bəy siz nə qədər də duyğulu və kövrək adamsınız. Hamımızın ürəyi vətən və millət sevgisi ilə döyünür. Fərdi və yaxud toplu olaraq hər birimiz eyni amala xidmət edirik. Bu amala gedən yolda hər birimizi çətinliklər, maneələr və məhrumiyyətlər gözləyir, lakin biz ruhdan duşməyəcək və bütün maneələri aşacağıq! Çünki biz vətənin işıqlı gələcəyi üçün hər şeyi göz önünə almış insanlarıq və tutduğumuz yolun doğru olduğuna əminik. Vətənə sizin kimi düşünən oğullar gərəkdir. Vətən sizin kimi düşünənlərin və lazım gəldikdə özünü fəda edə biləcək insanların çiyinlərində yüksələcəkdir.

Arif göz yaşlarını əlinin tərsi ilə silib dedi:

- Haqlısan qardaşım. Lakin elmi-texniki tərəqqi, millətlərin biri-birinə yaxınlaşması, dünyada baş verən inteqrasiya prosesləri, sosial-iqtisadi inkişafla yanaşı, qloballaşma özünün amansız qanunlarını da diqtə edir. Qloballaşmanın dönməz xarakter aldığı bir vaxtda bizim qarşımızda duran ən böyük və vacib vəzifələrdən biri milli dəyərlərin qorunub saxlanılmasıdır.

Zaur özü də gözləmədən iki QAT-çı arasında gedən söhbətə qoşuldu.

- Dostlar, baxmayaraq ki, siz məni tutub zorla bura gətirmisiniz, amma mən sizin əsl vətən oğulları olduğunuzu görürəm və təqdir edirəm. Həqiqətən də, çağdaş dünyada gedən proseslərin hansı hədəfə hesablandığını uzaqgörənliklə qiymətləndirə bildiyiniz üçün, Arif bəy, sizə heyranam. Siz haqlı olaraq milli-mental düşüncənin qorunmasını, mənəvi dəyərlərin itirilməməsini çox önəmli vəzifə sayırsınız. Bizə tarixdən "ölü xalqlar" termini məlumdur. Bunlar öz mənəvi varlıqlarını və milli dəyərlərini qoruya bilmədiyinə görə digər xalqlarla assimliyasiya olunub sıradan çıxmış millətlərdir. Çünki, milləti təkcə onun dili və adı, yaxud dövləti yalnız onun sərhədləri yaşatmır. Elə olsaydı latın dili kimi latın xalqı da yaşayardı. Yaxud, yerlə-göylə əlləşən imperiyalardan əsər-əlamət qalardı. Xalqın mövcudluğu üçün birinci növbədə onun mənəviyyatı yaşar olmalıdır. Bu anda mənəviyyat sözünü mücərrəd anlayış kimi qəbul etmək lazım deyil. Həmin sözün mayasını torpaq sevgisindən tutmuş millət sevgisinəcən bütün ülvi hisslər təşkil edir. Ulu Dədə Qorqudun "Əgər torpağı qorumursansa, onu əkməyə dəyməz, əgər torpağı əkmirsənsə, onda onu qorumağa dəyməz" nəsihətini xatırlamağımız kifayətdir.

Arif heyrətdən nəfəsini tutmuşdu. Zaur sözünü bitirib susunca, ona doğru əllərini uzatdı, qucaqladı.

- Sağol qardaşım. Belə dərinlik, müdriklik yalnız bizim xalqa məxsus ola bilər! Mən Dədə Qorqudun həmin kəlməsinin əsl mahiyyətini Qarabağ uğrunda döyüşlərin iştirakçısı olduğum zaman daha dərindən anladım. Güllə qabağına gedirdim, ölümlə üzbəüz olurdum, günlərlə ac-susuz qalırdım, amma zərrəcən də giley etmirdim. Çünki,

torpaq və Vətən uğrunda döyüşdüyümü anlayırdım və indi üstündən neçə illər keçsə də mən həmin o ülvi hissləri – Vətən uğrunda döyüşdüyüm anların müqəddəs duyğularını unuda bilmirəm.

Elə həmin döyüşlərdə mən bir daha anladım ki, biz çox vaxt öz böyüklüyümüzü lazımınca qiymətləndirə bilmirik. Elə bunun nəticəsi olaraq ermənilər tarixi abidələrimizi, mətbəximizi, musiqimizi, incəsənətimizi, mədəniyyətimizi öz adlarına çıxır, bəzən buna nail olurlar. Biz indi müstəqil dövlətik və heç kim əlimizi-qolumuzu bağlaya bilməz. Mənəviyyat oğrularının qarşısı alınmayınca, torpaqlarımızı işğal edənlər mənəviyyatımızı da zəbt edəcəklər.

Məşhur bir misalda deyilir: əgər keçmişinə tapançadan güllə atsan, gələcək səni topa tutacaq. Heç kimə sirr deyil ki, müsəlman şərqində ən mütərəqqi xalq bizim xalqdır. Şərqdə ilk demokratik respublikanı biz qurmuşuq. İlk teatrı biz yaratmışıq. İlk qəzeti biz çap etmişik. Necə deyərlər, bəşəri dəyərlərin çoxunun ilki bizim qismətimizə düşüb. Bütün bunlar tarixi faktlar olduğundan, təbii ki, bu birincilikləri heç kim bizim tariximizdən silə bilməz.

Azərbaycanlı olan hər kəs bilməlidir ki, bizim mənəviyyatımız ancaq öz xalqımıza məxsusdur, onu biz zənginləşdirməliyik, onu biz qorumalıyıq. Çünki azərbaycanlı olan hər kəs yalnız Azərbaycan Respublikası adlanan coğrafi məkanda yaşaması ilə deyil, məhz mənəviyyatı ilə azərbaycanlıdır.

- Arif bəy, sizin əsgərlik xatirələrinizi eşitmək mənim üçün maraqlı olardı. Mən o illəri yaxşı bilmirəm.

- Əlbəttə! Sən hardan bilə bilərsən o illəri ay gijdıllaq? Sən hələ o vaxtlar uşaq idin.

Arif qapıda farağat dayanmış gənclərə yaxınlaşaraq onları bir-bir dodaqlarından öpdü və üzünü Zaura çevirib tox səslə dedi:

- Füzuli istiqamətində döyüşlər ara vermirdi. Ağdamın işğalı bu bölgəni, bir növ, müdafiəsiz, köməksiz qoymuşdu. Bundan istifadə edən hərbi müxalifət camaat arasında təxribat aparır, adamların döyüş əzmini sındırırdı. Hakimiyyətə gəlməyin bu iyrənc üsulunu Xocalı faciəsində, Şuşa, Laçın rüsvayçılığında sınamışdılar. İndi də şərəfsizcəsinə həmin üsuldan yararlanmağa cəhd edirdilər.

Ağdamın süqutundan bir ay sonra – avqustun 23-də Füzuli işğal olundu. Bununla da digər cənub-qərb rayonları – Cəbrayıl, Qubadlı və Zəngilanın işğalı reallaşdı.

Bu itkilər, məğlubiyyətlər bizi birdən-birə haqlamadı. Hərbi-siyasi müxalifət, daxili xəyanətkarlar xalqımızı buna addım-addım yaxınlaşdırdılar. Dərdinin üstünə dərd qoya-qoya gətirdilər. Sonra da içimizdəki satqınlar, hakimiyyət hərisləri bu şərəfsizlikləri xalqın ünvanına yazmağa cəhd göstərdilər. Ancaq zaman hər şeyi yerbəyer elədikcə "millət qəhrəmanları"nın əsl simaları xalqa bəyan oldu.

Artıq müharibənin alovu Füzulinin üz-gözünü qarsırdı. Adamlar silahlanırdı. Ancaq təəssüf ki, dövlət təsirli tədbirlər görmürdü. Özünümüdafiə dəstələri silah-sursatı güclə tapırdı. Təcrübəli komandirlərə ehtiyac çox idi. Ancaq ermənilər müasir silahlarla təmin olunmuşdular - hücumu da, müdafiəni də təcrübəli komandirlərin rəhbərliyi ilə həyata keçirirdilər. Elə bunun nəticəsiydi ki, ilin sonunda ermənilər cəbhə boyu hücumlarını genişləndirdilər. Dekabrın 24-də I Arış, Cəmilli, Xələfmə və Qaradağlı kəndlərinin sakinləri yurd-yuvalarını tərk etdilər. Cuvarlı kəndi isə mühasirəyə düşdü. Əlbəttə ki, həlak olanlar, yaralananlar oldu.

1992-ci il daha qanlı-qadalı gəldi. Ayaz Mütəllibovun başı hakimiyyətini qorumağa qarışmışdı. Müxalifət isə onun zəifliyindən, qətiyyətsizliyindən istifadə edib cəbhədə daha böyük təxribatlar törədirdi. Daha doğrusu, erməni hücumlarının genişlənməsi üçün imkan və şərait yaradırdılar. Tarixin sağalmaz yarası kimi qalacaq Xocalı soyqırımı bu şərəfsizliyə sübutdur. Bu qanlı faciədən üç gün əvvəl isə – fevralın 22-dən 23-nə keçən gecə ermənilər Yuxarı Veysəlli kəndini işğal etdilər. Kənd qarət olundu, 200 ev yandırıldı, 15 nəfər həlak oldu, 20 nəfər yaralandı.

Xocalı faciəsindən sonra hücumlarını nisbətən dayandırıb, güclü müdafiə quran erməni silahlı birləşmələri martın 16-da Füzuli istiqamətində ilk dəfə hava hücumundan istifadə etdilər. Cəmilli və Qaradağlı kəndlərinə döyüş vertolyotlarından zərbə endirildi. Onda mən əsgər yoldaşlarımla vertolyotlardan birini partlatdım və illər sonra bu hərəkətimə görə şücaət və qeyrət ordeni aldım. Həə, sözüm onda yox. Çoxlu ev dağıdıldı o gün, ölənlər və yaralananlar oldu. Həmin gün rayon mərkəzi də artilleriya atəşinə məruz qaldı.

Artıq döyüşlər yenidən şiddətləndi. Martın 19-dan 31-dək Hoğa kəndində şiddətli döyüşlər getdi. Kənd işğal edildi və bütünlüklə yandırıldı, 16 nəfər həlak oldu, onlarca adam yaralandı. Həmin günlərdə Füzuli şəhəri daim artilleriya atəşi altında saxlanırdı. Hər gün dağıntılar, itkilər olurdu.

Nəhayət, aprelin 1-də Azərbaycan Silahlı Qüvvələri əks-hücuma keçdi. Bu xəbər neçə vaxt idi bütün dairələrdə danışılırdı. Məhz ona görə də uğursuzluqla nəticələndi. Əvəzində ermənilərin hücumu genişləndi. Füzuli şəhəri artilleriya vasitəsi ilə böyük dağıntılara məruz qaldı. Aprelin 11-də isə artilleriya hazırlığından sonra ermənilər bütün cəbhə boyu hücuma keçdilər. Cəmillini işğal etdilər. Düşmən hücumu Qacar kəndində dayandırıldı, ermənilər geri oturduldu və Cəmilli kəndi azad edildi.

Xocalı faciəsindən sonra ölkə əslində başsız qalmışdı. Xəyanətkar A.Mütəllibov hakimiyyətdən uzaqlaşdırılıb,

anarxiya daha da güclənib, prezident səlahiyyətlərini icra edən Yaqub Məmmədov müxalifət liderləri ilə dil tapmağa çalışırdı. Yaxşılığa doğru isə heç nə görünmürdü. Ölkə möhkəm əl istəyir, təcrübəli, qətiyyətli lider istəyirdi. Ancaq Azərbaycanı dəllal bazarına çevirənlər buna imkan vermirdilər. Mayın 14-də Mütəllibovu yenidən hakimiyyətə qaytarırlar, ancaq o, gecə qaçdı getdi. Sabahı gün Azərbaycan Xalq Cəbhəsi şou düzəltdi. Silahlı dəstələr içərisində heç kəsin olmadığı Ali Sovetin binası üzərinə yeridilər, binanı güllələbaran elədilər.

Arif qəhərlənmişdi. Əliylə burnunu təmizlədi, barmaq uclarına yapışan fırttığı silkəyərək yerə tulladı. Qapıda dayanan oğlanlardan biri, digərinin şalvarının düymələrini açaraq şeyini çıxardıb sığallayırdı. Arif onlara fikir vermədən, dəhşətdən gözləri bərələn Zaura şəfqətlə baxıb davam elədi:

- ...Mayın 25-də ermənilərin Füzuliyə atdığı mərmilərin tərkibində kimyəvi maddələr aşkar olunur. Bununla da çoxdan davam edən şayiələr təsdiqini tapır. Lakin heç bir dövlət buna münasibət bildirmir. Azərbaycanın harayı, haqq səsi eşidilmir. Artıq təklənməyimiz hər addımda hiss olunur. Hakimiyyəti zəbt edənlər isə bunu sürətləndirdilər. Region dövlətlərini daha çox narazı salıb, özlərindən uzaqlaşdırdılar. Bu da ermənilərin əl-qolunu daha çox açdı. İyulun 15-də Füzuliyə atılan mərmilər yenidən yoxlamadan keçirildi və bir daha təsdiq olundu ki, onların tərkibində kimyəvi maddə var.

Azərbaycan oğulları mərdliklə döyüşür, canlarını qurban verirdilər. Ancaq cəbhədəki təxribatlar bir-birini izləyirdi. Ordu siyasiləşmişdi. Cəbhəyə – yerli müdafiəçilərə köməyə göndərilən hərbi dəstələr təxribat törədir, hücum əməliyyatlarını pozur, dinc sakinlər arasında qorxulu şayiələr yayırdılar. Məsələn, Silahlı Qüvvələrimizin iyunun 25-də Qırmızı Bazara, iyulun 28-də Tuğ kəndinə uğurlu hücumları təxribatlar nəticəsində heçə endirildi.

Payızda döyüşlər daha intensiv xarakter aldı. Azərbaycan Silahlı Qüvvələrinin bir neçə uğurlu hücumu oldu. Sentyabrın 7-də hücuma keçən hərbi birləşmələrimiz bir neçə strateji yüksəkliyi ələ keçirdilər. Martunidə üç hərbi silah anbarını dağıtdılar. Gədik yüksəkliyi uğrunda döyüşlərə girdilər. Artıq sentyabrın 23-də Xocavənd qəsəbəsi ermənilərdən təmizləndi.

Təəssüf ki, səriştəsizlik, təcrübəsizlik ucbatından müdafiə tədbirləri görülmür, əsgərlərimizin qanı bahasına azad etdiyi mövqelər yenidən ermənilərin əlinə keçirdi. Xocavəndin azad edildiyi gün ermənilərin əks-hücumu ilə bütün uğurlar heçə endirildi. Üstəlik, Muğanlı, Əmirallar və Kuropatkino kəndləri də düşmən əlinə keçdi. Düşmən hücumunu genişləndirdi. Bu hücumların qarşısı yalnız oktyabrın 12-də dayandırıldı. Bundan sonra ilin sonunadək yalnız mövqe döyüşləri davam etdi.

Artıq AXC-Müsavat cütlüyünün səriştəsizliyini, aralarındakı didişməni aydın müşahidə edən ermənilər hücumlarını bütün cəbhə boyu genişləndirmişdilər. Azərbaycanın ordusu formalaşmırdı. AXC-nin, Etibar Məmmədovun, Əlikram Hümbətovun, Rəhim Qazıyevin, Surət Hüseynovun... silahlı dəstələri vardı. Ancaq bu dəstələr yağı qabağına çıxmırdılar. İlluziya yaradırdılar. İmkan düşən kimi biri-birini irəli verib düşmən mühasirəsinə salır, onun “əli ilə” torpaqlarımızın bir hissəsini işğal etdirir, sonra isə “təbliğat maşını” işə düşürdü. Belə-belə hakimiyyətə gəlmək üçün bir-birlərini gözdən salırdılar. Ümumiyyətlə, bu şəxsi silahlı birləşmələr xalqa deyil, şəxsi ambisiyalara xidmət edirdi. Onu da etiraf edək ki, siyasi oyunda oyuncağa çevrilmiş bu hərbçilərin əksəriyyəti belələrinin əlində oyuncağa çevrilmişdilər. Axı, onların çoxu qeyrətli oğullar idilər.

Nə isə, Azərbaycan tarixinin bu ağrılı dövrü davam edirdi. 1993-cü il isə daha böyük fəlakətlərlə başladı. Bakıda camaat küçələrdə rahat gəzə bilmirdi. Onun-bunun anasına, bacısına sataşırdılar. Artıq yanvarın 6-da Füzuli şəhəri artilleriya atəşi altına düşdü. Azərbaycan Silahlı Qüvvələri isə üstünlüyə sahib olmaq üçün strateji yüksəkliklər uğrunda döyüşə girmişdilər. Yanvarın 14-nə keçən gecə Üryandağ yüksəkliyi uğrunda başlanan döyüşlər bu qəbildən idi. Lakin, bir daha təkrar edirəm, xəyanət və etinasızlıq bütün qələbələri heçə endirirdi. Artıq elə bir məqam yetişmişdi ki, hücuma keçən oğullar kürəyinə tuşlanan gülədən narahat idilər. Qeyrətli döyüşçülərimiz arxadan vurulurdu. Ancaq buna baxmayaraq onlar özlərini oda atır, torpaqlarımızın müdafiəsi uğrunda canlarından keçirdilər. Aprelin 2-də ermənilərin çox böyük üstünlüklə hücumunun qarşısının alınması buna sübutdur. Aşağı Divanlılar, Qacar, Kövşatlı işğal olunmuşdu. Əsgərlərimiz güclü əks-hücumla Kövşatlını azad edib, düşmənlə ölüm-dirim mübarizəsinə girdi. Lakin arxadan kömək gəlmir, sağdan-soldan təxribatlar ara vermirdi. Ona görə də düşmənin xeyli qüvvə üstünlüyü öz işini görürdü.

Beləcə, ön cəbhədə döyüşən igidlərimiz təklənir, düşmənin qat-qat üstün qüvvələrinə qarşı döyüşlərdə geri çəkilməyə məcbur olurdular.

Artıq aprelin 4-nə keçən gecə ermənilər Füzuli şəhəri yaxınlığındakı Məngələnata yüksəkliyini ələ keçirdilər. Fəlakət anbaan yaxınlaşır. Bir gün sonra Gövşatlı kəndi yenidən düşmən əlinə keçir. Bu minvalla düşmən sürətlə irəliləyir. Artıq aprelin 14-də Füzulinin 1 kilometrliyinə çatır.

Arada danışıqlar gedir. Nisbi sakitlik yaranır. Döyüşləri müvəqqəti dayandırmaq haqqında razılığa gəlinir. Ancaq ara-sıra mövqe döyüşləri davam edir. Azərbaycan tərəfi heç bir tədbir görmür, təlimlər keçmir, lazımi qüvvələrlə ön xətti təmin etmir. Bakıda isə çəkişmələr şiddətlənir.

Bu zaman Gəncədə məlum iyun hadisələri baş verir. AXC-Müsavat cütlüyünün yetişdirdiyi hərbi müxalifətdən

biri – Surət Hüseynov mövcud iqtidarı ölümlə hədələyir. Silahlı qarşıdurma yaranır. İtkilər olur. Artıq ölkə vətəndaş müharibəsi ilə üz-üzə qalır. Rəhim Qazıyev – Surət Hüseynov – Əlikram Hümbətov üçbucağı ölkəyə fəlakətlər gətirir. İqtidar nümayəndələri qorxub qaçırlar. Ölkə fəlakət girdabına düşür.

Xalqın təkidi və xahişi ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev qardaş qırğınının qarşısını alır. Ancaq real məhvolmaqdan xilas olan əvvəlki iqtidar nümayəndələri yenidən fəallaşırlar. Daha doğrusu, xarici ağalarının təhrik və tələbləri ilə təxribatlara başlayırlar. Onlar ümid edirlər ki, "Xocalı, Şuşa, Laçın variantı" ilə yenidən hakimiyyətə qayıda bilərlər.

Bu məqamda onu da qeyd etməliyəm ki, 1993-cü ilin yayında döyüşən əsas qüvvələr ayrı-ayrı adamların tabeliyində idi. Orada Müdafiə Nazirliyinin əmrləri işləmirdi. Döyüşün həlledici anında kimsə, məsələn, Qazıyev, Hüseynov, Məmmədov, Hümbətov öz dəstəsini, AXC öz batalyonlarını geri çəkirdi və cəbhədə hər şey alt-üst olurdu. Necə ki, Ağdamda Surət Hüseynov döyüşən dəstələri mövqelərindən çıxarıb, sonra da şəhəri qarət edib, yağıya təhvil verdi. İndi də növbə Füzulinin idi. Həmin müdhiş an yaxınlaşırdı...

İyulun 2-də geniş artilleriya hazırlığından sonra ermənilər Füzuli və Cəbrayıl istiqamətində fəallaşır, cəbhə boyu hücuma keçirlər. Avqust ayında isə Füzulinin fəlakətli günləri yaxınlaşır. Ayın 3-də Cuvarlı və Xələfşə kəndləri yandırılır. Ayın 5-də isə ermənilər şəhərin 500 metrliyinə çatırlar. Şiddətli döyüşlər gedir. Sabahı gün Azərbaycan Silahlı Qüvvələrinin güclü əks-hücumu ilə düşmən geri oturdulur – bir gün sonra Məngələnata yüksəkliyi azad edilir, Üçtəpə yüksəkliyi uğrunda döyüşlər başlanır.

BMT-nin Azərbaycandakı daimi nümayəndəsi Mahmud əl-Səid avqustun 12-də Füzuliyə gedir. Vəziyyəti gözləri ilə görür. Bundan sonra – avqustun 18-də Dövlətyarlı kəndi, bir gün sonra Kürdlər, Yuxarı Əbdürrəhmanlı və İşıqlı kəndləri işğal olunur. Artıq Füzuli mühasirə halqasına düşür. Avqustun 20-də yerli qarnizon şəhəri tərk edir.

Xəyanət öz işini görürdü. Hələ strateji yüksəkliklər vardı. Düşmənə güc göstərən qüvvələr dururdu. Ancaq neyləyəsən ki, onlar yenə satqınların, vəzifəni Vətəndən üstün tutanların əlində idi...

...Odur ki, tariximizə daha bir qara gün yazıldı: 23 avqust – Füzulinin süqutu günü.

...Və bu uğursuzluqlardan, məğlubiyyətlərdən sonra içində Azərbaycan Silahlı Qüvvələrinin şərəfli, öyünməli bir tarixi də var. 1994-cü ilin ilk günlərində ordumuzun Füzuli cəbhəsində uğurlu əks-hücumu. Bu elə bir vaxt idi ki, siyasiləşmiş hərbi dəstələrlə müharibəni davam etdirmək daha böyük məğlubiyyətlərə gətirib çıxarardı. Ona görə də 1993-cü il noyabrın 2-də möhtərəm Heydər Əliyev xalqa müraciət etdi. Vətənin təhlükədə olduğunu bildirdi. Yüzlər-lə, minlərlə adam bu çağırışa gəldi. Çünki artıq insanlarda inam vardı.

Ayrı-ayrı rayonlarda könüllü batalyonlar yaradıldı. Onlar dərhal təlimlərə başladılar. Qısa vaxtdan sonra onların bir hissəsi Füzuli cəbhəsinə göndərildi. Və 1994-cü il yanvarın 4-dən 5-nə keçən gecə əks-hücuma keçdilər. Cəmi bir sutka ərzində erməni hərbi birləşmələri 25 kilometr geri oturduldu, 22 kənd və Horadiz qəsəbəsi erməni quldurlarından təmizləndi. Ermənilərin atəşkəsə razılıq verməsində də Azərbaycan Silahlı Qüvvələrinin bu qələbəsinin əhəmiyyəti böyük oldu.

Bu uğurlu əks-hücum başlayıb, ancaq sona çatmayıb. Ermənilər sülh yolu ilə münaqişənin ədalətli həllinə razı olmasalar, bu hücum davam etdiriləcək. Azərbaycan Ordusu, Azərbaycan əsgəri buna qadirdir. Hər iki halda torpaqlarımızın azad olunacağı gün uzaqda deyil!

Arif nitqini bitirib arxasını Zaura tərəf çevirdi və azca əyilərək gurultu ilə osturdu.

Arifin şövqlə, sidqi-ürəklə dediyi monoloqu nəfəs almadan dinləyən Zaur isə axmaqlıq edib soruşdu:

- Arif bəy, siz bu münaqişənin sülh yolu ilə həllini istisna edirsiniz?

Bu səfərki yumruq daha ağır oldu. Zaur taburet qarışıq otağın küncünə qədər uzun bir uçuş etdi. Duman pərdəsinin arxasından Arifin bulanıq üzünü gördü, sanki quyunun dibindən gələn səsini eşitdi.

- Götverən! Sən nə abırsız, qanacaqsız adamsan! Hələ də başa düşə bilməmisən ki, şərəfsiz sülhə getmək milli maraqlarımıza cavab verməyən, milli mentalitetimizə sığmayan, şanlı tariximizi, zəngin irsimizi ləkələyən bir hadisədir!? Oğraş oğlu oğraş! İndi mən səni tikə-tikə doğrayım, sən də bax!

- Arif bəy qurban olum… etməyin! İstədiyinizi eləməyə hazıram. Söz verirəm ki, bir daha Ermənistana səfər etməyəcəm...

- Yum ağzuvu! Ermənistana bir daha getməməklə günahını yuya bilməzsən. Sənin üçün başqa bir cəza fikirləşmişik.

Zaur çətinliklə qalxıb dizləri üstə oturdu, ağzından və burnundan axan qanı silə-silə soruşdu:

- O nə cəzadır elə?

Arif üzünü gənclərə tutdu, qəzəblə qışqırdı:

- Oturdun onu yerinə!

Zaur taburetə oturandan sonra isə, üzünü əmmallicə ona yaxınlaşdırıb pıçıldadı:

- AzTV-də, "Azərbaycan həqiqətləri" verilişinə çıxacaqsan.

Zaur başa düşmədi:

- Nə var o verilişdə?
Arif qamətini düzəltdi, əllərini belində birləşdirib gurladı:
- O verilişdə canuva azzar var! Verilişə çıxıb günahlarını yuyacaqsan. Ermənilərі ifşa edəcəksən. Ermənistana səfər etdiyinə görə peşman olduğunu deyəcəksən! Yox əgər dediyimi etməsən, səni harda olursan-ol tapıb, alnına bir güllə sıxacağıq!
Zaur açıq ovuclarını Arifə doğru uzadıb yalvardı:
- Lazım deyil, lazım deyil. Verilişə çıxacağam. Mütləq çıxacağam – Bir az fikirləşib soruşdu - Özüm gedim AzTV-yə ki, mən verilişə gəlmişəm?
Üzündən məmnunluq oxunan Arif başını buladı:
- Xeyr. Sənə zəng edib çağıracaqlar. Gözlə.

***

- Dolma... Qədim Azərbaycan xörəyi olan dolmanı oğurlayan və onu "özününkü" kimi dünyada qələmə verən ermənilərlə nə etməli? Bəli, Azərbaycan xalqının aktual problemlərinə həsr olunmuş "Azərbaycan həqiqətləri" verilişi sizinlə növbəti görüşə gəlib. Axşamınız xeyir olsun hörmətli tamaşaçılar.
Aparıcı Həmid Herisçi tamaşaçıları salamlayıb eynəyini düzəltdi:
- Söhbətimin əvvəlində də dediyim kimi, bu günkü mövzumuz belə adlanır: "Milli mətbəximiz və erməni hiyləgərliyi". Mən sizə qonağımızı, Qafqaz Sülhməramlı Təşəbbüslər Mərkəzinin koordinatoru, bu yaxınlarda düşmən ölkəyə, Ermənistana səfər etmiş Zaur Cəlilovu təqdim etmək istəyirəm. Eyni zamanda onu da diqqətinizə çatdırım ki, özünün sülhməramlı fəaliyyəti ilə yanaşı Zaur həm də çox gözəl publisist və qurmandır.
Zaur bəy, vaxt tapıb studiyamıza təşrif buyurduğunuza görə təşəkkür edirəm.
- Mən də sizə məni bura dəvət etdiyiniz üçün çox sağ olun deyirəm. Onu da qeyd edim ki, verilişinizi çox sevirəm və sizin müntəzəm tamaşaçınızam.
- Minnətdaram. Vaxt itirmədən sizə ilk sualımı vermək istəyirəm. Sizcə, ermənilərin bizim Azərbaycan dolmasını oğurlaması faktı cəmiyyətimizi kifayət qədər narahat edirmi? Və QHT-lər bununla əlaqədar hansı tədbirləri həyata keçirirlər?
- Sualınız dərin və ağrılıdır. Hamımıza məlum olan faktlardan danışdınız. Ermənilərin bizim qonaqpərvər bölgəmizdə məşhur bir rus klassikinin məşum səhvi nəticəsində, 200 il bundan öncə peyda olduğunu bütün dünya bilir.
- Siz Qriboyedovu nəzərdə tutursunuz....
- Bəli, düz başa düşdünüz. Sonra aydın oldu ki, ermənilər nəinki Qriboyedovu, hətta Cənubi Qafqaz və Şərqi Anadolunun sülhpərvər türk xalqlarını da aldada biliblər. Ermənilər Qərbi Azərbaycan torpaqlarında məskunlaşaraq, bu qədim türk ərazisinə "Ermənistan" adı verdilər. Onlar bu torpaqlarda yaşadıqları qısa vaxt ərzində bizim xalqın demək olar ki, bütün mətbəxini, musiqisini, mədəniyyətini mənimsədilər.
- İstərdik ki, dolma ilə bağlı daha ətraflı danışasınız.
- Bildiyiniz kimi, ermənilər bizim milli xörəyimiz olan dolmadan açıq şəkildə istifadə etməklə qalmayıb, onun erməni mətbəxinə mənsub olduğunu bütün dünyaya yayırlar.
- Amma bütün dünya "dolma" sözünün, türk dilində "dolmaq", "doldurmaq" felindən yarandığını və bu xörəyin əsl Azərbaycan yeməyi olduğunu bilir.
- Doğru buyurursunuz. Biz hamımız erməni təbliğatı ilə, ermənilərin çoxsaylı lobbi təşkilatları ilə fəal mübarizə aparmalıyıq.
Həmid Herisçi əlini qulağına apararaq, Zaurun sözünü kəsdi:
- Studiyamıza ilk telefon zəngi daxil oldu. Buyurun, siz efirdəsiniz.
- Salam. Zaur bəyə bir sualım var.
- Buyurun, sizi eşidirik.
- Zaur bəy, mən Bakı Dövlət Universiteti Filologiya fakültəsinin tələbəsiyəm. Adım İlqardır. Müasir Azərbaycan gəncliyinin bir nümayəndəsi kimi, tez-tez internetdən istifadə edirəm və orada erməni təbliğatı ilə rastlaşıram. Ermənilər oradakı təbliğat materiallarında məsələdən agah olmayan oxucuları inandırmağa çalışırlar ki, Azərbaycan türkləri dolma icad edə bilməzdilər. Çünki onlar üzümçülüklə məşğul olmayıb və oturaq həyat tərzinə də sonradan keçiblər. Sizcə, ermənilərin bu təbliğatına necə cavab vermək olar?
Zaur üstünə AzTV-nin loqosu vurulmuş iri fincandan bir qurtum su içib dedi:
- Bu doğrudan da aktual məsələdir. Biz hamımız bilirik ki, ermənilər kələk gəlmək və faktları təhrif etmək işində ustadırlar. Ələlxüsus söhbət tarixdən, Azərbaycan xalqının tarixindən gedirsə.
Həmid təşəbbüsü ələ keçirərək əlavə etdi:

- Cavan oğlana bu gözəl sualına görə təşəkkür edirəm. Ermənilərin təbliğatı məsələsini düzgün qoyur. Təəssüf ki, bu həqiqətdir. Ermənilər oğurladıqları hər şeyi özününkiləşdirməyə çalışırlar və gülünc, mənasız dəlillər irəli sürürlər. Deyirlər ki, "necə ola bilər, axı köçəri və yarımköçəri həyat tərzi sürən türk xalqları üzümçülüklə məşğul olsun?!". Gülməli və cəfəng iddiadır! Ancaq erməniləri başa düşmək olar... necə deyərlər, suda batan saman çöpündən yapışar. Lakin İlqarın da dediyi kimi, onların istənilən yalanına biz layiqli cavab verməliyik!

Zaur söz aldı:

- Tamamilə doğrudur! Biz, azərbaycanlılar, ermənilərin özünə də həqiqəti çatdırmalıyıq. Sadə ermənilər öz millətçi ideoloqlarının - Eçmiədzinin, Daşnaksutyunun təsiri altındadırlar. Məlum məsələdir ki, ermənilərin ideoloqlarını ifşa etməklə, biz eyni zamanda erməni xalqının da qeyri-konstruktiv mövqeyini dəyişdirə bilərik. Buna görə də biz ermənilərin ən cəfəng fikirləri ilə belə mübarizə aparmalı və həqiqətlərimizi dünyaya, öz xalqımıza və habelə erməni xalqına çatdırmalıyıq. Bizdən savayı heç kim bunu etməyəcək! Axı bu aqressiv və oğru xalqla yanaşı yaşamağa məcburuqsa, bu reallığı dərk etməli, tədbirli olmalıyıq.

- Xatırlatmaq istəyirəm ki, dinləyicimiz ermənilərin təbliğatına necə cavab verməli olduğumuz barədə soruşmuşdu.

- Üzr istəyirəm, biz əsas mətləbdən bir az yayındıq deyəsən. Bəli, Azərbaycan türklərinin köçəriliyi barədə ermənilərin mənasız iddialarına cavab verməliyik. Ermənilər bilməlidir ki, o uzaq dövrlərdə qədim azərbaycanlılar arasında artıq əmək bölgüsü mövcud idi. Azərbaycanlıların alban əcdadları oturaq həyat tərzi sürürdülər və üzümçülüklə məşğul olurdular. Azərbaycan türkləri isə zəngin türk dili vasitəsi ilə əcdadlarının yaratdıqları mətbəxə adlar qoyurdular. Həmin tarixi dövrdə azərbaycanlıların alban əcdadları gözəl yeməklər bişirir, azərbaycanlılar isə bu yeməklərə ad verirdilər. Dolma da belə yeməklərdən biridir. Yəni səxavətli Qafqaz günəşi altında bitən meynə yarpaqları ilə gənc qoyunun incə ətinin vəhdətindən yaranan dolma, azərbaycanlılar ilə albanlar arasındakı möhkəm dostluğun və qarşılıqlı inamın rəmzidir.

- Studiyamıza daha bir zəng var...

- Bağışlayın, deyilənlərə bir şey də əlavə etmək istəyirəm. Ermənilər heç vaxt başqa xalqlarla dostluq qura bilməyiblər. Ona görə də onlar bizim albanlarla dostluğumuza paxıllıq edirlər.

- Mən belə başa düşdüm ki, azərbaycanlıların və albanların birgə ixtirası olan dolma, Azərbaycan xalqının multimədəni və tolerant mahiyyətindən xəbər verir.

- Elədir. Siz tamamilə düzgün buyurursunuz.

- Telefon xəttimizdə daha bir dinləyici var. Salam!

- Salam, mənim adım Samirdir. Mən həmişə sizin verilişinizə baxıram və soruşmaq istəyirəm: necə olur ki, bu ermənilər illərdir hamını aldada bilirlər? Dolma haqqında həqiqəti dünyaya necə çatdırmalıyıq? Və siz özünüz, Ermənistana getdiyinizə görə xəcalət çəkirsinizmi?

- Sual sizədir, Zaur bəy. Ümumiyyətlə, bizim sülhpərvər bölgəyə cəmi 200 il əvvəl gəlmiş bu xalq necə olur ki, bütün dünyanı barmağına dolaya bilir?

- Bizim əlimizdə ermənilərin oğurluğuna dair təkzibedilməz faktlar var və biz dünya ictimaiyyəti qarşısında ermənilərin iç üzünü ifşa etməliyik.

- Bəs niyə biz bunu etmirik?

- Çünki diasporamız zəif işləyir. Biz də ermənilər kimi mütəşəkkil işləyə bilsək, əks təbliğat işində uğur əldə edə bilərik. O ki, qaldı xəcalət çəkib çəkməməyimə... Əlbəttə bu mənim tərəfimdən edilmiş böyük səhv idi. İşğalçının torpağına ayaq basmaq əsl tərbiyəsizlikdir. Bilirsinizmi, əslində mən Ermənistana onları ifşa etmək üçün getmişdim. Burada danışdıqlarımı orada da danışırdım. Erməniləri məcbur etdim ki, dolmanın, tarın, kamançanın, balabanın Azərbaycana mənsub olduğunu etiraf etsinlər.

- Doğrudan da onlar bu həqiqətləri etiraf etdilərmi?

- Əlbəttə etdilər. Bəs mən üç gün orada nə ilə məşğul olurdum? Əslində dolmanı təkcə ermənilər yox, yunanlar da mənimsəyiblər.

- Deməli, biz dolmamızın yunanlar tərəfindən oğurlandığı faktını da dünyaya isbat etməliyik?

- Əlbəttə! Ermənilərlə yunanları müttəfiq edən də məhz dolma oğurluğudur. Onları bu fakt birləşdirir, yaxınlaşdırır, qardaşlaşdırır.

- Amma... bəlkə biz də ermənilərdən nümunə götürərək öz müttəfiqlərimizə, yəni digər türk xalqlarına müraciət edib, dəstək istəyək? "Dolma" sözü türk feli olan "doldurmaq"dan yaranmışdır və mənası içinə yerləşdirib bükmək deməkdir. Bu danılmaz faktdır və biz də dəstək üçün türk dünyasına - Qazaxıstan, Türkmənistan, Qırğızıstan kimi ölkələrə müraciət edə bilərik.

- Bəli, biz türk qardaşlarımızla iş aparmalıyıq. Hətta mən bu arealı bir az da genişləndirərək bu siyahıya uyğur türklərini, tatarları, kalmıkları da daxil edərdim.

- Hm... Bəs olmazmı ki, biz dolmanı ümumtürk yeməyi elan edək? Bununla da nəhəng erməni lobbisinə qarşı əlimizdə güclü bir silah olar.

- Nə danışırsınız!? Bu mümkün deyil. Dolma məhz qədim Azərbaycan xörəyidir! Sadəcə olaraq türk qardaşlarımız bunu təsdiq etməli və dolmanın bizə mənsubluğunu dünyada təbliğ etməlidirlər. Azərbaycan günü-gündən hərbi büdcəsini, potensialını gücləndirir. Vaxt Azərbaycanın xeyrinə işləyir və biz ildən-ilə ermənilər üzərində üstünlüyə nail oluruq. Bütün bunlar Qarabağ münaqişəsinin ədalətli həllinə və dolmanın Azərbaycan xörəyi kimi dünyada tanınmasına ümidlərimizi artırır.

- Hörmətli tamaşaçılarımız, bu pozitiv notda verilişimizi bitirməyi təklif edirəm və studiyamıza gəldiyinə görə, qonağımıza bir daha təşəkkür edirəm...

- Mən də sizə təşəkkür edirəm.

- Bu günkü "Azərbaycan həqiqətləri" verilişi də beləcə sona yetdi. Növbəti verilişimiz qədim Azərbaycan diyarı, hal-hazırda İranın, fars şovenizminin işğalı altında olan Təbrizə, daha doğrusu Təbriz xalçasına həsr olunacaq. Qaçırmayın! Efirdə yeni görüşlərədək!

## 2

İlıq küləkli sentyabr axşamı onu Eçmiədzin kilsəsinin qarşısına hansı gözəgörünməz qüvvənin gətirdiyini; ayaqlarının, yoxsa başınınmı hökmü ilə bura gəldiyini Artuş bilmirdi. Hər halda işdən çıxandan sonra Eçmiədzin avtobusuna mindiyində nə etdiyini, hara getdiyini düşünməmişdi. Pəncərədən yol boyu düzülmüş Kazinolar görünəndə, şəhər mərkəzindən sürətlə uzaqlaşıb Zvartnots hava limanı istiqamətində şütüyəndə də ayılmamış, hara və nə üçün getdiyi barədə özünə sual verməmişdi.

Çatlaq daş pilləkənlərlə kilsənin qapısına qalxdıqca sərin havaya rəğmən əllərinin tərlədiyini hiss etmişdi. Qədimlik və ermənilik qoxuyan kilsədə bir dəstə qadın ağlaşa-ağlaşa şam yandırırdılar. Səsləri kilsəni başına götürmüşdü. Haradansa pəsdən oxunan qəmgin xor səsi eşidilirdi. İki boz göyərçin kilsənin günbəzi altında qanad çırpırdılar. Qopan lələkləri nazla aşağı süzülürdü. Hərbi formalı cavan oğlan məbədin mərkəzindəki kürsünün qarşısında diz çöküb, üz qabığı qızıldan İncili öpürdü.

Artuş nəhəng xaçın asıldığı tağın qabağına gəldi, əllərini bürüncdən düzəldilmiş soyuq məhəccərə qoyub başını əydi, ürəyi ilə kilsədəki mənəvi atmosferi duymağa çalışdı. İsa yuxarıdan etinasızlıqla kilsədə baş verənlərə tamaşa edir, darıxırdı.

Gözlərini yumdu və Zaurun siması dayandı qarşısında – bu obraz elə canlı və parlaq idi ki, Artuş əllərini uzadıb ona toxunmaq istədi. Zaur onun iki addımlığında dayanmışdı. Üzündən üsyanın, ağrının, ümidsizliyin izləri oxunurdu. Artuş çox böyük bir qəbahətə yol verdiyini, bağışlanmaz günah işlədiyini başa düşürdü. Bu gün səhər Zaurun məktubunu almış, Bakıda onun başına gələnləri, zorla efirə çıxardılıb danışdırıldığını bu məktubdan öyrənmişdi. Ona əziz insan Bakıda olmazın işgəncələrə məruz qalmış, şəxsiyyəti tapdalanmışdı. O isə, xüsusi xidmət orqanlarından çəkinib Zaurla Yerevanda görüşməmiş, özünü əsl qorxaq və eqoist kimi aparmışdı. Bunları düşündükcə özünə nifrəti artırdı. Göz yaşlarına azadlıq verdi. Lakin bu da ona kömək olmadı. Əksinə, ağladıqca ürəyinin ağrısı, dərd yükü və özünə nifrəti qar topası tək böyüyürdü.

Göz qapaqlarını çətinliklə araladığında, keşişin solğun, gülümsər üzü ilə qarşılaşdı. Onun siması sanki daxili bir nurla işıqlanmışdı – bu üz adi adamın üzünə oxşamırdı. Elə bil orta əsr rəssamlarının yaratdığı müqəddəs obrazı idi. Ağarmaqda olan saqqalı, qəribə də olsa ona bir az uşaq saflığı qatırdı. Artuşun ürəyinə qorxu düşdü. Bədəni gizildədi. Gözlərindən yaşlar ikinci dəfə axmağa hazır olsa da, özünü zorla saxladı. Baxışlarını keşişdən ayıra bilmir, onun dərin gözlərində batıb gedirdi. Keşiş əlini Artuşa uzadaraq, mülayim təbiətinə yaraşmayan soyuq tərzdə dedi:

- Sınıq qəlblər Tanrıya məqbuldur. Günaha olan münasibətlərini dəyişən insanlar Tanrıya məqbuldur. İsa vergiyığan adam haqqında dedi: "Bu şəxs evinə təmizlənərək getdi". İncildən də məlumdur ki, məhz təkəbbür Lütsiferin həlakına səbəb oldu. İnsan özünü daima Tanrının köməyinə möhtac, günahkar bəndə hesab etməlidir. Görürəm ki, vəziyyətin ağırdır. Lakin yaxşı ki, özündə güc və cəsarət tapıb bura gəlmisən.

- ?!

- Nədi? Yoxsa yanılıram? Ver əlini mənə.

Artuş qərarsızca əlini keşişə uzatdı. Onun əli səsindən fərqli olaraq ilıq və yumşaq idi. Keşiş Artuşun əlindən tutub, onu sol tərəfə apardı. Şam yandırıb ağlaşan qadınlara görünmədən, dar dəhlizə daxil oldular və dəhlizin sonundakı beş-altı kvadrat metrlik alaqaranlıq otağa keçdilər. Bu otaqda üstü kitablarla dolu kiçik yuvarlaq masadan, sanki onlar üçün xüsusi qoyulmuş iki alçaq kreslodan və divardan asılmış solğun ikonadan başqa heç nə yox idi.

- Otur oğlum – deyən keşiş birinci özü əyləşdi və əli ilə masanın sağındakı kresloya işarə elədi. Hələ də tərəddüd keçirən Artuş otağın soyuq divarlarına ürkək-ürkək baxaraq oturdu, əllərini dizlərinə qoydu.

- Adın nədir oğlum?

- Artuş.
- Mənim isə Mesrop. Nə iş görürsən?
- Jurnalistəm. “Aykakan Jamanak” qəzetində müxbirəm.
- Lap yaxşı. Səni dinləyirəm Artuş oğlum. Tanrının dərgahında heç kimdən çəkinmədən, heç nədən qorxmadan ürəyini aça bilərsən. Burada qorxu insandan uzaq olar. Qəlblər rahatlıq tapar.
Kilsəyə nə üçün gəldiyini bilməyən, qarşısına heç bir konkret məqsəd qoymayan Artuş, indi düşdüyü vəziyyətin fövqəl qüvvə tərəfindən ssenariləşdirildiyini anlamağa başlayırdı. Artıq susmağın, nazlanmağın mənası qalmamışdı. Hər şeyi açıq danışmaqdan, ürəyini tanımadığı lakin daxilən güvəndiyi bu nurani keşişə açmaqdan başqa çarə görünmürdü. Dərindən köks ötürüb bir nəfəsə dedi:
- Mən qeyri ənənəvi seksual orientasiyaya malik adamam. Yəni sadə dillə desək - geyəm.
- Tanrı səni bağışlasın.
Keşiş bu sözü elə cəld demişdi ki, Artuş istər-istəməz duruxdu. Başını qaldırıb keşişlə göz-gözə gəldi.
- Sizcə buna ehtiyacım var?
- Səncə ehtiyacın yoxdu? – Keşiş, sanki bu sualın cavabının mənfi ola biləcəyindən özü də şübhə edirmiş kimi ehtiyatla baxırdı.
- Yəni mən günahkaram? Kişi üçün kişini sevmək belə böyük günahdır? Axı nə üçün?
- Bəs sən kilsəyə niyə gəlmisən?
- Bilmirəm.
- Mən bilirəm. Səni bura Tanrı gətirib. Tanrını hiss edirsən?
- Hardasa hiss edirəm... Məni bura gətirən böyük qüvvədir.
- O elə Tanrının özüdür. Hələ ki, gec deyil sən və sevdiyin kişi tövbə etməlisiniz.
- Bu mümkün deyil.
Elə bil bu cavab, keşişin həyatı boyu eşitdiyi ən ağlasığmaz söz olmuşdu. Təəccüblə soruşdu:
- Niyə?
- Mən günahkar olduğumu düşünmürəm. Sevgilim isə ateistdir. Ümumiyyətlə o... azərbaycanlıdır.
Mesrop son məlumatı daha rahat həzm etdi. Ən azından “azərbaycanlı” sözünü eşidəndə sifəti əyilmədi, dəhşətdən gözləri bərəlmədi. Sadəcə başını bulamaqla kifayətləndi və dedi:
- Milli mənsubiyyətindən və əqidəsindən asılı olmayaraq hər kəs Tanrı bəndəsidir və tövbəyə möhtacdır. Mən sənin günahlarını bağışlayıb, onları öz üzərimə götürməyə hazıram.
- Öz üzərinizə?
- Bəli, günahlarını öz üzərimə götürəcəyəm və sənin üçün dua edəcəyəm – o, bu sözləri deyib sağ əlini uzadaraq Artuşun başına qoydu və gözlərini yumub nəsə pıçıldamağa başladı. Alnında tər damcıları puçurlanmışdı, Artuşun başına qoyduğu əli titrəyirdi.
Mesrop duasını bitirib əlini çəkdi.
- Tanrı sizin hər ikinizi də bağışlasın oğlum... Sən bu yola necə düşdün?
- Hansı yola? – Artuş barmaqlarını oynada-oynada soruşdu.
- Nəyi nəzərdə tutduğumu bilirsən. Necə oldu ki, homoseksual oldun?
- İnanın, bu barədə heç düşünməmişəm... Elə bil doğulandan beləyəm. Özümü dərk edən andan, öz cinsimə meyl salmışam. Və... sizdən fərqli olaraq homoseksuallığın günah olduğuna inanmıram.
- İnanmırsan yoxsa sənə belə sərf edir deyə, özünü buna inandırmısan?
- Xeyr, inanmıram. Kilsəyə da tövbə üçün gəlməmişəm. Heç özüm də bilmirəm nə üçün gəlmişəm...
Mesrop qollarını sinəsində birləşdirərək ciddi görkəm aldı:
- Elə bilirsən mən bu barədə düşünməmişəm? Homoseksuallığın günahmı, yoxsa fizioloji qaçılmazlıqmı olması məni də illərdir narahat edən məsələdir. Səndən fərqli olaraq mavilərin əksəriyyəti günahkar, ya da xəstə olduqlarını qəbul edirlər. Bununla barışıblar. Elələri də var ki, özlərini müqəddəs, seçilmiş insan sayırlar. Sən bu kateqoriyaya aidsən?
Artuş qollarını aralayaraq gülümsədi:
- Xeyr, xeyr. Siz nə danışırsınız? Nə seçilmişliyə, nə də ki, müqəddəsliyə iddiam yoxdur.
Mesrop göz qapaqlarını endirərək müdrikliklə gülümsədi. Dodaqları uzun müddət təbəssüm ifadəsini qorudu. Sonra gözlərini qəfil açıb yenə ciddiləşdi.
- Dini doqmatikanın diqtə etdiyi postulatlardan fərqli olaraq, mənim bu barədə öz mülahizələrim var. Sən bura yalnız öz ürəyini açmağa gəlməmisən, bəlkə də mənim ürəyimin açılmasına kömək etmək üçün göndərilmisən.
Artuş heyrətlə Mesropa baxırdı. Keşişin dedikləri ona tam olaraq çatmırdı.
- Necə yəni göndərilmişəm? Siz ürəyinizi kimə açacaqsınız?
- Sənə. Niyə elə baxırsan? Ola bilməz? Sən də bir Tanrı bəndəsisən. Məndən nə fərqin var axı? Sənin kimi insanlar yüzillər boyu təqib olunaraq, zülmə məruz qalaraq homofoblar əleyhində güclü müqavimət mexanizmi

yaradıblar. Geylər kompleks keçirmək əvəzinə, özlərinə bəraət qazandırmağın yollarını axtarıblar. Özlərini seçilmiş və müqəddəs sayan maviləri buna görə yada saldım. Utanma və qorxu hissi, hər bir insanı xarici təsirlərdən, düşmənlərdən özünümüdafiəyə sövq edir. İnsan özünü təsdiq etmənin dərdindədir. Onun bircə axtarışı var – özünütəsdiq. Bədənlərimiz yalnız fiziki tələblərə istiqamətlənib. Ruhlarımız isə saf məhəbbətin, diqqətin, qayğının, nəvazişin, nəzakətin axtarışındadır. Homoseksuallar bir qayda olaraq həmcinslərinin bədəninə sahib olmağı arzulayırlar. Fiziki tələbatlarını ödəmək üçün ovlanırlar. Ruhun istək və tələbləri isə ya tamam nəzərdən qaçırılır, ya da ikinci plana atılır. Bir yandan da onlar ictimai qınaq obyektinə çevrilir, onlardan oğlanları yox, qızları sevmək tələb olunur. Bu tələbin özündə belə riyakarlıq var əslində. Amma riyakarlıqdan siz də sığortalanmamısınız. Məsələn, sən həqiqətən sevirsən yoxsa, fikrin-zikrin cismani ehtiyaclarını ödəməkdir?

Artuş başını bulaya-bulaya Mesropu dinləyirdi. Keşiş cümləsini bitirən kimi dərhal etiraz etdi:

- Mən həqiqi sevgidən, məhəbbətdən danışıram. Biz bir-birimizi sevirik!

- Homoseksual sevginin təməli erosdur. O həm də tənhalığın, zövqün bünövrəsidir.

- Xristian təliminin sizə diqtə etdiyi normalardan başqa, siz heç bir alternativ fikrə yiyələnə bilməzsiniz. Kilsə bunu qadağan edir. Halbuki siz hal-hazırda liberal keşiş, tolerantlı insan obrazı yaratmağa çalışırsınız.

- Düzdür, bizim təlimimiz qeyri-ənənəvi cinsi əlaqəni pisləyir. Amma mənim bu barədə öz fikirlərim var. Sən nahaq mənim haqqımda belə düşünürsən. Nədir axı homoseksuallıq? Biz hamımız bilirik ki, sevgi hissi cənnətdən gəlib. Sevgi - cənnət həzzləri ilə bağlı hamımızın malik olduğu genetik koddur. Baunti şokoladının reklamlarında olduğu kimi. Adəm və Həvva cənnətdə çılpaq olublar. Məhz çılpaq olanda, insan cənnətdə bütün həzləri dadmış, məhəbbəti, sevgini doya-doya yaşamış, hədsiz azadlığa malik olmuşdu.

- Amma onlar sevişmirdilər – Artuş inamsız dedi.

- Hardan bilirsən oğlum? Onların yanında idin?

- Axı onlar yasaq meyvəni dadınca çılpaqlıqlarından utandılar. Sonra da cənnətdən qovulub uşaq yaratdılar.

- İntimliyə meyl bizim öz sərhədlərimizi aşmağımız kimi qiymətləndirilir. Belə düşünmək ən böyük cinayətdir! İnsanlar bir-birlərini istəməsəydi, arzulamasaydı həyat nə qədər də mexaniki, monoton, darıxdırıcı olardı! Başqalarına qarşı duyduğumuz maraq, sevgi bizi onlara özümüzü açmağa, cazibəli görünməyə sövq edir. Beləliklə biz bir-birimizi tanıyırıq. Tanrı insanı özünə bənzər şəkildə yaradıb. Əvvəl kişini yaradıb və ona qadın keyfiyyətlərini bəxş edib. Həvvanı yaradan da məhz kişinin daxilindəki femin hisslərdir.

- Demək istəyirsiniz ki, Tanrı özü də kişidir?

- İsa kişidirsə, deməli Tanrı da kişidir və kişilərin kişilərə meyl salması, ilk insanın cənnətdə yaşadığı gözəl anları genetik yaddaşı ilə yenidən arzulamasıdır. Tanrı ilə ünsiyyətini bu genetik kodla yada salır insan. Yalnız Tanrı ilə ünsiyyət zamanı, insan cənnətdə həzzin ən yüksək zirvəsinə çata bilmişdi. Lakin ilk günahını işləyəndən sonra, insana heyvani hisslər də açıldı. İnsanlar, yəni Adəm və Həvva qadağan meyvəni yeyərək, Tanrıya üsyan etdilər, bilik və təcrübə qazandılar. Onlar şərin elminə yiyələndilər. Arzu və hisslər onların iradəsi xaricində təzahür etməyə başladı. Məhz bundan sonra onlar ram edə bilmədikləri hisslərindən, meyllərindən utanmağa başladılar. İnsan da qorunmazlıq və qorxu hissinə bax beləcə qapıldı.

Artuşa elə gəlirdi ki, keşiş onun gözlərindən ürəyinə girərək, onun qəlbini oxuyur, eqzistensiyasını dağıdaraq, onu freydist təhlildən keçirirdi. Gümüşü rəngdə bir titrəmə düşdü canına. Əlləri ilə yanaqlarının hərarətini yoxlayaraq, təzədən əllərini dizləri üstə qoydu. Mesrop davam edirdi:

- Ən saf, təmiz məhəbbət Tanrıya qarşı duyulan məhəbbətdir. İsa Məsihi sevmək lazımdır, çünki o hər bir insanı - günahları nə olursa olsun - sevir. Bir insanı dəlicəsinə sevmək, Tanrını onda təcəssüm etdirməkdir. Sən Tanrı uğrunda malını, canını fəda etməyə hazır olandan sonra, homoseksuallıq, heteroseksuallıq kimi anlayışlar da ikinci plana keçəcək, əhəmiyyətini itirəcək. Bunların hamısı təfərrüata çevriləcək.

Artuş gözlərini qıyıb, şübhə ilə Mesropa baxırdı. Soruşdu:

- Demək istəyirsiniz ki, Tanrıya möhkəm inam olarsa, qeyri-ənənəvi cinsi orientasiyaya da malik olmaq olar?

- Əslinə qalsa, hər birimizin həyatında başlıca dilemma İncilin qoyduğu sadə sualdır: "Meyvənin dadına baxım, ya baxmayım?" Cazibə güclüdür... o ki, ola susuzluqdan yanan bir yolçu üçün... Amma dadına baxmamaq – dərk etməmək deməkdir. Maraqlıdır, görəsən qadağan edilmiş almanın dadına baxan Adəmlə Həvva hansı hissləri keçirmişdilər? Xəcalət hissini? Doğrudanmı bu belə idi?

Artuş sualın onamı ünvanlandığını, yoxsa Mesropun özünün cavab verməsi üçün elə beləmi qoyulduğunu bilmirdi. Cavabın intizarında keşişə baxırdı. Mesrop da gözlərini ayırmırdı Artuşdan. Nəhayət Artuş çiyinlərini çəkib dilləndi:

- Siz bu suala mənim cavab verməyimi istəyirsiniz?

- Verə bilərsən?

- Yox... Verə bilmərəm.

- Onda sualı belə qoyum: sən nə üçün qadınlara meylli deyilsən?

Artuş gözlərini döşəməyə zilləyib duruxdu. Bu suala da konkret cavabının olmaması onu çıxılmaz vəziyyətə salırdı. "Bir az fikirləşməliyəm" düşündü. Mesrop tələsənə oxşamırdı, nə qədər lazımdırsa o qədər Artuşu gözləməyə hazırdı. Artuş da cavabını çox gözlətmədi, fikirlərini ekspromt qaydada daha rahat ifadə edə biləcəyinə qərar verdi.

- Mən qadının natamam və iyrənc məxluq olduğunu düşünürəm. Onu seksual obyekt kimi görə bilmərəm, bu mənə ağır gəlir. Qadınla yatıb, səhər böyük bir məsuliyyət hissi ilə oyanmaqdansa, bir kişini sevib hər baxımdan azad olmaq daha sərfəlidir. İllər boyu özümlə, öz üsyankar vücudumla, orqanizmimlə mübarizə aparmışam. İllər boyu əziyyət çəkmişəm. Vücudum söz dinləməyib, üsyan ardınca üsyan edib. Mən bu ardı arxası kəsilməyən üsyanlardan yorğun düşmüşəm müqəddəs ata. Mənim çılğın mənliyimə söz keçirəcək taqətim qalmayıb. Bu məndən asılı deyil. Qadın istər vaginası, istərsə klitoru, istərsə də döşləri ilə məndə ikrah oyadır. Qadınlara bir-iki dəfə yaxınlaşmağa cəhd etdim - cinsi orqanlarından ürəkbulandıran qoxu gəlirdi. Anlaşılmaz, xaotik vaginadan həm iyrənir, həm də qorxuram. Mən onun həyat verici bir orqan olduğunu bilirəm, bunu danmıram, amma ona qarşı məndə zərrə qədər maraq yoxdur. Mən qadını əldə etmək üçün kişilərin sərf etdiyi enerjini hədər və puç sayıram. Qadın nazı ilə oynanılan, hər şıltaqlığına dözülən zəkasız, mənasız, axmaq bir varlıqdır.

Mesrop dodağının ucunda istehzalı gülümsəmə ilə Artuşa qulaq asır, zaman-zaman başını bulayırdı. Artuş son cümləsini tamamladıqdan sonra, keşiş dedi:

- Qadının həyat verici qüvvə olması fikri ilə razı deyiləm. Həyat verici qüvvə - kişi ilə qadının vəhdətidir. Ayrı ayrılıqda onların heç biri yeni insana həyat vemrəyə qadir deyillər. Axı biz hamımız kişi və yaxud qadın olaraq dünyaya gəlirik. Bu da o deməkdir ki, bizim varlığımız əvvəlcədən kamil deyil, parça-parçadır, yarımçıqdır. Biz – qadınlar və kişilər – cinsimizə xas olan şüurla, bizi əhatə edən aləmlə ünsiyyətimizi naqis formatda qururuq. Cinsiyyət fərqi sadəcə bədən və fiziologiya xarakteristikaları ilə məhdud deyil. Dünyanı başa düşməkdə müraciət etdiyimiz moduslar arasında da prinsipial fərqlər mövcuddur. Bu moduslardan birinin zəruri olaraq dominanta çevrilməsi, dünyanın anlaşılmasında təhriflərə gətirib çıxarır. Ətrafımızdakı gerçəkliyin natamam, naqis-dualistik görkəmdə qarşımızda durması ilə nəticələnir.

Odur ki, bəzən qadınlar öz varlıqları ilə sənin kimilərin yaranmasını şərtləndirir. Ermənistan başdan ayağa latent homoseksuallarla doludur, amma onlar qorxurlar, üzə çıxa bilmirlər. Özlərini təmin, realizə edə bilməyən potensial homoseksuallar homofoblara çevrilirlər, özlərinə nifrət etməyə başlayırlar.

Artuş keşişin sözünü kəsdi:

- Mən onlardan biri olmaq istəmirəm müqəddəs ata. Mən də bu aqibətdən qorxuram.

Mesrop təsdiq mənasında başını yellədi:

- Haqlısan oğlum. Özünə hörmət qoyan adam, heç vaxt özünü inkar etməz. Ermənistanda cinsi azlıqların hüquqları dövlət qanunlarıyla guya məhdudlaşdırılmır. Lakin feodal təfəkkürlü cəmiyyətimizin sizə münasibəti göz qabağındadır. Sadəcə seçimlərinə görə qınaq obyektinə çevrilən, bəzi hallardaysa fiziki və mənəvi alçaldılmalara məruz qalan geylər cəmiyyətdən təcrid olunmuş halda yaşamağa məhkumdurlar. Yenə də Ermənistan unudur ki, cinsi azlıqlara tanınan istənilən hüquq, avtomatik olaraq cinsi çoxluqların daha azad yaşamasına gətirib çıxaracaq. Heç kim istisna edə bilməz ki, daim cəmiyyətin qınağına tuş gələn bu insanlar sabahkı gün cavab zərbəsi kimi hansısa xoşagəlməz addım atmayacaqlar.

Artuş oturduğu yerdə quruyub qalmışdı. Ayaqlarının keyləşdiyini hiss etdi. Ağzını açıb, ağır-ağır nəfəs alırdı. Mesrop, onun heyrətdən mühakimə qabiliyyətini itirdiyini görüb gülümsündü.

- Nədi, gözləmirdin? Elə bilirdin keşiş mütləq homofob olmalıdır?

- !?

- Səni başa düşürəm. Bilirsənmi oğlum, ümumi quruluşa, dəyərlərə və bunları ifadəetmə üsullarına malik olan, cəmiyyətin ümumi mədəniyyət sərhədləri çərçivəsində yaşayan istənilən sosial qrup gec-tez öz subkulturunu formalaşdıracaq. Axır əvvəl, homoseksualları müdafiə edəcək sosial və qanunverici dəstək olmadığı üçün siz öz müdafiə sistemlərinizi yaradacaqsınız. Sizi inkar etməklə Ermənistan cəmiyyəti sizi yox edə bilməz. Düzdür təsadüfi homoseksual əlaqə ilə «həyat tərzi» şəklini almış və şüurlu olaraq qəbul edilmiş homoseksuallıq arasında böyük fərq var. Sən də belə başa düşdüm ki, ikinci kateqoriyaya aidsən.

- Bəli – Artuş udqunaraq dedi.

- Azərbaycanlı sevgilinlə harda tanış olmusan?

- Mən bakılıyam. Orada doğulmuşam. Orta məktəbdə bir oxumuşuq. Bir neçə ay əvvəl isə Tiflisdə bir daha görüşdük.

Mesrop alnını ovuşdurub bir müddət divardakı ikonaya baxdı.

- Mən sizi necə də başa düşürəm oğlum...

- Nə mənada?

- Hər mənada - Mesrop qəfil dönüb Artuşa baxdı. - Məni düz başa düş - səni kilsəmiz yox, mən başa düşürəm. Mənim sadə həyat prinsipim var - mühakimə etmə ki, mühakimə olunmayasan! Cəmiyyətin böyük hissəsi

"İncil"dəki bu hökmü unudaraq, başqalarını ittiham etmək hüququnda olduğuna yaman əmindir. Tədqiqatlar geteroseksual kişilərin daha çox fiziki zorlama və seksual cinayət törətdiklərini sübuta yetirir. Amma yenə də homoseksuallar təhlükəli hesab olunurlar. Mən bu ikili standartı anlaya bilmirəm.

Mesrop susdu. Alnı tərləyən Artuşun saçlarına, burnuna, yanaqlarına diqqətlə baxdı.

- Bəs onunla bir də nə vaxt görüşəcəksən?

- Zaurla?

- Adı Zaurdur?

- Bəli.

- Növbəti dəfə nə vaxt görüşəcəksən onunla?

- Əslində o, bu yaxınlarda Ermənistana da gəlmişdi. Sülhməramlı fəaliyyətlə məşğuldur. Burada görüşə bilmədik, çünki cangüdənləri yanından ayrılmırdılar. Onlar bizim tək qalmağımıza imkan verməyəcəkdilər.

- Ona görə də görüşə bilmədiniz. Başa düşürəm... Onu çox sevirsən?

- Çox, çox... – Artuş köks ötürdü. – Biz hətta... evliyik.

Mesropun üzündə bayaqdan bəri dolaşan etinasız təbəssüm, dodaqlarının qırağında donub qaldı.

- Bunu necə etdiniz?

- Gürcüstanda, bir Hollandalı keşiş nikahımızı qıydı.

Mesrop başını yellədi.

- İndi başa düşdüm... Nə deyə bilərəm?.. Tanrı sizi xoşbəxt eləsin. Bizim kilsəmizdə belə bir nikahın qıyılması mümkün deyil. Hətta məndən bunu istəsəydin də sənə kömək edə bilməzdim. Amma bilmək olmaz. Bəlkə də edərdim... Ən azı Ermənistanda tarixə düşərdim.

Artuş dodaqlarını büzüb Mesropa qulaq asırdı. Bu kilsədə belə bir xeyirxah adama rast gələcəyini təsəvvür belə etməzdi. Bu bir möcüzə idi. Eçmiədzində, Qriqoryan məzhəbinə mənsub olasan, amma homofob olmayasan.

- Bakıdan münaqişə başlayan kimi qaçmısınız?

- Xeyr, bir az gec. 1990-cı ilin əvvəlində.

- Bakını yenə görmək istərdinmi?

Artuş canlandı. Nə üçünsə Poxludərə düşdü yadına.

- Əlbəttə. Amma bu mümkün deyil. Ermənilər üçün ora qapılar bağlıdı.

Mesrop fikrə getdi. Arada-bir Artuşla göz-gözə gəlir, sonra dərhal gözlərini qaçırdaraq nə barədəsə hərarətlə fikirləşir, qərar verməkdə çətinlik çəkirdi. Keçirdiyi tərəddüdlər Artuşa da təsir etdiyindən, gənc hövsələsini itirməyə başladığını hiss etdi. Yamanca siqaret çəkmək istəyirdi, amma nəfəsliyi belə olmayan dam-dar otaqda, özü də kilsədə bunu etməyin mümkün olmadığını düşündü, ona görə də bu barədə keşişə heç müraciət də etmədi. Sonda Mesrop yorğun və mülayim nəzərlərini Artuşa çevirib onun daxilinə nüfuz etmək istərcəsinə gəncin gözlərinə baxdı.

- Sənə kömək də edə bilərəm oğlum.

- Nə barədə?

- Bakıya getməkdə. İstəməzdin?

Artuşun hövsələsizliyi bir anda həyəcan və çaşqınlıqla əvəz olundu.

- Axı bu necə mümkün ola bilər?

- Sentyabrın axırı Bakıda güləş növləri üzrə dünya çempionatı keçiriləcək. Xəbərin var?

- Bəli, bu barədə nəsə eşitmişdim.

- Ermənistan da bu çempionatda təmsil olunacaq. Mən bilən nümayəndə heyətinə hələlik 30 nəfər daxildir. Amma bu siyahıya bir-iki nəfəri də əlavə etmək olar.

Artuş bu bir-iki nəfərdən birinin özü olması təklifi ilə qarşı-qarşıya olduğunu anlamışdı. Yenə də Mesropun dəqiq olaraq nə demək istədiyini başa düşə bilmirdi.

- Mənim güləş çempionatında nə işim ola bilər axı? Bu siyahıya məni nə üçün salmalıdırlar?

- Sən jurnalist deyilsən?

- Elədir.

- Onda nə problem var? Səni jurnalist qismində Bakıya göndərə bilərik.

- Bunu necə edəcəksiniz?

- Güləşçilərdən biri, 96 kilo çəkisində yarışan Arman Geqamyan mənim qardaşım oğludur. Məşqçi ilə də yaxın dostluğum var. Səni bu siyahıya saldıra biləcəyimə inanıram.

Artuş bir yerə baxdı, bir ikonaya, bir Mesropun üzünə.

- Bunu nə üçün edirsiniz?

- Sənə kömək etmək üçün. Daha ciddi səbəb ola bilərmi?

- Bilmirəm nə deyim... Belə bir xeyirxahlığa layiq olmaq üçün... mən nə etmişəm görəsən? – Artuş Mesropun gözlərinə dik baxdı. – Ya da nə etməliyəm?

***

Xeyr, ondan nəsə etmək tələb olunmurdu. "İki sevən ürəyi qovuşdurmağın özü böyük savabdır" deyən Mesrop, Artuşa "ürəyini buz kimi saxlamağı" məsləhət görmüş, Tanrının köməyi ilə hər şeyin yaxşı olacağını vəd etmişdi.

Həqiqətən də, səhərisi özü Artuşa zəng vuraraq qardaşı oğlu, güləşçi Arman Geqamyanın məşqçisi Levon-Melik Şaxnazaryanla görüşdüyünü, ondan cavan bir jurnalistin Bakıya gedəcək olan KİV nümayəndələrinin siyahısına salınması məsələsində köməklik göstərməsini xahiş etdiyini xəbər verdi. Artuşun sevincinin həddi-hüdudu yox idi.

- Sizə necə təşəkkür edəcəyimi bilmirəm müqəddəs ata...

- Təşəkkürə lüzum yoxdu. Levon da bu işdə bir çətinliyin olmadığını dedi mənə. Yaxşı ki, tez tərpənmişik. Çünki siyahı Bakıya göndərilsəydi, ondan sonra ora kimisə əlavə etmək mümkün olmayacaqdı. Amma sən də ehtiyatlı ol. Mən bilən Bakıda sizə istədiyiniz hər adamla rahat görüşüb danışmaq imkanı verilməyəcək. Zaur da, sən də bunu nəzərə almalısınız.

- Mütləq nəzərə alaram müqəddəs ata. Onsuzda onunla görüşməyə o qədər də böyük ümidim yoxdu. Əsas odur ki, Bakını görəcəyəm, onun havasını tənəffüs edəcəyəm.

- Elə demə. Tanrının izni ilə görüşə də bilərsiniz. Hə, yadımdan çıxmamış Armanın nömrəsini də yaz, onunla zəngləş. Sənin nömrəni də Levona vermişəm. Bu gün, sabah səni Olimpiya Komitəsi və Güləş Federasiyasına çağırıb görüşəcəklər.

***

Mesropun qardaşı oğlu, güləşçi Arman Geqoryanla Artuş şəhərin mərkəzində, Abovyan küçəsində yerləşən Smak kafesində görüşməyi qərarlaşdırdılar. İri stəkanda portağal şirəsini böyük iştahla udumlayan orta boylu, bazburtlu, qulaqları sınıq Arman, Artuşu başdan ayağa süzüb ona "əmimi hardan tanıyırsan", "nə üçün Bakıya getmək istəyirsən", "indiyə qədər idmandan yazmısanmı" kimi, ürəksıxıcı suallar verməyə başladı. Artuş onun bütün suallarına təmkinlə cavab verir, güləşçini şübhələndirməmək üçün maksimum səy göstərirdi:

- Qəzetimiz Eçmiədzin barədə bir dəfə geniş reportaj hazırlamışdı. O münasibətlə əminlə tanış olmuşduq...

- Mən Bakıda doğulmuşam, ona görə də bu şəhəri görməyi çox istəyirəm...

- Xeyr idman barədə yazmamışam, indi də idman haqda yazmağa getmirəm. Bakı haqqında təəssüratlarımı qələmə almağı planlaşdırıram...

Artuşun əminliklə verdiyi cavablara diqqətlə qulaq asan Arman, gözlənilmədən içki içməyi təklif etdi.

- Pivə pis getməz indi. Necə bilirsən?

- Olsun... mən də içərdim.

Nahar vaxtı ağzına qədər müştərilərlə dolu olan Smak, saat üçdən sonra xeyli boşaldı. Hərəsi dörd bokal Yerebuni pivəsi içəndən sonra kafedən çıxıb bir az şəhərdə gəzişdilər. Arman Moskva konoteatrının yanındakı DVD mağazasından Almadovarın "Pis tərbiyə" filmini aldı.

- Çoxdandı bu filmə baxmaq istəyirəm.

Artuş gülümsəyib dedi:

- Mən baxmışam. Əla filmdi.

Yerevan səması qara buludlara təslim olmuşdu. Yağış şəhərin üstünə boşalmaq üçün səbrsizlənirdi. Arman gözlərini göy üzündən ayırmadan:

- Mən Banqladeşdə[4] qalıram. Bizə gedək? – soruşdu.

Artuş çiyinlərini çəkdi:

- Mənim üçün fərqi yoxdur. İstəyirsən gedək... Tək qalırsan?

Arman dodaqlarının ucunda incə təbəssüm, Artuşu süzdü.

- Bəli, tək qalıram. – Bir az da fikirləşib əlavə etdi, - Bizi heç kim narahat etməyəcək.

Hələ kafedə, ilk dəfə üz-üzə gələndə, ağızlarını açmamış, kəlmə kəsməmiş bir-birlərinin gözlərindən ürəklərini oxumuşdular. Banqladeşdə, Armanın beşmərtəbəli binada yerləşən iki otaqlı mənzilində yaşanan sevişmə olduqca mexaniki, hətta şərti oldu – heç bir hissdən, emosiyadan, xüsusən də sevgidən əlbəttə ki, söhbət gedə bilməzdi.

Örtüyü əzilmiş çarpayıdan qan-tər içində qalxan Artuş ağır addımlarla vanna otağına yeridi. Yuyunub geri qayıdanda Arman hələ də ereksiya vəziyyətində olan alətini oynadır, boş gözlərlə tavana baxırdı. Onun əzələli, dümdüz qarnı çəhrayı rəng almışdı. Pəncərənin qabağına keçən Artuş siqaret yandırmaq istəyəndə, o, mızıldayaraq:

- Xahiş edirəm otaqda çəkmə - dedi. Balkona çıx.

Artuş sifətini turşutdu:

[4] Banqladeş – Yerevan əhalisinin bu adı verdiyi şəhər mərkəzindən uzaq bir mikrorayon.

- Siz idmançılar çox darıxdırıcı adamlarsınız.
Şalvarını və maykasını əyninə keçirib balkona çıxdı. Banqladeş boz rəngli dumana qərq olmuşdu. Dolan buludlar boşalmaqda çətinlik çəkdiyindən əsəbi və gərgin görünürdülər.
Zauru düşündü. Zərrə qədər vicdan əzabı çəkmirdi, çünki ona xəyanət etdiyinə inanmırdı. O, sadəcə çoxdandır təmin olunmayan fiziki tələbatını ödəmişdi. Ola bilsin Zaur da məcburiyyət qarşısında qalıb, vaxtaşırı kiminləsə görüşürdü. Bu ehtimal Artuşu qısqandırmırdı.
Armanla elə görüşdükləri kimi də ayrıldılar. Bu idmançının yeganə üstün cəhəti qarşısındakı adamı sözsüz başa düşməsi idi. Artuş onu qucaqlayaraq yanağından öpdü:
- Hər şey üçün çox sağ ol.
- Biz bir daha görüşə biləcəyik?
- İnanmıram – Artuş tərəddüdlə dedi. – Bəlkə də görüşdük... amma sevişmək... çətin.
- Başa düşürəm. Daimi görüşdüyün adam var?
- Yox – bu cavabı dərhal, fikirləşmədən vermişdi.
Arman başını yellədi:
- Səninlə eyni əziyyəti çəkirik. Talelərimiz necə də oxşardır... Ən maraqlısı odur ki, güləşçi dostlarımın yarısından çoxu mavidir, amma heç birimiz ürəklərimizi bir-birimizə açmağa cəsarət etmirik. Elə güləş döşəkcəsində bir-birimizi əlləməklə və duş qəbul edərkən acgözlüklə bir-birimizə baxmaqla kifayətlənirik.
Artuş ürəkdən gülüb Armanın saçlarını tumarladı:
- Yox, mən bu qədər də əzab çəkmirəm. Sizin işiniz lap çətindir. Mənim hər gün kişilərlə əl və göz təmasım olsa, sonra da heç nə eləyə bilməsəm ürəyim partlayar.
Evə çatanda saat gecə birə işləyirdi. İnternetə qoşulub MSN-də Zauru taparaq, onunla video bağlantı qurdu. Mərmər kimi soyuq, etinasız sifəti ilə Artuşa quruca salam verən Zaur onun Bakıya gəlmək barədə xəbərini və keşiş Mesrop əhvalatını dinləyəndə də üzündəki ifadə dəyişmədi. Yerevandan qayıdandan sonra dəfələrlə video çatda yazışsalar da, Artuş onun nə qədər soyuduğunu aydın hiss edir, hər dəfə Yerevanda olanlara görə üz istəyir, Zaur isə "olan oldu, bitən bitdi" deyərək mövzunu dəyişdirirdi. İndi də xəbəri alanda "lap yaxşı", "olsun" kimi qısa cavablar verməklə kifayətlənmişdi.
- Səni başa düşürəm Zaur. Hələ də inciksən məndən...
- Gəl bu söhbəti açmayaq.
- Bakıda başına gələnlər məni dərindən sarsıdıb... Özümü günahkar hiss edirəm.
- Sənin heç bir günahın yoxdur, boş-boş danışma. Yerevana getməyimə görə cavab verməli idim. Verdim də.
- Amma indi də məni Bakıya səfər gözləyir və bu səfərdə məni nələrin gözlədiyini bilmirəm. Ola bilsin səninlə heç görüşə bilməyəcəyik, buna imkan olmayacaq.
- Hər şey ola bilər. Bir də gördün görüşə bildik.
- Səncə ermənilərə qarşı nəsə bir təxribat hazırlana bilər?
Zaur qabağındakı boşqabdan balaca sarı almanı götürüb dişlədi.
- İnanmıram. Çünki bu beynəlxalq çempionatdır və hökumət bütün təhlükəsizlik tədbirlərini görüb. Düzdür, Bakıda mübahisələr də gedir. Zarafat deyil - münaqişədən sonra ilk dəfə bu boyda heyətlə ermənilər Bakıya gəlir. Onların başından bir tük əksik olsa, buna görə FILA və beynəlxalq qurumlar Azərbaycana sanksiya tətbiq edilə bilərlər.
- Deməli bizi səhərdən axşama qədər qoruyacaqlar?
- Aeroportdan mehmanxanayadək polis, əsgər düzüləcək yol boyu. Dünən xəbərlərdə baxdım.
Artuş acı-acı gülümsədi.
- Bu halda, hansı idmandan, idman bayramından danışmaq olar?
- Mən hələ Ermənistanın bayrağının qaldırılıb, himninin səsləndirilməsi ehtimalını demirəm. Sizinkilərədən qalib gələn olsa, məhz bu baş verəcək. Bu da Azərbaycan üçün rüsvayçılıq deməkdi. Özü də bütün idmançılarınız gərgin şəraitdə güləşəcəklər. Əgər buna güləş demək olarsa...
- Bu gün onlardan biri ilə tanış oldum. Adı Arman Geqorkyandır. Mesropun qardaşı oğlu.
- Nə deyir? Hazırdı Bakıya gəlməyə?
- Bu barədə bir söz demədi. Amma əminəm ki, həyəcanlıdır – Artuş dedi və gözlərini monitordan ayırıb kameraya baxdı. Bununla, o, Zaura düz gözlərinin içinə baxmaq imkanı yaradırdı.
- Səni nə qədər sevdiyimi bilirsən?
- Bundan şübhəm yoxdu... Sadəcə olaraq yorulmuşam. Biz çıxıb getməliydik guya. Tiflisdə planlar qurmuşduq. Xaricə gedəcəkdik. Ən azı Tiflisdə qalacaqdıq. Bəs nə oldu? Niyə alınmadı?
Artuş gözlərini aşağı saldı, sürüşən qulaqlığını düzəltdi.
- Günah məndədi, bilirəm. Valideynlərimə bunu başa salmaq üçün...
Zaur onun sözünü kəsdi:

- Aydındı. Başqaları üçün yaşamağa davam edirik.
- Başqaları dediyin mənim ailəmdir. Məni də başa düşməlisən.
- Mən səni çox gözəl başa düşürəm. Amma səndən də həmin şeyi tələb edirəm. Səni illər sonra tapdım Artuş və indi görürəm ki, gün keçdikcə bir-birimizdən yenə də ümidsizcə uzaqlaşırıq. Mən Yerevanda səni görə bilmədim, bəlkə Bakıda da görüşə bilməyəcəyik. Sənin orada, mənimsə burada qalmaqda davam etməyimiz ağılsızlıqdı. Bu şəhərlər qovuşduran yox, ayırandır. Bu şəhərlər xoşbəxtlik yox, faciə gətirir. Bu şəhərlərdə sevgi yaşana bilməz, bu məfhuma onlarda yer yoxdu. Yenə də bizi bu şəhərlərdə saxlayan qüvvənin nə olduğunu inan ki, bilmirəm. Valideynlər, vətən, torpaq kimi bəhanələrlə özümüzü aldatmayaq. Buyur, gəl gör Bakını. Gəl və əziz xatirənin öldürücülüyünə şahid ol.

## 3

Sentyabrın 11-i Ermənistan Olimpiya Komitəsinin sədri Qaqik Tsarukyan Bakıya gedəcək olan güləşçi və jurnalistlərlə yanaşı, bir sıra ictimai xadimləri də komitənin konfrans salonunda toplayaraq, çıxış etdi:
- Son 20 ildə bizim heç bir idmançımızın ayağı Bakıya dəyməyib. Güləşçilər Azərbaycan torpağına ayaq basacaq olan birinci idmançılarımızdır. Hamınız çalışmalısınız ki, orada bizim bayrağımız ucalsın, himnimiz səslənsin. Bu elə belə turnir deyil! Olimpiya oyunlarına dəvətnaməni orada qazanacaqsınız. Ciddi döyüş gedəcək. Bütün dünya erməniləri güləşçilərimizin mübarizəsinə tamaşa edəcək. Hər bir idmançı başa düşməlidir ki, döşəkdə, o, öz irqinin, xalqının qeyrətini, namusunu qoruyur. Ona görə də iki qat əzmlə, son nəfəsinizə qədər mübarizə aparmalısınız. Azərbaycan torpağında erməni güləşçinin məğlub olmasını istəməzdim, amma əgər bu baş verərsə, kişi kimi uduzmaq, şərəflə mübarizə aparmaq lazımdır. Hamınıza uğurlar arzulayıram və ümid edirəm siz qayıdanda, biz sizi elliklə hava limanında qarşılayıb, bayram edəcəyik.
Daha sonra kürsüyə çıxan heyət başçısı Razmik Stepanyan Bakıya gedənlər barədə qısa məlumat verdi. Məlum oldu ki, 31 nəfərdən ibarət olan heyətin tərkibində 15 güləşçi var və onlar Tiflisdən Bakıya uçacaqlar. Birinci güləşənlər yunan-roma güləşçiləri olacaq. Razmik Stepanyan da Qagik kimi vətənpərvər notlara köklənmişdi. O, arxayın səslə Bakıda qalib gələcəklərini, Azərbaycan dövlətinin isə erməni heyətinin təhlükəsizliyinə zəmanət verdiyini qeyd etdi.
- Hər şey yaxşı olacaq əzizlərim! Tanrı bizimlədir.
Razmik alqış sədaları altında kürsüdən enib yerinə keçəndə, "Aykakan Jamanak" qəzetinin baş redaktoru əli ilə Artuşun çiyninə toxundu. 50 yaşında, həyat eşqi ilə dolu, özündən razı və canavar kimi cəld Solomon Ter-Avanesyan, hələ də Komitənin "Aykakan Jamanak" qəzetindən nə üçün məhz Artuşu seçdiyini anlaya bilmirdi.
- Gözün aydın, axır ki, öz doğma şəhərini uzun illər sonra bir daha görəcəksən.
Artuş həvəssiz çönüb Solomona baxdı.
- Çox sağ olun.
- Amma maraqlıdı, qəzetin idman icmalçıları qala-qala, nə üçün səni seçiblər?
- Bunu onlardan soruşmaq lazımdı. Yəqin reportajlarımı oxuyub bəyəniblər və istəyirlər ki, öz üslubumda Bakı qeydlərimi yazım.

***

Tiflisdən havalanan təyyarə Bakının Heydər Əliyev havalimanında enəndə hava artıq qurğuşun rəngə boyanmışdı. Xəfif gilavar əsirdi.
31 nəfəri mehmanxanaya aparmaq üçün Olimpiya Komitəsinin göndərdiyi qara şüşəli, Mercedes avtobusunu 12 polis motosikleti və 7 avtomobil müşayiət edəcəkdi. Hind filmlərindəki mənfi personajlara oxşayan bığlı, qarınlı məmur üzündə istehzalı gülüşlə ermənilərin pasportlarını toplayıb getdi. İki MTN əməkdaşı onları çıxışa dəvət etdilər. Küçəyə çıxdıqlarında Artuş burnuna vuran mazut və Bakı bağlarının qoxusundan huşunu itirəcəyini sandı, özünü güclə ayaqda saxladı. Siqaret yandırdı. Ətrafdakı bütün azərbaycanlıların – polis, sərhədçi, gömrük əməkdaşı və mülki geyimli adamların – ermənilərə maraqla baxması, onun canını sıxsa da, indi o doğma şəhərinin sehrinə qapılmışdı.
Arman Geqamyan arxadan ona yaxınlaşıb pıçıldadı:
- Fikir ver, necə baxırlar. Elə bil şəhərə sirk gəlib.
Artuş tüstünü burnundan buraxa-buraxa:
- Elə sirk kimi bir şeydi də.
Arman güldü və əli ilə Artuşun çiyninə yüngülcə vurub dostlarının yanına getdi.

Ermənilər, avtobusu mühasirəyə almış polislərin arasından keçib yerlərinə oturandan sonra, gözlərini pəncərələrə dikdilər. Hələlik bir az aralıdakı avtoparkda sıra ilə düzülmüş yüzlərlə maşından və təlaşla ora-bura qaçan polislərdən başqa heç nə görmək olmurdu. On dəqiqə sonra mülki geyimli iki nəfər əllərində pasportlarla avtobusa daxil oldular. Mənfi personaj gözə dəymirdi. Mülkilərdən biri pasportları heyət başçısı Razmik Stepanyana verdi və səlis rus dilində dedi:

- Zəhmət olmasa bunları sahiblərinə paylayın. Hələlik isə hamıdan mənə diqqətlə qulaq asmağı xahiş edirəm. Sir deyil ki, sizin də, bizim də əsəblərimiz gərgindir. Həyəcan son həddədir. Münaqişədən sonra iki xalqın nümayəndələri ilk dəfə belə iri miqyaslı bir tədbirdə görüşür. Azərbaycan hökuməti bir problem yaşanmaması üçün bütün lazımi tədbirləri görüb.

İndi sizi otelə aparırlar. Dəniz sahilində yerləşən otel, Crescent Beach adlanır. Hər gün avtobus sizi oradan götürüb idman kompleksinə gətirəcək. Bütün ehtiyaclarınız qarşılanacaq. Vaxtı vaxtında yeməklə təmin olunacaqsınız. Əlavə bir ehtiyacınız olsa sizi müşaiyət edən MTN əməkdaşlarına müraciət edə bilərsiniz. Öz başına harasa getmək, dükandan nəsə almaq, MTN əməkdaşlarından başqa kiminləsə kontakt qurmaq qəti qadağandır. Hamılıqla çalışaq ki, bu şəhərdən öz ölkənizə sağ-salamat qayıdasınız.

Ermənistanın Yunan-Roma güləşi yığmasında təmsil olunan Roman Amoyan, Xosrov Melikyan, Arman Adikyan, Arsen Culfalakyan, Denis Frolov, Arman Geqamyan, Yuri Patrikeyev; sərbəst güləşdə isə Vaqan Simonyan, Armen Karapetyan, Jirayr Ovannisyan, Ruslan Kokayev, Vadim Laliyev, Ednar Enokyan, Ruslan Basiyev, məşqçilər Qrant Yenokyan, Levon Culfalakyan və mətbuat nümayəndələri dərin sükut içərisində, diqqətlə mülki geyimli adama qulaq asırdılar.

Artuş profillərini görə bildiyi güləşçilərin üzlərinə bir-bir nəzər yetirərək, nə düşündüklərini, hansı hisslər keçirdiklərini təsəvvür etməyə çalışırdı. Onlar isə sanki nəfəs belə almadan, ağızlarını aralayıb mülki geyimlini dinləyirdilər. Artuşu bir anlıq gülmək tutdu, amma düz başa düşülməməkdən qorxub özünü saxladı. 96 kilo çəkisində çıxış etməli olan amma Ermənistan Güləş Federasiyasının açıqlamasına görə çiynindən zədə aldığı üçün Bakıya gələ bilməyən Şamil Gitinovu yadına saldı. Artuş fikirləşdi ki, etnik tatar və müsəlman olan Şamil, yəqin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyi üçün Erməni komandasının tərkibində Bakıya gəlməyib.

Mülki geyimlilər avtobusdan düşmədilər. Onlar, qabaqdakı iki boş oturacaqda əyləşib, erməni heyəti ilə birgə otelin yolunu tutdular. Motosikletlərin və polis maşınlarının müşayiəti ilə hava limanından ayrılan avtobus mərkəzə doğur sürətlə götürüləndə, Bakını ilk dəfə görən güləşçilər, hətta Sovet dövründə bu şəhərə gəlmiş olan məşqçilər də gözlərini iri açıb yol boyu düzülmüş reklam lövhələrinə, prezidentin portretlərinə, şam ağaclarına, avtomobillərə, yanacaq doldurma məntəqələrinə tamaşa edirdilər. Gördükləri hər bir detal onlara maraqlı, fərqli, qeyri-adi görünürdü. Onlar düşmən dövlətin paytaxtında olmağın verdiyi həyəcanla, hər tərəfdə gedən tikinti işlərindən ötrü havaya qalxan toz buluduna da acgözlüklə baxırdılar. Mülki geyimli adam Əzizbəyov metrosunun yanında tikilən körpünü göstərərək ucadan dedi:

- Şəhərimiz günü-gündən çiçəklənir, abadlaşır. İndi Bakıda çoxsayıda körpülər tikilir. Onların yarısı artıq hazırdır və şəhər sakinlərinin istifadəsinə verilmişdir. Şəhərdə gedən quruculuq işləri neftdən əldə olunan gəlirin nə qədər səmərəli istifadə olunduğundan xəbər verir. Biz başa düşürük ki, yol iqtisadi dirçəlişin əsas göstəricisidir.

Avtobus Neftçilər prospektinə çatanda Artuşun ürəyi hoppanıb-düşməyə, dodaqları titrəməyə başladı. Boğazı qurumuş, gözləri yaşla dolmuşdu. Əllərini şüşəyə yapışdırıb gözlərini səkilərdə gəzişən adamlara, bahalı butiklərə, ən əsası isə Bulvara, illərdir görmədiyi Xəzər dənizinə tikmişdi. Dənizkənarı parkdakı yelləncəklərə azmı minmiş, burada valideynləri və sinif yoldaşları ilə azmı dondurma yemişdi? Zaurla məhəccərlərə söykənib azmı baxmışdı, dişlərinin arasından azmı tüpürmüşdü dənizə. Nargin adasının və üfüqün onlara nə qədər uzaq olduğu barədə azmı mübahisə etmişdilər...

Öz dövrünün, uşaqlıq illərinin Bakısı canlandı xəyalında. Artuşun Bakısı gündüzlər sahil boyunca, qədim və yeni küçələrində, prospektlərində insan axını kəsilməyən, gecələri nurlu, işıq dənizinə çevrilən şəhər kimi qalmışdı yadında. Elə bil o köhnə Bakı, işıqlı şəhər ulduzlu göy üzündən nur qayçısıyla kəsilmişdi. İndi o Bakıdan əsər qalmasa da, yenə də öz doğma şəhərində olmağın sevinci onu dilləndirdi - "Bakım mənim!" deyə pıçıldadı canından əziz şəhərinə həsrətlə tamaşa edərək. Bakının onun sevən ürəyinin saf nəğməsi olduğunu dərk etdi yenidən.

Budur, Qız qalası göründü. Dis-diş qala divarları... Küçələri yüz yaşlı bir nənənin mehriban üzü tək qırış-qırış İçəri şəhər... Hər daşında, hər tinində, döngəsində tarixin acı və şirin xatirələri var. İçəri şəhərdə Zaur yaşayır. İçəri şəhərin küçələri ilə Zaur addımlayır.

Avtobus Azneft meydanına çatıb Şıxov çimərliyi istiqamətində getməyə başlayanda, qeyri-ixtiyari olaraq yuxarı sağa, Baksovet metrosuna aparan yola baxdı. Artuşla tez-tez görüşüb uzun-uzadı söhbət elədikləri, bir-birlərinə ən məhrəm sirlərini açdıqları Qubernator bağının hündür, yaraşıqlı ağaclarını gördü.

Nəfəsinin kəsildiyini, özünü ələ almasa hıçqıraraq ağlayacağını hiss elədi. Dişlərini sıxaraq, birtəhər sakitləşdi.

Hava əməllicə qaralıb, yol kənarlarındakı fənərlər yananda, avtobus Bibiheybəti keçmişdi. Uzaqdan Şıxov çimərliyinin uzun zolağı göründü. Bu sahil də Artuş üçün işıqlı xatirələrdən biri idi. Bu sahil də iki sevən ürəyin çırpınışlarına dəfələrlə şahid olmuşdu.

İndi isə, bu sahildə ucaldılan mehmanxana Artuşu bir neçə gün qonaq edərək, pəncərədən də olsa əziz dənizinə doya-doya tamaşa etməsinə fürsət yaradacaqdı.

Avtobus otelin həyətinə daxil olanda, Artuş uzun illərdən bəri ilk dəfə Tanrıya təşəkkür elədi.

**4**

Bakıda keçirilən çempionata 103 ölkənin 850-dən artıq idmançısı qatılsa da, gücləndirilmiş mühafizə tədbirlərinin yalnız erməni güləşçilərinin Bakıya gəlməsilə bağlı olduğunu hamı başa düşürdü. Çempionatın keçirildiyi Heydər Əliyev adına İdman-Konsert Kompleksini mühasirəyə almış Daxili Qoşun qüvvələri və gücləndirilmiş iş rejimində işləyən Bakı polisi əməkdaşlarının yarışları izləməyə gəlmiş vətəndaşlara aramsız basqısı idmansevərləri lap təbdən çıxarmışdı. Bilet alsalar da, zala keçə bilməyən azarkeşlərlə mühafizə xidməti əməkdaşları arasında baş verən toqquşmalar tatami üzərindəki yarışmaları az qala kölgədə qoymuşdu. Zaur, bəxti gətirənlər arasında idi – bir dəqiqəyə yaxın mühafizəçilərlə mübahisə edəndən sonra, axır ki, zala keçə bilmişdi.

Ağzına qədər dolu olan sarayda oturduğu yerdən Artuşu görə bilmək, hətta ermənilər üçün ayrılan xüsusi lojanı müəyyən etmək mümkün görünmürdü. Zaur yanında oturanlara nəzər yetirdi. Görəsən Ermənilərin zalın hansı hissəsində olduqlarını onlardan soruşmağa dəyərdimi? Zaur qısa tərəddüddən sonra heç kimdən, heç nə soruşmamağa qərar verdi və gözlərini aşağıdakı güləş döşəkcələrinə çevirdi. Əgər Artuşla görüşmək, göz-gözə gəlmək qismətdə varsa, onsuz da görüşəcəkdilər. Daha artıq suallar verib, ətrafdakıları şübhələndirmək lazım deyildi.

Güləşə heç vaxt heyran olmamış, bu oyuna maraq duymamışdı. Düzdür, onun fikrincə güləş xeyli homoerotik idman növlərindən idi. Zaur bu idman növünü varlıqdakı əyri strukturlu əlaqələr üçün bir model hesab edirdi. Tərəflərin gücü nə qədər bərabər olsa da, rəqibdə zəif nöqtələri axtarıb tapmadan, rəqibi dolaşdırmadan qalib gəlmək mümkün deyildi. Əllər, ayaqlar, gövdə əyilib-qıvrılıb-burulub nəyinsə arasından, nəyinsə qırağından ya tutmaq üçün, ya çıxmaq üçün, ya da itələmək üçün yollar axtarır. Özü də güləşdə güclü olan idmançının, bu cür əyriliklərə ehtiyacı bir o qədər də az olur. Əgər düz cizgili bir itələyişlə rəqibi yerə sərmək mümkündüsə, əyriliklərə nə gərək var? Ancaq digər tərəfdən, güləşənlərin biri daha güclü olar və əyri strukturların sayı minimuma enərsə, güləş də öz dramatikliyini, baxınaqlığını itirə bilər.

Zaur belə dolaşıq, fəlsəfi fikirlərə daldığı sırada ermənilərdən biri, Roman Amoyan Azərbaycan güləşçisi Rövşən Bayramova məğlub oldu.

Azərbaycanlı güləşçinin və zaldakı azərbaycanlıların qələbə sevincinə tamaşa edən Zaur, nəsnələr dünyasında da vəziyyətin oxşar olduğunu düşündü. Nəsnələr də çox vaxt gücləri bir-birilərinə yaxın olduğu üçün "güləşməyə" məcbur qalırlar. Bir nəsnə başqa bir nəsnəyə yol tapmaq, ilişmək üçün dolayı yollar axtarmalı olur, "qol atır", "qol burur". Güləşin qanunauyğunluğu burada da özünü göstərir: güclü olan, dolayı cizgilərdə, əyri strukturlarda təsir etməyə az ehtiyac duyur, düz cizgi prinsipində öz işini görür. Döşəkcələrdə qıvrılan güləşçilərə gözlərini zilləyib baxan, lakin öz aləmində olan Zaur, bioloji orqanizmlərin çoxunun sümük, oynaq, əzələ strukturları məkan, əlaqə əyriliklərinə yumşaq uyuşmaq üçün formalaşdığını fikirləşirdi. Bioloji orqanizmin dünya qarşısında zəifliyi əyriliklərə yatımlı olan yumşaq maddəni, çevik quruluşu törətdiyi ona get-gedə aydın olurdu.

Freud orqanizmə həzz prinsipi güc gələndə ortaya çoxlu əngəllərin çıxdığını, orqanizmin isə gerçəklik prinsipi xətrinə həzz prinsipindən tez-tez vaz keçdiyini yazırdı. Freud-a görə gözəlliyə vurğunluğun, canatımının kökündə tormozlanmış seksual istəklər durur. Güləş də bir idman növü olduğu qədər, eşqin də metaforası, ən latent ifadəsidir.

Əvvəl güləşçilər bir-birlərinə yumşaqca toxunurlar, bir-birlərini yoxlayırlar, başa düşməyə, kəşf etməyə çalışırlar. Sonra boyunlarından, əllərindən tuturlar, kəllə-kəlləyə gəlirlər, bir-birlərinin isti nəfəslərini tənəffüs edirlər. Ən müxtəlif pozalarda dayanan güləşçilər, dünyanın ən möhtəşəm kompozisiyasını yaradırlar. Ruhla bədəninin sərhəd cizgilərinin bir-birinə qarışdığı, qeyri müəyyənləşdiyi andır o, an. Qədim Yunan filosoflarının öz gənc tələbələri ilə oynadıqları oyunlar qədər zərif və gözəldir güləş.

Yeri gəlmişkən, Yunan və Roma – homoseksuallığı kultivasiya edən iki möhtəşəm, nəhəng mədəniyyətlər olublar. Yunan və Roma güləşi isə, sağlamlıqla həzzin vəhdətini yaradan yeganə idman növüdür. Bu idman növü və eşq - əkiz qardaşlardır. Güləşdə də, eşqdə də zorakılıq və mülayimlik var. Həm güləşçilər, həm də sevgililər bir-birlərinə rəqib olduqları halda, həm də möhtacdırlar.

Latent homoseksuallığın qibləsi olan Cənubi və Şimali Qafqazda güləşin bu qədər rəğbət görməsi, populyar olması təsadüfi deyil. Hətta Şimali Qafqazda, Dağıstanda bütün gənc oğlanlar xüsusi bu işlə məşğul olan həkimlərə üz tutub anesteziya altında qulaqlarını sındırır, "sınıq qulaqlılar" ordusunun igid, mərd əsgərlərinə çevrilirlər.

Erməni əsilli Ukrayna güləşçisi Suren Gevorkyan, Ermənistanlı güləşçi Xosrov Məlikyanı dombaldanda, Zaur dodaqlarını büzdü və şahlanan şeyi görünməsin deyə dizlərinə qoyduğu gödəkcəsini yuxarı çəkib qasığının üstünü örtdü.

Ermənistanlı Xosrov isə, Ukraynanı təmsil edən Surenə biabırcasına məğlub oldu. Təəssüf ki, tamaşaçılar Xosrovu döşəyə sərən Sureni alqışlaya bilmədilər.

Çünki, o da bir erməni idi.

***

Oscar Wilde ona hücum edənlərdən özünü müdafiə edərkən belə demişdi: "Təəssüf ki, mavi sevgi, özünü elan və ifadə edə bilməyən sevgidir".

Əslində bu gün mavilər elə Əflatunun fəlsəfəsinin təməlində yatan məhəbbəti yaşayır və yaşadırlar. Maviliyi Mikelandjelonun əsərlərində, Şekspirin sonetalarında da tapmaq olar. Bu bağlılıq da digər sevgi növləri qədər təmiz, pak və ülvidir. Mavilik zadəgan məhəbbətidir, sevgilərin ən zərifi, ən nazəninidir.

Qoca Qafqazda özlərini ifadə edə bilməyən yüz minlərlə insandan sadəcə ikisi idi Artuş və Zaur. Əsarətdə, qapalı məkanda yaşamağa, iztirablar içində qovurulmağa, şüursuzluğu, simasızlığı və heysiyyətsizliyi həyat düsturu seçənlərin cəmiyyətində vurnuxmağa məcbur olan gənclərin, lal müşahidə ilə ideallarının günü-gündən yıxıldığına tamaşa etməkdən başqa əllərindən nə gəlirdi? Onlar olmaları lazım olan yerdə olmamaqları ilə, bu məşum ədalətsizliklə, bir sözlə uğursuz alın yazıları ilə barışmışdılar.

Onların yeganə "qəbahəti" zərif lakin zəif, güclü fəqət kobud arasında seçim etmiş olmaları idi. İlk günlərdə özləri də nə baş verdiyini anlamamışdılar. Hadisələr elə sürətlə cərəyan etmişdi ki, bir də bir-birlərinin qoynunda olduqlarını fərq etmişdilər. Realist olub, mümkünsüzü istəmiş və buna nail olmuşdular. Cəmiyyətlərinin onların çiyinlərinə yüklədiyi məsuliyyəti çiyinlərindən atmaq yoluna girən gənclərin zəmanəninmi, təbiətinmi qurbanı olduğunu biz deyə bilmərik. Bircə onu bilirik ki, qəlbləri sevgi və sədaqətlə doluydu. Belə doğulub, belə yaşamışdılar. Fərqliydilər və bu "fərq" onlara xəbər vermədən, icazə almadan həyatlarına daxil olmuşdu. Belə isə kimin onları mühakimə etməyə haqqı çatır görəsən?

Amma hərdən onları başa düşən, kömək əlini uzadan vicdanlı adamlara da rast gəlirdilər. Məsələn götürək elə Keşiş Mesropu. Kitab qələmə alınarkən Ermənistandakı həmkarlarım vasitəsilə onunla əlaqə qurub Artuş və Zaurun hekayətini yazdığımı xəbər vermiş, adının bu əsərdə keçməsinə necə baxdığını soruşmuşdum. Əslində buna icazə verəcəyinə dair zərrə qədər ümidim yox idi. Amma bu geniş qəlbli adam, əsl din xadiminə yaraşan hərəkət etmiş və Tanrıdan başqa heç kəsdən qorxmadığını, çəkinmədiyini deyərək, öz adını romanda görməkdən ancaq şad olacağını qətiyyətlə bildirmişdi. "Mən sadəcə olaraq iki sevən gəncə kömək eləmişəm. Əgər bu cinayətdirsə, bu cinayətlərdən gündə əllisini törətməyə hazıram". Bu keşiş Mesropun mənə dediyi son sözlər olmuşdu.

Müsəlman aləmində Mesrop və Klaas kimi ruhanilərə rast gəlmək mümkün olmasa da, Bakıda da Zaura kömək edən, onun Artuşla qovuşması üçün şərait yaradan şəxs və ya şəxslərin tapıldığını etiraf etməliyəm. Heç kəsin həyatını təhlükəyə atmağa haqqım olmadığı üçün, təəssüf ki, mən bu adam ya da adamların adlarını açıqlaya bilmirəm.

...

Çempionatın üçüncü günü Zaur kompleksin sağ tərəfində yerləşən inzibati bölməyə daxil olaraq dar dəhlizdən keçdi, pilləkənlərdən aşağı düşüb sağa buruldu. Bura soyunma və duş otaqlarının yerləşdiyi dəhliz idi. Danışığa görə, əgər kimsə onu görsə vəziyyətdən özü çıxacaq, ona kömək edən, yol göstərən və Artuşu təlimatlandıran şəxsin adını çəkməyəcəkdi. Artuş dəhlizin sonunda, əlində balaca ryukzakla görünəndə, Zaur daş kəsilib dayandı. Həyəcandan ürəyi gup-gup atırdı. Gicgahından tər damlaları süzülməyə başladı. Bir neçə saniyə ikisi də qurumuş vəziyyətdə dayanıb bir-birlərinə baxdılar. Birinci Artuş ayıldı. Əvvəl qərarsız, sonra isə özündən əmin addımlarla Zaura doğru yeridi. Bircə kəlmə kəsmədən və yuxarı mərtəbəyə aparan pilləkənlərə tərəf dönmədən, dəhlizin sol qanadında yerləşən çıxış qapısına yönəldilər. Zaur xeyirxah adamın ona verdiyi açarla qapını açdı və sevgililər küləkli payız axşamına qədəm qoydular.

Yağış başlamış, hətta şiddətlənməyə də vaxt tapmışdı. Hərdən ay bir anlığa qara buludlar arasından çıxanda, yağmurlu gecənin mənzərəsi qorxunc cazibədarlığı ilə bir an görsənir, sonra yox olurdu. Bir az qabaqda əllərində çətirlərlə dayanıb siqaret çəkən iki mülki geyimli adamdan başqa heç kəs gözə dəymirdi. Zaurla Artuş sola dönüb sıx zeytunluqlarla əhatə olunmuş villalara tərəf qaçdılar.

- Biz azadıq, - dedi Zaur xırıltılı səslə. - Villaların böyrü ilə gedib maşın yoluna çıxdıqdan sonra, azadıq.
- Məni bir azdan axtarmağa başlayacaqlar.
- Onlar sənin yoxluğunu fərq edəndə, biz artıq uzaqda olacağıq. Narahat olma.

Zeytunluqlardan keçib ara yola çıxanda, bir az ayaq saxlayıb nəfəslərini dərdilər. Yağış pərdəsinin ardından Daewoo markalı bir taksi göründü. Zaur əlini qaldırıb onu saxladı və hər ikisi özlərini arxa oturacağa atdılar.

- Axşamınız xeyir. Razinə gedirik – qapını bağlayandan sonra Zaur dedi.

Sürücü razılıq əlaməti olaraq başını əydi və qaza basdı.

Zaur Artuşun nəzərlərinin üzündə gəzişdiyini görüb ona tərəf çöndü.

- Nəsə olub?

- Sən indi Razində yaşayırsan?

- Yox, dayımın evinə gedirik – Zaur ağzını Artuşun qulağına yaxınlaşdırıb pıçıldadı. – Dayım üç ildir Ufada yaşayır. Açarları bizim evdə idi. Bu gün onları özümlə götürdüm. Narahat olma, o evə heç kim gəlib-getmir.

Böyük bir parkın yanında yerləşən doqquz mərtəbəli beton binanın dördüncü mərtəbəsindəki iki otaqlı orta təmirli mənzildə, bütün əşyaların üstünü qalın toz qatı basmışdı. Zaur evin ağır havasını dəyişdirmək üçün mətbəx və qonaq otağındakı pəncərələri açdı, evin altındakı marketdən aldığı suları və yarımfabrikatları soyuducuya doldurdu. Tül pərdələri tavana qədər qaldıran sərin yağış havası, maneəsiz olaraq otaqlara doldu.

- Anam əvvəllər tez-tez gəlib buranı təmizləyirdi. İndi vaxt tapmır. Toza görə bağışla...

Zaur cümləsini tamamlamamış Artuş onu belindən qamarlayaraq özünə tərəf çevirdi.

Əvvəl narahat, ürkək sonra da atəşli, dərin öpüşlər. Saçlarında yağmurun qoxusu və nəmi, nəfəslərində ehtirasın hərarəti. Ağrıdan və həzzdən param-parça olan, titrək bədənlərin səssiz fəryadı kainatın sərhədlərini aşaraq insan şüurunun yetişmədiyi, Tanrının olmadığı kosmosüstü məchula yüksəlirdi.

Bakının küçələri çılğın çaya bənzər selə təslim olmuşdu.

***

Səhərə qədər davam edən yağış, Bakının dağlı məhəllələrinin çör-çöpünü, zir-zibilini qabağına qatıb şəhər mərkəzinə axıtmışdı. Artuş pəncərələri titrədən damcıların səsinə oyanıb Zaura baxdı. Sevgilisi sağ ovucunu qalxmış budağının üstünə qoyub, mışıl-mışıl yatırdı. Onun yuxusunu bölməmək üçün barmaq uclarına basaraq mətbəxə keçdi, pəncərədən aramsız yağan yağışa baxdı. Sevimli şəhəri dünəndən bəri sulara qərq olmuş, günəş öz çöhrəsini bir an olsun göstərməmişdi. Hər nə qədər təbiət hadisəsindən ötrü qanını qaraltmasının düzgün olmadığını başa düşsə də, doğma şəhərini belə boz rəngdə görmək ürəyini sıxır, onu əndişələndirirdi.

Həm də bilirdi, bilirdi ki, gec-tez onları yaxalayacaqdılar. Artuşun idman sarayından özbaşına çıxıb getməsində qeyri-qanuni heç nə yox idi. Sadəcə olaraq yaxalanacağı təqdirdə, onu bir neçə gün sorğu-sual edib Ermənistana göndərəcəkdilər. Bəs Zaur? Artuş gözlərini yumaraq başını aşağı endirdi. Dünən istəsəydi Zaura əngəl ola bilərdi. Bəs nə üçün bu avantüraya yox demədi? Sevgisi bu qədərmi kor etmişdi onu?

Gözlərini açıb yerdə köpüklənən gölməçələrə baxdı. İslanmış sərçələr yoğun budaqların altında oturub sərt damcılardan qorunurdular. Başlarına kulyok keçirmiş qadınlar gölməçələrin üstündən atdana-atdana əllərində ərzaqlarla evlərinə tələsirdilər.

Artuş ürəyində "nə olacaqsa olsun" deyib otağa qayıtmaq istəyirdi ki, Zaurun mobil telefonu çaldı.

Yastığına dirsəklənib telefonu qulağına möhkəmcə sıxan Zaur, tez-tez başını yelləyərək zəng vurana qulaq asırdı. Birdən başını qaldırdı, yataq otağının qapısında dayanıb ona baxan Artuşla göz-gözə gəldi. Dodaqlarını büzdü.

- Başa düşürəm... Sağ olun... Çox sağ olun.

Telefonu çarpayının ortasına tullayıb ayağa qalxdı. Artuşa yaxınlaşdı.

- Nəsə olub – Artuş soruşdu. Əlini Zaurun dağılmış saçlarına daldırdı, arxaya doğru tumarladı.

- Səni axtarırlar, başqa nə ola bilər? Aləm dəyib bir-birinə. Hələ mətbuatın xəbəri yoxdur. Qaçmağını böyük bir sirr kimi saxlayırlar. MTN, polis, prokurorluq əməkdaşları tökülüb küçələrə.

Artuş zorakı təbəssümlə:

- Güya tapsalar məni neynəyəcəklər ki? – soruşdu.

- O da düzdür... Zaur qərarsız dedi. – Amma kiminlə qaçdığını, kimin yanında qaldığını öyrənmək üçün sıxışdıracaqlar səni.

- İşgəncə verəcəklər?

- Bilmirəm... Dəqiq heç nə deyə bilmərəm.

- Yaxşı, onda de görüm neynəyəcəyik?

- Nə mənada?

- Daha nə qədər bu evdə oturacağıq?

- İstəyirsən gedək. Yağış da yağır... Heç bilmirəm nə deyim... Çaşıb qalmışam.

Artuş Zauru belindən tutub özünə sarı çəkdi. Qucaqlayıb, başını çiyninə qoydu.

- Narahat olma. Hər şey düzələcək. Həyatımız da, ölümümüz də bizim əlimizdədir. Gedək. Bakını son dəfə doyunca görmək istəyirəm.

Zaur onun başını sığallaya-sığallaya soruşdu:

- Haradan başlayaq?

- İçəri şəhərdən. Oradan başlayaq, orada da bitirək.

***

Alatoran payız axşamı yaxınlaşırdı. Xəzri güclənmiş, buludlar ayın üzünü bürümüşdü. Çəpəki yağış bütün şiddətilə İçəri Şəhərin yastı damlarını, səfirlik binalarını, xarici şirkətlərin nümayəndəliklərini qamçılayırdı. Navalçalardan daşan köpüklü sular döngə və dalanlarda şarıldayır, qəmbərləri bülövləyirdi.

Küçələrin birində taksidən düşərək, üzüaşağı addımlamağa başlayan iki nəfərin qaraltısı göründü. Başları açıqdı, islanmış saçlarını külək qarışdırırdı.

Bir an dayandılar, diqqətlə yan-yörələrinə baxındılar, sonra Artuş başını qaldırdı, yaxın evlərin yastı damlarını gözdən keçirdi. Sanki damlarda gizlənmiş polislərdən ehtiyat edirdi. Zaur onun narahatçılığını görüb pəsdən dedi:

- Bu yağışda bizi çətin ki, axtarsınlar.

Sola buruldular və çox qısa, çox darısqal bir dalanın üstündən asılmış şüşəbəndli balkonun altından keçdilər. Zaurun evi sağdaydı. Sağa dönmədən, yonulmamış daşdan hörülmüş yarıuçuq hasarın yanından ötdülər. Sağ tərəfdə bir az yerə yatmış qədim və kiçik bir məscidin minarəsi göyə ucalırdı. Tini dönüb kiçik meydançada dayandılar. Qız qalası bütün ehtişamı ilə qarşılarında ucalırdı. Qədim tikilinin üstündə qara buludlar qaynaşırdı.

Onlar qədim bazarın üstündəki taxta körpüdən keçərək Qız qalasının qapısına yaxınlaşdılar. İçəri daxil olub, bilet aldılar. Bilet satan yaşlı qadın, bu yağışda Qız qalasına gələn iki gəncə təəccüblə baxdı, amma bir söz demədi. Tələsmədən yuxarı qalxmağa başladılar. Yavaş-yavaş, sanki hər bir daşı əzbərləmək istəyirmiş kimi addımlayırdılar.

Nəhayət Qız qalasının açıq terasına çıxdıqlarında, buranın bomboş olduğunu gördülər. Yağış suları sürətlə daş döşəməyə çırpılıb milyonlarla xırda damcılara parçalanırdı.

Zaur daş məhəccərə yaxınlaşıb üzünü göyə qaldırdı. Sular onun üzündən süzülərək boğazına, oradan da paltarlarının arasından sinəsinə axırdı.

- Bu yaxınlarda oxudum ki, Fransa və İsveçrəli bioloqların rəyincə, insan vücudunda bəzi genlər mutasiaya uğrayanda intihara meyllər güclənir.

Ondan bir addım geridə dayanan Artuş Prezident aparatına baxa-baxa gülümsədi.

- Bu necə baş verir?

Zaur qəfil üzünü ona çevirib dedi:

- Bu mutasiyalar insanın bir çox emosiyalarını idarə edən neyromediator serotonin sinir hüceyrələrini sıradan çıxarır.

- Sən lap həkim imişsən ki, xəbərimiz yoxdu.

Zaur onu sinəsinə sıxıb pıçıldadı:

- Bunlar boş söhbətlərdi. Biz nə etdiyimizi yaxşı bilirik.

Gözlənilmədən hönkür-hönkür ağlamağa başlayan Artuş:

- Bu mənim doğma şəhərimdi! Dosdoğmaca şəhərimdi! – qışqırdı. – Öz şəhərimdə ölmək ən böyük arzum olub həmişə. Mən bu şəhəri sevmişəm, indi də sevirəm. Eşidirsən Zaur?

- Eşidirəm. Sakit ol.

- Bizim başqa çıxış yolumuz yoxdur eləmi?

- Mən tunelin sonunda işıq görmürəm.

- Bəs Qız qalasının yamacında görürsən?

- İstehza edirsən?

- Xeyr, soruşuram.

- Sənin nəyəsə ümidin var bəyəm? Ömrümüzün sonuna qədər qaçmaq, gizlənmək, ehtiyat etmək nə üçün alın yazımız olmalıdır axı? Mən belə yaşamaq istəmirəm Artuş. Bu bizə yaraşan həyat deyil.

Artuş Zaurun qucağından qoparaq üzünə dağılan islaq saçlarını arxaya daradı. Ciddi və qərarlı nəzərlərlə ona baxdı.

- Onda gedək deyirsən?

Zaur cavab vermək yerinə yenə möhkəmcə onu qucaqlayıb dodaqlarına yapışdı. Bu öpüşmənin son öpüşmələri olduğunu bilən gənclər dəqiqələr boyu qopa bilmədilər bir-birlərindən. Sonunda öpüşməni bitirib son dəfə bir-birlərinin gözlərinin içinə baxdılar. Bu baxışlardan bir-birlərinin qəlblərinə nüfuz etdilər. Ürək çırpınışlarını

duydular. Qəlblərinin sancısını gördülər. Yaxşı ki, bir neçə saniyə sonra bütün ağrıları, kədərləri, hətta çırpınışları da bitəcək, əbədi rahatlığa qovuşacaqdılar.

- Vaxtı uzatmaq mənasızdır – Artuş dedi və gülümsədi.

Əl-ələ verib yarım metr yüksəklikdəki məhəccərə qalxdılar. Dəhşətli, ağlasığmaz mənzərə yaranmışdı - hər ikisinin çöhrəsində təbəssüm dolaşırdı. Ölümə gülə-gülə gedirdilər.

Qız qalasının yamacına çırpılan iki bədəni uzaqdan, Ləzgi məscidindən çıxan vəhhabi təriqətinin uzun saqqallı mənsubu gördü. Vəhhabi əvvəl şok keçirdi, sonra sakitləşib yerə tüpürdü, yaşıl çətirini açıb başının üstündə tutdu və öz-özünə pıçıldadı:

- Böyük günah işlədiniz. İntihar etdiniz. Cəhənnəmdə əbədi yanacaqsınız, kafirlər!

Yağış suları iki sevgilinin qanını köpükləndirə-köpükləndirə pilləkənlərdən üzü Neftçilər prospektinə sarı sürükləyirdi.

**Bakı - Tiflis - Yerevan - Berlin - Bakı**
**Oktyabr 2007 – Yanvar 2009**

***

Görəsən Azərbaycan və Ermənistan cəmiyyətləri gənc yaşlarında ölümə addımlayan Artuşla Zaurun faciəsinin təməlində yatan sülhməramlı resursu, dostluq-qardaşlıq potensialını görüb, qiymətləndirə biləcəklərmi? İllərdir iki xalq arasındakı düşmənçiliyi daha da qızışdıran, ucundan tutub ucuzluğa götürən hər iki dövlətin isteblişmenti, siyasətçiləri, iki qonşu xalqın dramına seyirçi qalmaqda davam edəcəklərmi? Bu faciədən dərs, ibrət ala biləcəklərmi? Nə yazıq ki, bu suallara dəqiq cavab vermək iqtidarında deyilik.

Biz sadəcə olaraq bu hekayəti nəql etməklə, borcumuzu yerinə yetirdik. Hər kəs bu məhəbbət əfsanəsini tanış-bilişinə yaymaqla vəzifəlidir. Artuşla Zaurun faciəsi dillərə dastan olmalı, əfsanələşməlidir.

Biz isə öz növbəmizdə bir daha deyirik ki, yaxşı baxın! Diqqətlə baxın! Sizin tarix kitablarınızda bu, qan ilə yazılmış bir səhifədir. Sizdən sonra gələnlər bu kitabı vərəqləyib, bu səhifəni görəndə sizi yada salıb deyəcəklər: tfu sizin üzünüzə!

Tfu sizin üzünüzə!

**Müəllif**